ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# ÜMÜMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ

BAKI – 2023

Metodik vəsait Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi Şurasının 19 oktyabr 2021-ci il tarixli (protokol № 3) qərarı ilə nəşr olunur.

**Elmi redaktoru, ön sözün müəllifi və nəşrə hazırlayan:** **İntiqam Cəbrayılov,**
pedaqogika üzrə elmlər doktoru,
professor

**Rəyçilər:** **Akif Abbasov,**
pedaqogika üzrə elmlər doktoru,
professor

**Piralı Əliyev,**
pedaqogika üzrə elmlər doktoru,
professor

**Ümümtəhsil məktəblərində tərbiyə işinin təşkili. Bakı: “CN POLİGRAFİYA”, 2023, 242 səh.**

Metodik vəsaitdə ümumtəhsil məktəblərində tərbiyənin aktual problemləri əksinin tapmışdır. Burada valideynlərin pedaqoji maarifləndirilməsinin uşaq və yeniyetmələrin tərbiyəsində mühüm vasitə olması, şagirdlərin estetik, vətəndaşlıq tərbiyəsi, sağlam həyat tərzinin formalaşdırılması, İslamda insan amilinə baxış, beynəlxalq təcrübədə əmək və iqtisadi tərbiyə və təbiyənin ümumi məzmun məsələləri verilmişdir.

Vəsait müəllimlər, məktəb rəhbərləri və digər təhsil işçiləri, valideynlər və tərbiyə problemi ilə bağlı araşdırma aparan tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

**©ARTİ, 2023**

**MÜNDƏRƏCAT** Səh.

**Ön söz** 6

**Validenlərin pedaqoji maarifləndirilməsi uşaq və yeniyetmələrin tərbiyəsində mühüm vasitə kimi** *(İntiqam Cəbrayılov, Könül Mikayılova)*........................................................ 8

Giriş.................................................................................... 8

1. Ailə tərbiyəsi pedaqoji prosesin tərkib hissəsi kimi..................... 9

2.Valideynlərin pedaqoji maarifləndirilməsinin uşaq və yeniyetmələrin tərbiyəsinə təsir imkanları............................... 16

3.Milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılmasına valideyn yanaşması.......................................................................... 23

4.Uşaq və yeniyetmələrin sosiallaşmasında valideynlərin rolu ...... 28

5.Uşaq və yeniyetmələrin tərbiyəsində mühüm tərbiyə vasitələri.... 32

Nəticə.................................................................................. 45

**Təlim prosesində şagirdlərə estetik dəyərlərin aşılanması imkanları** *(Vidadi Xəlilov)*............................................................ 48

Giriş.................................................................................... 48

**I Fəsil**. Estetik dəyərlərin şəxsiyyətyönümlü təhsilin inkişafı prosesində mövqeyi və əhəmiyyəti............................................... 51

1.1.Estetik dəyərlər və onların əsas cəhətləri................................ 51

1.2.Estetik dəyərlərin şagirdlərin mənəvi zənginliyinin inkişafına təsiri.................................................................................... 54

**II Fəsil.**Təlim prosesində şagirdlərə estetik dəyərlərin aşılanması imkanları............................................................................ 63

2.1.Bədii-estetik silsilə fənlərin tədrisi prosesində esteik dəyərlərin aşılanması imkanları.................................................. 63

2.2.Təbiət-riyaziyyat fənlərinin tədrisi prosesində estetik dəyərlərin aşılanması imkanları.................................................. 73

Nəticə.................................................................................. 82

**Şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşması** *(Zəhra Muradova)* ....................................................................... 84

Giriş.................................................................................... 84

**I Fəsil.** Şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşması imkanları............................................................................ 85

1.1.Vətəndaş və vətəndaşlıq anlayışlarının mahiyyəti..................... 85
1.2.Pedaqoji prosesdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasının əsas məsələləri............................................ 91
**II Fəsil.**Təlim prosesində vətəndaşlıq tərbiyəsinin formalaşdırılması xüsusiyyətləri.................................................... 99
2.1.Vətəni tanıtmaq şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasında mühüm amil kimi......................................... 99
2.2.Təlim prosesində və sinifdənxaric tədbirlərdə şagirdlərə vətəndaşlıq hissinin aşılanması........................................................ 109
Nəticə........................................................................................ 115

**Şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılması**
*(Mahirə İbadova)*.......................................................................... 116
Giriş............................................................................................ 116
1.Şagirdlərdə sağlam həyat tərzi formalaşdırılmasının mahiyyəti və məzmunu................................................................................ 118
2.Şagirdlərdə sağlam həyat tərzinin formalaşmasına təsir edən sosial amillər .............................................................................. 125
3.Şagirdlərdə asosial hərəkətlərə meyilliyin aradan qaldırılması yolları.......................................................................................... 129
4.Şagirdlərdə sağlam həyat tərzinin formalaşmasında idmanın və incəsənət nümunələrinin rolu........................................................ 132
5.Şagirdlərdə özünüqiymətləndirmə sağlam həyat tərzinin formalaşdırılması vasitəsi kimi..................................................... 138
Nəticə........................................................................................ 140

**Beynəlxalq təcrübədə şagirdlərin əmək və iqtisadi tərbiyəsi işinin məzmununun öyrənilməsi (Rusiya, Ukrayna, Belarus ölkələrinin nümunəsində)** *(Nigar Muradova)*................................ 142
**Beynəlxalq təcrübədə şagirdlərin əmək və iqtisadi tərbiyəsi işinin məzmununun öyrənilməsi (Böyük Britaniya, Fransa, Kanada, ABŞ ölkələrinin nümunəsində)** *(Günay Hüseynzadə)*........ 160
Giriş............................................................................................ 160
**I Fəsil**. Avropa ölkələrində tərbiyə sistemi..................................... 161
1.1.Böyük Britaniyada tərbiyə işinin məzmunu.............................. 161
1.2.Fransada tərbiyə işinin məzmunu............................................. 166
**II Fəsil**. Amerika ölkələrində tərbiyə sistemi.................................. 169
2.1.Kanadada tərbiyə işinin məzmunu........................................... 169
2.2.ABŞ-da tərbiyə işinin məzmunu.............................................. 172

**III Fəsil**. Şagirdlərin tərbiyəsində mühüm tərbiyə vasitələri........... 175
3.1.Əmək tərbiyəsi........................................................................ 177
3.2.İqtisadi tərbiyə........................................................................ 182
Nəticə............................................................................................ 187
**Ümumtəhsil məktəblərində tərbiyə işinin məzmunu**
*(Mətanət Qurbanova)*................................................................. 189
Giriş............................................................................................... 189
**I Fəsil**. Müəllimin şəxsiyyətlərarası münasibətlərdə iştirakı və kollektivdə mövqeyinin formalaşması.............................................. 190
1.1.Müəllimin şəxsi nümunəsində əxlaqi-etik münasibətlərinin, davranış və rəftarının şagirdə təsiri................................................ 190
1.2 Pedaqoji ünsiyyət: tərz və üslub. Müəllim-şagird münasibətlərində düzgün ünsiyyət üslubunun qarşılıqlı təyin edilməsi............................................................................................ 193
1.3 Müəllim-şagird münasibətlərinin psixoloji, pedaqoji əsasları. Müəllim şagird münasibətlərinin formaları və müxtəlif yanaşmalar 198
1.3.1.Müəllim-şagird münasibətlərində avtokratik və avtoritar yanaşma.......................................................................................... 200
1.3.2.Müəllim-şagird münasibətlərində liberal (etinasız) yanaşma.. 201
1.3.3.Müəllim-şagird münasibətlərində qeyri-müəyyən yanaşma... 202
1.3.4. Müəllim-agird münasibətlərində demokratik yanaşma......... 203
**II Fəsil.** Sinif rəhbərinin fəaliyyətində tərbiyə işinin əsas istiqamətləri.................................................................................. 205
2.1.Sinif rəhbərinin müəllimlərlə apardığı işin məzmunu. Fənn müəllimlərinin tərbiyəvi fəaliyyətinin təmin edilməsi..................... 205
2.2.Ayrı-ayrı şagirdləri və sinif kollektivini öyrənməklə şagird kollektivinin təşkili. Fəallarla iş.................................................... 210
2.3.Sinif rəhbəri, müəllimlər və şagirdlər, direktor və onun müavinləri, valideynlərlə işin əlaqələndirilməsi.............................. 214
2.4.Sinifdənxaric tərbiyə işlərinin təşkili......................................... 223
2.5.Valideynlərlə və ictimai təşkilatlarla birgə işin qurulması......... 227
Nəticə............................................................................................ 230

**İstifadə edilmiş ədəbiyyat**............................................................ 231

## Ön söz

Tərbiyə fasiləsiz, mərhələli şəkildə həyata keçirilən, şəxsiyyətin məqsədyönlü, ardıcıl formalaşması və inkişafı prosesidir. Tərbiyənin məqsədi cəmiyyət üçün layiqli vətəndaş-şəxsiyyət yetişdirməkdir. Şəxsiyyətin formalaşması prosesində insanların sözü ilə hərəkəti, şüuru ilə davranışı arasında yaranan məqsədyönlü əlaqə onların həyatda fəal mövqe tutmalarına, ictimai borclarını şüurlu şəkildə dərk etmələrinə xidmət edir.

Tərbiyənin həyata keçirilməsində və təkmilləşdirilməsində tək-tək adamlar deyil, cəmiyyətin bütün üzvləri iştirak etmiş və edirlər. İrqindən, cinsindən, milliyyətindən, yaşından asılı olmayaraq hər bir insanın tərbiyəyə ehtiyacı vardır. Tərbiyə cəmiyyətin bütün üzvlərinə aid olan ümumi bir hadisədir. Tərbiyə tarixi kateqoriyadır.

Təqdim edilən metodik vəsait elmi-pedaqoji tədqiqatların nəticələri əsasında hazırlanmışdır. Burada tərbiyənin bir sıra nəzəri və praktik məsələləri əhatə olunmuşdur. Vəsaitdə "Valideynlərin pedaqoji maarifləndirilməsi uşaq və yeniyetmələrin tərbiyəsində mühüm vasitə kimi", "Təlim prosesində şagirdlərə estetik dəyərlərin aşılanması imkanları", "Şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşması", "Şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılması", "Beynəlxalq təcrübədə şagirdlərin əmək və iqtisadi tərbiyəsi işinin məzmununun öyrənilməsi" və "Ümumtəhsil məktəblərində tərbiyə işinin məzmunu"adlı tədqiqat işləri öz əksini tapmışdır.

"Valideynlərin pedaqoji maarifləndirilməsi uşaq və yeniyetmələrin tərbiyəsində mühüm vasitə kimi" adlı bölmədə ailə tərbiyəsi pedaqoji prosesin tərkib hissəsi kimi əsaslandırılmış, valideynlərin pedaqoji maarifləndirilməsinin uşaq və yeniyetmələrin tərbiyəsinə təsir gücü, milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılması imkanları, uşaq və yeniyetmələrin sosiallaşmasında rolu ilə bağlı tədqiqatın nəticələri verilmişdir.

"Təlim prosesində şagirdlərə estetik dəyərlərin aşılanması imkanları" adlı tədqiqat işinin nəticələrində estetik dəyərlərin əsas cəhətləri, estetik dəyərlərin şagirdlərin mənəvi zənginliyinin inkişafına təsiri,bədii-estetik silsilə fənlərin və təbiyyat-riyaziyyat fənlərinin tədrisi prosesində estetik dəyərlərin aşılanması imkanları öz əksini tapmışdır.

Vəsaitin "Şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşması" adlı bölməsində vətəndaş və vətəndaşlıq anlayışlarının mahiyyəti, pedaqoji prosesdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılması məqsədilə Vətəni tanıtmaq, təlim prosesində və sinifdənxaric tədbirlərdə şagirdlərə vətənpərvərlik hissinin aşılanmasının imkan və yolları tədqiq olunmuşdur.

"Şagirdlərdə sağlam həyat tərzinin formalaşdırılması"adlı bölmədə şagirdlərdə sağlam həyat tərzi formalaşdırılmasının mahiyyəti, məzmunu, sağlam həyat tərzi formalaşdırılması probleminin elmi-pedaqoji və metodik ədəbiyyatda qoyuluşu, sağlam həyat tərzinin formalaşmasina təsir edən sosial amillər, asosial hərəkətlərə meyilliyin aradan qaldırıması yolları, özünüqiymətləndirmənin formalaşması yolları araşdırılmışdır.

"Beynəlxalq təcrübədə şagirdlərin əmək və iqtisadi tərbiyəsi işinin məzmununun öyrənilməsi" adlı bölmədə Rusiya, Ukrayna, Belarus, Böyük Britaniya, Fransa, Kanada, ABŞ kimi dövlətlərin əmək və iqtisadi tərbiyə təcrübəsi öyrənilmişdir.

"Ümumtəhsil məktəblərində tərbiyə işinin məzmunu" adlı bölmədə isə müəllim-şagird münasibətləri, münasibətlər sisteminin kollektivdə şagird mövqeyinin formalaşmasına təsiri, sinif rəhbərinin fəaliyyətində tərbiyə işinin əsas istiqamətləri, sinif rəhbərinin müəllimlərlə apardığı işin məzmunu, fənn müəllimlərinin tərbiyəvi fəaliyyətinin təmin edilməsi, ayrı-ayrı şagirdləri və sinif kollektivini öyrənməklə şagird kollektivinin təşkili, fəallarla iş aparılması, sabiq sinif rəhbəri və müəllimlər, sinif və şagirdlər, direktor və onun müavinləri, valideynlərlə işin əlaqələndirilməsi, sinifdənxaric tərbiyə işlərinin təşkili, valideynlərlə və ictimai təşkilatlarla birgə işin qurulması kimi məsələlər əhatə olunmuşdur.

Ümumiyyətlə, metodik vəsait ümumtəhsil məktəblərində tərbiyə işinin təşkilinə metodik kömək baxımından əhəmiyyətlidir. Metodik vəsaitdən tərbiyə işi ilə məşğul olan mütəxəssislər və tədqiqatçılar da faydalana bilərlər.

# VALİDEYNLƏRİN PEDAQOJİ MAARİFLƏNDİRİLMƏSİ UŞAQ VƏ YENİYETMƏLƏRİN TƏRBİYƏSİNDƏ MÜHÜM VASİTƏ KİMİ

## Giriş

Tərbiyə işinin aktuallığı onun milli və ümumbəşəri maraqları özündə ehtiva etməsidir. Ümumbəşəri maraqlar çərçivəsində hər bir xalq öz milli mentalitetindən, öz soy-kökündən irəli gələn davranışlar nümayiş etdirir. Azərbaycan xalqına məxsus milli tərbiyə metodları adət-ənələrimizdə, prinsipləri isə dövlət sənədlərində, ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasında, təhsil və tərbiyə haqqında rəhbər hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.

Tərbiyə prosesinin aktuallığını Ümumrespublikа Forumunda Ümummilli lider Heydər Əliyevin tarixi nitqi ilə də əsaslandırmaq istərdik:

"Xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır.

Uşaq və yeniyetmələr milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Uşaq və yeniyetmələr bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən yeniyetmə vətənpərvər ola bilməz".

Tərbiyə işində uğurlu nəticələrin əldə edilməsi, tərbiyənin məqsəd və mahiyyətinin düzgün dərk edilməsindən asılıdır. Tərbiyəçi onu nə qədər düzgün dərk edərsə, tərbiyə prosesi bir o qədər yüksək nəticə verər. Tərbiyənin məqsədi insanların sözü ilə hərəkəti, şüuru ilə davranışı arasında əlaqə yaratmaqdan ibarətdir ki, bu da onların həyatda fəal mövqe tutmalarına, ictimai borclarını şüurlu şəkildə dərk etmələrinə xidmət edir.

## 1. Ailə tərbiyəsi pedaqoji prosesin tərkib hissəsi kimi

Bu gün ailə tərbiyəsi pedaqoji prosesin tərkib hissəsi kimi qiymətləndirilir. Çünki, müasir pedaqogika tərbiyəyə *şəxsiyyətin ahəngdar formalaşması və inkişafı prosesi* kimi baxır. Tərbiyəçi və tərbiyə olunan ümumi məqsəd üçün birgə qüvvə ilə çalışan fəal tərəflər kimi qəbul olunur.

Pedaqoji proses dedikdə - təlim, təhsil və tərbiyənin ümumi məqsədinin planlı və mütəşəkkil təşkili nəzərdə tutulur. Təlim və tərbiyənin təhsilverici, tərbiyəedici, inkisafetdirici funksiyaları pedaqoji prosesdə qarşılıqlı vəhdətdə olur və qarşılıqlı şəkildə bir-birinə təsir göstərir. Əgər təlim və təhsil şəxsiyyətin zehni inkişafında rol oynayırsa, tərbiyə psixi inkişafa öz təsirini göstərir və beləliklə də, pedaqoji proses şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafını təmin etmiş olur. Pedaqoji prosesdə təlim və təhsilin səmərəliliyi qarşılıqlı. (şagird, sinif, məktəb kollektivi, müəllim, tərbiyəçi, valideyn, habelə kollektiv orqanlar - pedaqoji şura, ictimai təşkilatlar, pedaqoji kollektiv və b.) münasibətlər sistemindən asılıdır. Pedaqoji prosesdə tərbiyə o vaxt səmərəli nəticə verir ki, tərəflər arasında tələblər və tələbatlar imkanlara müvafiq olsun. Tərbiyə olunan hər bir şəxsə subyekt kimi yanaşılsın.

Tərbiyə - insanın şəxsiyyətinin inkişafına, onun müasir mədəni dünyagörüşünün formalaşmasına, müəyyən baxışların yaranmasına yönəlmiş məqsədyönlü peşəkar fəaliyyətdir. Tərbiyə təlim-tədris müəssisələrində xüsusi təlim almış mütəxəssislər tərəfindən şəxsiyyətin formalaşması və yaranması məqsədilə hazırlanmış bütöv, şüurlu təşkil edilmiş proses kimi izah edilir.

Tərbiyə digər bir yanaşmada yaşlı nəslin əldə etdiyi bilik, bacarıq və təcrübənin yetişən nəslə öyrədilməsidir. Yaxud tərbiyə anlayışı şəxsiyyətin məqsədyönlü, ardıcıl, formalaşması və inkişafı prosesi kimi də izah edilə bilər.

Bütün bu qeyd olunanların əsasında belə qənaətə gəlmək olar ki, ailə tərbiyəsi də tərbiyənin tərkib hissəsi olduğu üçün, pedaqoji prosesin tərkib hissəsinə çevrilir, hətta pedaqoji prosesin inkişafına belə zəmin yaradır.

Tərbiyə işi özünəməxsus xüsusiyyətlərə malikdir. Onun düzgün idarə olunması və yüksək səmərə verməsi üçün həmin xüsusiyyətləri yaxşı bilmək və tərbiyə işində nəzərə almaq lazımdır. Pedaqoji prosesdə tərbiyə bu bir çox

səciyyəvi xüsusiyyətləri özündə əks etdirir. Həmin xüsusiyyətləri aşağdakı şəkildə izah edə bilərik:

**1. Tərbiyə məqsədyönlü prosesdir:**

Hər bir ailənin öz xarakterik və səciyyəvi xüsusiyyətləri vardır. Ailə eyni zamanda öz övladlarını tərbiyə edir. Təbii ki, burada mənfi və müsbət cəhətlərdə yer alır. Ona görə də ailə tərbiyəsində məqsədlər parçalanır və hər bir valideynin ilk növbədə öz məqsədi olur. Pedaqoji prosesdə isə bu məqsədlər bir araya gətirilərək şagirdləri bir amal, bir əməl uğrunda birləşdirir. Artıq burada şəxsi məqsədlər deyil, ümumi məqsədlər tərbiyə olunaraq şagirdlərə aşılanır. Məktəblilər öz soykökünə bağlı, cəmiyyətə yararlı, Vətəni sevən, milli-mənəvi mənsubiyyətinə sadiq olan şəxsiyyət kimi formalaşır. Tərbiyə özü bir dəyər kimi qiymətləndirilməlidir. O, hər kəsin, bütövlükdə cəmiyyətin əldə etdiyi əbədi nemət, daim var olan, yaşayan sərvətidir. Ona görə də burada məqsədlər birləşdirilməlidir. Nəriman Nərimanov haqlı olaraq yazırdı: "Tərbiyə ancaq elmin gücü ilə olur". Yaxud, filosof sairimiz Məhəmməd Füzulinin də dediyi kimi, "Tərbiyənin məqsədi elmli, pak mənəviyyata, zəngin həyata malik, insanın ruhi aləmini, əhvalını yaxşı anlayan, şəxsi mənafeyini xalqın mənafeyi ilə bağlayan, ağlı və zəkası ilə insanlara nur bəxş edən, sözündə, əhdində sədaqət və vəfa nümunəsi göstərən, səmimi şəxs formalaşdırmaqdır".

**2. Tərbiyə çoxamilli prosesdir.**

Bu o deməkdir ki, uşaq şəxsiyyətinin formalaşması çox müxtəlif amillərin təsiri ilə baş verir: məktəb, ailə, ictimaiyyət, geniş sosial mühit, məhəllə və yoldaşlıq mühiti, yaşlı adamlar, kino, televiziya, bədii əsərlər və s. tərbiyədə mühüm rol oynayır. A.S.Makarenkonun sözləri ilə desək, "uşağı hər şey - adamlar, əşyalar, hadisələr, ilk növbədə isə valideyn və müəllimlər tərbiyə edir".

**3. Tərbiyə dialektik prosesdir:**

Bu prosesdə fasiləsiz inkişaf dinamikası gözlənilməlidir. Dinamik inkişaf olduqca dəyişkən və qeyri-müəyyən ola bilər. Ona görə də şəxsiyyətin daxili subyektiv amillərinin, tələbatlarının obyektiv şəraitə uyğunluğu təmin olunmalıdır. Pedaqoji prosesdə bilik, bacarıq və vərdişlər əldə etmiş şəxs daxili tələbatı ilə xarici tələbat arasında daha asan və tez uyğunluq yarada biləcək.

Eyni zamanda tərbiyə sosial tələblər əsasında, tərbiyə olunanların yaş xüsusiyyətlərinə uyğun inkişaf edir, Müxtəlif həyat situasiyalarına uyğun olaraq təsir gücünə sahib olur. Bu dialektik vəhdət aşağıdakılarla özünü göstərir:

- özünütərbiyə və yenidəntərbiyənin dialektik vəhdəti;
- məqsədyönlülük və mütəşəkkilliyin dialektik vəhdəti;
- subyekt və obyektin qarşılıqlı dialektik vəhdəti;
- tərbiyə prosesinin məqsədləri, vəzifələri, məzmunu, forma və metodlarının dialektik vəhdəti.

Tərbiyə prosesinin səciyyəvi xüsusiyyəti onun özünütərbiyə və yenidəntərbiyə prosesi ilə sıx bağlılığıdır. Uşaq tərbiyə prosesində passiv obyekt deyildir. O, fəal bir subyektdir. O, müvafiq tərbiyəvi təsirlərə məruz qalaraq, bu və ya başqa keyfiyyətlərə yiyələnmək üçün səy göstərir. Tərbiyənin müvəffəqiyyəti xüsusən şagirdlərin özünün arzu və səyindən çox asılıdır.

Özünütərbiyə yaxşı tərbiyənin nəticəsi kimi şagirdin öz davranışını təhlil etməsinə imkanlar yaradır, beləliklə, şagird davranışına düzəlişlər edir, onu təkmilləşdirir, yaxşılaşdırır, pis keyfiyyətləri planlı, məqsədyönlü şəkildə aradan qaldırır, yeni müsbət keyfiyyətlərə yiyələnir. Özünütərbiyə adətən yeniyetməlik dövründən başlayır və gənclik illərində daha da inkişaf edir. Yenidəntərbiyə vaxtında və düzgün verilməyən tərbiyənin nəticəsi hesab edilir. Yenidəntərbiyə uzunmüddətli, çətin və mürəkkəb prosesdir.

**4. Tərbiyə fasiləsiz, sistematik, ardıcıl bir prosesdir:**

Burada məqsədli iş sistemi qurulur. Tərbiyə işi insanın bütün həyatı boyu davam edir, nəticəsi gec görünən və insanın əməllərində özünü göstərən bir prosesdir.

Hər bir söz düşünülüb yerində hərəkətə uyğun deyilərsə, o daha tez ürəklərə nüfuz edər və əxlaqi keyfiyyətlərin formalaşmasında böyük əhəmiyyət kəsb edər. Atalarımız “təsirli söz qılıncdan da iti olur” ifadəsini işlətməkdə heç də səhv etməmişlər. Tərbiyə üsullarının tətbiqi zamanı gözlənilən müəyyən qayda və tələblər şagirdlərə izah edilməlidir ki, onlar bu qayda və tələblərin əhəmiyyətini dərk etsinlər, əks təqdirdə onlarda heç bir əxlaqi keyfiyyət formalaşdırmaq olmaz. Bütün bu deyilənlər isə görkəmli şəxsiyyətlərin nümunəsində, bədii əsərlərdə və müəllimin şəxsi nümunəsində öz əksini tapır. Məsələn, təlim-tərbiyə prosesində N.Gəncəvinin, İ.Nəsiminin, C.Məmmədquluzadənin, M.Ə.Sabirin və

bu kimi görkəmli şəxsiyyətlərin əsərlərindəki müsbət surətlərin timsalında, milli qəhrəmanların nümunəsində şagirdlərin tərbiyə prosesini müəyyən mənada inkişaf etdirmiş olarıq. Götürək elə N.Gəncəvinin yaradıcılığını: Onun xeyirxahlığı, vətənpərvərliyi, əməksevərliyi təbliğ edən ibrətamiz sözləri, öyüd-nəsihətləri gənc nəslin əqlinə, şüuruna, idrakına, fəaliyyətinə təsir edəcək və qəlbi ən ülvü hisslər mərkəzinə çevirəcək bir vasitədir. Şair əsərlərində (“Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Yeddi Gözəl”, “İsgəndərnamə”) insanları arpa çörəyinə qane olub öz qapısının aslanı olmağı, özgə qapısının pişiyi olmamağı, insani tələblərə uyub, ləyaqətlərini itirməməyi, həmişə əməyin bayrağını uca tutmağı tövsiyə edir. Böyük mütəfəkkir şairimiz Nizami ibrətamiz sözlərlə əxlaqi dəyərləri gənc nəslin idrakının məhsuluna çevirməyə, onları uzaqgörənliyə, atacaqları hər addımı yüz ölçüb bir biçməyə çağırmışdır. Məsələn, gənc qulluqçunun itlərə atılmasına fərman verən şahın dönüklüyü ifşa edilir, qulluqçunun müdrikliyi, uzaqgörənliyi alqışlanır və sonra əsər əxlaqi nəticə ilə tamamlanır.

Deməli, bu kimi nümunələr şəxsiyyətin inkişafında və formalaşmasında mühüm əhəmiyyət kəsb edir və tərbiyə üsullarının həyata keçirilməsi işinə güclü təkan verir.

Bunları qeyd etməkdə məqsədimiz ondan ibarətdir ki, valideynlər müəyyən mənada mütaliə ilə məşğul olmaqla özlərini inkişaf etdirməli və bu inkişaf sayəsində övladlarının tərbiyəsini düzgün istqamətləndirmiş olacaqlar. Mütaliə hər bir valideynin pedaqoji biliklərinin artırılmasına təkan verəcək. Klassiklərin tərbiyə sahəsində dəyərli məsləhətləri, xalq yaradıcılıq nümunələrində həyati təcrübə əsasında qazanılmış fikirlər valideynlər üçün etibarlı mənbə rolunu oynayacaq. Məhz mütaliə sayəsində valideynlər pedaqoji prosesdə fəal iştirak etmək imkanı qazanacaqlar.

İndiki iqtisadi cəhətdən qeyri-sabit dövrdə əməkdaşlıq potensialı möhkəmləndirilməli, uşaqlar üçün həyata keçirilən təhsil, təlim-tərbiyə proqramlarının siyasi, texniki, idarəetmə və humanitar mənada davamlı olması üçün tələb olunan sərmayələr artırılmalıdır. Bu təsir imkanlarının genişləndirilməsi məqsədilə təhsil üzrə qəbul olunmuş beynəlxalq bəyannamədə deyilir:

- Təhsil cəmiyyətin vacib sosial sahəsi olaraq, dövləti, ailələri, ictimaiyyətin və qeyri-hökumət təşkilatlarını eyni dərəcədə əhatə edir. O, bütün hədləri aşan böyük bir alyansda çıxış edən müxtəlif fikirləri və siyasi mövqelərdən çıxış edən

hər bir kəsin cəmiyyət qarşısında müəyyən öhdəlik götürməsini və məsuliyyət daşımasını tələb edir.

Təhsil fəaliyyəti ailə və ictimaiyyətlə birgə əməkdaşlıq şəraitində aparılmalıdır. Bu fəaliyyətin təminatı isə valideyn-müəllim, məktəb-ailə əməkdaşlığının səmərəli təşkili nəticəsində mümkündür. Son illərdə ölkəmizdə bu istiqamətdə işin daha səmərəli təşkili üçün "Məktəb icması" layihəsi çərçivəsində mühüm tədbirlər həyata keçirilmişdir. Bu icmalar əsasən şagird, valideyn və müəllimlərin birliyindən ibarətdir." Birlikdə öyrənirik, istirahət edirik, inkişaf edirik" şüarı birliyin əsas devizidir. Bu icmalarda məktəb psixoloqları da təmsil olunmuşdur. İcmaların sosial şəbəkəsi də mövcuddur, üzvlər icmaya məxsus olan sayt (community.az) vasitəsilə fikir, təcrübə mübadiləsi aparır, yeni bilik, bacarıqlar əldə etmək imkanı qazanırlar. Bu prosesdə valideynlərin pedaqoji maarifləndirilməsi üçün geniş imkanlar vardır. Valideynlər ilk növbədə məktəbin fəaliyyəti, şagirdlərin təlim-tərbiyə prosesindəki nailiyyətləri, mövcud problemlər barədə tanış olur, pedaqoji məsələləri yeni tələblər əsasında öyrənməyə, bilavasitə pedaqoji prosesin fəal iştirakçısı olmağa səy göstərirlər. Bu yanaşma məktəb-ailə əlaqələrinə yeni stimul verir, valideynlərdə də kreativ bacarıqların formalaşdırılmasına zəmin yaradır. Valideynlərin pedaqoji maarifləndirilməsi nəticəsində onlar öz övladlarının təhsili ilə daha yaxından tanış olmaq imkanı qazanır, mütaliə mədəniyyətinin inkişafına, nəzəri hazırlıqlarının, həm də hesabatlılıq, məsuliyyətlilik hissinin artırılmasına xüsusi diqqət yetirirlər.

Məktəb icmaları işinin müvəffəqiyyətlə həyata keçirilməsi iki mühüm amildən asılıdır:

♦ Təhsil sisteminin, təlim-tərbiyə işinin konseptual dəstəklənməsindən;

♦ Məktəb kollektivinin bütün üzvlərinə cəmiyyət və ictimaiyyət tərəfindən hörmət və qiymətləndirmə mədəniyyətinin olmasından.

Hər bir məktəbin nəzdində siniflər üzrə valideyn komitələri yaradılır. Bu valideyn komitələrinin məqsədi məktəblə valideynlər arasında əməkdaşlığın təmin olunmasına xidmət edir. Sinif valideyn komitələrinin (bundan sonra SVK) vaxtaşırı və dövri olaraq məktəblərdə iclasları təşkil olunur və burada görülmüş işlər, nöqsanlar müzakirə edilir. Valideynlə müəllimlər arasında qarşılıqlı ünsiyyət nəticəsində məktəblilərin pedaqoji və psixoloji problemləri təhlil olunur.

SVK-nin iclasları əsasən aşağıdakı hallarda toplanır:

- təşkilati məsələlərlə bağlı;
- cari məsələlər və ya konkret mövzu ilə bağlı;
- tədris ilinin yarımillik və illik dövri hesabatları zamanı.

Tədris ilinin əvvəllində SVK-nin strukturu və tərkibi aşağıdakı kimi müəyyənləşdirilə bilər.

| Soyadı və adı | Vəzifəsi |
|---|---|
| 1. | Valideyn komitəsinin sədri |
| 2. | Valideyn komitəsinin sədr müavini |
| 3. | Təlimə nəzarət |
| 4. | Şagird hüquqları və sağlamlıq işləri üzrə nəzarət |
| 5. | Əmək və təşkilati məsələlər üzrə nəzarət |

Hər bir SVK sinif rəhbəri ilə birgə illik fəaliyyət planı müəyyənləşdirməlidir. Bu fəaliyyət planı aylar üzrə müəyyənləşdirilməlidir. Məsələn;

| ***Tarix*** | ***Fəaliyyət*** |
|---|---|
| ***sentyabr*** | Sinif valideyn komitəsinin yığıncağının keçirilməsi və SVK-nın tərkibini müəyyən etmək məqsədilə seçkinin keçirilməsi;<br>Yeni dərs ilinə hazırlıq məqsədilə valideynlərlə görüşlər təşkil etmək; |
| ***oktyabr*** | Sinif valideyn iclası;<br>Açıq qapı günlərində valideynləri dərslərdə iştirak etməyə dəvət etmək; |
| ***noyabr*** | Valideyn komitəsinin yığıncağı: “ Ailənin tərbiyə imkanları: vətənpərvərlik tərbiyəsi” mövzusunda diskussiya ;<br>I rübün yekunlarına həsr olunmuş yığıncaq keçirmək; |
| ***dekabr*** | İstedadlı şagirdlərin qabiliyyətlərinin inkişafı mövzusunda onların valideynləri ilə söhbət aparmaq; I yarımilin yekunları və növbəti yarımildə qarşıda duran əsas məsələlər mövzusunda valideyn iclasını keçirmək; |
| ***yanvar*** | Valideyn komitəsinin yığıncağı: II yarımildə valideyn komitəsinin fəaliyyətinin planlaşdırılması; |
| ***fevral*** | -“Ev şəraitində dərslərə səmərəli hazırlaşmaq üçün şagirdlərə necə kömək etmək olar?”-mövzusunda valideynləri maarifləndirmək; |
| ***mart*** | Yeniyetməlik dövrü və zərərli vərdişlər” mövzusunda komitənin sağlamlıq sektoru üzrə nümayəndəsinin məruzəsi; |
| ***aprel*** | Açıq qapı günlərində valideynlərin məktəbə gəlişinin və dərslərdə iştirakının təmin olunması; |
| ***may*** | Şagirdlərin məktəbdənkənar fəaliyyəti haqqında valideynlərlə müzakirə; |
| ***iyun*** | Növbəti tədris ilinə hazırlıq məqsədilə sinif otağının yüngül təmirinin həyata keçirilməsi. |

SVK və sinif rəhbəri təxmini bu səpgidə fəaliyyət planı müəyyənləşdirir. SVK-nın iclaslarında ehtiyac duyulduqda məktəb rəhbəri, həmin sinfin müəllimləri, psixoloq, məktəb həkimi, kitabxanaçı və s. iştirak etməlidir. SVK iclasları necə təşkil olunmalıdır?:

- valideynlərə bir neşə gün öncədən iclasın keçiriləcəyinə dair məlumat verilməlidir (telefon, e-mail, yazılı dəvət və s.). Buna valideyn komitəsinin sədri birbaşa məsuliyyət daşıyır. Üzürlü səbəbdən gələ bilməyən valideynlərin uşaqları ilə bağlı iclasda aparılan müzakirələr sonradan onların nəzərinə çatdırmalıdır. Lakin əksər hallarda valideynlərin iştirakı mütləqdir;
- əgər hər hansısa bir fənn müəlliminin iclasda iştirakı üzürlü səbəbdən alınmazsa sinif rəhbəri iclasdan öncə həmin fənn müəllimiylə görüşərək hər bir uşaq haqqında ayrılıqda məlumat əldə etməlidir;
- SVK-nın iclaslarında eyni zamanda valideynlərin uşaqların təlim-tərbiyəsində qarşılaşdıqları çətinliklər, məktəblilərlə hər hansı bir fənn müəllimi arasında yaranan ünsiyyət problemləri müzakirə olunur və aradan qaldırılması yolları müəyyənləşdirilir və s.

SVK iclasları yekunda sinif rəhbəri tərəfindən aşağıdakı qaydada protokollaşdırılır:

________________________________№-li tam orta

məktəbin____sinfinin

__________ 2020-ci il tarixli iclası

**PROTOKOL № 3**

İştirak edirdi________ nəfər

Dəvət olunanlar:______________________

1.Təşkilat işləri üzrə direktor müavini______________

2. Psixoloq___________________________________

3. Kitabxanaçı __________________________________

Valideyn iclası başlandı: saat______ başa çatdı ______

Gündəlik məsələ

1. Sinif şagirdlərinin tədris ilinin ilk 3 ayında (sentyabr,oktyabr,noyabr)  təlim-tərbiyədə göstərdikləri nəticələrinin müzakirəsi

2. Sinif şagirdlərinin Dirçəliş günü ilə bağlı Şəhidlər muzeyinə ekskursiyasının təşkli

3. Cari məsələlər
Reqlament:
Məruzə üçün 5 ( və ya 10 ) dəqiqə, çıxışlar üçün 3 dəqiqə
I Məsələ
Eşidildi: Məruzəçi danışdıqdan sonra bir neçə çıxışçı danışır
______________________________________________
Qərara alındı:_________________________________

II Məsələ
______________________________________________
Qərara alındı:
III Məsələ: _________________________
Qərara alındı: _________________________

İclasın sədri: ___________________(imza)

Katib:___________________( imza)

Qeyd edək ki, müasir dövrdə valideynlərin vaxt məhdudiyyətini nəzərə alaraq SVK-nın sədri iclasları bəzən sosial şəbəkələrdə təşkil edir. Facebook, Whatsapp və digər sosial şəbəkələr üzərindən müzakirələr aparılır. 2020-ci ildə baş vermiş Pandemiya dövründə isə həm də TEAMS və ZOOM vasitəsilə əlaqələrin yaradılması və bu proqramlarla iclasların təşkili daha çox aktuallaşmışdır.

Müşahidələr göstərir ki, şagirdlər onların valideynləri tərəfindən qərarvermə prosesində iştirak etdikləri halda, təhsildən, təlim-tərbiyədən daha çox bəhrələnirlər. Əksinə valideynlər sadəcə olaraq şagirdlərə "qayğı göstərənlər" kimi çıxış etdikləri təqdirdə, təhsilalanın təhsil prosesindən faydalanma göstəricisi aşağı olur, lazımi effekti, səmərəni vermir.

## 2. Valideynlərin pedaqoji maarifləndirilməsinin uşaq və yeniyetmələrin tərbiyəsinə təsir imkanları

Hər bir ailədə uşaq məqsədli şəkildə tərbiyə edilir. Amma problem bu məqsədlərin düzgün və yanlış istiqamətdə qurulmasıdır. Məsələn, övladının yaxşı insan olmasını istəyən valideyn bəzən zorakılığa belə əl atmağı düzgün hesab edir. Bəzi valideynlər isə həddən ziyadə humanistlik göstərməklə öv-

ladlarının zərərli vərdişlərə, qeyri-etik vərdişlərə meyillənməsinə şərait yaratmış olur və s. Yəni uşaqlıq həyatının ilk illəri onun tərbiyəsində mühüm mərhələdir. Bu dövrdə uşağın hisslərində səciyyəvi xüsusiyyətlər inkişaf etməyə başlayır ki, bu da onun gələcək həyat yolunu müəyyən edir. Uşaq xarakterinin müəyyənləşdirilməsində böyük rol oynayan təsir qüvvəsi onun öz xalqının dilində, yaşadığı mühitdədir. Şifahi xalq ədəbiyyatı nümunələri, xalq mahnıları, musiqi, oyunlar, doğma yurdun təbiəti, yaşadığı mühitdəki adamların adəti, əxlaqi keyfiyyətləri, əmək və məişəti bu dövrdə uşaqlara dərin təsir göstərir. Uşaqlara tanıdılan surətlər nə qədər parlaq və canlı olarsa, bu onlara bir o qədər güclü təsir edər. Kiçikyaşlı uşaqlar isə təsirə qarşı çox həssas olurlar. Əgər biz, kiçik yaşlardan uşaqların tərbiyəsi ilə məşğul olmağa başlayırıqsa, onlara nəyi necə öyrədəcəyimizi və ondan nə kimi nəticələr əldə edəcəyimizi öncədən bilməliyik. Yəni tərbiyə məqsədyönlü xarakter daşımalıdır. Görkəmli Azərbaycan filosofu Nəsirəddin Tusi deyirdi: “Tərbiyənin birinci şərti budur ki, uşağı onun təbiətini korlaya biləcək adamlarla və şeylərlə oturub-durmağa, oynamağa qoymayasan, çünki uşaq nəfsi sadə olar, ətrafdakıların xasiyyətini tez götürər. Uşağı mehribanlıq və məhəbbət doguran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsiredən başa salmaq yolu ilə; pul vermək, şirnikləndirmək kimi əsil-nəsəbə aid olan şeylərlə yox”.

Ayrı-ayrı şəxslər tərəfindən yazılmış bayağı sözlər heç də baba-nənələrimizin həyat təcrübəsi nəticəsində əldə etdikləri əxlaq normalarından, ədəb-ərkan qaydalarından qiymətli və dəyərli deyildir. Xalq pedaqogikasında uşaqları oxşayan oxşamalar, laylalar, yaxud “Bala dadı bal dadır, bala adam aldadır, şirini şirin olur, acısı da bal dadır”, “Uşaq evin işığı, ailənin yaraşığı” və s. kimi hikmətli sözlər öz övladı üçün canından keçən, ömrünün sonuna kimi övlad cəfasını çəkən bir xalqın yüksək əxlaqi keyfiyyətlərindən xəbər verir.

Rəvayətlərimizin birində deyilir: “Bir gün Şah Abbas öz adamlarını ətrafına toplayıb deyir, məni elə yerə aparın ki, orada məndən böyüyü olmasın: Yoxsul evdə qonaq olan Şah Abbas pərdə arxasında ağlayan uşağın səsini eşidib deyir: - Evdə məndən böyüyü ola-ola nə cürətlə məni buraya gətirmisiniz, bir halda ki, evin şahı uşaqdır”.

Bu da xalqımızın gələcək nəslə olan hörmət və ehtiramından irəli gəlir.

Yuxarıda qeyd etdiyimiz kimi, uşağın surətlərə, səslərə və rənglərə böyük ehtiyacı vardır. Bütün bunlar isə xalq yardıcılığı nümunələrində istənilən qədərdir.

Doğrudur, xalq pedaqogikası materiallarında "tərbiyə üsulu","tərbiyə metodu" bir termin kimi işlənməsə də baba-nənələrimiz tərbiyə işinin çətin və şərəfli olduğunu başa düşərək nəcib insani keyfiyyətlərin tərbiyəsi yollarına dair faydalı fikir və göstərişlər irəli sürmüşlər.

Hazırda milli ənənələrə ehtiyac duyduğumuz bir vaxtda onları seçib qruplaşdıraraq müasir məktəblərdə tərbiyə üsullarının həyata keçirilməsində, uşaqların düzgün və hərtərəfli tərbiyə olunmasında istifadə etmək lazımdır. Hacı Zeynalabdin Tağıyevin də qeyd etdiyi kimi: "Məni ancaq xalqımın xoşbəxtliyi, onun varlığı maraqlandırır. Xalqımın inkişafı üçün əsl şərt onun tərbiyə və təhsilidir". Nümunədən göründüyü kimi bu ideya insanın şəxsiyyət kimi formalaşdırılması üçün doğru yanaşmadır.

Əgər valideyn övladını düzgün tərbiyə etmək istəyirsə, ilk öncə sağlam mühit yaratmalıdır. Bu sağlam mühit ailə standartları deməkdir. Ən ümdə prinsipiallıq burada gözlənilməlidir. Ailə standartları valideyn münasibətləri üzərində qurulmalıdır. Bəs valideyn münasibətləri özündə nəyi ehtiva etməlidir? Fikrimizcə, aşağıda göstərilənlər valideyn münasibətləri üçün xüsusi əhəmiyyət daşıyır:

- ailə üzvlərinin bir-birinin ehtiyaclarını ödəməsi;
- sağlam psixoloji mühitin yaradılması;
- ictimaiyyətlə əməkdaşlıq konsepsiyası;
- tərəflərdən biri olaraq, təhsil sahəsində hər hansı xidmətin həyata keçirilməsində birbaşa iştirak etmək;
- resurs, material və əmək qüvvəsini təmin etməklə prosesdə iştirak etmək və s.

Gələcək vətəndaşların valideynləri də anlamalıdırlar ki, cəmiyyətin ümumi təhsil üzrə olan fəaliyyətlərdən bəhrələnmə göstəricisi bu prosesdə iştirak edən valideynlərin cari xərclərindən daha çoxdur, daha əhəmiyyətli və uzunömürlüdür.

Valideynlərin pedaqoji maarifləndirilməsi üçün aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

*1. Uşaqların yaş və cinsi psixoloji xüsusiyyətləri.*

Adətən ailələrdə ilk övlad daha çox valideynlər tərəfindən təzyiqlərə məruz qalır. Sən böyüksən, sən güzəştə getməlisən. O kiçikdir, əlindəki oyuncağını ver səsin kəssin. Niyə o ağlayır? və s. kimi sözlər hər birimizin rast gəldiyimiz hallardır.

Təbii ki, bəzən valideynlər bunu qayğıkeşlik, böyük övladlarının kiçik bacı, qardaşına diqqət və qayğısı kimi dəyərləndirir. Amma burada valideynlər bəzən yanlış olaraq hər iki övladının psixikasına mənfi təsir göstərmiş olurlar. Yaşca böyük övlad bu kimi təzyiqlər nəticəsində özünü ailədə ikinci plana atılmış kimi hiss edir. Əlindəkilərinin kiçiklər tərəfindən alınmasına alışır. Belə uşaqlar cəmiyyətin bir fərdinə də çevrildikdə itirdiklərinə çox da məyus olmurlar. İtirməmək üçün çaba, cəhd göstərmir, mübarizə aparmırlar. Çünki, artıq buna alışıqlı olurlar. Ailədə böyüyən kiçikyaşlı uşaqlar isə hər zaman eqo nümayiş etdirirlər. Onların istəklərinin yerinə yetirilməsi mütləq kimi qəbul olunur. Cəmiyyətin bir fərdinə çevrildikləri zaman isə qardaş və bacılarından fərqli olaraq istəkləri yerinə yetirilmədikdə psixoloji sarsıntı keçirir və bu kimi hallarla barışmırlar və s.

Bəzi ailələrdə cinsi fərqlərin qoyulması da uşaq psixologiyasına mənfi təsir göstərir. Məsələn, bəzən qız övladlarının atalar tərəfindən əzizlənməsi oğlan övladlarına, yaxud öglanların analar tərəfindən üstün tutulması qız övladlarına mənfi təsir göstərir.

Hər bir valideyn bu bərabərliyi tənzimləməyi bacarmalıdır. Qəlbində övladları arasında ayrı seçkilik qoymayan valideynlər bəzən heç özləri də bilmədən davranışlarında bunu yanlış olaraq hiss etdirirlər ki, bu da övladlarının psixoloji sarsıntısına, ata-ana sevgisinə qarşı inamsızlığına gətirib çıxarır. Ona görə də valideynlər övladlar arasında bərabərliyi həmişə nəzərə almalı, ədalətli davranışla düzgün tənzimləməlidirlər.

*2. Fərdi yanaşma prinsipi.*

Araşdırmalar və təcrübə göstərir ki,fərdi yanaşma prinsipini fərdi tərbiyə prinsipi ilə eyniləşdirmək olmaz. Fərdi yanaşma dedikdə hər bir valideyn övladının xarakterik xüsusiyyətini nəzərə almaqla ona fərdi yanaşmalıdır. Məsələn, çox rast gəldiyimiz situasiyalardan birinə diqqət edək: Bacın, yaxud qardaşın əla qiymətlər alır, amma sən zəifsən. Filankəsin uşağı idmanda,

olimpiadalarda uğurlu nəticələr əldə etdi, amma sən isə bacarıqsızsan və s. Bu, yanlış yanaşmadır. Bu yolla uşağı yetkin şəxsiyyət kimi tərbiyə etmək, çox çətindir, əslində mümkün deyil. Ona görə də biz ilk növbədə valideynin pedaqoji maariflənməsini, tərbiyə məsələlərini elmi-pedaqoji baxımdan mənimsəməsini çox vacib hesab edirik.

Hər bir valideyn övladlarının temperament tipini, fiziki və əqli potensialını nəzərə almaqla onlar qarşısında tələblər qoymalıdır. Əgər hər hansı bir valideyn övladının maddi təminatını ödəmək imkanındadırsa, bu o demək deyil ki, o bunun müqabilində övladına müəyyən tələblər qoyma haqqına sahibdir. Ona görə də valideyn özü də hiss etmədən uşaq psixologiyasına mənfi təsir göstərir. Öz övladının özünəinamının sarsılmasına zəmin yaradır.

Bəzən valideynlər uşaqlarının peşə istedadlarını da görməzdən gəlirlər. Məsələn, filankəsin uşağı hüquqşünas olacaq, mənimki maşın düzəldən? və s.kimi yanlış düşüncələrini ifadə etməklə əslində övladlarının gələcək həyatına zərbə vurmuş olurlar. Halbuki, uşaq ali təhsil alsa da hüquqşünas kimi işsiz qalma halları ilə rastlaşır. Çünki bu məcburi təhsil onun əqli potensialı xaricində olur. O, bu sahədə uğur qazanmaqda hər zaman çətinlik çəkəcək. Amma onun vaxtında valideynləri tərəfindən düzgün istiqamətləndirilməsi nəticəsində maşın ustası kimi bir peşəyə sahib olmaqla daha çox qazanc və gəlir əldə edə bilər. Özünün maddi təminatını, hətta ailəsinin belə maddi təminatını üzərinə götürərək sosial rifahını yaxşılaşdırmış olar. Amma hüquqşünas diplomu ilə hər gün valideynlərindən cibxərcliyi almaq, yaxud maddi tələbatını ödəmək üçün oğurluq və s. kimi zərərli vərdişlərə aludə olmaq insan şəxsiyyətini alçaldan, cəmiyyət tərəfindən qəbul edilməyən haldır.

*3. Hörmət və tələbkarlıq prinsipi.*

Elmi-pedaqoji tədqiqatlar göstərir ki, hər bir uşağa kiçik yaşlarından hörmətlə yanaşılması vacibdir. Hətta tələbkarlıq da hörmət əsasında yerinə yetirildikdə arzu olunan nəticəni əldə etmək olur. Valideynin özü də tərbiyə prosesində müəyyən mənada bir pedaqoq funksiyasını yerinə yetirir. Ona görə də övladı nadinc, sözə qulaq asmayanda pedaqoji etikanı pozmamalıdır. Tələbkarlıq etdiyi hallarda belə uşaq şəxsiyyətini təhqir etməməli, onun şəxsiyyətini alçaltmamalıdır. Uşaqların arzu və istəklərini nəzərə almalıdır.

*4. Tələblərdə vahidliyin gözlənilməsi prinsipi.*

Digər prinsiplərlə yanaşı bu prinsipin də valideynlər arasında gözlənilməsi vacibdir. Ata tərəfindən verilən tapşırıqlar ana tərəfindən etiraza, yaxud əksinə ana tərəfindən qoyulan tələblər ata tərəfindən ciddi narazılığa səbəb olmamalıdır. Uşağın tərbiyəsi hər iki valideynin vahidlik prinsipi əsasında həyata keçirilməlidir. Eləcə də uşaqlar ata-ana arasında baş verən gərginliyə, münaqişələrə alət olmamalıdır. Bəzən qadınlar kişilərə təsir göstəmək üçün uşaqları qorxu alətinə çevirməyə çalışırlar. Məsələn, övladımı götürüb evi tərk edərəm, sənə göstərmərəm və s.şəkildə fikirlərini ifadə etməklə uşağın tərbiyəsinə də mənfi təsir göstərirlər.Uşaq özünün valideynlər arasında bir alət olduğunu zaman keçdikcə anlamağa başlayır. Lakin hər bir valideyn bilməlidir ki, övlad problemlərin həlli üçün bir vasitə deyil. Hər bir valideynin borcudur ki, övladına qayğı və diqqət göstərsin, müəyyən bir yaşa kimi onun maddi və mənəvi tələbatlarını ödəsin.

*5. Sistemlilik və ardıcıllıq prinsipi.*

Tərbiyə sistematik və ardıcıl aparılmalıdır ki, uşaqlar yad təsirlərə məruz qalmasınlar. Müasir dövrdə bəzi mənfur xislətli insanlar, təşkilatlar, qurumlar bu kimi boşluqlardan yararlanmağa çalışırlar. Məsələn, narkotik alverçiləri hər zaman ailə münaqişələrindən yararlanmağa çalışırlar. Əgər ailə münaqişəsi zəminində yeniyetmələr diqqətdən kənar qalıblarsa, onlar bu durumdan dərhal yararlanırlar. Təbii ki, ailə normal durumuna qayıtsa da, onlar bu boşluqda övladlarının narkotik aludəçisi olmasını, illərlə onun tərbiyəsində çəkdikləri əziyyəti, qısa bir zaman çərçivəsində məhv olmasını geri qaytara bilmirlər və bu boşluğun acısını bəzən ömürləri boyu daşımalı olurlar. Yaxud bir sıra dini qurumlar vardır ki, din pərdəsi altında yeniyetmələri terroristə çevirməyə nail olurlar. Bu baxımdan ailə tərbiyəsində həm də əks qüvvələrə qarşı mübarizədə, milli dəyərlərimizin qorunması, milli maraqlarımız naminə sistematiklik və ardıcıllıq daim gözlənilməlidir.

Bu prinsiplərlə yanaşı valideynlər ictimai qaydalara da övladlarını alışdırmalıdırlar. Bunların bir qismi normativ hüquq çərçivəsində, digər qismi isə milli mentalitetimiz çərçivəsində tələb olunan qaydalardır:

- ictimai nəqliyyatda, ümumi yaşayış binalarının girişlərində, istirahət zonalarında yüksək tonla danışmamaq, oturarkən, dayanarkən digər insanlara çətinlik yaratmamaq və s.;

- özündən böyüklərlə kobud rəftar etməmək;
- dövlət atributlarına hörmətlə yanaşmaq;
- güc orqanlarına, strukturlarına qarşı çıxmamaq, əylənmə məqsədilə bu orqanlara zəng etməmək və s. kimi hərəkətlərdən yayınmaq;
- başqalarının əmlakına zərər verməmək, təsadüf nəticəsində zərər vurduqda bunun məsuliyyətini danışmaq;
- icazəsiz başqalarının əşyasına toxunmamaq, başqalarına aid video, şəkil və səs yazılarını sosial şəbəkələrdə yaymamaq;
- ictimai yerləri zibilləməmək;
- məktəb qayda-qanunlarına əməl etmək və s.

Bütun bu qaydalara valideynlər özləri ilk növbədə rəayət etməklə uşaqlarına nümunə olmalıdırlar. Əgər bir valideyn müəllim şəxsiyyətinə xələl gətirən ifadələri övladının yanında səsləndirəcəksə, o, bununla övladının təhsilinə xələl gətirmiş olur. Bəzən valideynlər övladlarının müəllim haqqında söylədikləri fikirlərə istinad edərək dərhal şikayətçi olurlar. Hətta bəzən həqiqəti öyrəndikləri halda belə bunu qəbul etmirlər. Azyaşlı məktəblilər də bəzən məsuliyyətlərini öz üzərlərindən atmaqla, uğursuzluqlarının səbəbini sinif yoldaşlarında, yaxud müəllim haqqısızlığında axtarmaqla məsuliyyətdən yaxa qutarmağa çalışırlar. Vaideynlər pedaqoji və metodik cəhətdən müəllimlərin atdıqları addımları düzgün qiymətləndirmədən övladlarına dəstək çıxmaqla yanlışlıqlara yol verirlər. Üstəlik valideyn ailədə müəllimi ittiham etməklə, onun pedaqoji təcrübəsini şübhə altına almaqla övladının müəllimə olan inamını, etibarını sarsıtmış olacaq ki, bu da məktəblidə müəllimlə bərabər, həmin fənnə olan marağına öz mənfi təsirini göstərəcək. Beləliklə də, valideyn özü övladının təhsilinə maneələr yaratmış olacaq.

Valideyn hər zaman səbr və təmkinliliyi ilə övladına nümunə olmalıdır. Yalan danışmamalı, mənəviyyata yaraşmayan, etikadan kənar ifadələr işlətməməklə cəmiyyətə əxlaqi xüsusiyyətlərə sahib övlad yetişdirməlidir.

Övladın valideynə olan sevgisi onun hərtərəfli və ahəngdar bir şəxsiyyət kimi yetişməsini təmin edəcək. Bu sevgi onun həyat yoluna hər zaman işıq saçacaq. Valideynin üzülməməsi naminə qoyduğu qadağalara uşaq sevərək tabe olacaq. Hər addımda valideynləri ilə hesablaşacaq.

Aparılan müşahidələrə əsasən qeyd edə bilərik ki, bu gün valideynlərin təhsilə, elmə çox böyük marağı var. Amma bu maraq çərçivəsində bəzi valideynlər uşaqlarının tərbiyəsinə çox da diqqət ayırmırlar. Təcrübə göstərir ki, yüksək təhsil hələ cəmiyyətə yararlı şəxsiyyət yetişdirmək demək deyildir. Xalqımızın belə bir ibrətəmiz kəlamı var: "Alim olmaq asan, insan olmaq çətindir".

Araşdırmaların nəticəsi göstərir ki, valideynlər təhsil və tərbiyəni paralel şəkildə həyata keçirməklə, milli mənəvi dəyərlərə yiyələnmiş, cəmiyyətimiz üçün ləyaqətli,milli ruhlu şəxsiyyətlərin yetişdirilməsində böyük rol oynayırlar.

## 3. Milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılmasına valideyn yanaşması

Respublikamız müstəqilliyə qədəm qoyduqdan sonra keçən müddət ərzində istər milli dövlətçilik, istərsə də sosial-iqtisadi və mədəni quruculuq sahəsində əsaslı islahatlar aparılmışdır. Ümummilli lider Heydər Əliyev qətiyyətli bir lider kimi mövqeyini ortaya qoyaraq milli-mənəvi dəyərlərin qorunmasına hər zaman xüsusi diqqət yetirirdi. Onun 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı cəmiyyətdə mənəvi saflığın qorunması, möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan xalqı da milli dəyərlərə qarşı olan təcavüzlərdən məğrur və alnı açıq çıxaraq yeni bir tarix yazmağı bacardı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, eləcə də döyüşlərdə qəhrəmanlıq göstərən fədailərimiz 2020-ci ilin 27 sentyabrından başlayan və 44 gün davam edən Vətən müharibəsində milli-mənəvi dəyərlərin üstünlüyünü dünyaya nümayiş etdirməklə xalqın qürurlu, dəyanətli, əyilməz, mübariz varlığını, milli dövlətçilik maraqlarını, milli mənafelərimizi, ədaləti, həqiqəti hər şeydən uca tutduğunu bir daha sübut etdilər. Bu günlərdə hər birimizin dilində Ümimmilli lider Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam" ifadəsi bir daha qürürla səsləndi. Ali Baş Komandan İlham Əliyev isə "Qarabağ Azərbaycandır" deməklə xalqın vətənpərvərlik ruhunu daha da gücləndirdi.

1988-ci ildən erməni təcavüzünə məruz qalmış Azərbaycan xalqının igid oğulları Vətənə, xalqına olan sədaqətini canları, qanları bahasına sübut etdilər. Bu xalq, millət uğrunda qəhrəman oğullar yetişdirən şəhid anaları, ataları "Vətən sağ olsun!" deməklə qürur və əzmkarlıq nümayiş etdirdilər.

Bütün bu uğurlu nəticələr uzunmüddətli siyasətin nəticəsi kimi qiymətləndirilməlidir. Dövlətin uğurlu siyasəti hər zaman təhsilə də öz töhfəsini verir. Hələ 1998-ci il martın 30-unda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyası haqqında sərəncam imzalamışdır. Məqsəd milli təhsil sahəsində dünya standartlarına uyğun islahatların aparılması, təhsilimizin milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında, dövlət müstəqilliyinin verdiyi imkanlar zəminində, xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, milli ənənələrinə uyğun şəkildə formalaşmasına nail olmaqdan ibarətdir.

Müstəqil Azərbaycan Respublikası Gənclərinin birinci Forumunda (02 fevral 1996-cı il) da Ümummilli lider Heydər Əliyev gənclərin qarşısında çox əhəmiyyətli vəzifələr qoymuşdur. O vəzifə və tələblər hər bir tələbə - gənc üçün və gənc nəslin təlim və tərbiyəsi ilə məşğul olanlar üçün rəhbər, yol xəritəsi oldu və daim ona müraciət edərək öz fəaliyyətlərində ona əsaslandılar.

Ümummilli Lider Heydər Əliyev tarixi nitqində demişdir: "Xalqımızın tarixinin əsasını təşкil edən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksəк mənəviyyatıdır, yüksək amallarıdır.

Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Göründüyü kimi ölkəmizdə dövlətin təhsil siyasətinin ana xəttində tərbiyə məsələsi diqqət mərkəzindədir.

Bu sahədə əsas strateji istiqamətlərdən biri təhsil sistemində, təhsil və tərbiyənin məzmununun təkmilləşdirilməsinə, onun milli psixologiya və milli

mentalitetimizə uyğunlaşdırılmasına nail olmaqdan ibarətdir. Milli təhsil onu nəzərdə tutur ki, məktəb elm, bilik, təhsil verməklə yanaşı, milli ruhun təzahürü kimi çıxış etsin. Tədris müəssisələrinin əsas vəzifələrindən biri Azərbaycan vətəndaşının, Azərbaycan vətənpərvər gənclərinin yetişdirilməsini, tərbiyə olunmasını təmin etməkdir. Milli təhsil konsepsiyasının, təhsil sahəsində dövlət siyasətinin əsas məqsədi dərin və hərtərəfli biliyə, yüksək peşəkarlığa və mədəniyyətə malik, xalqımızın soykökünə, demokratiya və milli müstəqillik ideyalarına sədaqətli, Vətənini, millətini, dövlətini sevən əsl Azərbaycan vətənpərvərini yetişdirmək olmalıdır. Tərbiyə məsələsinə mütəfəkkirlərimiz hər zaman böyük dəyər vermişlər. Mirzə Ələkbər Sabir yazırdı: "Ümmətin rəhnüması tərbiyədir, millətin pişvası tərbiyədir".

Araşdırmalar göstərir ki, dövrün tələblərinə cavab verən milli ruhlu vətəndaş-şəxsiyyət yetişdirmək üçün ilk növbədə təhsilin, tərbiyənin məzmunca milli və ümumbəşəri dəyərlər əsasında yeniləşdirilməsinə, yeni məzmunlu proqram, dərslik və dərs vəsaitlərinin yaradılmasına nail olunmalıdır. Bu məsələdə milli dilimizin, ədəbiyyatımızın, tariximizin, mədəniyyətimizin dərindən öyrənilməsinə çalışmalıyıq.

Təbii ki, bu gün bütün bu deyilənlərə müəyyən mənada nail olduq desək, yanılmarıq. Milli tərbiyə konsepsiyası və buna uyğun dövlət proqramı yaradıldı, bu əsasda ciddi, məqsədyönlü iş aparıldı. Bu gün milli-mənəvi ruhda yetişən igid oğullar bu torpağın azadlığı uğrunda döyüşlərdə fədakarlıq göstərdilər. Bu gün dünya azərbaycanlıları haqq səsimizin dünyaya çatdırılması istiqamətində müxtəlif ölkələrdə həyatlarını təhlükəyə ataraq meydanlara çıxdılar, bu gün hər bir Azərbaycan vətəndaşı orduya maddi və mənəvi dəstəyini əsirgəmədi. Bu Azərbaycan liderlərinin uzaqgörən siyasətinin bariz nümunəsidir. Lakin bu gün uğurlu mübarizəmizi yenə də davam etdirməliyik. Çünki, Azərbaycan xalqı hər zaman mənfur xislətli, işğalçı erməni terroru ilə qarşı-qarşıyadır. Bu səbəbdən biz daim vətənpərvər, milli-mənəvi ruhda mübariz gənclər yetişdirməliyik.

Bütün bu milli-mənəvi dəyərlərin formalaşması, qorunması, böyüməkdə olan nəsillərə ötürülməsində valideynlərin,ailənin rolu və təsiri olduqca əhəmiyyətlidir. Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində məktəblilərin mənəvi tərbiyəsi ilə bağlı maraqlı fikirlər vardır.

Konstitusiyada ailə haqlı olaraq cəmiyyətin özəyi adlandırılmışdır və vətəndaş hazırlığında ailənin mövqeyi aydın verilmişdir. Burada yazılır: "1. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. 2. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir".

Ailə və məktəb böyüyən nəslə düzlük, sədaqətlilik, xeyirxahlıq, vətənpərvərlik, quruculuq və s. kimi münasibətləri formalaşdırmağı və öz davranışında dövlətin, xalqın mənafeyinə zidd hərəkətlərə yol verməməyi tərbiyə etməlidir.

Göründüyü kimi, uşaqlarla əsas tərbiyə işi, onlara qayğı ailənin, valideynlərin üzərinə düşür, məktəb isə bilavasitə bu məsələlərdə ailələrə dəstək olur. Bu sahədə dövlət bu işin təminatını və nəzarətini həyata keçirir. Deməli, Konstitusiya təhsil və tərbiyə konsepsiyasında ailə və məktəbin üzərinə düşən xüsusi və ümumi vəzifələri müəyyənləşdirməyi, böyüyən nəslin iqtisadi, hüquqi, siyasi-mənəvi tərbiyəsini yeni metodoloji əsaslar üzərində qurmağı tələb edir. Ümummilli lider Heydər Əliyev deyirdi: "Biz çalışmalıyıq ki, gənclərimiz Azərbaycan xalqına xas olan mənəvi ənənələr əsasında tərbiyə edilsinlər". Azərbaycan Respublikasının Konstitusiyasında açıqlanan bu kimi tələblərdən biri də xalqın varlığını müəyyən edən ana dilinin inkişafı və təminatıdır. Ana dili haqqında Heydər Əliyev demişdir: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Öz ana dilini bilməyənlər şikəst adamlardır!".

Millətin ən yüksək mənəvi dəyəri olan ana dilinə Azərbaycan Respublikasının Konstitusiyasında geniş yer verilmişdir. 21-ci maddədə yazılmışdır: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Doğma dilimizin yaşaması və inkişafı üçün respublikamızda lazımi şərait yaradılmışdır. Çünki ana dili olmadan uşaqları milli ruhda tərbiyə etmək qeyri mümkündür. Tərbiyə işinin uğurla aparılmasının mühüm amillərindən biri də vətənə sədaqət, vətənpərvərlik hisslərinin aşılanmasıdır.

Ana dilimizin öyrədilməsi elə ailədən başlayır. Hər bir valideyn övladının doğma ana dilində danışmasına, bu dilə sahiblənməsinə çalışmalıdır. Təbii ki, müasir dövrdə yeniyetmələrin, gənclərin xarici dillərə yiyələnməsi də dövrün tələblərindən biridir. Lakin ilk öncə hər bir vətəndaş öz dilinə sahib çıxmalıdır. Doğma dilinin gözəlliyini, musiqisini, bayatısını, nəğmələrini, əfsanələrini mənimsəməli, onu çox qiymətli bir sərvət kimi qorumalıdır.

Konstitusiyanın 74-cü maddəsində göstərilir ki, Vətənə sədaqət müqəddəsdir. Bu müqəddəs amalı şagirdlərə çatdırmaq, onlara mənimsətmək, qanlarına, canlarına hopdurmaq müəllimlərimizin və valideynlərimizin şərəfli işi olmalıdır. Hər bir Azərbaycan vətəndaşı bu müqəddəs hisslərə tapınmalı, onu amalına çevirməlidir.

Bu gün Azərbaycanın multikulturalizm siyasəti milli və bəşəri dəyərlərlə özünü dünyaya tanıdıb. Müxtəlif xalqların dini, mədəni və mənəvi dəyərlərinə hörmətlə yanaşan xalqımız humanist dünyagörüşü və mədəniyyəti baxımından beynəlxalq aləmdə özünəməxsus yer tutub. Bu, multikulturalizm siyasətinin nəticəsidir. Multikulturalizm mahiyyətcə çox mədənilik, fərqli mədəniyyətlərin bir arada yaşadığı cəmiyyəti təyin edən bir baxışdır. Təbii ki, bunlara nail olmaq çox da asan başa gəlmir.

Hazırda 7 xarici ölkə universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris olunur. Fənnin məqsədi Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti, azərbaycançılıq məfkurəsi, Azərbaycan tolerantlığı ilə bağlı mühüm məsələləri bir yerə toplayıb sistemləşdirmək və dünyaya nümayiş etdirməkdir. Bu ali məktəblər arasında Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti, İvan Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, Ural Federal Universitetinin Yekaterinburq filialı (Rusiya Federasiyası), Litva Pedaqoji Universiteti, Praqa Karlov Universiteti (Çex Respublikası), Roma Sapienza Universiteti (İtaliya) və Belarus Dövlət Universiteti var.

Hər bir valideyn övladını tək özü üçün deyil, bötövlükdə bir cəmiyyət üçün yetişdirməyə nail olmalıdır. Çünki böyüyən bir uşaq gələcəkdə bu cəmiyyətin bir fərdinə çevriləcək. Bir fərd olaraq ölkəsini, xalqını çətinliklərdən, mənfur düşmənlərdən qorumaqla doğmasının, yaxınlarının azad və firavan yaşamasını təmin edəcək. Bu xalqın Mübariz İbrahimov, Polad Həşimov və s. kimi igidləri daim yetişəcək. Azərbaycan qadınları tarixən əzmkar, qürurlu və

sülhsevər olduqlarını nümayiş etdirməklə tarixdə ad qazanmışlar. Bu da xalqımızın milli-mənəvi sərvətlərindən birinə çevrilmişdir və nəsildən-nəslə ötürülür.

Tədqiqatlar göstərir ki, hansı xalq qloballaşma dövründə milli dəyərlərə olan təcavüzə qarşı özünün milli-ideoloji cəbhəsini qura bilirsə və onu qorumağı bacarırsa, həmin xalq özünü, mədəniyyətini qoruyur, inkişafını təmin edə bilir.

Milli ideologiyanın möhkəmliyi bizi bir xalq kimi hər zaman irəliyə, inkişafa doğru aparacaq. Ümummilli Lider Heydər Əliyevin "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" - kimi parlaq ideyaları bu gün də yaşayır və həyata keçirilir. Onun ideyalarını indi Prezident İlham Əliyev layiqincə davam etdirir, milli dəyərlərimizə, mənəvi sərvətimizə sahib çıxır.

Bu gün valideynlərin üzərinə düşən ən ümdə vəzifə müasirliklə adət-ənənələr arasında vəhdət yaratmaqdır. Bəzi inkişaf etmiş Avropa ölkələrində cəmiyyətin mənəviyyat problemləri hər birimizə məlumdur. Müasirlik adı altında yol verdikləri nöqsanları bu gün Şərq mədəniyyətini öyrənməklə aradan qaldırmağa çalışırlar. Bu gün Azərbaycan xalqının Qərbdəki kimi problemlərlə üzləşməməsi ilk növbdə milli dəyərlərə önəm verməsi ilə, dövlətimizin bu sahədə qətiyyətli mövqeyi ilə sıx bağlıdır. Bizim müasir, qloballaşan dünyanın inkişafına verdiyimiz töhfələrimiz çoxdur. Bu inkişaf prosesində eyni zamanda öz söykökümüzü və keçmişimizi unutmuruq. Bu da əslində cəmiyyətə verilən ən böyük töhfələrdən biridir. Çünki müstəqillik, müasirlik milli-mənəvi dəyərlərdən asılıdır. Bu gün milli-mənəvi dəyərlərini qoruyub inkişaf etdirə bilən bir dövlət kimi Azərbaycan güclü dövlətdir. Bu xüsusiyyətləri nəzərə alaraq qeyd etməliyik ki, dəyərlərimizin qorunmasında valideynlərin, ailənin rolu getdikcə artır.Ona görə də ailə və məktəb əlaqələri daha da möhkəmləndirilməli, şagirdlərin tərbiyəsində müəllim-valideyn əməkdaşlığı daha da inkişaf etdirilməlidir.

## 4. Uşaq və yeniyetmələrin sosiallaşmasında valideynlərin rolu

Sosiallaşma insanın maddi və mənəvi ehtiyaclarının inkişafında mühüm amillərdən biridir. İnsanların sosial adaptasiyası sağlam cəmiyyət mühitinin

yaradılması deməkdir. Bu səbəbdən sosial adaptasiya problemi dövlətin sosial siyasətinin əsas istiqaməti kimi daim diqqət mərkəzində olur.

Uşaqların və yeniyetmələrin sosiallaşması onların fiziki, zehni və emosional inkişafını təmin edir. Sosiallaşmanın birinci mərhələsi ailədən başlayır. İlk öncə ailədə sosiallaşan uşaq, sonra uşaq bağçalarında, ümumtəhsil məktəblərində, peşə kolleclərində və s. inkişaf edir.

Ailə uşaqları cəmiyyətə, topluma hazırlayan ilk məktəbdir. Ailədə uşaq insanlarla rəftarı, davranışları öyrənir. Xala, bibi, əmi, dayı, baba, nənə əhatəsində uşaq kiçik bir cəmiyyətin üzvü olur. Ailə məclisləri, toy və nişan mərasimləri, bayramlar onlar üçün ilkin sosiallaşma mühiti olur.

Uşaqlar üçün ikinci bir sosiallaşma valideynlərin iştirakı ilə parklarda baş verir. Bəzən kiçikyaşlı uşaqlar bu parklarda oyun əsasında bir-biri ilə ünsiyyətə girirlər. Bu kiçik parklarda uşaqların sosiallaşmasının müsbət və mənfi tərəfləri özünü biruzə verir. Məsələn, uşaq digər uşağa qarşı aqressiv münasibət göstərirsə, deməli, onun sosiallaşmasında problemlər var. Belə ki, ailədə uşaq ya həddindən artıq əzizlənərək vurmağa, dagıtmağa, yaxud xoşagəlməz sözlərə alışdırılıb. Yaxud da elə ailədə baş verən aqressiyaların, davranışların eynisini özündən kiçiklərə tətbiq etməklə gördüklərini təlqin etməyə cəhd göstərir.

Bəzən bu davranışlara valideynlərin də münasibəti normal olur. Onlar uşaqlarının “ərköyün” saxlanıldığını ifadə etməklə bu davranışların normal olduğunu vurğulamağa çalışırlar. Qeyd edək ki, “ərköyün” sözünün izahlı mənası “xudpəsənd”, “özünüsevən” anlamına gəlir. Beləliklə, valideynlərin xudpəsənd uşaq tərbiyə etməsi ilə fəxr etməyi heç də normal deyil. Bu kimi ifadələrə biz başqa hallarda da rast gəlirik. Məsələn, qohumluq məqsədilə elçilik üçün gələn oğlan valideynlərinə “bizim qızımız ərköyün saxlanılıb” ifadəsini işlədən valideynlər bununla özlərinin, qızlarının üstünlüyünü vurğulamağa çalışırlar. Halbuki, hər bir valideyn “Uşağım əzizdir, tərbiyəsi ondan da əzizdir” prinsipləri əsasında tərbiyə metodu seçməlidir. Valideynlər övladlarını qayğı və nəvaziş çərçivəsində böyütməklə onları “ərköyün”lükdən uzaq tutmalıdırlar. Parklarda uşaqların davranışından nəticə çıxaran valideynlər onların sosiallaşmasında yol verdikləri nöqsanların qarşısını vaxtında almağa

cəhd göstərməlidirlər. Əks halda bu yol həmin uşaqların gələcək həyatı üçün çoxlu problemlərə gətirib çıxaracaq.

Sosiallaşmasında problem olan uşaqlar sonrakı mərhələlərdə bağçalarda həm özlərinə, həm də başqalarına problem yaradırlar. Valideynlər uşaqlarının düzgün tərbiyə olunmamasına dair tərbiyəçilərdən, digər valideynlərdən kəskin iradlar eşidirlər. Yaxud bu uşaqlar başqa uşaqlara aqressiya göstərdikləri zaman həmin uşaqlar tərəfindən fiziki zərbələrə məruz qalırlar. Uşaqlarının döyüldüyünü, yaxud digər uşaqlar tərəfindən ünsiyyətdən kənar buraxıldığını görən valideynlər günahı digərlərində axtarmaqla özlərini haqlı hesab edirlər. Lakin əsl problemi valideynlər özlərində görməlidirlər. Sosiallaşma problemində yol verdikləri problemləri aradan qaldırmağa çalışmalıdırlar. Uşaqlarının nə zaman haqlı, nə zaman haqsız olduqlarını izah etməlidirlər.

Ümumtəhsil məktəblərində də bu kimi hallarla çox rastlaşırıq. Bəzən sosiallaşma problemi uşaqların intiharına da gətirib çıxarır. Hamımıza məlumdur ki, Bakının 162 nömrəli məktəbində 14 yaşlı yeniyetmə qız Elina Hacıyeva 2019-cu ildə məhz sosiallaşma problemi nəticəsində özünü məktəbin 3-cü mərtəbəsindən ataraq intihar etmişdir. İntihar səbəbi kimi onun məktəb mühitində zorakılıqlara məruz qalması göstərilmişdir. Elinanın sosiallaşma problemi təbii ki, təkcə məktəb mühitinin üzərinə düşə bilməz. Burada valideyn məsuliyyəti də önəmli amillərdən biri sayıla bilər. Valideynlərinə güvənən uşaqlar bu kimi zorakılıqlarla rastlaşdıqda valideynlərinə müraciət etməklə onlardan dəstək alırlar. Amma görünür ki, Elina valideynlərindən bu dəstəyi ala bilmədiyi üçün çıxış yolu kimi intiharı seçdi.

Onu da qeyd edək ki, bəzən uşaqlar “ərköyünlük” səbəbindən də sosiallaşma mühitində intihara üz tuturlar. Yox sözünə alışmayan, ailədə hər zaman üstünlüyünü nümayiş etdirən uşaqlar sosial mühitdə sözləri keçərli olmadıqda bunu öz qürurlarına sığışdırmırlar. Yaxud intihara təşəbbüslə ətrafdakı insanların diqqətini özlərinə cəlb etməyə çalışırlar.

Ona görə də hər bir valideyn uşaqlarının sosial mühitdə dayanıqlığını təmin etməyə çalışmalıdırlar. Hər bir uşaq psixoloji cəhətdən sosial mühitə hazırlaşdırılmalıdır. Valideynlər onların sosial mühitdə fərqli situasiyalarla rastlaşacaqlarını onların nəzərinə çatdırmalıdır.

Məktəblilər məktəb mühitində hər hansı bir problemlə üzləşdikdə valideynlər bunun kökünü və səbəbini araşdırmalıdır. Araşdırma aparmadan onlar övladlarını istiqamətləndirməli deyillər. Məsələn, o səni təhqir etdi, sən də onu təhqir et! O səni itələdi, sən də onu itələ! Yaxud müəllim niyə onu yox, səni haqsız yerə cəzalandırdı? Bu kimi ifadələrlə valideynlər uşaqlarını qoruduqlarını, onları sosial mühitdə müdafiə etdiklərini düşünürlər. Əslində isə onlar uşaqlarına sosial mühitdə daha geniş problemlərə yol açdıqlarının fərqinə belə varmırlar. Burada valideynlərin üzərinə düşən vəzifə uşaqlarının ilk növbədə psixoloji dayanıqlığını möhkəmləndirməkdir. Məsələn, əgər sinif yoldaşın səni eləmədiyin bir işə görə günahlandırırsa, sən səbirlə, təmkinlə bunun əksini ona sübut etməlisən. Yaxud, əgər sən qəlbində günahsız olduğuna əminsənsə, başqasının sənin haqqında fikrinə bir o qədər də əhəmiyyət verməməlisən. Sən özünün daxili gücünü göstərərək səni haqsız yerə günahlandıran insanlara qarşı tolerant olmalısan. Sən güclü olduğunu sübut etməlisən və s.

Sosial mühitin mənfi və müsbət cəhətləri uşaqlara hərtərəfli izah edilməlidir. Bununla valideynlər həm özlərinin, həm də uşaqlarının gələcəyini təminat altına almış olurlar.

Hal-hazırda uşaqlarda sosiallaşma problemlərinin yaranma səbəblərindən biri kimi texnologiyaları və sosial şəbəkələri də qeyd edə bilərik. Bəzən həddən artıq oyunlara aludə olan uşaqlar ünsiyyətdən uzaqlaşır, hətta ailə üvzləri ilə belə münasibətdə olmaqdan yayınırlar. Bəzi valideynlər üçün uşaqların bu sakitliyi ilk baxışda onların rahatlığı kimi görünür. Amma əslində bu, onlarda ciddi narahatlıq yaratmalıdır. Çünki, sosiallaşma problemi yaşayan uşaqlar peşə seçimində, yaxud, özlərinin maddi tələbatlarının ödənilməsi zamanı, çalışacaqları müəssisələrdə, iş fəaliyyəti prosesində daim problem yaşayaraq və nəticədə işdən uzaqlaşacaqlar. Bununla da onlar cəmiyyətdən təcrid olunacaq, həyat reallıqlarını ümumiyyətlə, dərk etməyəcəklər. Yaxud çıxış yolunu zərərli vərdişlərə qurşanmaqda görəcəklər.

Sosial şəbəkə problemi kimi isə uşaqların və yeniyetmələrin burada pis niyyətli insanlar tərəfindən ünsiyyətə cəlb edilməsidir. Xüsusən azyaşlı qızlar insan alverinin qurbanına çevrilə bilər, eləcə də sosial şəbəkələrdə əxlaqsız davranışlara, şəkillərə cəlb edilməklə onların gələcəklərini ciddi zərbə altına

qoyula bilər. Bəzən sosial şəbəkələrdə yayımlanan hər hansı bir əxlaqsız şəkillərə görə bu kimi qızlar ataları, qohumları, yaxud qardaşları tərəfindən öldürülür ki, bu da bir ailənin faicəsinə səbəb olur.

Sosial şəbəkələrdə uşaq və yeniyetmələr orqan alverçiləri tərəfindən aldadıla, narkotik alverçiləri tərəfindən pis vərdişlərə də yönləndirilə bilər. Ona görə uşaq və yeniyetmələrin bu cür sosiallaşması valideynlər üçün ciddi narahatlıq yaratmalıdır.

Digər bir məsələ isə əsasən yeniyetmə oğlanlar arasında baş verir. Sosial şəbəkələrdəki fikir ayrılığı bəzən onlar arasında ciddi münaqişələrə gətirib çıxarır ki, onlar qrup, yaxud dəstə halında bu problemləri həll etməyə çalışırlar.

Təbii ki, bütün bu qeyd olunan amillər əksər valideynlərə məlumdur. Lakin biz pedaqoji və psixoloji aspektdən bir daha bunları vurğulamaqla valideynləri uşaqların tərbiyəsində daha diqqətli olmağa yönləndirmək istərdik.

Yuxarıda da qeyd etdiyimiz kimi hər bir uşağın düzgün sosiallaşması sağlam cəmiyyətin təməli deməkdir. Sağlam cəmiyyətdə yaşamaq isə cəmiyyət üzvlərinin təhlükəsizliyi, firavan yaşaması deməkdir.

## 5. Uşaq və yeniyetmələrin tərbiyəsində mühüm tərbiyə vasitələri

Tərbiyənin məzmunu ahəngdar şəxsiyyət tərbiyəsinin bütün tərkib hissələrini özündə birləşdirir. Buraya əqli tərbiyə, ideya-siyasi tərbiyə, əxlaq tərbiyəsi, estetik tərbiyə, əmək tərbiyəsi, fiziki tərbiyə, hüquq, iqtisadi və ekoloji tərbiyə daxildir. Bu tərbiyə sahələri tərbiyənin ümumi məqsədinin həyata keçirilməsində - ahəngdar şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.

Tərbiyənin həyata keçirilməsində və təkmilləşdirilməsində tək-tək insanlar deyil, cəmiyyətin bütün üzvləri iştirak etmiş və edirlər. İrqindən, cinsindən, milliyyətindən, yaşından asılı olmayaraq hər bir insanın tərbiyəyə ehtiyacı var. Tərbiyə cəmiyyətin bütün üzvlərinə aid olan ümumi bir hadisədir. Tərbiyə əbədi və tarixi kateqoriyadır.

Pedaqoq alim A.N.Abbasov qeyd etmişdir: "Biz cəmiyyətdən ayrı yaşamırıq və cəmiyyətdə baş verən dəyişikliklərə biganə qala bilmərik. Eyni zamanda həmin dəyişikliklər bu və ya digər dərəcədə hər bir şəxsin həyatına da öz təsirini göstərir".

Pedaqoq alim F.Rüstəmovun təbirincə desək, "tərbiyənin əbədiliyi, heç də onun dəyişməz olduğu demək deyildir. Tərbiyə, eyni zamanda, tarixi hadisədir. Yəni o, tarixən əmələ gəlmiş və cəmiyyət inkişaf etdikcə o da dəyişmiş və inkişaf etmişdir. Elə bu nöqteyi nəzərdən də tərbiyə prosesinin əsas komponentlərindən olan tərbiyə üsullarının təkmilləşdirilməsi və təsnifatı problemi pedaqoji tədqiqatlarda xüsusi yer tutur. Tərbiyənin mahiyyətindən, məqsədindən, məzmunundan, prinsiplərindən, vəzifələrindən irəli gələn tərbiyə üsulları problemi mürəkkəb olduğundan onun elmi-nəzəri cəhətdən əsaslandırılmış təsnifatının yaradılması tədqiqatçı alimləri ciddi narahat edirdi".

Pedaqoq-alimlərdən M.Mehdizadə, H.Hacızadə və b. belə nəticəyə gəlmişlər ki, müəllim şagirdlərlə qarşılıqlı ünsiyyət nəticəsində onların hissi aləminə, şüuruna, idraki fəaliyyətinə, davranışına məqsədyönlü təsir göstərərək, onları pis əməllərdən çəkindirə bilərlər.

Pedaqoq alim Z.İ.Qaralov özünün "Tərbiyə" əsərində qeyd etmişdir: "Tərbiyə metodları fərdləri, bütövlükdə cəmiyyəti necə görmək, hansı səmtə istiqamətləndirmək niyyətinə xidmət göstərmişdir. Buna görə də tərbiyənin metodları onun məzmunu, formaları və vasitələri ilə üzvi surətdə əlaqəli olmuşdur".

Tərbiyə üsullarının qruplaşdırılması da müxtəlif aspektlərdə təqdim olunmuşdur. M.Mehdizadə, M.Muradxanov, T.Əfəndiyev, İ.Vəlixanlı pedaqogika dərsliyində əxlaq tərbiyəsinin əsaslarını verərək tərbiyənin dörd əsas üsulunu müəyyən etmişlər. İnandırma, alışdırma, cəzalandırma və rəğbətləndirmə.

Pedaqoqlar uşaqlarda əxlaqi tələblər haqqında aydın təsəvvür yaratmaqda və onlarda əqidə oyatmaqda inandırma üsulunu tərbiyənin ən mühüm vasitəsi hesab etmişlər və onun aşağıdakı formalarda təsnifatını vermişlər: əxlaqi söhbətlər, əxlaqi məsələlərə dair məruzə və mühazirələr, disputlar və ədəbi əsərlərin müzakirəsi. Eyni zamanda əxlaqi normaların həyata keçirilməsində alışdırmanın zəruriliyini və onun üç mühüm vasitəsini – rejim, ictimai-faydalı əmək və ictimai iş, oyun və idmanın tərbiyə prosesində oynadığı rolunu açıqlamışlar.

Rəğətləndirmə və cəzalandırmadan danışan pedaqoqlar tərbiyənin vasitələrindən söz açmayaraq, sadəcə rəğətləndirməni uşağın müsbət hərəkətlərinə görə, cəzalandırmanı isə mənfi hərəkətlərinə görə verildiyini qeyd etmişlər. Lakin yenə həmin vəsaitdə onlar, şüurlu intizam tərbiyəsi adlı bölümdə intizam tərbiyəsinin vasitə və yollarına rəğbətləndirməni (təriflәmə, təşəkkür, mükafatlandırma, tərifnamə) və cəzalandırmanın (danlaq, ayaq üstə saxlamaq, rəsmi töhmət vermək, dərsdən kənar etmək, dərsdən sonra saxlayıb icra olunmamış tapşırığı icra etdirmək, şagirdi pedaqoji şuraya çağırmaq, əxlaq qiymətini aşağı salmaq, əmrlə töhmət vermək, paralel sinfə köçürmək, məktəbdən xaric etmək) növlərini daxil etmişlər. Əxlaq tərbiyəsinin prinsip və üsullarının tədqiqi ilə ciddi məşğul olan M.Muradxanov 1960-cı illərdə tərbiyə üsullarından yenidən, lakin bir az fərqli şəkildə bəhs etmişdir. Belə ki, yenə də dörd üsulu diqqətə çatdırmış, bu üsullar əsasında fikirlərini əsaslandırmışdır. İnandırma, alışdırma, rəğbətləndirmə və cəzalandırma, müəllimin şəxsi nümunəsi.

Rus alimlərindən P.N.Şimbiriyev və İ.T.Oqorodnikov "Pedaqogika" kitabında şüurlu intizam tərbiyəsinin üsullarını ayrıca başlıq altında vermişdir, amma orada yalnız rəğbətləndirmə və cəzalandırmadan bəhs olunmuşdur, onun vasitələri verilməmişdir. 1946-cı ildə isə onlar "Pedaqogika" dərs vəsaitində tərbiyə üsullarını aşağıdakı kimi qruplaşdırmışdır:

1. İnandırma (əxlaq dərsi – bir çox ölkələrdə inandırma xüsusi dərs kimi keçirilir, tərbiyəvi təhsil prosesində əxlaqi baxışlar, əxlaqi söhbətlər və disput);

2. Tərbiyədə nümunə və nüfuz (tərbiyəçinin nümunəsi və müəllimin nüfuzu);

3. Bəyənmə və məzəmmət (kollektivdə bəyənmə və məzəmmət);

4. Tərbiyədə rejim (məktəb rejimi, ictimai rejim);

5. Uşaq oyunları (məktəb yaşında olan uşaqlara məxsus oyunlar);

6. İctimai iş.

1972-ci ildə N.V.Savin tərbiyənin ümumi üsullarından bəhs edərkən aşağıdakı məsələlərə diqqət yetirməyi vacib sayır:

1. İctimai davranışın formalaşması və şagirdlərin fəaliyyətinin təşkili. Buraya alışdırma və təmrin, nümunə, oyun, tapşırıq, yarış daxildir.

2. Şüurun formalaşması.Buraya isə söhbət, disput, mühazirə, mətbuat materiallarının, ədəbi əsərlərin, kinofilmlərin müzakirəsi daxildir;

3. Rəğbətləndirmə və cəzalandırma.

Araşdırmalar göstərir ki, bəzi pedaqoqlar tərbiyə üsullarını iki, üç və dörd istiqamətdə əsaslandırmışlar. Məsələn, N.İ.Boldırev bu üsullara – inandırmanı, alışdırmanı, həvəsləndirməni, cəzalandırmanı və şəxsi nümunəni aid edir.

Beləliklə, aparılan araşdırmalar onu deməyə əsas verir ki, elmi-pedaqoji ədəbiyyatda tərbiyə üsulları dövrün və zamanın tələbləri əsasında dəyişilmişdir. Bu baxımdan da pedaqoq alimlər tərbiyə üsullarına müxtəlif aspektdən yanaşmışlar. Lakin məqsəd gənc nəslin tərbiyəsini, mənəvi keyfiyyətlərini hərtərəfli və ahəngdar inkişaf etdirmək, cəmiyyətə yararlı şəxsiyyətlər yetişdirməkdir.Ona görə də tərbiyənin məzmunu həm də cəmiyyətin aynasıdır. Bu gün cəmiyyətin əxlaqi cəhətdən saf insanlar əsasında formalaşması məhz tərbiyə işinin nəticəsi kimi də dəyərləndirilə bilər. Bu baxımdan tərbiyənin tərkib hissələri mühüm rol oynayır.

**Əqli tərbiyə.** Əqli tərbiyə gənc nəsli biliklər sistemi ilə, elmi dünyagörüşü, ideya-mənəvi keyfiyyətlərlə silahlandırmağa, zehni qabiliyyətləri, təfəkkürü inkişaf etdirməyə kömək göstərir.

Əqli tərbiyə təlim prosesində və sinifdənxaric tədbirlərdə həyata keçirilir və aşağıdakı vəzifələrin həllinə yönəlir:

a) təlim prosesində məktəbliləri bilik, bacarıq və vərdişlərlə silahlandırılmasına;

b) əmək bacarıqları və zehni əmək mədəniyyətinin formalaşdırılmasına;

c) yaradıcı təfəkkürün, zehni qabiliyyətin, psixi proseslərin inkişaf etdirilməsinə;

d) elmi-dunyagörüşünün, nəcib insani keyfiyyətlərin formalaşdırılmasına.

**İdeya-siyasi tərbiyə** şəxsiyyətin istiqamətini təşkil edən ideyalar, siyasi baxış və əqidə yaratmağa xidmət edir. İdeya-siyasi tərbiyə tarixi keçmişimizdən, milli qürurumuzdan qaynaqlanmalıdır. Müstəqil Azərbaycan təhsili hal-hazırda bu ideyalara xidmət edərək Azərbaycan məktəblilərini bu siyasi amal uğrunda tərbiyə etməyə çalışır. İdeya-siyasi tərbiyə qarşısında aşağıdakı vəzifələr dayanır:

- uşaq və yeniyetmələri ideyalılıq və siyasi şüurluluq, habelə xalqımızın inqilabi, döyüş və əmək ənənələri ruhunda tərbiyə etmək;

- bəşəri və milli ideyalar, siyasi normalar və münasibətlər haqqında biliklərlə silahlandırmaq;

- siyasi normalar, siyasi reallıqlar və baxışları düzgün qiymətləndirmək bacarığını formalaşdırmaq;

- ictimai-siyasi fəallığını artırmaq məqsədilə bacarıq və vərdişlər formalaşdırmaq.

Ümummilli lider Heydər Əliyev Dünya azərbaycanlılarının birinci qurultayında müstəqil Azərbaycan Respublikasının ideoloji əsaslarından bəhs edərkən demişdir: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. “Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Milli-mənəvi dəyərlər və azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Xalqımız, millətimiz zamanla milli-mənəvi dəyərlərini - düzlük, doğruluq, ədalətlilik, qonaqpərvərlik və s. kimi xüsusiyyətlərini qoruyub saxlamağı və formalaşdırmağı bacarmışdır. Bu baxımdan uzun illər milli-mənəvi dəyərlərimizin tapdanmaması uğrunda mübarizə aparan, yenilməz bir xalq olduğumuzu sübut etmişik. Eyni zamnada ölkəmizdə yaşayan azsaylı xalqların milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə də hörmətlə yanaşırıq. İslam dininin əsas tələblərindən biri olan “insan-insanın dostudur” şüarını əsas götürən xalqımız respublikamızda yaşayan azsaylı xalqlara hörmət və məhəbbətlə yanaşmaqla onu mənəvi dəyər kimi qiymətləndirir. Onlar da həmçinin, taleyin hökmü ilə öz ömür-gününü xalqımıza bağlayıb, xalqımızın çətin günlərində bizim dərdimizə şərik olub, bizimlə birgə çətinliklərə sinə gəriblər.

İdeya- siyasi tərbiyə məktəb tədbirlərində məktəblilərə aşılanır və bu, onlarda dəyərləri, mənəvi hissləri inkişaf etdirir.

İdeya-siyasi tərbiyə təkcə təlim prosesində deyil, həm də sinifdənxaric və məktəbdənkənar tədbirlər yolu ilə aparılır:

a) kütləvi tədbirlər;

b) klub və dərnək tədbirləri: ictimai-siyasi klub, muzey və dərnəklər;

c) mənəvi fərdi işlər: şagirdlərin şəxsi təhsili, müxtəlif fərdi tapşırıqlar (qəzet, stend, məruzə hazırlamaq) və s.

Bu tədbirlər zamanı milli-mənəvi dəyərlərə - milli musiqimizə, incəsənət nümunələrimizə yaranan sevgi, məhəbbət və hörmət əməli işdə nümayiş etdirilir. Bu işin təşkilinin müxtəlif forma və metodları məktəblilərdə vətənpərvərlik hisslərini gücləndirir və sonrakı mərhələlərdə onların əsl vətəndaş olmasında mühüm rol oynayır.

**Əxlaq tərbiyəsi** insanda əxlaqi şüura, müsbət davranış adətləri formalaşdırmağa istiqamətlənir.

Əxlaqın formalaşmasında müəyyən amillər rol oynayır. Bu amillər içərisində ilk növbədə şagirdləri əxlaqi hərəkətlərin zəruriliyinə inandırmaq vacibdir. Bu da tədricən əqidənin formalaşmasına zəmin yaradır. Əqidə özü də təbii olaraq əxlaqi hərəkətlərə güclü təsir göstərir. Əqidənin gücü ondadır ki, uşaq hər hansı bir qaydaya inanıb, əqidəsini formalaşdırarsa, o, öz fəaliyyətində təşəkkür gözləmədən müvafiq əxlaqi tələbi həyata keçirəcək. Məsələn, yaşlılara avtobusda, metroda yer vermək, şəhid ailəsinə, Vətən müharibəsi qazilərinə, qızlara, xanımlara hörmət etmək və s.

Əxlaqi hərəkətlərin həyata keçirilib, adət halını almasında iradə də böyük rol oynayır. Belə ki, çox vaxt iradəsi kifayət qədər inkişaf etməmiş şagird əxlaqi normaların həyata keçirilməsində çətinlik çəkir. Məsələn, dərs hazırlamaq lazım olduğunu bilən şagird onun vaxtını nədənsə uzadır, sonda isə dərs hazırlanmamış qalır. Əlbəttə, şagirdi alacağı qiymətlər, müəllim və valideynləri tərəfindən ediləcək danlaq maraqlandırır, lakin iradəsinin zəifliyindən bunları həyata keçirə bilmir. Deməli, şagirdlərdə əxlaqi hissləri tərbiyə etmək üçün onun iradəsini möhkəmləndirmək vacibdir. Bəzən şagirdlərdə adət halını almış hərəkətləri yerinə yetirərkən onlar heç də iradələrini səfərbər etmir, onu mexaniki şəkildə yerinə yetirirlər. Məsələn, dərs danışarkən ayaq üstə dayanmaq, müəllim sinfə daxil olarkən ayağa qalxmaq və s. belə adət halını almış hərəkətlərin həyatda çox böyük rolu olur. Elmi araşdırmalar və təcrübə göstərir ki, məhz iradənin köməyi ilə müəyyən əxlaqi adətləri – intizamlı olmağı, dərslərini hazırlamağı, təbiətə qayğını, idmanla məşğul olmağı və s. kimi xüsusiyyətləri şagirdlərdə formalaşdırmaq mümkündür .

Əxlaq tərbiyəsi aşağıdakı vəzifələri yerinə yetirir:

- əxlaqi şüur, inam və əqidə formalaşdırmaq;
- nəcib əxlaqi hisslər aşılamaq;

- düzgün davranış mədəniyyəti formalaşdırmaq;

- əxlaqi eybəcərliyə, haqsızlığa, şərə qarşı barışmazlıq, mübarizə əzmi, fəal həyat mövqeyi tərbiyə etmək.

Əxlaqi söhbətlər bütün siniflərdə tətbiq olunur. Söhbətin keçirilməsində müəllim şagirdin yaş xüsusiyyətini, anlaq səviyyəsini, fərdi keyfiyyətlərini nəzərə almalıdır. Bundan başqa vacib məsələlərdən biri budur ki, müəllim, söhbətin məzmunlu, təsiredici, qısa və aydın olmasına çalışmalıdır. Əgər şagird öz hərəkətlərində kobudluğa yol veribsə, o zaman müəllim söhbətlərini kobudluğun ətrafdakı insanlara təsirindən danışmalı, bu yolla şagirdə tərbiyəvi təsir göstərməlidir.

Əxlaqi söhbətlər iki formada keçirilə bilər: kollektiv və fərdi. Fərdi söhbət bir qayda olaraq fərdin hərəkəti ilə bağlı olur. Belə hərəkət mənfi və müsbət xarakterli ola bilər. Müsbət hərəkətə görə keçirilən söhbət şagirdlərdə fərəh hissi, daha yaxşı qavramağa meyl və maraq yaratmaq məqsədilə keçirilir. Adətən fərdi söhbətlər sakit şəraitdə keçirilir, şagirdə müstəqillik verilir. İkilikdə keçirilən belə söhbətlərə kənar adamların qarışması məsləhət bilinmir. Xüsusilə yeniyetməlik və ilkin gənclik dövründə şagird ailənin vəziyyətindən, özünün psixi xüsusiyyətindən asılı olaraq bəzən elə hərəkətə yol verir ki, bunun səbəblərini şagird yalnlz ikilikdə keçirilən söhbət zamanı aça bilər. Başqaları söhbətə qarışdıqda o utanar, xəcalət çəkər və hadisənin mahiyyətini açmaq istəməz. Bu, qızlarda daha çox təsadüf olunur.

**Əmək tərbiyəsi** əməksevərlik, əməyə məhəbbət, əmək bacarıq və vərdişləri tərbiyə edir, gənc nəsli psixoloji və əməli cəhətdən əməyə, peşə seçmə işinə hazırlayır.Şəxsiyyətin inkişafını əmək tərbiyəsi olmadan təsəvvür etmək mümkün deyil. Bu baxımdan əmək tərbiyəsi şəxsiyyətin formalaşması prosesində son dərəcə zəruri olan bir amildir. Bu baxımdan əmək tərbiyəsi qarşısında da aşagıdakı vəzifələr durur:

- uşaqları və yeniyetmələri psixoloji cəhətdən əməyə hazırlamaq;

- əməksevərlik, əmək adamlarına və əmək məhsuluna hörmət, əməyə məsuliyyətli münasibət formalaşdırmaq;

- əmək bacarıq və vərdişləri, əmək mədəniyyəti formalaşdırmaq;

- yeniyetmə nəslə şüurlu surətdə peşə seçməkdə kömək göstərmək.

Əmək tərbiyəsi müəyyən əxlaqi və mənəvi keyfiyyətlərə istiqamətləndirilməlidir və uşağın, yeniyetmənin yaşına, gücünə uyğun qurulmalıdır. Çünki, əmək fəaliyyəti uşaq və yeniyetmələrin fiziki inkişafına xələl gətirməməlidir. Fərdi əməklə kollektiv əməyi əlaqələndirməyi bacarmalıdır. Fərdi əmək prosesində daşıdığı məsuliyyətin kollektiv zamanı iki qat artdığını dərk etməlidir. Eləcə də uşaq və yeniyetmələr əməyin müxtəlif növləri arasında fərqi və əlaqəni qurmağı bacarmalıdırlar:

- Özünəxidmət əməyinin təməli ailədən qoyulur, məktəbəqədər və digər təhsil müəssisələrində davam etdirilir.
- İctimai-faydalı əmək cəmiyyətin xeyrinə olan pulsuz əməkdir ki, uşaq və yeniyetmələr buna alışdırılmalıdır.
- Məhsuldar əmək isə uşaq və yeniyetmələrin təcrübədə əməyə alışdırılmasıdır.

Ümumtəhsil məktəblərində əmək tərbiyəsi Təhsil Qanununda, Milli Təhsil Konsepsiyasında (kurikulum) və digər məktəblə bağlı sənədlərdə göstərilmişdir.

**Estetik tərbiyə** böyüyən nəsli gözəllik ruhunda tərbiyə edir, onda estetik hisslər, zövq, bədii-estetik bacarıqları formalaşdırır. Estetik tərbiyə incəsənət və həyatdakı gözəlliklərin qavranmasını formalaşdırır. Estetik tərbiyə aşağıdakı vəzifələri icra edir:

- uşaq və yeniyetmələrə gözəlliyi, həyatı dərk etməyə kömək edir;
- əmək tərbiyəsi ilə əlaqəli olub insanın gördüyü işdən zövq almasını, yaradıcı əməklə məşğul olmasının yollarını aşılayır;
- estetik zövq əsasında uşaq və yeniyetmələrdə varlığa, incəsənətə əsaslı qiymətləndirmə bacarığı formalaşdırır;
- bədii yaradıcılıq bacarıq və vərdişləri, qabiliyyətləri inkişaf etdirir.

**Fiziki tərbiyə** şəxsiyyətin vacib keyfiyyətlərini - sağlamlığı, gümrahlığı möhkəmləndirir, gənc nəsli əməyə, Vətənin müdafiəsinə hazırlayır.

Fiziki tərbiyə aşağıdakı vəzifələri yerinə yetirir:

- uşaq və yeniyetmələrin sağlamlıq imkanlarının genişləndirilməsi;
- müxtəlif xəstəliklərdən qorunma bacarığının formalaşdırılması;
- fiziki calışmalar üzrə məşğələlərin təşkili, mühüm hərəkətlər üzrə dözümlülüyə alışdırılma;
- şəxsi və ictimai gigiyena qaydalarına vərdişlərin yaradılması və s.

Fiziki tərbiyə müxtəlif vasitələrlə həyata keçirilir. Məsələn, təbii amillər (su, hava, təbiət, günəş), gigiyenik amillər (rejim, səmərəli qidalanma, mədəni-gigiyenik vərdişlərə yiyələnmək, gigyenik şərait və s.) və fiziki hərəkətlər.

**Hüquq, iqtisadi və ekoloji** tərbiyə böyüyən nəsli hüquqi, iqtisadi və ekoloji mədəniyyət ruhunda tərbiyə etməklə, cəmiyyətdə yaşayıb fəaliyyət göstərməyə hazırlayır, vətəndaş kimi öz hüquq və vəzifələrini dərk etməyə kömək göstərir.

**Hüquq tərbiyəsi** Qanunun tələbləri əsasında uşaq və yeniyetmələrə birgəyaşayış qaydalarını, hüquq və vəzifələrini, eləcə də üzərlərinə düşən vəzifələri yerinə yetirmək qabiliyyəti formalaşdırır. Hüquq tərbiyəsi aşağıdakı vəzifələri yerinə yetirir:

- Azərbaycan Respublikasının Konstitusiyası və digər mühüm dövlət sənədlərinə dair ümumi anlayış formalaşdırmaq;
- öz hüquq və vəzifələrini dərk etməklə onları həyata keçirmək bacarığı formalaşdırmaq;
- hüququn sahələri ilə tanışlıq (uşaq hüququ, ailə hüququ, əmək hüququ, dövlət hüququ və s.);
- məktəb intizamına dair mədəniyyət qaydalarına yiyələnmək və s.

Hüquq tərbiyəsi də təlim prosesi ilə bərabər, sinifdənxaric tədbirlərdə həyata keçirilir.

**İqtisadi tərbiyə** tərbiyənin sahələrindən biridir. İqtisadi tərbiyə qarşısında aşağıdakı vəzifələr durur:

- uşaq və yeniyetmələrdə təsərrüfatçılıq, sahibkarlıq haqda təsəvvürlər, iqtisadi təfəkkürü formalaşdırmaq;
- psixoloji və əməli cəhətdən iqtisadi fəaliyyətə hazırlamaq;
- qənaətcillik, ictimai mülkiyyətə, xalq əmlakına, məktəb avadanlığına, suya, enerjiyə, çörəyə qayğılı münasibət tərbiyə etmək, israfçılığa yol verməmək;
- iqtisadi bacarıq və vərdişlərin planlaşdırılması (əmək əməliyyatlarının sistemi, işin icra mərhələləri, icra metodları, işin təhlili və qiymətləndirilməsi);
- təkmilləşdirmə bacarıqları (əməyin texnologiyasının təkmilləşdirilməsi, səmərələşdirici təkliflərin irəli sürülməsi və s.);
- təşkilati bacarıqlar (işin səmərəli metod və priyomlarla az vaxt ərzində səmərəli təşkili və s.).

**Ekoloji tərbiyə.** Ekoloji tərbiyə uşaq və yeniyetmələrin təbiətə münasibətinin, qayğısının göstəricisidir. Ekoloji tərbiyənin qarşısında duran vəzifələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- uşaq və yeniyetmələrdə təbiətə qayğı və mühafizə mədəniyyəti formalaşdırmaq;
- təbiətə qarşı cavabdehlik hissi yaratmaq;
- maddi sərvətlərin dəyərinin əks olunması;
- iqtisadi vəzifələrin vicdanla yerinə yetirilməsi və s.

Bütün bu prosesin düzgün və hərtərəfli həyata keçirilməsində **müəllimin şəxsi nümunəsi** önəmli faktorlardan biridir.

Görkəmli ensiklopedist alim, Şərqdə orta əsr fəlsəfəsinin banisi Əl-Fərabi fəlsəfi pedaqoji irsində müəllim, tərbiyəçi şəxsiyyəti, onun pedaqoji qabiliyyəti, əxlaqi-mənəvi keyfiyyətinin xüsusi yer tutduğunu deyir. Fərabinin fikrincə, müəllim şagirdlərində düzgünlük, ədalət, nəzakət tərbiyə etmək istəyirsə, özü bu keyfiyyətlərə malik olmalıdır. Əsl tərbiyəçi təkcə uşaqlar üçün yox, həm də bütün insanlar üçündür. O kəslər yaxşı tərbiyəçi və müəllimlər ola bilərlər ki, özündə bir neçə anadangəlmə və həyatda qazanılmış keyfiyyətləri uğurla birləşdirsin. Fərabi tərbiyəçilərin aşağıdakı keyfiyyətlərə malik olmasını zəruri hesab edirdi:

- hiss orqanlarının yüksək kamilliyi; dəmir məntiq; dərketməyə məhəbbət; fenomen yaddaş;iti müşahidəçilik qabiliyyəti və səlis nitq; yeməkdə və içməkdə orta həddi gözləmək; həqiqətə məhəbbət, yalana nifrət; pula və dünya malına, bər-bəzəyə etinasızlıq; ədalət, mərdlik, igidlik.

Əl-Fərabi belə tərbiyəçilərin şəxsi nümunələrini ən gözəl tərbiyə üsulu hesab edirdi. Müəllimin davranışının tərbiyədə mühüm rol oynadığını bildirərək yazırdı: “Müəllimin davranışı nə çox sərt, nə də çox mülayim olmalıdır. Hədsiz ciddiyyət və sərtlik şagirdlərdə əks təsir yaradacaqdır. Müəllim yetirmələrinə hörmətlə yanaşmalıdır”.

Bəzi müəllimlər yerli-yersiz şagirdlərə qarşı ciddilik göstərir, yersiz sözlər işlətməkdən çəkinmirlər. Belə müəllimlər bununla öz nüfuzlarının yüksələcəyini zənn edirlər. Əlbəttə, belə nüfuz möhkəm olmaz.

Şərq dünyasının böyük alimi Əbu Əli İbn Sina uşaqların tərbiyəsində valideyn və tərbiyəçilərin şəxsi nümunəsini dəyərli vasitə sayırdı. Uşaqla tərbiyənin metodlarını yaxşı bilən tərbiyəçi məşğul olmalıdır. Tərbiyəçi ancaq sözlə deyil,

həm də praktik hərəkəti ilə uşağın ruhuna təsir etməlidir. Tərbiyəçi uşaqların şəxsiyyətinə toxunmamağı, onu bezdirməməyi, təhqir etməməyi tələb edirdi. Əbu Əli İbn Sina yazırdı ki, tərbiyəçi hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə almaqla vaxtı-vaxtında onların fəaliyyətini qiymətləndirməli, tərifləməli, irad tutmalı və ya cəzalandırmalıdır

Ərəb yazıçısı Məhəmməd ibn Səhnun "Müəllimin davranışı" adlı traktatında (IXəsr) islam əxlaqının mühüm problemlərinə toxunmuş, tərbiyəçilərə bir sıra tələblər vermişdir. O, hesab edirdi ki, müəllim əsəbləşməməli, tez özündən çıxmamalı, varlılara və kasıblara qarşı eyni dərəcədə diqqətli olmalıdır. Müəllim şagirdlərinə nümunə olmalı, pak əxlaqlı, əməlisalehliyi ilə fərqlənməlidir.

Böyüyən nəslin təlim tərbiyəsinə xüsusi əsər həsr etmiş görkəmli filosoflardan biridə Əbu Həmid Əl-Qəzzalidir. O, tərbiyəçi-müəllimə böyük yer verir. O, "Ey sevimli övlad" məktubunda yazır: "Bil ki, şagirdin şeyxi mürşidi (doğru yol yönəldəni) və mürəbbi (tərbiyə edəni) olmalıdır ki, onu tərbiyələndirərək gözəl əxlaqi söhbət etsin. Tərbiyəçi əməyi, yabanı alaq otlarını bir-bir qopararaq məhsuldar bitkilər yetişdirən əkinçiyə bənzəyir. Şagirdlərə elə bir şeyx lazımdır ki, onu ədəbləndirərək Allahın doğru yoluna yönəltsin. Qəzzali belə müəllimlərin, tərbiyəçilərin özlərinin yüksək biliyə, imana və etiqada malik olmasını, öz nəfsini cilovlamağı bacarmalarını tələb edirdi. O, yazırdı: "Onlar hər şeydən qabaq özünü, öz nəfsini islah etməlidir. Şagird hər şeyə onun gözü ilə baxır, hər şeyi onun qulaqları ilə eşidir. Müəllim nəyi bəyənmişsə, onlar da onu bəyənirlər, nəyi pisləmişsə, onlar da onu pis hesab edirlər. Müəllimin baxışı vahiməli olmamalı, tərbiyə zamanı vurmaqdan və əzab verməkdən daha çox, qorxutmaq metodundan istifadə etməli, şagirdin üzünə gülərək "aradakı pərdəni" götürməməli, onlarla heç bir vaxt şit zarafat etməməli, ona bir şey vermək istəsələr qətiyyən götürməməli, onlara paklığı, çirkin şey və əməllərdən uzaq olmağı öyrətməlidir". Qəzzalinin bu fikirləri müasir dövrlə də səsləşir.Təcrübə göstərir ki, həqiqətən müəllimin şəxsi nümunəsi şagirdlərin tərbiyəsində mühüm rol oynayır.

Qəzzali tərbiyə ilə məşğul olanlara bir sıra tələblər verirdi:

- şagirdlərə qarşı şəfqətli olmaq, onlarla öz övladları kimi davranmaq;
- bilik öyrətmək müqabilində təşəkkür və qulluq ummamaq;
- şagirdlərdə əsassız inam və arxayınçılıq yarandığından onları yerli-yersiz tərifləməmək;

- sərt cəza tədbirlərinə əl atmamaq, tez-tez məzəmmət etməmək;
- uşağı yoldaşlarının qarşısında alçaltmamaq.

Qəzzali tərbiyəçidən sözü ilə əməlinin eyni olmasını tələb edirdi: "Müəllimin elmindən bir adamın xəbəri varsa, əməlləri hamının müşahidəsi altındadır. Onun bəd əməllərini görənlər dərhal ondan uzaqlaşar, onun etdiyi gözəlliyin mənasız olduğunu anlayarlar".

Bütün bu deyilənləri nəzərə alaraq tərbiyə üsullarının həyata keçirilməsində müəllimə verilən aşağıdakı tələbləri qeyd etmək olar. Məsələn, inandırma üsulunun həyata keçirilməsində müəllimə verilən aşağıdakı tələblərə diqqət edək:

- əxlaqi söhbətlər aparılan zaman şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır;
- söhbətlər uzun-uzadı olmamalı, aydın, səlis və məntiqli olmalı, danlaq xarakteri daşımamalıdır;
- söhbətlər aparılarkən müəllim şəxsi mənafeyini güdməməlidir;
- tərbiyəçi işi təşkil etməyi bacarmalıdır, o, demokratik, humanist ruhlu olmaqla idarəetmədə tələbkarlıq və diqqəti,qayğını paralel şəkildə nəzərə almalıdır. Bir sözlə, tərbiyəçi özünü elə aparmalıdır ki, onun hər bir hərəkəti tərbiyəedici təsir göstərsin;
- əxlaqi söhbətləri uşaqların həyat tərzi ilə, sosial-iqtisadi mühitiylə əlaqələndirmək, onun ictimai və kollektiv mahiyyətini göstərmək daha təsirli olar.

Alışdırma üsullarının həyata keçirilməsində müəllim aşağıdakı tələblərə əməl etməlidir:

- alışdırma üsulunun tətbiqi zamanı uşağın yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır;
- alışdırma zamanı tədriciliyə xüsusi fikir verilməlidir;
- alışdırma zərurəti uşağın təbiəti ilə əlaqələndirilməlidir və uzun müddət müntəzəm təkrar edilməlidir;
- alışdırma zamanı bu və ya digər adəti, hərəkətləri tez-tez dəyişdirmək və şagirddə birdən-birə çoxlu adət yaratmağa cəhd etmək olmaz;
- alışdırmanın həyata keçirilməsində axıra qədər ardıcıllıqla və inadla tələbin icrasını təmin etmək lazımdır;
- alışdırma zamanı müstəsnaya və güzəştə yol vermədən işin icrasını hər bir şagirddən tələb etmək lazımdır;

- müəllim yaxşı adətlər yaratmaqla bərabər, şagirdlərdə kök salmış mənfi vərdişlərin ləğv olunmasına çalışmalıdır və s.

Rəğbətləndirmə və cəzalandırma zamanı müəllimlərə aşağıdakı pedaqoji tələblər verilir:

- cəzalandırmadan və rəğbətləndirmədən istifadə edərkən şagirdlərin yaş və fərdi xüsisiyyətləri nəzərə alınmalıdır. Nəzərə almaq lazımdır ki, cəzalandırma və rəğbətləndirmə zamanı şagirdlərə eyni ölçülərlə yanşmaq olmaz. Çünki kiçik yaşlı uşaqların ayaq üstə dayanması cəza növü, yeniyetmələr üçün isə təhqir kimi qəbul edilə bilər. Yaxud bəzi şagirdlər tərifdən ruhlanaraq yeni-yeni keyfiyyətlər qazanmağa çalışar, digərlərində isə müştəbehlik, özündənrazılıq hissi formalaşdıra bilər. Müəllim unutmamalıdır ki, həddən ziyadə rəğbətləndirmə və cəzalandırma metodik baxımdan düzgün deyildir.

- cəzalandırma və rəğbətləndirmə obyektiv olmalıdır. Müəllim şagirdi fərdi münasibətinə görə rəğbətləndirib və ya cəzalandırmamalıdır. Müəllim hansısa səbəbdən ürəyiyumuşaqlıq edib şagirdin etdiyi hərəkətə uyğun olmayan yüngül cəza növü tətbiq etməməlidir. Hər iki halda müəllimin nüfuzu şagirdlər arasında aşağı düşmüş olar;

- rəğbətləndirmə və cəzalandırma üçün əvvəlcədən qəti fikir söyləmək olmaz. Müəllim, yaxud tərbiyəçi bu edilən hərəkətin xaraterinin və mənafeyinin kollektivə uyğun gəlib-gəlməməsindən asılı olaraq cəza növü tətbiq etməlidir. Cəzalandırmaya və rəğbətləndirməyə şagird kollektivinin necə münasibət bəslədiyini müəllim nəzərdən qaçırmamalıdır. Əgər kollektiv bu cəza növünü və ya rəğbətləndirməni daxilən qəbul etmirsə, onun tərbiyəvi təsir gücü olmaz;

- şagirdlər cəzalandırılarkən, onların şəxsiyyətinə xələl gətirən ifadələr işlənməməlidir. Şagirdlər necə hərəkət etmiş olsa da onun şəxsiyyətinə hörmət göstərilməlidir. Yaxud şagird xoşagəlməz hərəkətinin səbəblərini izah edərkən müəllim buna tam etinasızlıq göstərməməlidir. Belə yanaşma şagirdi tərbiyə etmək əvəzinə onda adamlara qarşı ikrah hissi yarada bilər;

- müəllim şagirdə öz hərəkəti haqqında düşünməyə vaxt verməlidir. Lakin bu, fleqmatik şagirdlərə aid edilməməlidir və s.

Bu və ya digər tərbiyə üsulunun işlənməsi dəqiq pedaqoji situasiyadan da asılıdır. A.S.Makarenko tələblərin qoyulmasına dair çox maraqlı fikir söyləmişdir: "Tərbiyəçi onun tərbiyə olunan tərəfindən yerinə yetiriləcəyinə əmin deyilsə, o

halda tələblərin qoyuluşu məsləhət deyil”. Makarenko dəqiq pedaqoji situasiyanı, ayrı-ayrı tərbiyəçilərin şəxsi xüsusiyyətlərini və kollektivin inkişaf səviyyəsini nəzərə alaraq müxtəlif tərbiyə üsullarını yaradıcı şəkildə tətbiq etməyi məsləhət görürdü. “Mimikanın yerini bilməyən, fikirlərini sifətinin hərəkətliliyi ilə lazımi qaydada ifadə edə bilməyən və ya ürəyindəkini dərhal büruzə verən tərbiyəçi yaxşı tərbiyəçi ola bilməz. Tərbiyəçi işi təşkil etməyi, uşaqlar arasında gəzib dolanmağı, zarafat etməyi, lazım gəldikdə xoşhal, lazım gəldikdə acıqlı olmağı bacarmalıdır. Tərbiyəçi özünü elə aparmalıdır ki, onun hər bir hərəkəti tərbiyəedici təsir göstərsin; tərbiyəçi müəyyən vaxtlarda nə demək istədiyini və nə etmək istəmədiyini özü həmişə yaxşı bilməlidir”. Belə keyfiyyətləri özündə əks etdirən müəllim uşaqların şüuruna birbaşa təsir göstərmək iqtidarında olar. Onlara vəzifə və yoldaşlıq, namusluluq, doğruçuluq, intizamlılıq, mərdlik və s. kimi vərdişləri aşılaya bilər.

Lakin uşağı əxlaqi anlayışlarla tanış etmək hələ azdır. Əsas vəzifə həmin sözü – anlayışı müəyyən təəssüratla, təsəvvürlə, hisslərlə və uşağın inkişaf etməkdə olan həyat təcrübəsi ilə əlaqələndirməkdən ibarətdir. Yalnız belə bir şəraitdə əxlaqi anlayışlar zəruri əhəmiyyət kəsb edir və bu, məzmunla birlikdə inkişaf edərək, məktəblinin davranışında özünü müəyyənləşdirən əqidəyə çevrilir. Daha doğrusu, sözlə əməlin, qayda ilə hərəkətin, şüurla davranışın vəhdəti qorunur və həmin sözün mənası ilə onun uşaqda, doğurduğu emosional reaksiya birləşib bir-birini tamamlayır. Uşağa yalnız nə deyildiyi deyil, həm də kim tərəfindən, necə deyildiyi də əhəmiyyət kəsb edir. Lakin söz uşağın həyat təcrübəsi, hərəkəti ilə əlaqələndirildikdə, onun ictimai və kollektiv mahiyyəti göstərildikdə daha təsirli olur.

**Nəticə**

1. Uşaq və yeniyetmələrin həyatında valideynlərin üzərinə düşən ən ümdə vəzifə cəmiyyətə yararlı vətəndaş tərbiyə etməkdir. Bu baxımdan valideynlərin pedaqoji maarifləndirilməsi bu gün ən aktual problemlərdən biridir və tərbiyə işində mühüm əhəmiyyət kəsb edir.

2. Valideynlərin pedaqoji maarifləndirilməsi müxtəlif yollarla aparılır. Bunlar aşağıdakılardır: mütaliə, özünütəhsil mədəniyyətinin formalaşdırılması; valideyn-müəllim,şagird birliyi (məktəb icması) xətti ilə mütəmadi tədbirlərin, görüşlərin keçirilməsi və valideynlərin bu tədbirlərdə iştirakı; valideynlərin fənn müəllimlərinin dərslərində iştirakı; valideynlər üçün tövsiyə xarakterli kitabçaların hazırlanması; sinfin illik iş planının hazırlanmasında valideynlərin məsuliyyət bölgüsünün, hesabatlılığının nəzərə alınması.

3. Ailə tərbiyəsinin pedaqoji prosesin tərkib hissəsinə çevrilməsi üçün valideynlər ilk növbədə tərbiyənin, pedaqoji prosesin mahiyyətini, səciyyəvi xüsusiyyətlərini anlamalı, bu prosesin fəal iştirakçısına çevrilmək üçün dam inkişaf etməlidir. Bu inkişaf ailələrin tərbiyə sahəsində pedaqoji və psixoloji dayanıqlığını artırır, uşaqların tərbiyəsində uğurlu nəticələr əldə etməsinə imkan verir.

4. Azərbaycan xalqının milli-mənəvi dəyərləri ailələrin mənəvi mirası kimi nəsildən nəslə ötürülüb. Bu gün Azərbaycan öz milli mənəvi dəyərləri ilə, iqtisadi-siyasi və multikulturalizm siyasəti ilə özünü dünyaya tanıtmışdır. Azərbaycanın Vətən müharibəsində, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən qəhrəman fədailəri yetişdirən analar, o cümlədən şəhid, qazi anaları vətənpərvər oğulları ilə nümunə göstəricisidir.

5. Uşaq və yeniyetmələrin sosiallaşmasında yaranan problemlərin kökü və məsuliyyəti əsasən valideynlərin üzərinə düşür. Bu baxımdan uşaq və yeniyetmələrin tərbiyəsində, onların sosiallaşmasında valideynlərin pedaqoji maarifləndirilməsi mühüm əhəmiyyət daşıyır.

6. Tədqiqat göstərdi ki, lazımi səviyyədə pedaqoji cəhətdən maariflənmiş valideynlər uşaq və valideynlərin tərbiyəsində daha çox fəallıq göstərirlər. Həmin valideynlər məktəblə, müəllimlərlə tez-tez əlaqə saxlayır, məktəb tədbirlərində, sinif iclaslarında mütəmadi iştirak edir, təlim-tərbiyə işinin keyfiyyətinin artırılmasına töhfələrini verirlər.

7. Tədqiqat göstərdi ki, valideynlərin pedaqoji maarifləndirilməsi eyni zamanda onların övladlarının şəxsiyyət kimi formalaşdırılması və inkişafında əhəmiyyətli rol oynayır. Bu valideynlərin övladları milli-mənəvi keyfiyyətlərinə görə daha çox fərqlənirlər. Onların vətəndaşlıq, vətənpərvərlik keyfiyyətlərinə yiyələnmək, milli dövlətçilik maraqlarının mahiyyətini dərk etmək imkanları daha

geniş olur. Bu səbəbdən də aparılan tədqiqatda ən aktual problemləri valideynlərin nəzərinə çatdırmaqla onları daha çox məsuliyyətli və diqqətli olmağa, bu boşluqların vaxtında aradan qaldırılmasına istiqamətləndirdik.

8. Uşaq və yeniyetmələrin tərbiyəsində əqli tərbiyə, ideya-siyasi tərbiyə, əxlaq tərbiyəsi, estetik tərbiyə, əmək tərbiyəsi, fiziki tərbiyə, hüquq, iqtisadi və ekoloji tərbiyə ahəngdar şəxsiyyətin formalaşmasında mühüm rol oynayır. Eyni zamanda müəllim şəxsiyyəti bu istiqamətlər üzrə tərbiyə işinin həyata keçirilməsində, tətbiq edilməsində və real nəticələr əldə edilməsində önəmli rol oynayır.

Tədqiqatdan irəli gələn aşağıdakı təkliflərin nəzərə alınması məqsədəuyğundur:

1. Valideynlərin pedaqoji maarifləndirilməsinin aktuallığına, təbliğinə dair elmi-pedaqoji ədəbiyyatın kütləvi nəşr edilməsi və yayılması;

2. Məktəb-ailə, müəllim-valideyn əlaqələrinin daha da inkişaf etdirilməsi;

3.Məktəbdə valideyn iclaslarında şagirdlərin vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməsi;

4. Müəllimlərin öz şagirdlərinin ailə vəziyyəti ilə yaxından tanış olması, onların problemlərini öyrənməsi və tərbiyə işində ona yaxından kömək göstərməsi və s.

# TƏLİM PROSESİNDƏ ŞAGİRDLƏRƏ ESTETİK DƏYƏRLƏRİN AŞILANMASI İMKANLARI

## Giriş

Elmi- texniki tərəqqi nailiyyətlərini və milli bəşəri mahiyyəti ilə diqqəti cəlb edən dəyərləri təhsilin müxtəlif pillələrini əhatə edən məktəbə gətirmək qarşıda duran təxirəsalınmaz vəzifələrdən sayılır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" nın təsdiq olunması haqqında ölkə Prezidenti Cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sətrəncamında deyilir:

Təhsil sisteminin başlıca vəzifələri aşağıdakılardır:

– ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

– məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə insan huquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli mənəvi və umumbəşər dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünya görüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazirlamaq;

– sistemləşdirilmiş bilik və vərdşlərin mənimsədilməsini və əlavə təhsili təmin etmək, təhsil alanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazirlamaq.

Bu vəzifələrin vaxtında və sistemli şəkildə yerinə yetirilməsi öz növbəsində ümumi təhsil məktəblərindən və burada çalışan müəllimlərin yaradıcı, innovativ meyllərlə nəzərə çarpan əməyindən asılıdır.

Milli təhsil sistemimizin daha da inkişafı və təkmilləşdirilməsi naminə çalışan alimlərin, müxtəlif kateqoriyalardan olan mütəxəssislərin nəzəri və təcrübi istiqamətlərdə maksimum fəallıq göstərməsi də zəruri sayılır. Təsadüfi deyildir ki, Ümumi Təhsil Haqqında Azərbaycan Respublikası Qanununun "Ümumi təhsilin təşkili" adlı 13-cü maddəsində təhsilin təşkili mərhələləri və

bu mərhələlərdə həyata keçirilməsi zəruri sayılan məsələlər, şagirdlərə aşılanması lazım gələn keyfiyyətlər daha konkret şəkildə diqqətə çatdırılmışdır:

"Ümumi təhsil ibtidai təhsil, ümumi orta təhsil, tam orta təhsil proqramları (kurikulumlar) əsasında həyata keçirilir.

Qanunun 13-cü maddəsinin 14-cü bəndində isə deyilir:

"İbtidai təhsilin məqsədi təhsilalanlara oxu, yazı və hesablama bacarıqları, vətənpərvərlik və Azərbaycan xalqının dəyərlərinə, dövlət rəmzlərinə hörmət hissi aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin biliklər, şəxsiyyətin formalaşmasına yönəlmiş həyatı bacarıqlar, sadə əmək vərdişləri, məntiqi təfəkkür elementləri, bədii-estetik keyfiyyətlər və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.

Ümumi təhsilin ibtidai təhsil mərhələsində şagirdlərə aşılanması lazım gələn keyfiyyətlərin xüsusi olaraq diqqətə çatdırılmasının mühüm bir cəhəti də şəxsiyyətyönümlü təhsilə aşağı siniflərdən başlanılması zərurəti ilə əlaqədardır. Burada bədii-estetik keyfiyyətlərə mühüm əhəmiyyət verilməsi də problemin sosial mahiyyətindən irəli gəlir. Ümumi təhsilin təşkili ilə bağlı 13-cü maddənin 15-ci bəndində göstərilənlər də şagird-məktəbli şəxsiyyətlərinin mənəvi zənginliyi təminatının əsas keyfiyyət göstəricilərindən sayılır:

"Ümumi orta təhsilin məqsədi təhsilalanlarda nitq, yazı və ünsiyyət mədəniyyətinin, sağlam həyat tərzinin formalaşdırılmasını, onların dövlətə və dövlətçiliyə, Azərbaycan xalqının dəyərlərinə və ümumbəşəri dəyərlərə sədaqət ruhunda tərbiyə olunmasını, insanın hüquq və azadlıqlarına hörmətlə yanaşmasını, idrak fəallığının və məntiqi təfəkkürün inkişafını, müvafiq təhsil proqramı üzrə əldə etdiyi bilikləri tətbiq etmək, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək, cəmiyyətdə baş verən hadisələri dəyərləndirmək, öz gələcək həyat yolunu və fəaliyyət istiqamətlərini müəyyənləşdirmək, müstəqil öyrənmək və qərar qəbuletmə bacarığını, peşə seçiminə və əmək fəaliyyətinə hazırlığını təmin etməkdən ibarətdir".

Xüsusi olaraq sübuta ehtiyac yoxdur ki, burada göstərilən keyfiyyətlərin hər biri təhsilin şəxsiyyətyönümlüyünün əsas komponentləri kimi mühüm

əhəmiyyətə malikdir. Həmin keyfiyyətlər sırasında ibtidai təhsil mərhələsində olduğu kimi bədii-estetik keyfiyyətlər ayrıca göstərilməsə də mahiyyət əhatəliyinə görə estetikliyə yaxındır.

Azərbaycan xalqının dəyərlərinə və ümumbəşəri dəyərlərə sədaqət ruhunda tərbiyəlilik, yaxud müasir informasiya kommunikasiya texnologiyalarından istifadə etmək bacarığının inkişafı, formalaşdırılması şagird-məktəbli şəxsiyyətinin mədəni intellektual səviyyəsi ilə sıx bağlıdır.

Cəmiyyətdə baş verən hadisələri dəyərləndirmək bacarığı da şəxsiyyətin estetik inkişafı ilə əlaqədardır. Belə ki, həmin keyfiyyətlərin  bir çoxu eyni zamanda incəsənətlə, ayrı-ayrı növ və janrlarla sıx bağlıdır. Eyni zamanda estetik hisslərin inkişafına zəmin yaradır. Problemin belə bir cəhətini də unutmaq olmaz ki, estetik hiss öz mahiyyəti etibarilə həm də ictimai hissdir. Fərdi xüsusiyyətlər, fərdi fərqlər olsa da hər bir ictimai qrupun, kollektivin estetik hisslərində və bu əsasda inkişaf edən estetik zövqlərində ümumi cəhətlər nəzərə çarpır.

Təhsil qanununun 13-cü maddəsinin 16-cı bəndi ümumi təhsilin tam orta təhsil mərhələsini əhatə edir. Orada deyilir:

"Tam orta təhsil səviyyəsində təhsil alanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata hazırlanması, onlarda fəal vətəndaş mövqeyinin və rəqabət qabiliyyətliliyin, ümumbəşəri dəyərlərə tolerant münasibətin formalaşdırılması, müasir informasiya mənbələrindən sərbəst və səmərəli istifadə etməsi, iqtisadi dünyagörüşə yiyələnməsi, xarici dillərin birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur".

Burada göstərilən bacarıq və qabiliyyətlərin bir çoxu da birbaşa və dolayı yollarla estetik inkişafla bağlıdır. Belə ki tam orta təhsil alan şagirddə istedad və qabiliyyətlərin inkişafı zəruri sayılırsa, deməli ədəbiyyat-incəsənət sahəsindəki bacarıq və qabiliyyətlər də buraya aid olur. Yaxud ümumbəşəri dəyərlərə tolerant münasibətlərin formalaşdırılması mühüm bir vəzifə kimi qarşıya qoyulursa, bunun özü də estetik inkişafın-estetik tərbiyənin başlıca cəhətlərindən biri kimi dəyəndirilməlidir.

# I Fəsil. Estetik dəyərlərin şəxsiyyətyönümlü təhsilin inkişafı prosesində mövqeyi və əhəmiyyəti

## 1.1. Estetik dəyərlər və onların əsas cəhətləri

Tarixi inkişafın müxtəlif mərhələlərində cəmiyyətin əsasını təşkil edən insanların bir fərd və şəxsiyyət kimi inkişaf edib formalaşması həmişə diqqət mərkəzində olmuşdur. Ətraf aləmin, təbiətin gözəlliklərindən, ülvilik hissləri oyadan vasitələrdən, habelə mədəni tərəqqi nailiyyətlərindən maksimum səmərə ilə istifadə edilməsinə böyük əhəmiyyət verilmişdir.

Sivilizasiyanın ən böyük nəticəsi olan insanın arzu və idealları dövrünün görkəmli şəxsiyyətlərinin diqqət mərkəzində olmuşdur. Təbiətdə və cəmiyyətdə yaranan estetik dəyərlərdən müxtəlif nəsildən olan insanların əxlaqi simasının, mənəvi zənginliyinin, ictimai münasibətlər mədəniyyətinin daha da inkişaf etdirilməsi dahilərin, böyük istedad və düha sahiblərinin, görkəmli elm-sənət adamlarının həmişə diqqət mərkəzində olmuşdur.

Təsadüfi deyildir ki, antik dövrdən-qədim yunan estetikasından üzü bu yana estetik təfəkkür, estetik yanaşma mərhələləri əsas götürülmüş, təlim-təhsil və ümumtərbiyə prosesində onlardan maksimum səmərə ilə istifadə edilməsi zəruri sayılmışdır.

Estetik dəyərlərin təsnifatına, başlıca istiqamətlərinə, əsas cəhətlərinə xüsusi diqqət yetirilməsi mühüm əhəmiyyətə malikdir. Belə ki, müəllimlərin, tərbiyəçilərin aydın təsəvvürə yiyələnmələri bu sahədə uğur qazanmağın birinci şərti kimi xarakterizə olunmalıdır.

Estetik dəyərlərin əsas cəhətlərindən, başlıca mənbələrindən bəhs edərkən davranış, ünsiyyət nizamları ilkin cəhətlər, başlıca mənbələr kimi dəyərləndirilməlidir. Bundan sonra təbiətin və incəsənətin estetikası, estetik cəhətləri üzərində dayanmaq zəruri sayılır. Əslinə qalsa bütün bunlar şəxsiyyətin və cəmiyyətin estetik mədəniyyətini yaradan və bir-birini şərtləndirən əhatə mühitidir, dəyərlər sistemidir.

Etiraf edək ki, milli ənənələrə söykənən ünsiyyət, davranış estetikası ön planda nəzərdə tutulsa da, çox vaxt bu cəhətin üstündən sükutla keçirlər. Halbuki milli ənənələrə əsaslanan davranış, əxlaq etikanın, davranış estetikasının başlıca mənbəyi-predmeti sayılır. Eyni zamanda xalq pedaqogikasının

əsas, fundamental sütunları kimi dəyərləndirilən ədəb-ərkan tərbiyəsi əsrlərdən bəri davam edərək bu günümüzün reallığına çevrilmişdir. Başqa cür də ola bilməz. Məşhur estetiklərdən birinin sözlərini xatırlamaq yerinə düşər:

– İnsanlar yaşadıqları yerin, yurdun, kəndin, qəsəbənin, şəhərin təbii gözəlliyi, gündən-günə abadlaşması, geniş küçə və prospektlərin salınması, uca mərtəbəli binaların tikilməsi ilə çox da öyünməsinlər. Əgər belə bir mühitdə insanların bir-birinə münasibətində həlimlik, istiqanlıq, cəlbedicilik yoxdursa, bir-birinə münasibətində heyrət doğuran nəzakətlilik yoxdursa, görülənlər parıltı olaraq qalır. Bütün həyatı, elmi fəaliyyəti dövründə yazıb yaratdığı əsərlərlə müxtəlif qəbildən olan insanları əxlaqi sərvətlər –fəzilətlər dünyasının sakinləri olmağa səsləyən akademik Ziyəddin Göyüşov yazır:

"Təmiz, ozonla dolu ətirli dağ havası insanların səhhəti üçün nə qədər zəruridirsə, saf əxlaqi atmosfer (milli ənənələrə əsaslanan əxlaqi mühit, mövqe sabitliyi –V.X) də bizim xoş yaşamağımız üçün bir o qədər zəruridir. Aralarında yalnız bircə fərq vardır. Birincini əsasən təbiət yaradırsa, ikincini tamamilə biz insanlar yaradırıq".

Görkəmli alimin müxtəlif nəsillərdən olan insanların mənəvi zənginliyində mühüm rol oyanayan etik-estetik dəyərlərdən bəhs edərkən çox haqlı olaraq yaşayış yerindəki əxlaqi mühiti, başqa sözlə desək, davranış estetikasını xüsusi olaraq diqqət mərkəzinə gətirməsi təbii sayılmalıdır. Buna görə də ümumtərbiyə və şəxsiyyətyönümlü təhsil prosesində istinad olunan estetik dəyərlərdən bəhs edərkən öncə milli zəminə əsaslanan ünsiyyətin ülviyyətinə xüsusi diqqət yetirilməlidir. Təsadüfi deyildir ki, qədirbilən xalqımızın adət və ənənələrində böyüklərə, yaşlılara hörmət, kiçiklərə həssas, qayğılı münasibət, onların ağıllı, işgüzar böyümələrinə çalışmaq və digər keyfiyyətlər deyimlərdə, xalq yaradıcılığı nümunələrində dönə-dönə diqqətə çatdırılmışdır.

Şəxsiyyətyönümlü təhsil prosesində estetik dəyərlərə istinad olunmasının mühüm bir cəhəti və mənbəyi doğma yurdun təbiəti-təbii gözəllikləri ilə bağlıdır.

Başı qarlı, heç zaman qarı əriməyən uca dağlar, insanları əsrarəngiz hisslər aləminə aparan gen dərələr, laləli-nərgizli çöllər, yeraltı-yerüstü sərvətlərlə zəngin olan Vətənimiz yurddaşlarımızda milli iftixar hissi oyadır, onları mənəvi-estetik idealarla yaşamağa ruhlandırır.

Şəxsiyyətyönümlü təhsil prosesində estetik dəyərlərə istinad olunmasının mühüm bir cəhəti-mənbəyi incəsənətlə, müxtəlif növ və janrlarla bağlıdır. Belə bir mövqe hər şeydən əvvəl incəsənətin sosial mahiyyəti, bədii-idrakı, estetik təsir imkanları ilə əlaqədardır. Məşhur estetik alim, akademik Aslan Aslanov yazır:

"Bədii idrak prosesində nəinki sənətin müxtəlif sahələri, həmçinin sənətdə ictimai şüurun müxtəlif formaları daxili üzvü əlaqədə və qarşılıqlı təsirdə olurlar. İncəsənət məhz elm, fəlsəfə, siyasət və əxlaqla üzvi şəkildə bağlı olduğuna görə insanın zəngin tarixi, iqtisadi, əxlaqi, siyasi və fəlsəfi həqiqətləri dərk etməsinə, böyük ümumi-fəlsəfi, elmi nəzəri və əxlaqi nəticələrə gəlməsinə kömək edir".

Görkəmli filosof estetik alimin həyati müşahidələr, elmi araşdırmalar əsasında irəli sürdüyü bu fikir də problemliyi ilə diqqəti cəlb edir. Belə ki, estetik dəyərlərin mahiyyətindən, əsas cəhətlərindən bəhs edərkən ən təsirli estetik vasitələrdən sayılan incəsənətə onun ayrı-ayrı növ və janrlarına istinad etmək lazım gəlir. "Qısa estetika lüğəti"ndə deyilir:

"İncəsənət ictimai şüurun və insan fəaliyyətinin xüsusi formasıdır ki, burada həyatın bədii (obrazlı) surətdə qavranılması gözəllik qanunları üzrə yaradıcılıqla üzvi şəkildə birləşir.

İncəsənət estetik fəaliyyətin xüsusi növü olaraq meydana gəlib inkişaf etmişdir...

İncəsənətin əsasında gerçəkliyin müəyyən estetik ideal mövqeyindən obrazlı inikası durur. Sənətkar bədii fərdi obrazlar vasitəsilə hadisələrin, həyat şəraitinin, ictimai münasibətlərin, adamların xarakterlərinin və həyəcanlarının mahiyyətini aşkara çıxarmaqla həyat həqiqətinin obrazlı kəşfini vermiş olur".

Problemin belə bir cəhətini də unutmaq olmaz ki, "Qısa estetika lüğəti"ndə incəsənətin əsas mahiyyəti ilə bağlı nəzərə çatdırılan bu izah və şərh keçən əsrin 70-ci illərindən üzü bu yana estetika aləminin əsas dəyərlərindən sayılan incəsənətin geniş yayılmasına, şəxsiyyətin mənəvi zənginliyinin artmasına qüvvətli təsir göstərir. Başqa cür də ola bilməz, çünki, incəsənətin ayrı-ayrı növ və janrlarında yaradılan hər bir nümunə, hər bir əsər həyat həqiqətlərini, gerçəkliyi şüura hakim kəsilən bir tərzdə əks etdirməklə çox

qüvvətli tərbiyəedici imkanlara malik olur. Buna görə də ümumi təhsil prosesində, dərsdən, sinifdən və məktəbdən kənar tədbirlər, müxtəlif xarakterli məşğələlər prosesində incəsənətin ayrı-ayrı nümunələrinə kompleks şəkildə istinad edilməlidir.

Unutmaq olmaz ki, haqqında bəhs etdiyimiz dəyərlər özlüyündə gözəldir. Bu dəyərlər o zaman estetik dəyərlər səviyyəsinə yüksəlir ki, ümumi təhsil və tərbiyə prosesinə tətbiq edilir, təsir qüvvəsi, təsir imkanları daha parlaq şəkildə nəzərə çarpır.

## 1.2. Estetik dəyərlərin şagirdlərin mənəvi zənginliyinin inkişafına təsiri

Milli əxlaqa söykənən ünsiyyət-davranış estetikası, doğma yurdun əsrarəngiz təbiəti, estetik hissləri oyadıb hərəkətə gətirən lövhələri, müxtəlif janrlı incəsənət əsərləri ümumi təhsil məktəbi şagirdlərinin mənəvi zənginliyində mühüm əhəmiyyətə malikdir. Lakin bu cəhət öz mahiyyəti etibarilə o zaman daha böyük dəyər səviyyəsində nəzərə çarpır ki, dəyərlərin mahiyyəti, tətbiqi imkanları, yeri, necə deyərlər, ölçüsü-biçisi qabaqcadan nəzərə alınır. Təcrübəli müəllimlər problemin bu cəhətini əvvəlcədən nəzərə alır, dərsdə və müxtəlif xarakterli sinifdənxaric məşğələlərdə ayrı-ayrı tədbirlərdə istinad imkanlarını məqsədəmüvafiq şəkildə müəyyənləşdirirlər. Bu prosesdə xalq yaradıcılığına, xalqın deyimlərinə əsaslanaraq şagirdlərdə, müxtəlif yaş qruplarına malik olan məktəblilərdə ünsiyyət, davranış estetikasının geniş vüsət almasına xüsusi diqqət yetirirlər.

İstər dərsdə, istərsə də sinifdənxaric tədbirlərdə xalqımızın min illər boyu davam edən, əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürülən tərbiyəvi adətlərə xüsusi diqqət yetirməsi, yeri gəldikcə elmi-metodik mənbələrə istinad olunması məşğələlərin estetik təsir imkanlarını artırır.

Şərqin şifahi və yazılı sənət abidələrində tərbiyəvi fikirləri əks etdirən "Az söylə, söz söylə" metodik vəsaiti (müəlliflər: prof.Akif Abbasov, Səadət Həsənova) də problem baxımından mühüm əhəmiyyət kəsb edir. Kitabın "Xalq pedaqogikasından seçmələr" bölməsində nəzərə çatdırılan atalar sözləri, nəsihətlər, tərbiyəvi adətlər haqqında deyimlər böyüməkdə olan nəslin etik

mədəniyyətinin, davranış estetikasının inkişafı baxımından əhəmiyyətlidir. Bu da maraqlıdır ki, həmin vəsaitin "Xalq pedaqogikasından seçmələr" adlı ilk bölməsində öncə şəxsiyyət zənginliyinə istiqamətlənən atalar sözlərinə istinad edilib.

"Ağıl yaşda deyil, başdadır", "Ara sözü ev yıxar", "Bilməmək eyib deyil, soruşmamaq eyibdir", "Böyüyə hörmət elə, sən də böyüyəcəksən", "Qürbət cənnət olsa yenə Vətən yaxşıdır", "Dəmiri isti-isti döyərlər", "İllər qocaltmaz insanı, qüssə qocaldar", "Yekə başın faydası yoxdur, içində beyin gərək", "Gənclikdən qocalığa ömür saxla", "Mərifətsiz millət yaşamaz", "Nadanın düşməni özüdür", "Özünə baxma, sözünə bax" və s. atalar sözləri öz mahiyyəti etibari ilə çox qüvvətli tərbiyəvi təsir imkanlarına malikdir.

Müşahidələr göstərir ki, ibtidai siniflərin, habelə yuxarı siniflərin şagirdlərini əhatə edən müxtəlif xarakterli məşğələlərdə müəllimlər monotonluğa, yeknəsək iş tərzinə istinad edirlər. Azərbaycan dili, ədəbiyyat dərsliklərində, ayrı-ayrı mövzularla əlaqədar nəzərə çatdırılan atalar sözləri mahiyyət dolğunluğu ilə izah olunmur. Məsələn, "Bilməmək eyib deyil, soruşmamaq eyibdir" atalar sözləri ibtidai sinif şagirdləri üçün daha xarakterikdir. Bəzən onlar hər hansı dərs, məşğələ prosesində onlara aydın olmayan bir məsələni müəllimlərindən təkrar-təkrar soruşmağa səy göstərmirlər. Onlara elə gəlir ki, hər hansı anlayışın mahiyyətini izah etmək üçün müəllimə yenidən müraciət etsələr yaxşı olmaz. Halbuki təcrübəli, işgüzar müəllimlər şagirdlərinin mükəmməl bilik almaları üçün müxtəlif mövzularla əlaqədar izah və şərhləri təkrarlamağa həmişə hazır olurlar.

"Ağıl yaşda deyil, başdadır" atalar sözlərim isə yuxarı sinif şagirdləri üçün daha xarakterikdir. Daha əhatəli izah və şərhlərə ehtiyac duyulur. Əsas diqqət ona yönəldilməlidir ki, şagirdlər bu məlum həqiqətin mənasını yaxşı başa düşsünlər. İnsanın yaşı çox ola bilər, lakin ətraf aləm, həyat hadisələri, tarixi inkişaf haqqında təsəvvürləri dar-məhdud çərçivədə nəzərə çarpar. Deməli, yaşın çoxluğuna, yaşa dolmağa deyil, yaşam illərini mənalandırmağa, daha geniş şəkildə oxuyub-öyrənməyə səy göstərilməlidir.

Uşaq və yeniyetmələrin, məktəbli gənclərin etik-estetik mədəniyyətinin inkişafında Azərbaycan ədəbi folklorunda xüsusi yer tutan nəsihətlərin də mühüm rolu, təsir imkanları var.

“Can de, can eşit”, “Məclisə bax danış”, “Həmişə yaxşılarla yoldaş ol”, “Xoş danışsan, xoş cavab eşidərsən”, “Qəm qüssəyə şərik olana kömək lazımdır”, “Özünü saxla, hər şeydən ötrü özündən çıxma”, “Tənbəllik üfunət gətirir”,”Qoy səni xalq tərifləsin, xalq gözün meyarıdır”, “Nə qədər bilikli olsan da özünü bilməyən hesab et”, “Hər işi məsləhətləş, sonra həllinə giriş”, “Dilini saxlamağı bacar”, “Hər kəslə öz dili ilə danış”, “Söz danışan ol, söz güləşdirən olma”, “Xəbərçini eşitmə, xəbərçilikdən əlhəzər et” və s. yüzlərlə nəsihət deyimləri öz növbəsində müxtəlif yaş qruplarına malik olan məktəbliləri mənəvi zənginlik zəminində yaşamağa, hərtərəfli təhsil almağa istiqamətləndirir.

Azərbaycan ədəbi folklorunda daha çox nəzərə çarpan atalar sözləri, nəsihətlər, müxtəlif məzmunlu nağıllar, dastanlar, ozan-aşıq yaradıcılığı nümunələri etik-estetik fikirlər antologiyası kimi çox böyük əhəmiyyət kəsb edir, əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürülür. Məhz belə bir mövqeyin nəticəsidir ki, xalqımızın, müxtəlif nəsildən olan insanların əxlaqi, etik-estetik davranış aləmini zənginləşdirir.

Problem dairəsində deyilənlərlə tanış olub, müvafiq təhlil və ümumiləşdirmələr apardıqdan sonra belə qənaətə gəlmək olur ki, xalq yaradıcılığında, folklorlarda mühüm yer tutan deyimlər, sənət nümunələri müxtəlif nəsildən olan insanları mənəvi zənginlik zəminində yaşamağa ruhlandırır. Təsadüfi deyildir ki, Azərbaycan xalq yaradıcılığı nümunələrinin təhsil və tərbiyəvi əhəmiyyətindən bəhs edən kitablarda, o cümlədən xalqımızın hikmət incilərini əks etdirən “Az söylə, söz söylə” tədris vəsaitində tərbiyəvi xüsusiyyətlərə diqqət yetirilməlidir.

*Qocalara və qocalığa qədəm qoyanlara hörmət* adətindən, əsas mahiyyətindən bəhs edərkən öncə qeyd olunur ki, onlara həssaslıqla ehtiram göstərib, buyruqlarını yerinə yetirmək yaşca kiçik olanlardan tələb edilir. Əsas layiqli davranış kimi nəzərə çatdırılır.

Yaşlıların nəsihətlərini gənclər diqqətlə dinləməlidirlər. Süfrədə onlardan qabaq çörək kəsmək və söhbətə başlamaq hörmətsizlik əlaməti sayılır. Cavanları pis hərəkətlərdən çəkindirmək üçün onları döymək, cəzalandırmaq həddinə gəlsələr də qocaya əl qaldırmaq olmaz, günah hesab edilər.

Ata-anaya hörmət də milli adətlərimizdə əsrlərdən bəri davam edir. Bu adətlərdən biri və ən başlıcası odur ki, övlad ata-anasına hörmət etməli, onun sözünü qulaq ardına verməməli, üzünə ağ olmamalı, nəsihətlərinə diqqətlə qulaq asmalı, deyilənlərə əməl etməlidir. Hər bir övlad "Yuxarıda Allah, aşağıda ata-ana" xalq deyimini də yaddan çıxarmamalıdır.

Ata evə daxil olanda ayağa durar, onun xidmətində dayanar buyuruqların dərhal yerinə yetirərlər.

Xalqımızın tərbiyəvi adət-ənənələr sırasında qadına-anaya, əmək adamlarına, dostlara hörmət qaydaları da bəyənilir, təqdir olunur.

Qadına-anaya hörmətlə əlaqədar həyatda öz əksini tapan qaydalar, əxlaqi müddəalar həmişə hər yerdə bəyənilir.

Qadın – ana evin dirəyidir, evi düzəldən, sahmana salan vaqlıqdır-deyirlər. Hətta yaxşı qız haqqında söhbət düşəndə "filankəsin qızı ilə evlənsən, evinin dirəyi qızıldan olar"- deyirlər. Mübaliğəli olsa da bu sözlərdə müəyyən həqiqət var. Həyati müşahidələr əsasında gəlinən qənaətdir. Bu da məlumdur ki, iki düşmən-düşmənçilik niyyətində olanlar, üz-üzə gəlib qan tökmək istəyən zaman qadın-ana örpəyini qabağa atarsa, düşmənçilik hərisliyi sönər, yox olar.

Xalqımızın əməyə-əmək adamlarına hörmət ənənələri də dəyərlidir. Əmək adamlarının zəhməti sayəsində başa gələn və bütün nemətlərin tacı sayılan çörəyə hörmət birinci növbədə diqqətə çatdırılır. Çörəyi yerə, zibilliyə atmaq, ona pis demək günah sayılır. Əksinə, çörəyi müqəddəs varlıq hesab edib çörəyə əl basmaq, bir tikə qoparıb and içmək şüphəli bir məsələni aydınlaşdırmaqda ən inamlı əsas sayılır.

Azərbaycan xalqının əxlaqi-tərbiyəvi adət-ənənələrlə bağlı deyimlərində dostluq da əsas hədəflərdən sayılır. Ulularımız yaxşı dostu qardaşdan irəli hesab etmişlər. "Hər şeyin təzəsi, dostun köhnəsi", "Dostu yaman gündə sınayarlar", "Dost-dosta tən gərək, tən olmasa gen gərək" deyimləri əsrlərin sınağından çıxaraq bu gün də tərbiyəvi təsir qüvvəsini saxlamaqdadır. Xeyir-şər, duz-çörək, halallıq, uşağa sevgi və qayğı, evlənmək-ailə qurmaq, sənətə hörmətlə bağlı deyimlərimiz də dünya xalqlarının etik-estetik fikirlər antologiyasında xüsusi yer tutur, maraqla qarşılanır. Təsadüfi deyildir ki, müəyyən məqamlarla əlaqədar istinad etdiyimiz "Az söylə, söz söylə" tədris vəsaitində

də mənəvi zənginliklə, o cümlədən uşaq-məktəbli şəxsiyyətinin mənəvi zənginliyi ilə bağlı olan həmin cəhətlər də aşağıdakı şəkildə diqqətə çatdırılmışdır:

**Xeyir-şər.** Xalqımız xeyir-şərdə fəal iştirak edirlər. Xeyir və şərdə hamı bir-birinə kömək edər. Toy və yas kimi tədbirlərdə el köməyi təmannasız şəkildə üzə çıxar, əl tutmağı, yardım göstərməyi hamı özünə borc bilər.

**Uşağa sevgi və qayğı.** Atanın boynunda övladın üç borcu vardır: "Böyütmək, tərbiyə edib oxutdurmaq və evləndirmək", - deyərlər.

**Duz-çörək**. Qan kəsmək üçün və ya başqa bir dövlətin başçısı, sərkərdəsi xoş niyyətlə gələndə qabağa "duz-çörək" çıxararlar. O da çörəkdən bir tikə kəsib duza batırmalı və yeməlidir. Duz-çörək müqəddəs hesab edilir.

**Halallıq**. Zəhmətlə qazanılmış mayaya müftə ələ keçən malı qatmazlar. Həmişə haram, oğurluq nifrətlə qarşılanar, "oğurluq itə gəlmişdir", - deyərlər.

**Evlənmək üçün** qızın və oğlanın anasının və özünün tərbiyəsi əsas götürülür. Qızın tərbiyəsi, əsasən anadan hesab edilir. "Qırağına bax bezini al, anasına bax, qızını al", yaxud "Anası gəzən ağacı qızı budaq-budaq gəzər",- sözləri bu münasibətlə deyilmişdir.

**Sənətə hörmət**. "Sənətkar ac qalmaz, hər adamın bir sənəti olmalıdır" fikri xalqın təfəkküründə dərin iz salmışdır.

Bütün bu deyimlərin əsas mahiyyətinə diqqət yetirərkən belə qənaətə gəlmək olur ki, əxlaqi dəyərlər olmadan, onları müntəzəm olaraq əməli fəaliyyətdə, ünsiyyət anlarında nəzərə almadan gənc şəxsiyyətin etik-estetik inkişafından söhbət açmaq nəzəri cəhətdən belə mümkün deyil.

Xüsusi olaraq sübuta ehtiyac yoxdur ki, təbiət gözəlliyi - Azərbaycan təbiətinin gözəlliyi, əsrarəngiz lövhələr müxtəlif yaş qruplarına malik olan məktəblilərin şəxsiyyət zənginliyinə əhəmiyyətli təsir göstərir. Bu şərtlə ki, onlara yeri gəldikcə ayrı-ayrı fənlərin tədrisində, müvafiq mövzuların öyrədilməsi prosesində istinad olunsun.

Estetikaya- estetik mədəniyyət məsələlərinə həsr olunan- bir sıra dəyərli əsərlərin müəllifi kimi tanınan alimlərimizdən olan Tofiq Əkbərov "Təbiət, insan, gözəllik" əsərində yazır: "İnsan və insan cəmiyyəti təbiətin bir hissəsidir... Təbiəti, onun gözəllik və eybəcərliklərini ülvi və qeyri-üzvi, bir sözlə

bütün estetik cəhətlərini qiymətləndirmək estetikanın ən mühüm vəzifələrindən biridir...

... Heç bir rəssamın fırçası təbiətin yaratdığı rəngləri olduğu kimi əks etdirməyə qadir deyildir...

Təbiət bitməz-tükənməz gözəliklə, ülviyyətlə doludur. Onun hərarətli qoynunda ətirli çiçəklər açıb pardaxlanır. Baharında bülbüllər oxuyur. Çöllərində ceyran mələyir, göylərində durnalar uçur. Qartal qıy vurub bəyaz buludlar qoynunda süzür. Maral uca dağ zirvəsinə qalxıb ətrafı ürkək nəzərlərlə seyr edir".

Bu deyimlər sözün həqiqi mənasında Azərbaycan təbiətinin əsrarəngiz lövhələridir. Saymaqla qurtarası deyil.

Xalqmızın bədii təfəkkür incilərindən sayılan nağıllarda, dastanlarda da Azərbaycan təbiətinin gözəllikləri, ülvilikləri heyrət doğuran, heyranlıq yaradan lövhələrlə nəzərə çatdırılır. "Koroğlu" dastanında deyildiyi kimi:

-Yaz təzəcə açılmışdı. Çənlibel yenə gülə, nərgizə boyanmışdı. Bulaqlar qayır-qayır qaynıyır, ürəklər oyur-oyur oynayırdı. Rövşən baxdı ki, bura elə çəmənzar, gülzar bir yerdir ki, daha nə deyim? Gül-gülü çağırır, bülbül-bülbülü. Elə bil ki, bu sıldırım qayanın üstə bir bağça şəkli çəkilib. Yetmiş iki qələmlə yetmiş iki rəng vurulub. Lalələr, bənövşələr göz vururdu. Sıldırım qayalarda xınalı kəkliklər qaqqıldaşır, bülbüllər Koroğlunun səsinə səs verirdi...

Təbiətə şair, nəğməkar xalqımızın yaratdığı müxtəlif janrlı sənət nümunələrində diqqətə çatdırılan təbiət lövhələrinin estetik təsir xüsusiyyətləri sözün həqiqi mənasında estetik hissləri oyadıb hərəkətə gətirir. Buna görə də yeri gəldikcə dərsdə və dərsdən-sinifdənxaric məşğələlərdə onlara istinad edilməsi tərbiyəvi təsir imkanlarını daha da artırır. Təsadüfi deyildir ki, estetika-estetik tərbiyə problemlərini tətqiqat obyetinə çevirən alimlərimiz təbiətin-təbii varlıqlarını estetik təsir çalarlarını həyati mövqedən daha inandırıcı fikir və müddəalarla nəzərə çatdırmışlar.

Estetika problemlərinin sistemli tətqiqatçılarından sayılan əməkdar elm xadimi, akademik Məmməd Cəfər Cəfərov yazır: "...Aylı-ulduzlu gecələr bizdə fərəh, şadlıq, nikbinlik; tutqun, yağmurlu gecələr isə kədər və məhzunluq əmələ gətirir. Zambaq ilə bənövşə, lalə ilə həmişəbahar, qərənfil ilə ətirşah

bizdə müxtəlif duyğular, hisslər oyadır. Səhərin mülayim mehi bizdə kövrəklik doğurur, güclü külək isə mübarizə hissini alovlandırır. Quşların nəğmələri gözəldir, hər quşun nəğməsi müəyyən təsir oyadır. Bülbül daha gözəl və cazibədardır. Çünki onun mahnısı mürəkkəbdir, çıxardığı səslər daha əlvandır. Heç təsadüfi deyildir ki, qədimlərdən göyərçin sülh simvolu kimi qəbul edilmişdir. Göyərçin həqiqətən mülayim quşdur. Ceyranın hərəkəti, baxışı, duruşu, yürüşü, dırnaqları və s. xüsusiyyətləri isə nikbinlik simvolu təsiri buraxır. Quzu məsumluq simvoldur və sair...".

Çiçək adlarının, heyvanlar aləmi və səma cisimlərinin adlarını insanların özlərinə ad seçməsi də bu qəbildəndir. Incəsənət əsərlərinin adları da cansız və canlı təbiətin cisim və hadisələrinin adları ilə adlandırılır. Məs., "Səhər", "Aylı gecələr", "Solğun çiçəklər", "Qızıl qönçələr", "Ayın sonatası", "Günəş", "Torpaq mənə nə deyirdi" və s.

Akademik M.Cəfərov təbiət hadisələrinə, təbii varlıqlara müxtəlif nəsildən olan insanların bədii-estetik mövqedən yanaşmalarının əsas səbəbini inandırıcı fikir və müddəalarla nəzərə çatdıraraq yazır ki, bu işdə estetik zövq mühüm rol oynayır. Zövqsüzlük isə gülünc adlar qoyulmasına səbəb olur. Beləliklə, insan təbiət gözəlliyi ilə ictimai həyat, insan gözəlliyi arasında bir ünsiyyət, yaxınlıq, əhangdarlıq görmək istəyir, öz həyatını təbii gözəlliklərə uyğun bir şəkildə zənginləşdirməyə çalışır. Təbiət gözəlliklərini isə öz insani zövqünə uyğun bir şəkildə mənalandırır. Insan istəyir ki, o da, onun nəsli də aslan kimi cəsur, şahin kimi vüqarlı, qaya kimi sarsılmaz, Araz kimi əzəmət, maral, ceyran kimi gözəl, mehriban, bülbül kimi şirindilli, göyərçin kimi mülayim, çiçək kimi gözəl, ətirsaçan olsun.

Estetik dəyərlərdən, o cümlədən şagird-məktəbli şəxsiyyətinin mənəvi zənginliyini artıran, inkişaf etdirən dəyərlərdən söhbət açarkən incəsənətin –müxtəlif janrlı incəsənət əsərlərinin, xalq yaradıcılığı nümunələrinin estetik təsir xüsusiyyətləri üzərində dayanmaq zəruri sayılır. Müxtəlif nəsildən olan insanların həyatını mənalandırır, onları mənalı yaşamağa – yaratmağa ruhlandırır. Çox geniş yayılan müxtəlif janrlı nümunələr estetik təsir xüsusiyyətləri ilə diqqəti cəlb edir.

İncəsənət ictimai şüur formasıdır. Bəşəriyyətin yaratdığı mənəvi mədəniyyətin mühüm tərkib hissəsidir. Buna görə də sinif-dərs prosesində, habelə

dərsdən-sinifdənkənar məşğələlər, tədbirlər prosesində incəsənət növlərinin-janrlarının əsas mahiyyəti, estetik təsir xüsusiyyətləri haqqında şagirdlərə lazımi məlumat verilməli, əyani-illustrativ vasitələrlə müşayiət olunmalıdır. Bu prosesdə şagirdlər şüurlu şəkildə dərk etməlidirlər ki, incəsənət müxtəlif təbiət lövhələrini, insani münasibətləri müvafiq janrlar, obrazlar vasitəsilə əks etdirir. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, bütün bunlar ayrı-ayrı incənət növlərinin ifadə vasitələri ilə nəzərə çatdırılır. Ədəbiyyatda sözlər, rəssamlıqda rənglər, heykəltaraşlıqda daş, gil, dəmir və s. forma çalarları ayrı-ayrı sənətkarların ustalığı, peşə məharətilə incəsənət əsərlərinə dönür.

Müxtəlif xarakterli insanların hiss və həyəcanlarını, arzu və ideallarını ifadə etməkdə incəsənətin ayrı-ayrı növləri çox böyük imkanlara malikdir.

Estetikaya, estetik tərbiyəyə və incəsənətşünaslığın əsaslarına həsr edilmiş kitablarda göstərilir ki, bizim günlərə gəlib çatan incəsənətin daha geniş yayılan aşağıdakı növləri vardır:

1. Dekorativ sənət.
2. Memarlıq.
3. Təsviri incəsənət.
4. Musiqi.
5. Bədii ədəbiyyat.
6. Xoreoqrafiya.
7. Teatr.
8. Kino.
9. Bədii fotoqrafiya.

Əgər nəzərə alsaq ki, həmin növlər də müxtəlif janrlara-janr qruplarına ayrılır, o zaman incəsənətin geniş əhatə dairəsi haqqında daha aydın təsəvvür yaranır.

İncəsənətin növlərindən danışarkən **mono** və **sintetik** incəsənət terminləri də işlədilir. Ancaq bir növdən ibarət olan incəsənətə **mono** incəsənət deyilir. Bədii ədəbiyyatın növ və janrları, rəssamlıq əsərləri, instrumental musiqi nümunələri və sairə mono incəsənət növlərinə aiddir.

Bir neçə növdən ibarət olan incəsənətə isə **sintetik** incəsənət deyilir. Kiçik və iri həcmli vokal musiqi janrları (mahnı, romans, kantata, oratoriya), teatr, kino və digər növlərdəki sənət inciləri sintetik incəsənətə aiddir.

Incəsənətin müxtəlif növlərindəki əsərlər insanların əxlaqi-estetik hisslərinin inkişafında, mənəvi zənginliyinin artmasında çox böyük rol oynayır. İncəsənətin, xüsusilə, musiqinin, təsviri incəsənətin nəinki insanlara, hətta bütün canlılara çox qüdrətli təsir göstərməsi dahi Nizaminin əsərlərində parlaq

misralarla inandırıcı şəkildə nəzərə çatdırılır. Daha aydın olmaq üçün şairin "İsgəndərnamə" poemasının "İqbalnamə" bölməsində "Əflatunun çalğı aləti qayırması" hissəsindən aşağıdakı misralara diqqət edək:

Bütün heyvanları yatırdıb sazla,
Sonra ayıldardı xoş bir avazla.
Hər bir səsə uyğun səslər çıxardan,
Bir saz düzəltdi ki, başqa bir insan.
Onun sirlərini əsla bilməzdi,
O sazda bir hava çala bilməzdi.
Ustad həmin sazı çaldığı zaman,
Edərdi xəstənin dərdinə dərman.
Çalğıda elə bir cəhət də vardı,
Ki, həkim onunla dərdi tapardı.

İncəsənətin ən geniş yayılan növləri olan musiqi, ədəbiyyat, təsviri incəsənət həqiqətən çox təsirli müalicə vasitəsidir. Fəlsəfə elmləri doktoru, professor Adil Nəcəfov "İncəsənət və səhhət" əsərində yazır:

"İncəsənət insana şəfa gətirən ən təsirli ruhi ilaclardandır. Bu mənəvi dərman insanı quruluqdan, qəzəbdən, xudpəsəntlikdən, xəsislikdən, tamahkarlıqdan, dünyagirlikdən xilas edib onun qəlbində yaşamaq həvəsi, könül dolu sevinmək həvəsi, dünyanı və insanları sevmək həvəsi yaradır, insanın qəlbini romantik sənət möcüzəsi sehirləyir...

İncəsənət əsərlərindən alınan estetik zövq ən güclü müsbət emosiyalardandır və insan orqanizminə olduqca yaxşı təsir göstərir. Ən yaxşı bədii əsərlər hər cür azara qarşı mübarizədə çox zəruri olan böyük nikbinlik ehtiyatı yaradır. Incəsənət sağlamlığa xidmət edir və edəcəkdir".

Çox gözəl deyilmişdir. İncəsənətin həm də müalicə funksiyasını yerinə yetirməsi onun emosional təbiəti ilə sıx bağlıdır. Bax elə buna görə də incəsənətin ən geniş yayılan növlərindən olan musiqi nümunələri ilə bütün canlılara təsir etmək olur. Musiqi ilə bitkilər yaxşı inkişaf edir. Sağmal heyvanlar südünü, qoşqu heyvanları (cütə, arabaya qoşulan öküzlər, kəllər, atlar nəzərdə tutulur) isə gücünü artırır.

Artıq xeyli vaxtdır ki, təbabətdə "muzoterapiya" (musiqi vasitəsilə müalicə) adlanan yeni bir sahəyə maraq və diqqət xeyli artıb. Görkəmli Azərbaycan

alimi-tibb elmləri doktoru, professor İbrahim Topçubaşov ən ağır cərrahiyyə əməliyyatlarını musiqi müşayiəti ilə aparır, bu sahədə böyük uğurlar qazanırdı.

Azərbaycan incəsənəti, inkişaf yolları həm də xalqımızın mənəviyyat-mədəniyyət tarixi kimi mühüm əhəmiyyət kəsb edir.

Incəsənətin əsas mahiyyəti, başlıca istiqamətləri haqqında şagirdlərə məlumat verərkən Azərbaycan xalq yaradıcılığına musiqi və folklor nümunələrinə də xüsusi diqqət yetirmək lazımdır. Laylalar, bayatılar, nağıllar, dastanlar, aşıq havaları, muğamlar, mahnılar və s. xalqımızın bədii təfəkkürünün zənginliyini göstərir.

Dədə Qorqud müdrikliyi, Xaqani və Nizami fəlsəfəsi, Nəsimi və Füzulinin həyat eşqi, Bəhruz Kəngərli və Səttar Bəhlulzadənin ecazkar rənglər dünyası, Üzeyir Hacıbəyli musiqisinin qüdrəti–mübarizliyi, həzinliyi və füsunkarlığı, Səməd Vurğun poeziyasının bədii-estetik təsiri müxtəlif nəsildən olan insanları bütövlükdə xalqımızı mənalı yaşamağa, yaratmağa ruhlandırır.

Müəllimlər, tərbiyəçilər, məktəb rəhbərləri, habelə müxtəlif yaş qrupuna malik məktəblilərin təlim-tərbiyəsi ilə məşğul olan ayrı-ayrı mənəvi və müasir qurumların mütəxəssisləri belə bir məlum həqiqəti, prinsipial cəhəti unutmamalıdırlar ki, incəsənət onun ayrı-ayrı növ və janrlarındakı nümunələr o zaman ən təsirli estetik tərbiyə vasitəsinə çevrilir ki, izahlar və şərhlər əyani illustrativ vasitələrlə müşayiət olunur, sözün həqiqi mənasında heyranlıqla aşılanan estetik-emosional vəziyyət yaranır.

## II Fəsil. Təlim prosesində şagirdlərə estetik dəyərlərin aşılanması imkanları

### 2.1. Bədii-estetik silsilə fənlərin tədrisi prosesində estetik dəyərlərin aşılanması imkanları

Böyüməkdə olan nəslin estetik tərbiyəsini ən müasir tələblərə müvafiq şəkildə inkişaf etdirmək məqsədilə ədəbiyyat və incəsənət əsərlərinə geniş istinad olunması zərurəti tarixi inkişafın müxtəlif dövrlərində diqqətə çatdırılıb. Əlbəttə, belə bir mövqe təsadüfi deyildir. Artıq çoxdan sübut olunmuş-

dur ki, heç bir vasitə ədəbiyyat - incəsənət qədər insanın, xüsusilə gənc şəxsiyyətin mənəvi aləminə qüvvətli təsir göstərə bilməz. Müxtəlif janrlı ədəbiyyat və incəsənət əsərləri uşaqları, ayrı-ayrı yaş dövrlərində olan məktəbliləri estetik cəhətdən həyəcanlandırır, onları nəcibləşdirir, ətraf aləmi, həyat hadisələrini daha yaxından duymağa səfərbər edir. Bu da məlumdur ki, tarixin müxtəlif dövrlərində yaranan bədii təfəkkürün, estetik fəaliyyətin məhsulu olan incəsənət insanlara ən yüksək bəşəri-humanist hisslər aşılamış, onları bir-birinə yaxınlaşdırmış, estetik mədəniyyətin yüksəlməsi zəmini kimi mühüm əhəmiyyət kəsb etmişdir. Müxtəlif janrlı ədəbiyyat-incəsənət əsərləri eyni zamanda dərin vətənpərvərlik, xalqlar dostluğu tərbiyəsi baxımından da çox qüdrətli təsir qüvvəsinə malikdir. Məhz buna görə də orta ümumtəhsil məktəblərində də böyük idrak və tərbiyə vasitəsi kimi dəyərləndirilən ədəbiyyat, musiqi, təsviri incəsənət və estetikanın imkanlarından daha yaxşı istifadə olunmasının pedaqoji təminatı indiki dövrdə daha çox diqqət mərkəzinə gətirilir.

Bədii-estetik silsilə fənləri kimi xüsusi təsir imkanlarına malik olan həmin fənlər vasitəsilə şagirdlərə bədii-estetik təhsil verilir, incəsənətin əsasları nəzəri və təcrübi cəhətdən onlara öyrədilir, mühüm tərbiyəedici funksiyalar yerinə yetirilir.

İbtidai siniflərdən başlayaraq tədris olunan ana dili, ədəbiyyat, musiqi, təsviri incəsənət fənləri vasitəsilə ayrı-ayrı həyat, təbiət, cəmiyyət hadisələrini müxtəlif çaları hissləri, insani münasibətləri əks etdirən incəsənət əsərlərinə, müxtəlif janrlara geniş istinad olunur. Şagirdlərə müvafiq bilik, bacarıq və vərdişlər aşılanır. Yeri gəlmişkən qeyd edək ki, respublikamızın qabaqcıl, adlı-sanlı ədəbiyyat, musiqi, təsviri incəsənət müəllimləri tədris etdikləri fənn üzrə hər bir dərsin estetik-emosional təsirini artırmağa xüsusi diqqət yetirirlər. Heç şübhəsiz, belə bir mövqe orta ümumi təhsil məktəblərində ədəbiyyat musiqi, təsviri incəsənət fənlərinin bilavasitə bədii-estetik fənlər silsiləsi kimi təsnif olunması ilə əlaqədardır. Çünki istər ədəbiyyat və istərsə də musiqi, təsviri incəsənət fənlərinin tədrisi prosesində öyrədilən əsərlər və şagirdlərə aşılanan təcrübi qabiliyyətlər və vərdişlərin hamısı bədii-estetik mahiyyət kəsb edir. Ədəbiyyat, musiqi, təsviri incəsənət fənləri və bu fənlər üzrə aparılan sinif-dərs məşğələləri necə deyərlər, başdan ayağa estetikadır.

Müəllimlərə o qalır ki, ayrı-ayrı mövzular, müxtəlif janrlı incəsənət əsərləri heç bir təhrifə yol verilmədən elmi-profesional şəkildə, estetik-emosional əsaslarda şagirdlərə təqdim olunsun.

İbtidai siniflərdən başlayaraq bu cəhətə xüsusi fikir verməli, bədii-estetik silsilə fənləri vasitəsilə şagirdlərin gözəllik hisslərini oyadıb hərəkətə gətirməlidir.

Belə bir cəhəti də nəzərdən qaçırmaq olmaz ki, bədii-estetik silsilə fənlərinin tədrisi prosesində estetik tərbiyənin imkanları və həlli vacib olan məsələlərin əhatə dairəsi çox genişdir. Həyat həqiqətlərini obrazlı şəkildə əks etdirən müxtəlif forma və ifadə vasitələrinə malik olan incəsənət növlərinin əsasları, bədii xüsusiyyətləri məhz bədii-estetik silsilə fənlərinin tədrisi prosesində şagirdlərə çatdırılır. Buna görə də ədəbiyyat, musiqi, təsviri incəsənət fənlərinin hər birinin estetik təsir imkanları üzərində ayrıca dayanmaq yerinə düşər.

Ədəbiyyat dərslərində şagirdlərin estetik tərbiyəsi həmişə xüsusi diqqət tələb edən bir məsələdir. Belə ki, yaş, təhsil səviyyəsindən asılı olmayaraq ədəbiyyatı hamı sevir. Ədəbiyyat incəsənətin aparıcı, başlıca növü, yaradıcılıq və söz sənətinin parlaq nümunəsi kimi hamıya, hər kəsə çox qüdrətli təsir göstərmək imkanlarına malikdir. Həyat hadisələrini, insanın bütün həyat mərhələlərini-uşaqlıq və gənclik illərini, təhsil, əmək fəaliyyətini, sevgi məhəbbət, məişət tərzini, ətraf aləmə münasibətini, fədakarlıq və qəhrəmanlığını hamının başa düşəcəyi şəkildə təsvir və tərənnüm etməkdə ədəbiyyatın digər incəsənət növlərinə nisbətən özünəməxsus üstünlüyü, təsir qüvvəsi vardır. Təbiidir ki, bütün bu cəhətlər orta məktəbdə ədəbiyyat kursunun proqramında da nəzərə alınmış, uşaq və yeniyetmələrdə, məktəbli gənclərdə mənalı yaşamaq-yaratmaq fərəhini artıran, onların mənəvi-estetik, hisslərini qüvvətləndirən əsərlərə xüsusi diqqət yetirilmişdir. Elə buradaca qeyd edək ki, orta ümumtəhsil məktəbləri üçün tərtib olunmuş ən yaxşı ədəbiyyat proqramı və bunun əsasında hazırlanan dərslik-müntəxabat özlüyündə estetik tərbiyə vasitəsi deyil. Proqramda, dərslikdə göstərilən mövzular, ayrı-ayrı əsərlər o zaman qüdrətli estetik təsir vasitəsinə çevrilir ki, müəllimlər ədəbiyyatın-bu müqəddəs söz sənətinin bədii imkanlarından dərsdə bacarıqla istifadə edir, hər bir ədəbiyyat dərsini «bir aktyorun teatrına» çevirə bilirlər.

Görkəmli sovet sənətşünas-estetik alimi, akademik S.A.Gerasimov ədəbiyyatın estetika və sənətşünaslıqdakı mövqeyindən bəhs edərkən deyirdi ki, ədəbiyyat incəsənətin" anasıdır.

Heç şübhəsiz, orta ümumtəhsil məktəblərində çalışan ədəbiyyat müəllimləri bu tezis əsasında düşünərək yaradıcılıq axtarışlarında olsalar, onlar sözün həqiqi mənasında ədəbiyyatın şagirdlərin estetik tərbiyə sistemindəki tam mövqeyini, ədəbiyyatın «incəsənətin anası» olmasını parlaq şəkildə nəzərə çıtdıra bilərlər. Bununla belə, müəllimlərimiz ədəbiyyat tədrisi vasitəsilə şagirdlərin estetik tərbiyəsini inkişaf etdirmək məqsədilə aşağıdakı cəhətlərə xüsusi diqqət yetirməlidirlər:

**Birinci,** dərsdə hər bir mövzu, hər bir əsər estetik-emosional şəkildə izah olunmalıdır. Ayrı-ayrı dövrlərdə yaşamış və hazırda geniş quruculuq illərində fəaliyyət göstərən müxtəlif xarakterli adamların həyatına, məişətinə, əmək fəaliyyətinə həsr olunan əsərlərin mahiyyəti tam əyanilik əsasında açılmalı, müqayisəli şərhlərə geniş yer verilməlidir.

Təbiət təsvirlərini, ayrı-ayrı həyat hadisələrini, müxtəlif xarakterli obrazları tərənnüm edən əsərlərlə tanışlıq zamanı informasiya və şərhləri elə maraqlı şəkildə şagirdlərə çıtdırmaq lazımdır ki, onlar məzmundan, hadisələrin inkişafından asılı olaraq sevinc, iftixar, məhəbbət, qəm, kədər, nifrət və s. hissləri yaşaya bilsinlər.

**İkinci,** dərsdə keçilən mövzulara, müxtəlif janrlı əsərlərə müvafiq olaraq musiqi, təsviri incəsənət nümunələrindən istifadə olunması, əyani-illustrativ vasitələrə geniş yer verilməsi yolu ilə şagirdləri daha çox heyrətləndirmək, onların mənəvi-estetik hisslərini üzə çıxarmaq zəruridir. Yadda saxlamaq lazımdır ki, ədəbiyyat öz təbiəti və funksiyası etibarilə digər incəsənət növləri- musiqi, təsviri incəsənət, kino, teatr, xoreoqrafıya və sairə ilə qırılmaz tellərlə bağlıdır. Buna görə də ədəbiyyat tədrisi prosesində müvafiq incəsənət əsərlərinə, ayrı-ayrı janrlara istinad etmək, müəyyən bir sistem yaratmaq məsələsi həmişə öz aktuallığı ilə diqqəti cəlb edir.

Problemin belə bir cəhətini də unutmaq olmaz ki, ədəbiyyat dərslərində incəsənət əsərlərindən öz yerində, öz məqamında istifadə olunması nəticəsində şagirdlərin estetik həssaslığı artır, digər incəsənət növlərinə maraq dai-

rəsi genişlənir ki, bu da şəxsiyyətin mənəvi zənginliyinin yüksəlməsi baxımından çox vacibdir.

**Üçüncü,** ədəbiyyatın ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsi sistemində özünə layiqli yer tutması üçün tədris olunan hər bir əsərin məzmunu, dili, kompozisiya xüsusiyyətləri izah olunmalı, səhnələşdirmə elementlərindən, rejissor priyomlarından, illüstrativ materialların müşayiətindən istifadə edilməlidir. Həmin priyomlara məqsədə müvafiq şəkildə istinad olunması eyni zamanda dərsdə keçilən əsərin bədii səslənməsini təmin edir, estetik hiss-həyəcan oyadır, emosional qavrama şəraiti yaradır.

**Dördüncü**, ədəbiyyatın tədrisi prosesində inteqrasiya-fənlərarası əlaqənin təşkili yolu ilə şagirdləri daha çox heyrətləndirmək, elmi dünyagörüşlərini genişləndirmək də öz növbəsində onların ümumestetik inkişafını təmin edir.

Ədəbiyyatın musiqi, təsviri incəsənət, tarix fənləri arasında əlaqə yaradılması yolu ilə tədris prosesində şagirdlər müxtəlif janrlı, müxtəlif məzmunlu sənət əsərləri ilə yaxından tanış olur, ümumxalq mədəniyyətinin inkişafı ilə bağlı xarakterik tarixi məlumatlara yiyələnirlər.

**Beşinci,** ədəbiyyatın tədrisi prosesində şagirdlərin bədii yaradıcılıq qabiliyyətlərinin inkişafına, xüsusilə yaradıcı ifadə və inşaların aparılmasına da böyük əhəmiyyət verilməsi, yeri gəldikcə istedadların bədii təfəkkürünün məhsulu (şeir, hekayə, oçerk və s.) olan işlərin nümayişinə və təhlilinə də lazımi diqqət yetirilməlidir.

Ədəbiyyat dərslərində şagirdləri incəsənətə, bədii yaradıcılığa həvəsləndirmək, onlarda bədii mütaliəyə geniş maraq oyatmaq da xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Çünki ədəbiyyat kütləvi əhatə dairəsinə malik olmaqla, gənc şəxsiyyətin mənəvi aləminin zənginləşməsində çox boyuk rol oynayır. Lakin bəzən bu məlum həqiqətin əsl mənası, mahiyyəti unudulur.

Bizdə hələ də elə adamlara təsadüf edilir ki, onlar təəccüblənirlər: nə üçün gələcəyin fızikşünası və ya gəmiqayıranı məktəbə daxil olarkən ana dilindən imtahan verməlidir? Nə üçün gələcək sənaye fəhlələrinin texniklərin, mühəndislərin də təhsil aldıqları orta məktəbdə ədəbiyyatın və tarixin öyrənilməsinə belə böyük diqqət yetirilir? Belə adamlar başa düşmürlər ki, ana dili qrammatikasının öyrənilməsi təkcə qiraət və yazı vərdişi əldə etmək deyildir. Ana dili, onun öyrənilməsi öz xalqının qəlbini, onun tarixini anlamaq

deməkdir.

Ədəbiyyat, incəsənət bizə neçə-neçə həyat yaşamağa, qocanı başa düşməyə, bir daha cavan qəlbin həyəcanlarını keçirməyə... uzaq keçmişə baş çəkməyə və cəsarətlə gələcəyə nəzər salmağa imkan verir” .

Bu fikirdə ədəbiyyatın həyati əhəmiyyəti, mənəvi-estetik təsir imkanları inandırıcı şəkildə nəzərə çatdırılır. Buna görə də tərbiyə edib yetişdirdiyimiz gənc nəsli, bu günün məktəblilərini orta məktəb illərindən həyata elə hazırlamalıyıq ki, ədəbiyyat onların mənəvi qidası, etibarlı “yol yoldaşı”, estetik zövq mənbəyi olsun.

Filoloji elmlər sisteminə daxil olan və respublikamızın ümumtəhsil məktəblərində keçilən **xarici dillərin tədrisi prosesində estetikliyi təmin etmək** ayrı-ayrı dərslərdə öyrədilən dil və ədəbi-bədii materialların estetik təsirini artırmaq da indiki dövrdə mühüm vəzifə kimi qarşıda durur. Buna görə də ədəbiyyat fənninin estetik təsir imkanları və yolları haqqında göstərdiyimiz pirinsipial cəhətlər eynilə xarici dillərin tədrisi prosesində estetikliyi təmin etmək məqsədilə nəzərə alınmalıdır.

Dili öyrədilən xalqın mədəniyyəti, ayrı-ayrı ədəbiyyat və incəsənət janrları ilə Azərbaycan xalqının mədəniyyəti, ədəbiyyat və incəsənət janrları arasında müvafiq əlaqə yaratmaq, yeri gəldikcə müxtəlif əsərləri müqayisə etməklə xarici dil dərslərində çox maraqlı, heyrət doğuran estetik-emosional vəziyyət yaratmaq olur.

Musiqi dərslərində şagirdlərin estetik tərbiyəsi həmişə diqqəti cəlb edən problem məsələlərdən olmuşdur.

Keçən əsrin 60-cı illərin əvvəllərindən başlayaraq bu fənn üzrə tərtib olunan, hazırlanan orijinal proqramlar və dərsliklər xeyli maraq doğurmuşdur. Əsas diqqət ona yönəldilmişdir ki, mənəvi-estetik mahiyyətinə görə mühüm əhəmiyyət kəsb edən musiqi fənninin digər ümumtəhsil fənləri ailəsindəki doğma yeri, şagird şəxsiyyətinin formalaşmasına göstərdiyi təsir imkanları daha aydın şəkildə nəzərə çatdırılsın.

Digər ümumtəhsil fənlərindən fərqli olaraq musiqi bir sıra spesifik xüsusiyyətlərə malikdir. Bu fənn üzrə sinif-dərs məşğələləri kompleks mərhələlər əsasında təşkil olunur. Belə ki, hər dərsdə mahnı oxuma, musiqi savadı-ritmika, musiqi dinləmə məşğələlərinə istinad olunur. Bir dərs daxilində göstərilən

sahələr üzrə məşğələlər emosionallığı artırır.

Kompleks mərhələlik əsasında aparılan dərslərdə ifa olunan mahnılar dinlənilən musiqi əsərləri, verilən nəzəri məlumatlar, əməli cəhətdən icra edilən ritmik təmrinlər şagirdlər tərəfindən çox böyük maraqla qarşılanır.

Ümumtəhsil məktəblərində musiqi tədrisi vasitəsilə şagirdlərin estetik tərbiyəsinin əsas səciyyəvi xüsusiyyətlərindən biri də budur ki, dərsdə səsləndirilən ayrı-ayrı musiqi nümunələri dinamik şəkildə tez bir zamanda hissləri ələ alır, şagirdləri estetik cəhətdən həyəcanlandırır, onların estetik zövqünün inkişafına qüvvətli təsir göstərir.

Musiqi tədrisi vasitəsilə şagirdlərin estetik tərbiyəsi işinin əsas mahiyyətini izah edərkən bu sahədə qarşıda düran vəzifələri konkret olaraq aşağıdakı şəkildə müəyyənləşdirmək lazım gəlir:

a) musiqi vasitəsilə şagirdlərdə estetik dünyagörüşün həyata, insanlara, cəmiyyətə və təbiət hadisələrinə düzgün, qayğılı münasibətlərin, Vətənə, ayrı-ayrı xalqlara, müharibə qəhrəmanlarına və veteranlarına əmək qəhrəmanlarına, sadə  əmək adamlarına məhəbbət hissinin inkişafına zəmin yaranır;

b) musiqi-sənət əsərləri vasitəsilə düzgün estetik görüş və prinsiplərin, musiqi-estetik zövqünün, ifaçılıq fəaliyyətinin, inkişafı təmin olunur.

c) xalqımızın, habelə dünya xalqlarının musiqi yaradıcılığı nümunələrinə marağı daha da artırır.

Bununla belə musiqi vasitəsilə şagirdlərin estetik tərbiyəsini inkişaf etdirərkən aşağıdakı cəhətlərə xüsusi diqqət yetirilməlidir.

a) musiqi şagirdlərin estetik hisslərinin necə oyadıb hərəkətə gətirir?

b) ayrı-ayrı musiqi nümunələrinin şagirdləri estetik cəhətdən həyəcanlandırmaq, onları emosional vəziyyətə salmaq imkanları necədir?

c) musiqi şagirdlərin estetik zövqünün inkişafına necə təsir göstərir?

ç) müxtəlif musiqi məşğələləri şagirdlərin bədii qabiliyyətlərinin inkişafına necə zəmin yaradır?

Göstərilən cəhətlərlə yanaşı, musiqinin ideya-estetik istiqaməti, mənəvi təsir aspektləri də bir an belə nəzərdən qaçırılmamalıdır. Çünki musiqi eyni zamanda qüdrətli tərbiyəvi təsir vasitəsi kimi şəxsiyyətin mənəvi zənginliyində  çox böyük rol oynayır. Buna görə də musiqi müəllimləri, tərbiyəçiləri problemliliyi ilə mühüm əhəmiyyət kəsb edən və estetik təsir xüsusiyyətləri

ilə diqqəti cəlb edən aşağıdakı cəhətləri daima diqqət mərkəzində saxlamalıdırlar.

**Birinci,** musiqi qüdrətli incəsənət vasitəsi kimi ictimai həyat, təbiət hadisələrini olduqca həyati, canlı-dinamikada əks etdirə bilir ki, bu da hər hansı məşğələ prosesində şagirdlərə qüvvətli təsir göstərir, onları mənəvi-estetik ideallarla yanaşmağa-yaratmağa ruhlandırır.

**İkinci,** estetik tərbiyənin əsas vasitələrindən olan musiqi dərsləri şagirdlərə böyük, müqəddəs incəsənətin əsaslarını və bu ecazkar sənətin ayrı-ayrı nümunələrinin əsl mahiyyətini düzgün qavramaq, dərk etmək qabiliyyətini inkişaf etdirir.

**Üçüncü,** musiqi başqa elm, sənət nümunələrindən fərqli olaraq dilinin dünyəviliyinə, geniş əhatə dairəsinə, təbliğ olunma səviyyəsinə, auditoriyasının genişliyinə, hissləri bir anda oyatmaq, üzə çıxarmaq, təlatümə gətirmək imkanına malikdir.

**Dördüncü,** musiqi əsərləri ən böyük mənaları, həyat hadisələrini, ictimai motivləri olduqca təsirli, lakonik şəkildə tərənnüm edir və onları tez bir zamanda uşaqlara, yeniyetmələrə, məktəbli gənclərə çatdıra bilir.

**Beşinci,** musiqi və onun ayrı-ayrı janrları, xalq yaradıcılığı nümunələri tarixi inkişafın, mədəniyyətin parlaq forması, qüdrətli vasitəsi kimi şagirdlərin bədii- estetik görüşlərinin formalaşmasında mühüm rol oynayır.

Musiqi tədrisi vasitəsi ilə, müasir məktəblilərin estetik mədəniyyətinin yüksəlməsi işində həmin cəhətlərin müntəzəm olaraq nəzərə alınması bu sahədə nəzərə çarpacaq uğurların əsas zəmini kimi mühüm əhəmiyyət kəsb edir.

**Təsviri incəsənət dərslərində şagirdlərin estetik tərbiyəsi** daha çox diqqət və qayğı obyektinə çevrilən problemlərdəndir. Müasir dövrdə belə bir cəhətə xüsusi fikir verilir ki, ibtidai siniflərdən başlayaraq təsviri incəsənət fənni üzrə keçən dərslər vasitəsilə şagirdlərin bədii-estetik hissləri, təfəkkürü ahəngdar şəkildə inkişaf etdirilsin. Onlar rənglərin dili, qamması ilə müvafiq janrlarda öz əksini tapan həyat hadisələrinin əsl mahiyyətini başa düşə bilsinlər. Buna görə də I-IX siniflərdə keçilən təsviri incəsənət dərsləri vasitəsilə şagirdlər müxtəlif həyat lövhələrini, həyat hadisələrini, təbiətin gözəl guşələrini, ayrı-ayrı qəhrəmanların surətini tərənnüm edən rəsm, heykəltəraşlıq

əsərləri ilə tanış olmaq, onlardan hədsiz zövq almaq bacarığına yiyələnməlidirlər.

Təsviri incəsənət dərslərində naturadan, mövzu üzrə, dekorativ *rəsm* və müsahibə məşğələlərində şagirdlərin görmə həssaslığı, görmə yaddaşı inkişaf edir. Onlar ayrı-ayrı əşya və obyekti düzgün təsvir etməyi, təbii rəng əlaqələri ilə verməyi, kompozisiya qurmağı öyrənirlər.

Dərslərdə nümayiş etdirilən əsərlər mövzusundan, məzmunundan və janr xüsusiyyətlərindən asılı olaraq şagirdləri müxtəlif çalarlı hisslərlə həyəcanlandırır. Onlarda müvafiq qavrayış qabiliyyəti yaradır.

Təsviri incəsənət dərslərində şagirdlərin estetik tərbiyəsinin mühüm bir cəhəti onların bilavasitə təcrübi qabiliyyətlərinin inkişafı ilə əlaqədardır. Məşğələlərdə şagirdlər praktik olaraq adi və rəngli karandaşlarla, habelə fırça, sulu və faner-taxta üzərində döymə üsulu ilə müəyyən təsvirlər etmək qabiliyyətinə yiyələnirlər. Göründüyü kimi təsviri incəsənət dərslərinin şagirdlərin estetik tərbiyəsində özünməxsus mövqeyi və imkanları var. Lakin bu imkanları daha da artırmaq üçün mühüm əhəmiyyət kəsb edən bir sıra başlıcı məsələlərə xüsusi diqqət yetirilməlidir.

Hər şeydən əvvəl qeyd edək ki, təsviri incəsənət üzrə dərs və sinifdənxaric məşğələləri düzgün elmi-sənət prinsipləri əsasında aparmaq, şagirdlərə kiçik yaşlarından düzgün istiqamət vermək, sənətin adi-elementar qayda-qanunlarını düzgün izah etmək lazımdır. Əks halda təsviri fəaliyyətə başlayan şagirdlər ilk anlardan düzgün yolla deyil, səhv yolla gedir, onların zövqlülük səviyyəsi aşağı düşür. Problemin bu cəhəti ilə əlaqədar ustad sənətkarımız Tahir Salahovun dediklərini yada salmaq yerinə düşər:

"...Əgər uşaqlıq illərində adam düzgün estetik istiqamət götürmürsə, əgər onun bədii zövqü-incəsənəti qavramaq, ayrı-ayrı hallara, həyat hadisələrinə qiymət vermək, əşyalara estetik keyfiyyətləri baxımından qiymət vermək qabiliyyəti inkişaf etdirilmirsə, bir qayda olaraq bu, mənəvi yoxsulluğa gətirib çıxarır, gözəllik haqqında yanlış, təsadüfi təsəvvürlərin, pis zövqün yaranmasına səbəb olur".

Çox yerində deyilən və mühüm pedaqoji mahiyyət kəsb edən bu fikir təsviri incəsənət dərslərinin, sinifdənxaric məşğələlərin hər anında xüsusi diqqət mərkəzində olmalıdır. Buna görə də mövzusundan, formasından asılı

olmayaraq naturmord, portret, peyzaj, qrafika və sairə janrlardakı əsərlərlə təmasda olarkən onların əsl mahiyyətini düzgün başa düşməyə, rəng perspektiv, kompozisiya əlaqələrinin necə verilməsinə diqqət artırılmalıdır.

Bədii-estetik silsilə fənlərinin ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsi sistemindəki rolu və imkanları haqqında deyilənləri yekunlaşdırarkən bir daha belə bir qənaətə gəlmək lazım gəlir.

Bədii estetik silsilə fənləri orta ümumtəhsil məktəblərində şagirdlərə təhsil vermək, incəsənətin əsaslarını öyrənmək funksiyasını yerinə yetirir. İncəsənəti isə məktəbdə aparılan ümumtərbiyə prosesindən ayırmaq olmaz.

İncəsənətin belə geniş qüdrətli tərbiyəedici funksiyaya malik olması eyni zamanda "İncəsənət və özünütəhsil" problemini tam zərurəti ilə qarşıya qoyur. Gərək orta məktəb illərindən ədəbiyyat, musiqi təsviri incəsənət müəllimləri şagirdlərin diqqətini bu problemə cəlb etsinlər. Onları başa salsınlar ki, incəsənəti, onun ayrı-ayrı növ və janrlarını daha dərindən mənimsəmək üçün müntəzəm, sistemli mütaliəyə geniş yer vermək lazımdır. Belə bir mütaliə şəxsiyyəti mənəvi cəhətdən zənginləşdirir, estetik mədəniyyətini yüksəldir. Əlbəttə, bu problemlə əlaqədar görkəmli adamların həyatından misallar gətirmək də yerinə düşər. Məsələn, görkəmli bioloq alim Ç.Darvin yaşa dolduqda poeziyaya, musiqiyə və rəngkarlığa marağını itirməsinə çox təəssüf etmişdir. Olub keçmişlərlə bağlı xatirələrinin birində yazmışdır:

"Əgər mən öz həyatımı bir daha yaşamalı olsaydım, onda özüm üçün qayda qoyardım ki, filan qədər şeir oxuyum, filan qədər, heç olmasa həftədə bir dəfə musiqi dinləyim, ola bilsin ki, belə təmrin yolu ilə beynimin indi atrofiyaya uğramış hissəsinin fəallığını saxlaya bilərdim. Bu zövqlərin itirilməsi xoşbəxtliyin itirilməsinə bərabərdir və ola bilsin ki, zehni bacarığa, daha doğrusu isə mənəvi keyfiyyətlərə zərərli təsir göstərir, çünki təbiətimizin emosional tərəfini zəiflədir".

Doğrudan da, insanın emosional həssaslığını, mənəvi-estetik hisslərini inkişaf etdirməkdə incəsənətin ecazkar təsir imkanları çox geniş və əhatəlidir. Yaşamaq-yaratmaq uğrunda canlı həyat ehtirasları da incəsənətin ayrı-ayrı növ və janrlarında daha parlaq şəkildə nəzərə çatdırılır. Bax elə buna görə də ümumi təhsil məktəbi şagirdlərinin estetik tərbiyəsi sistemində bədii fənlərin yeri, təsir imkanları daima diqqət mərkəzində olmalıdır.

Ümumi təhsil məktəblərində tədris olunan bədii fənlər öz növbəsində müxtəlif yaş qrupuna malik olan məktəblilərin estetik mədəniyyətinin inkişafına möhkəm, etibarlı zəmin yaradır.

## 2.2. Təbiət-riyaziyyat fənlərinin tədrisi prosesində estetik dəyərlərin aşılanması imkanları

Təbiət ən böyük, qüdrətli estetik varlıqdır. İnsan təbiətin övladıdır. Bir qədər də dəqiq ifadə etsək insan və cəmiyyət ana təbiətin mühüm bir hissəsidir. Təbiətdəki əsrarəngiz lövhələr, maddi dünya, kainat, bunların qanun və qanunauyğunluqları yaşından, təhsil səviyyəsindən asılı olmayaraq hər kəsi heyrətləndirir, estetik cəhətdən həyəcanlandırır.

Təbiət fənlərinə aid olan botanika, zoologiya, insanın anatomiya və fiziologiyası, ümumi biologiya dərslərinin hər birində flora və faunanın, insanın həyat tərzinin, ətraf aləmə münasibətinin ən incə məsələləri izah edilir.

Müəllimlər həmin fənlərin tədrisi prosesində ətraf aləmdəki gözəl lövhələri yaradan hər bitkiyə, ota, hər çiçəyə, heyvanat aləminin özünəməxsus xüsusiyyətlərinə, ülviliklərlə dolu olan başı qarlı uca dağlara, doğma yurdun əsrarəngiz guşələrinə, ilin fəsillərinin romantik lövhələrinə heyranlıq və məhəbbət hissi oyadan şərhlərdən, əyani-illüstrativ vasitələrdən istifadə etməlidirlər.

Biologiya fənlərinin tədrisi zamanı doğma təbiəti şagirdlərə daha dərindən sevdirmək üçün görkəmli elm, sənət adamlarının fikirlərinə, müdrik kəlamlarına istinad etmək də zəruridir.

Məsələn, böyük rus pedaqoqu K.D.Uşinskinin aşağıdakı sözlərini dərsdə və sinifdənxaric məşğələlərdə şagirdlərə çatdırmaqla təbiətin gözəlliyi və çox qüdrətli tərbiyəvi təsir qüvvəsinə malik olması haqqında aydın təsəvvür yaratmaq olur: «Bəs sərbəstlik, bəs genişlik, təbiət, şəhər ətrafı cazibəli yerlər, bəs bu ətir saçan dərələr, çəhrayı yaz və qızıl payız məgər bizim tərbiyəçilərimiz olmayıbmı? Öz həyati təcrübəmə əsasən deyə bilərəm ki, cazibədar landşaftın gənc qəlblərdə göstərdiyi çox qüvvətli tərbiyəvi təsiri-müəllimin göstərdiyi təsirlə belə müqayisə etmək olmaz.

Yaxud böyük şair bioloq İ.Hötenin təbiətin gözəlliyi, ülviliyi haqqında dediyi sözləri yada salaq. “O deyirdi ki, təbiət, onun əhatəsində və qoynunda

olan biz ona dərindən nüfuz etməsək, onu öyrənə bilmərik... istənilmədən, gözlənilmədən bizi öz oyunlarının axınına salıb məftun eyləyir və necə ki, yorulmayıb, biz onun əllərindən çıxa bilmərik... Biz onun qoynunda yaşayırıq, ancaq ona yabançıyıq. O həmişə bizimlə danışır, lakin öz sirlərini açmır. Biz müntəzəm olaraq ona təsir edirik, amma onun üzərində bizim heç bir hökmranlığımız yoxdur. Onda nitq və dil yoxdur, ancaq minlərlə danışan və hiss edən dillər və ürəklər yaradır.

Biologiya dərslərində yeri gəldikcə estetik hiss oyadan bu cur fikirlərə, habelə Səməd Vurğunun, Mikayıl Müşfiqin, Məmməd Rəhimin, Bəxtiyar Vahabzadənin, Hüseyn Arifin, Məmməd Arazın, Nəbi Xəzrinin, Tofiq Bayramın, T.Mütəllibovun və digər şairlərimizin poeziya dünyasından müvafiq nümunələrə istinad etməklə yüksək zövqlülük səviyyəsinə nail olmaq mümkündür.

Biologiyanın tədrisində yeri gəldikcə şagirdlərin diqqətinin «Təbiətin təbabəti»nə min bir dərdlərə dərman olan otların, çiçəklərin və digər bitki nümunələrinin inkişafına və çoxalmasına yönəldilməsi də onların ətraf aləmə qayğısını estetik münasibətini formalaşdırır. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, təbiətdə yaranmış heç bir şey gərəksiz deyil. Bitki və heyvanat aləmi, müxtəlif yerlərin iqlim xüsusiyyətləri də müəyyən tarazlığa, qanunauyğunluğa əsaslanır. Bu tarazlığa, bu qanunauyğunluğu pozmağa isə heç kəsin, heç bir xalqın, dövlətin haqqı yoxdur. Buna görə də biologiya dərslərində yeri gəldikcə estetik hiss oyadan xarakterik nümunələrə istinad olunması şagirdlərdə doğma Vətənimizin təbiətinə estetik münasibət hissini qüvvətləndirir, formalaşdırır.

**Coğrafiyanın tədrisində də şagirdlərin estetik tərbiyəsi maraqlı tədqiqat obyektlərindəndir.** Fiziki və iqtisadi coğrafiya kursları üzrə sistemlə verilən bir sıra mövzuların tədrisi şagirdləri yerin quruluşu, dünya təbiəti, maraqlı iqlim xüsusiyyətləri, yerin təbii ehtiyatları, ayrı-ayrı ölkələrin təbii şəraiti, sərvətləri, əhalinin məşğuliyyəti, kənd təsərrüfatı, sənayesi və sairə üzrə biliklərlə, müvafiq anlayışlarla silahlandırır.

Göründüyü kimi orta məktəbdə coğrafiya fənninin əhatə etdiyi məsələlər, mövzular silsiləsi də çox geniş və əhatəlidir. Əlbəttə, həmin mövzuların adi qaydada şərhi, izah olunması heç bir estetik təsir qüvvəsi kəsb edə bilməz. Buna görə də ayrı-ayrı mövzuların tədrisi prosesində emosionallığa,

maraqlı fikir və mülahizələrə, xarakterik müqayisələrə, şagirdlərdə böyük heyrət doğuran fakt və hadisələrə, elmi yeniliklərə istinad etmək zəruridir.

Bunu da nəzərə almaq lazımdır ki, coğrafiya dünya elmlərinin və səyyahlarının diqqətini cəlb edən ən qədim və maraqlı sahələri olan zəngin elmdir.

Uzun müddətli səfərə çıxan səyyahların, coğrafiyaşünas alimlərin ekspedisiyaları, onların romantika ilə dolu anları haqqında dərsdə yeri gəldikcə maraqlı məlumatların verilməsi də şagirdləri estetik cəhətdən həyəcanlandıra bilir. Bu da ona görə belə olur ki, «təbiət, insan, gözəllik» probleminin tədqiqatçısı filosof alimlərindən olan Tofiq Əkbərov demişkən «təbiət-böyük yaradıcılıq dühasına malikdir, o, gözəlliyin əbədi beşiyi və mənbəyidir. Təbiətin digər xassələri kimi, estetik xassələri də ictimai-tarixi praktikanın nəticəsi olaraq insan tərəfindən tədricən kəşf edilmişdir. Burada da coğrafiya elmində olduğu kimi, bədii ədəbiyyatda da torpağımıza yeni münasibət görürük. Coğrafiya elmi, coğrafi landşaftı, onun inkişafını öyrənərək, həm də insanın təbiətə təsiri məsələsini öyrənir. O, insan və təbiətin vəhdəti məsələsini öyrənərək, haqlı olaraq bu qarşılıqlı təsirdə başlıca fəaliyyəti, rolu insana verir”.

Əlbəttə, bu cür heyrətamiz fikirlərin şagirdlərə çatdırılması nəticəsində onlar dərk edirlər ki, indiki şəraitdə həyata, dünyaya ana olan təbiətə hər cür qayğılı münasibət göstərmək, necə deyərlər “onun nazını çəkmək” lazımdır.

Torpaq, dağ, dəniz, çay və ətraf aləm problemləri ilə əlaqədar dərsdə şagirdlərin estetik hisslərini inkişaf etdirmək üçün hikmətli ifadələrdən, atalar sözlərindən, müvafiq şeir, sənət nümunələrindən də istifadə olunmalıdır. Məsələn, X.N.Həsənovun «Təbiət və hikmət» adlı kitabı və orada verilən «Vətən elin evidir», «Dağların yükünü dərələr çəkir»; «Ana torpaq», «Qızıl pas atmaz», «Günəş işığı düşən evə həkim girməz», «Su dirlikdir», «Ağac həyat rəmzidir», «At igidin yaraşığıdır» bölmələri çox qüvvətli estetik-emosional hiss oyadır. Nümunə üçün «Ana torpaq» bölməsindən bir hissəyə diqqət edək:

«Ana torpaq!», «Torpaq anadır!» nə qədər səmimi, müqəddəs, ülvi sözlərdir. Bunlar adi sözlər olmayıb, torpağa verilən ən yüksək, ən müqəddəs qiymətdir. Ana övlad üçün ən müqəddəs bir varlıq, can-ciyər olduğu kimi, torpaq da insanlar üçün o qədər müqəddəsdir, qiymətlidir, misilsiz nemətdir.

Bu qüdrətə inanmaq, arxalanmaq insanın amalı olmuşdur. Bu müqəddəs amal el dilində deyildiyi kimi anaya edilən etibar qədər torpağa edilən etibardan

yaranmışdır: “Anaya etibar edənlə torpağa etibar edən uduzmaz”, Axı “Ana torpaq bizi həm yedirdir, həm içirdir, həm geydirir” (Azərbaycan), “Torpaq insanı yedirdir, ana uşağı yedirdən kimi” (çeçen-inquş), “Ana öz övladını südü ilə doydurduğu kimi, torpaq insanı doydurur” (abxaz), bütün nemətlərini insanlara bəxş edir.

İnsanlar da öz növbəsində torpağa borclu qalmağa səy edir və onu layiqincə qiymətləndirirlər. Babalarımız həmişə tövsiyə etmişlər ki, səni yedirdib doyduran torpağı heç zaman unutma (Azərbaycan)...Axı bu sərvəti yetirən isə “Torpağın sahibi insandır” (udmurt).

Coğrafiyanın tədrisi prosesində ayrı-ayrı mövzuların tədrisinə müvafiq olaraq dağ vüqarına, dağ əzəmətinə mavi dənizlərin, göllərin, nəğməli çayların ülviyyətinə həsr olunan müxtəlif xalqların atalar sözlərindən istifadə də şagirdləri heyrətləndirir. Bu cəhətdən dünya xalqları folklorunda da dağ vüqarını, dağ ülviyyətini əks etdirən atalar sözləri təsirlidir.

«Dağın yaraşığı daşdır, insanın yaraşığı baş» (tatar), «İncini dağda axtar. Ağıllı-xalqda» (udmurt) «Dağın ucalığı daş ilə, adamın ucalığı baş ilə (özbək), «Dağlar yüksəkdir, insan ümidi-daha yüksək» (İndoneziya), «Dağlar başına qış. igid başına iş» (Azərbaycan), «Dağ başında qar olar, ər kişidə ar» (özbək), «Dağ başı dumansız olmaz, igid başı xəyalsız» (türkmən) və s. nümunələrdən dərsdə yeri gəldikcə istifadə olunması şagirdlərdə müxtəlif çalarlı estetik hısslər oyadar.

Coğrafiya dərslərində estetik təsir imkanlarının genişliyi, əhəmiyyəti birdə ondadır ki, şagirdlər yerin, ayrı-ayrı qitələrin quruluşu, iqlim xüsusiyyətləri, dünya okeanları, dənizləri, körfəzləri, çayları, gölləri buzlaqları, habelə atmosfer və onun mühafizəsi ilə bağlı mövzuların tədrisi prosesində bir daha belə qənaətə gəlirlər ki, dünya bizim evimizdir. Hər yerin, hər ölkənin özünəməxsus təbiəti, gözəl guşələri var. Onları qorumaq, mühafizə etmək, sayını artırmaq, dinc quruculuq işlələri ilə daha da zənginləşdirmək, eyni zamanda müxtəlif nəsildən olan insanların estetik fəaliyyəti kimi mühüm əhəmiyyət kəsb edir. Dünya təbiətinin estetik təsiri öz növbəsində estetik idealın və estetik fəaliyyətin formalaşması üçün zəmin yaradır.

Coğrafiyanın tədrisi prosesində şagirdlərin estetik tərbiyə imkanlarının genişliyi öz növbəsində fənnin məzmunu ilə əlaqədardır. Qitələrin, ayrı-ayrı ölkələrin iqlimi, təbii şəraiti, müxtəlif obyektlərin, bitki örtüyünün gözəlliyi, şagirdlərin

qəlbində xoş intəhasız duyğular oyadır.

Müxtəlif coğrafi obyektlərin təsvir və tərənnümünə həsr olunan publisistik yazılardan, ədəbiyyat və incəsənət əsərlərindən yeri gəldikcə istifadə olunması dərsdə şagirdlərin estetik hisslərini qüvvətləndirir.

Coğrafiyanın tədrisi prosesində kontur xəritələr üzərində işin müntəzəm sistemlə təşkili də şagirdlərin estetik tərbiyəsinə müsbət təsir göstərir. Kontur xəritələrlə iş zamanı şagirdlərdə görmə həssaslığı, rəng əlaqələrini düzgün verə bilmək və bir neçə rəng çalarlarının qarışığından istifadə etmək bacarığı formalaşır ki, bu da nəticə etibarilə şagirdlərin estetik zövqünün inkişafına qüvvətli təsir göstərir.

**Kimyanın tədrisi prosesində də şagirdləri heyrətləndirmək onların estetik hisslərini inkişaf etdirmək üçün müvafiq imkanlar vardır.** Çünki bəşər aləminin keçdiyi üç mühüm tarixi dövr - daş, tunc və dəmir dövrünün hər birində müxtəlif qəbildən olan insanları maraqlandıran əşya və obyektlərdə rəngarəng kimyəvi xassələr müşahidə olunmuşdur.

Müxtəlif kimyəvi elementlər və təbiətdə maddələrin qarşılıqlı əlaqəsi, kimyəvi proseslərin inkişafı qanunauyğunluqları, ayrı-ayrı maddələrin xassələri, bir-birinə çevrilmələri haqqında verilən nəzəri məlumatlar, maraqlı təcrübələrin göstərilməsi, müvafiq laboratoriya məşğələlərinin aparılması şagirdləri daha çox heyrətləndirir. Kimya elminin həyatla əlaqəsini, ətraf aləmə fəal, dəyişdirici təsir etməsi imkanlarını, sənayedə, (o cümlədən hərbi sənayedə və hərbi işdə) kənd təsərrüfatında, məişətdə bu elmin necə böyük rol oynadığını göstərən fakt və misalların şagirdlərə çatdırılması dərsdə emosionallığı artırır. Heç şübhəsiz, kimya dərslərində yeri gəldikcə təbii materiallardan ağac, daş, bitki, neft, daş kömür, təbii qaz və sairədən kimyaçı alimlərin əldə etdikləri boyalar, dərmanlar, sintetik liflər, kauçuk, plastik kütlələr, gübrələr haqqında verilən nəzəri məlumatlar da şagirdləri daha çox maraqlandırır. Həmin xammallardan hazırlanan sənayedə və məişətdə istifadə olunan saysız-hesabsız əşya və avadanlıq haqqında yeri gəldikcə lazımi söhbətlərin aparılması və müvafiq nümunələrin göstərilməsi şagirdlərdə bir daha kimyanın möcüzələrinə böyük maraq oyadır. Əsrimizin kimya əsri olmasını şüurlu şəkildə başa düşür, bu məlum həqiqəti böyük iftixarla təsdiq edirlər.

**Fizikanın tədrisində şagirdlərin estetik tərbiyəsi** üçün müvafiq imkanlar var.

Maddi aləmin, kainatın, materiya və hərəkətin qanun və qanunauyğunluqların ahəngini özünəməxsus şəkildə ən incə detallarına, inkişaf proseslərinə qədər öyrənən fizika elminin müxtəlif kursları orta məktəbdə çox böyük maraq doğurur. Xüsusilə cisim, kütlə, hərəkət, enerji bunların arasındakı asılılıq, çevrilmələr və sairə üzrə təcrübi və laborator məşğələləri şagirdlərin diqqət, idrak qapılarını taybatay açır, onlarda ətraf aləmin harmoniyasına böyük maraq oyadır.

Ayrı-ayrı təbiət hadisələrinin müxtəlif janrlı ədəbiyyat və incəsənət əsərlərində təsvir və tərənnüm konkret mövzulara müvafiq şəkildə fizikanın tədrisi prosesində istifadə olunduqda estetik hisslərin inkişaf imkanlarını artırır.

Keçmiş SSRİ məkanında istedadlı müəllim kimi tanınan Vladimir Likovun «Эстетическое воспитание при обучении физике» («Просвешение М., 1986) adlı tədris vəsaiti uzunmüddətli müşahidələrin və tədqiqatların nəticəsi kimi çox böyük maraq doğurur. Üç fəsildən ibarət olan bu dəyərli vəsaitdə qoyulan məsələlər həm estetiklər, fizika elmi üzrə tədqiqat aparan nəzəriyyəçi alimlər və metodistlər, həm də praktik müəllimlər üçün əhəmiyyətlidir.

Vəsaitin birinci «Fizikanın rəngarəng estetik amilləri» fəslinin «Fizika gözəl elmdir», «Əqli və estetikliyin qarşılıqlı təsiri», «Emosionallıqla, rasionallığın vəhdəti, «Əməyin, təbiətin, davranışın estetikası», «Birinci dərsin estetikası", «Elmin mənəvi estetik potensialı» və sairə paraqrafları məzmuna, qısa konkret deyim tərzinə görə çox böyük əhəmiyyət kəsb edir.

İkinci fəsildə irəli sürülən məsələlər də oxucunu estetik cəhətdən həyəcanlandırır. «Fizikada nə qədər lirika var» adlanan fəsildə fizika elminin musiqi, rəngkarlıq, heykəltəraşlıq, memarlıq, ədəbiyyat, teatr, kino, televiziya, sirk və idmanla əlaqəsi həmin sahələrin inkişafında fizikanın necə böyük rol oynaması olduqca inandırıcı, heyrət doğuran lövhələrlə, fakt və hadisələrlə şərh edilir.

«Əl işlərinin estetikası» adlı üçüncü fəsildə isə bilavasitə idraki və bədii təfəkkürün vəhdətdə inkişafı məsələləri üzərində dayanılır. Bu fəslin «Fizika eksperimentlərinin estetikası», «Qrafikin estetikası», «Texnika və istehsalatın estetikası», «Fizika kabinetinin estetikası» paraqrafı da maraqlı nəzəri fikirlər və məktəb təcrübəsi materialları ilə zəngindir.

Əlbəttə, göstərilən problem məsələlərinin hər biri haqqında çox zəruri olan fikir, təcrübə mübadiləsi aparmaq, ayrı-ayrı fikir və mülahizələri yerli şəraitlə, fakt və materiallarla, müvafiq ədəbiyyat və incəsənət əsərləri ilə əlaqələndirərək

daha da inkişaf etdirmək, zənginləşdirmək olar. Belə bir mövqe isə heç şübhəsiz, fizikanın tədrisi prosesində estetik tərbiyənin imkanlarını vasitə və yollarını parlaq şəkildə nəzərə çatdırmağa möhkəm zəmin yaradır.

**Riyaziyyat dərslərinin şagirdlərin estetik tərbiyəsinə özünəməxsus səciyyəvi təsiri var.** Axı "gözəllik ayrı-ayrı hissələrin bir-birinə və tama münasibətindəki uyğunluğa və nizama görə müəyyən olunur" (A.Baymqarten- alman filosofu və estetiki, 1714-1762). Bu baxımdan mütənasibliyin, simmetriyanın əsaslarını, rəqəmləri, əməllərin romantikasını öyrədən riyaziyyat, eyni zamanda şagirdlərə estetik qiymətləndirmə, estetik mühakimə yürütmə bacarığı aşılayır.

Belə bir cəhəti də yaddan çıxarmaq olmaz ki, təbiətdə və incəsənətdə estetikanın əsas dayaq nöqtələrindən olan simmetriyanın ünsürləri həmişə diqqətlə öyrənilmişdir. Müəllimlər bu cəhəti- başlıca prinsipi nəzərə alaraq riyaziyyat dərslərində çox ciddi simmetrik cizgiləri olan təbii varlıqları gülləri, çiçəkləri, müxtəlif ağacların yarpaqlarını, aramla yağan ulduza bənzər qar dənələrini nümunə göstərməklə çatdıra bilərlər.

Qədim memarlıq abidələrində, təsviri sənət əsərlərində, konstruktorluq işlərində simmetriyanın, mütənasibliyin əsas rol oynaması riyaziyyatın estetikasına parlaq nümunədir. Bu prosesdə belə bir cəhətə də diqqət yetirilməlidir ki, hər hansı cismin kiçik hissəsi, böyük hissəyə hansı nisbətdədirsə, böyük hissə də bütövə nisbətdə müəyyən ahəngdarlıq təşkil edir. Riyazi qanunlara əsaslanan bu müddəa təsviri sənətin ayrı-ayrı jarnlarının inkişafı, xüsusilə kompozisiya qurmaq üçün əsas verir. Dekorativ-tətbiqi sənətin imkanlarını qat-qat artırır.

Riyaziyyat musiqi əsərlərinin, xüsusilə not sisteminin, ayrı-ayrı musiqi alətlərinin müxtəlif oktavalarda səs diapozonunun düzgün müəyyənləşdirilməsi üçün də əsas olmuşdur. Təsadüfi deyildir ki, görkəmli ingilis riyaziyyatçısı Silvestr musiqini insan hisslərinin riyaziyyatı, riyaziyyatı isə insan təfəkkürünün musiqisi kimi xarakterizə etmişdir. O, bu fikirlə bir daha riyaziyyatın musiqi sənətindəki mövqeyini inandırıcı şəkildə göstərmişdir.

Əgər müxtəlif elektron-hesablayıcı üçün tərtib edilən və xüsusi proqram əsasında bəstələnən musiqi nümunələrini yada salsaq, insan idrakını daha da inkişaf etdirən riyaziyyat estetikası bir daha gözlərimiz qarşısında canlanar. Bu da maraqlıdır ki, professorlardan R.X.Zarinov və İ.B.Qutçinin rəhbərliyi ilə elek-

tron «beyinlərin» bəstələdiyi melodiyalar bu sahədə çalışan bəstəkarların müsabiqəyə təqdim etdiyi əsərlər sırasında fərqlənmişdir.

Bəs bütövlükdə riyaziyyatın, yaxud ayrı-ayrı riyaziyyat dərslərinin estetikasının bədii ədəbiyyatda təsvir və tərənnümü necə? Qabaqcadan deməliyik ki, son vaxtlar bu sahədə göstərilən təşəbbüslər də xüsusi maraq doğurur. Həyatdan vaxtsız getmiş, cəmi 19 il yaşamış gənc yazıçı, şərqşünas İsmayıl Hacıyevin «Riyaziyyat dərsində» adlı hekayəsi isə bu fənnin estetik mahiyyətinin yüksək səntkarlıqla, ən parlaq detallarla açılması baxımından böyük əhəmiyyət kəsb edir. Cəsarətlə qeyd etmək olar ki, gənc yazıçının sevimli müəlliminə həsr etdiyi həmin hekayəsi riyaziyyatın estetikasını ən ülvi hisslə məktəbli gənclərə çatdıran mühüm, didaktik vasitədir. Dediklərimizi daha aydın təsəvvür etmək üçün hekayədən bir parçaya diqqət edək:

...O, tabaşiri yazı taxtasına necə vurursa, oradan “*do-re-mi-fa-sol-lya-si*” səslər silsiləsi düzəlib qalxır. Misraları sətir-sətir düzdükcə adamın qulağında heyratı gurlayır, cəngi, yallı səslənir. Tənlik sona yaxınlaşdıqca onun əli sürətini artırır, tabaşirin zərbi get-gedə güclənir. Axırda tabaşir elə gurultulu bir nöqtə kimi çırpılır ki, ehtiraslı bir musiqinin son akkordu kimi beyini silkələyir. Tabaşirli əlini nöqtənin düz üstündə, həmin nöqtəyə perpcndkulyar şəkildə saxlayır, qeyri-ixtiyari, təbii şövqlə sol əli də yazı taxtasının sol tərəfində sağ əlinə paralel, eyni vəziyyətə gələr. Bu olduqca görməli bir vəziyyətdir. Elə bil ki, Fərhad Bədəlbəyli pianoda son akkordu vurub, əllərini şirmayı dillərin üzərində havada dondurub hələ melodiyanın əfsunundan ayrılmayıb.

O danışır və yazır: sekans, kosekans... elə bir bayatı melodiyası eşidilir. O danışır və vazır... oranjiman em elementindən en-en...Adamın qulağında həmin kök üstündə gör nə səslənir. Gözəlim sənsən, dərdim əlacı, gözümün nuru, başımın tacı. O danışır və yazır: Dekart sistemi. Pifaqor teoremi. Bu sözlər onun dilindən bizə Füzulinin, Sabirin, Vurğunun sözləri kimi doğmalaşıb.

Bir həndəsi fiquru çəkəndə sinfi xəfif bir tabaşir səsi dolanır, addım-addım, qulaq-qulaq, beyin-beyin, ürək-ürək. Elə bil “Ceyranı” havasına oxşar melodiya fırlanır yazı taxtasının müstəvisində. Sanki Səttar Bəhlulzadənin fırçası rənglər çəkir parçaya, rənglə melodiya birgə yeniyetmələrin beyninə harmoniya aşılayır.

O, həndəsi fiqurların fəzadakı kölgələrini elə ustalıqla çəkirdi ki, onu hər rəssam bacarmazdı. Onun aldığı kölgədən işıq xəcalət çəkib qaçır -bu kölgəni həya

pərdəsi kimi işıq üzünə tutub, onun dalında gizlənir...

Bilmirəm, niyə bu riyaziyyatı incəsənət saymayıblar? Riyaziyyat niyə incəsənət deyil ki? Onun nəyi və harası cəbrdir? O ki, yatmış melodiya qammasıdır? O mahir riyaziyyatçı əlində musiqidir, yalnız istedadsız əllərdə cəbrdir”.

Bədii təfəkkürlə məntiqi təfəkkürün sintezindən yaranan bu bitkin fikirlərin, abzasların, lövhələrin hər biri riyaziyyatın estetikasını parlaq şəkildə nəzərə çatdıran və dərin xəlqilik-vətənpərvərlik ruhu ilə aşılanan el havaları, sözsüz nəğmələrdir desək,- yanılmarıq.

Əlbəttə, yeri gəldikcə riyaziyyatın estetikasının bu cür heyrət doğuran cəhətlərindən dərsdə söhbət açılması, habelə müvafiq mövzularla əlaqəli şəkildə şagirdlərə çatdırılması estetik hissləri daha da qüvvətləndirir.

Aparılan müşahidələr göstərir ki, Bakıda, habelə respublikamızın ayrı-ayrı şəhər və rayonlarında fəaliyyət göstərən, qabaqcıl, təcrübəli riyaziyyat müəllimlərinin bir çoxu son zamanlar riyaziyyat tədrisi vasitəsilə şagirdlərin estetik zövqünün inkişafı üçün də yeni-yeni imkanlar axtarır əlverişli fakt və misallardan istifadə edirlər.

Əlbəttə, riyaziyyatın tədrisi prosesində şagirdlərin estetik tərbiyəsinin inkişafı ilə əlaqədar respublikamızın ayrı-ayrı ümumtəhsil məktəblərində yaranmış qabaqcıl təcrübə öz növbəsində problemin daha mükəmməl, sistemli tədqiqi üçün də zəmin yaradıb. Orta məktəb illərində, müstəqil əmək fəaliyyətində istedadlı gənc tədqiqatçı kimi yetişən Novruz Nəsirovun məhz «Riyaziyyatın tədrisi prosesində şagirdlərin estetik tərbiyəsinin imkanları və səmərəli yolları» mövzusunda namizədlik dissertasiyası üzərində işləyərək uğurla müdafiə etməsi də belə bir mövqeyin nəticəsidir. O riyaziyyatın tədrisində estetik tərbiyənin imkanlarından bəhs edərək yazır:

«Şagirdlərə riyaziyyatın estetik mahiyyətinin çatdırılmasında gözəl quruluşa malik teoremlərin həlli gözəllik, incəlik kəsb edən çalışmaların, əyləncəli riyazi, məsələ və misalların xüsusi rolu vardır. Lakin bunlar, o zaman daha qüvvətli estetik təsirə malik olur ki, əməliyyatlar öz növbəsində, şagirdlərə məlum olan sadə çevrilmələrdən və hesablamalardan keçsin...

Daha sonra müəllif riyaziyyat üzrə şagirdlərə estetik təsir göstərən materialları üç istiqamətdə quruplaşdırır:

1. Şagirdlərin əqli bədii-texniki təfəkkürünü, qabiliyyətlərini inkişaf etdirməyə zəmin yaradan mövzular.

2. Şagirdlərdə müxtəlif səpkili estetik hisslər oyadan, onların estetik zövqünü inkişaf etdirən, bu məqsədlə həyatla, ətraf aləmlə, xüsusilə təbiət və cəmiyyətdəki predmet və hadisələr, habelə incəsənət janrları, əsərləri ilə əlaqələndirilməsinə imkan verən mövzular.

3. Görkəmli riyaziyyatçıların həyatı, onların estetik mədəniyyəti ilə əlaqələndirilməsinə imkan yaradan mövzular...".

Qeyd etməlik ki, riyaziyyatın tədrisində şagirdlərin estetik tərbiyəsinin imkanlarının məhz göstərilən istiqamətlərdə müəyyənləşdirilməsi tamamilə məqsədəmüvafiq sayılmalıdır. Buna görə də orta ümumtəhsil məktəblərimizdə çalışan və digər fənlər kimi, riyaziyyat fənninin də estetik imkanlarını artırmağa xüsusi diqqət yetirən müəllimlərimiz sinif-dərs prosesində və sinifdənxaric məşğələlərdə, müxtəlif xarakterli tədbirlərdə, xüsusilə riyaziyyat gecələrində xoşa gələn və arzu doğuran, yüksək təzahürünü təbiətdə tapan gözəlliyin, gözəllik ünsürlərinin düzgün başa düşülməsinə, dərk edilməsinə nail olmalıdır. Bu məqsədlə orta məktəbdə riyaziyyat kursunun ilk dərslərindən başlayaraq heyrət doğuran mövzulara və bunların mahiyyətinin estetik-emosional əsaslarda şagirdlərə çatdırılmasına imkan yaradan əyani-illustrativ vasitələrə geniş istinad edilməlidir.

## Nəticə

1. Şəxsiyyətyönümlü təhsilin müxtəlif mərhələlərində estetik dəyərlərə müntəzəm, əhatəli şəkildə istinad edilməsi mühüm əhəmiyyətə malikdir. Belə bir mövqe şagird-məktəbli şəxsiyyətinin mənəvi zənginliyində estetik dəyərlərin rolunu, təsir imkanlarını daha da artırır.

2. Araşdırmalar, aparılan təhlil və ümumiləşdirmələr göstərdi ki, təlim prosesində estetik dəyərlərin rolunun təsir imkanlarının artırılmasının başlıca pedoqoji prinsiplərindən biri estetik dəyərlərə kompleks şəkildə yanaşmaqdır.

Dərsdə və sinifdənxaric məşğələlərdə ünsiyyət-davranış, təbiət, incəsənət estetikasının çox mühüm dəyərlərinə istinad olunması öz növbəsində estetik hiss, zövq və fəaliyyətin vəhdətdə inkişafına zəmin yaradır.

3. Şəxsiyyətyönümlü təhsil prosesində estetik dəyərlərə müntəzəm, sistemli şəkildə istinad olunmasının mühüm pedaqoji sərtlərindən biri müəllimlərin, tərbiyəçilərin, məktəb rəhbərlərinin problem dairəsində özünütəhsilə geniş yer vermələridir. Belə ki, estetikanın bir elm, estetik tərbiyənin isə mənəviyyat sahəsindəki mövqeyini, mahiyyətini, baslıca anlayişlarını, əsas komponentlərini mahiyyə dolğunluğu ilə mükəmməl mənimsəmədən bu sahədə qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirildiyini bildirmək nəzəri cəhətdən belə mümkün deyil.

Problemin nəzəri-təcrübü həllinə nail olmaq üçün bir sıra prinsipial cəhətlərə müntəzəm olaraq xüsusi diqqət yetirilməsi müasir dövrün tələbləri baxımından məqsədəmüvafiq olar:

Bədii-estetik silsilə fənlərinin tədrisi prosesində ayrı-ayrı mövzuların spesifik-səciyəvi estetik təsir imkanlarının qabaqcadan nəzərə alınması, bu məqsədlə əyani-illüstrativ vasitələrə geniş yer verilməsi sinif-dərs məşğələlərində estetik-emosional vəziyyətin yaradılmasına əhəmiyyətli təsir göstərər.

Təbiyyat–riyaziyyat fənlərinin tədrisi prosesində müvafiq mözvulara uyğun olaraq şagirdlərdə estetik hisslərin, zövqün inkişaf etdirilməsinə zəmin yaradan ayrı-ayrı incəsənət nümunələrınə istinad edilməsi faydalı olar.

Qlobal mahiyyəti ilə diqqəti cəlb edən estetikliyin təlim prosesində təmin edilməsi məqsədilə müəllimlərin, sinif və məktəb rəhbərlərinin problem xarakterli mühazirə, seminar məşğələlərinə cəlb edilməsi dövrün başlıca tələblərindən biri kimi xarakterizə olunmalıdır.

Problem dairəsində görülən işlərin, həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə pedaqoji təmayüllü ali və orta ixtisas məktəblərində “Estetikanın əsasları” fənninin bərpa edilməsi bu sahədə əsaslı dönüş yaradılmasına zəmin yaradar.

## ŞAGİRDLƏRDƏ VƏTƏNDAŞLIQ TƏRBİYƏSİNİN FORMALAŞMASI

### Giriş

Vətəndaşlıq və bununla sıx bağlı olan vətənpərvərlik tərbiyəsi ümumtərbiyə prosesində həmişə diqqət mərkəzində olub. Lakin etiraf edək ki, heç vaxt indiki qədər aktuallıq kəsb etməyib. Müstəqil Azərbaycanımızın bu gününə və sabahına  layiq nəsil yetişdirilməsi işinin ana xəttini vətəndaşlıq tərbiyəsi təşkil edir. Bu da məlumdur ki, vətəndaşlıq tərbiyəsi vətənpərvərlik tərbiyəsinin əsası kimi inkişaf etdirilir, formalaşdırılır.

Müstəqillik əldə edildikdən sonra istər Azərbaycanda, istərsə də ölkədən kənarda yaşayan azərbaycanlılar üçün aparıcı ideya "Azərbaycançılıq" olmuşdur. Bütün azərbaycanlılar bu ideya ətrafında birləşməli, öz milli-mənəvi dəyərlərini, adət-ənənələrini, milli mənsubiyyətini qoruyub saxlamalıdırlar. Ümumbəşəri dəyərlərin sintezindən və ya inteqrasiyadan da bəhrələnmək lazımdır. Yenə ulu öndərimizin müqəddəs kəlamları yada düşür: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Müstəqil dövlət yalnız mənsub olduğu ərazini və maddi sərvətlərini deyil, həmçinin milli-mənəvi dəyərlərinin qorunmasının da qayğısına qalmalıdır. Bunun üçün milli ruh güclənməli və dövlətçilik ideologiyası, milli ideologiya əsas yer tutmalıdır. Həmçinin millətin hər hansı bir nümayəndəsi sənətindən, işindən asılı olmayaraq öz xalqının milli tərəqqisinə nail olmağa çalışmalıdır.

Gənc nəslə həmin keyfiyyətlərin aşılanmasında və gələcəkdə davam etdirilməsində bədii ədəbiyyatın, tarixi faktların, mədəni abidələrin, adət-ənənələrimizi əks etdirən xalq yaradıcılığının, folklor nümunələrinin, kino və telefilmlərin böyük rolu olduğu nəzərdən qaçırılmamalıdır. Keçən əsrin 90-cı illərindən, 1991-ci ildən müstəqil respublikamızda milli dövlətçilik şəraitində yaşayırıq. Belə bir mövqe dövlət quruculuğunda, xalqın, millətin öz maraqları istiqamətinə yönəlməyə zəmin yaratdı.

Əgər biz şagirdlərə doğma Azərbaycan dilini, Azərbaycan mədəniyyətini, Azərbaycan tarixini sevdirə biləriksə onlarda milli təfəkkürü daha ahəngdar şəkildə inkişaf etdirmiş olarıq.

Müstəqil dövlətimizdə təhsil alan, elm öyrənən insanlar yüksək mənəvi zənginlikləri ilə seçilməli, bu vətənin layiqli övladları və əsl vətəndaş olmaları ilə fəxr etməlidirlər. Hər cəhətdən nümunəvi olan gəncləri irəli çəkmək, onlara qayğı göstərmək lazımdır ki, el-oba, xalq, dövlət onlardan bəhrələnə bilsin.

Vətənsevərlik, vətəndaşlıq borcunun tərbiyəsi müxtəlif nəsillərdən olan insanlara xas olan ən zəruri keyfiyyətlərdən sayılır.

Vətənpərvərlik, vətənsevərlik mövzusu daim məktəbin, müəllimlərin diqqət mərkəzində olmuş, öz aktuallığını həmişə saxlamış və saxlayacaqdır. Bu problemə hərə bir prizmadan yanaşılmış və müəyyən fikirlər, baxışlar meydana çıxmışdır. Təbii ki, bu hər bir valideynin, müəllimin dünyanı dərkindən, həyata baxışından, öz şəxsində vətənsevərliyindən, düzgün formalaşmasından irəli gəlir. Məhz buna görə də “Şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşması” mövzusunda tədqiqat aparmağı lazım bildik.

## I Fəsil. Şagirdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşması imkanları

### 1.1. Vətəndaş və vətəndaşlıq anlyışlarının mahiyyəti

İnsan mənəviyyatının zənginliyini göstərən mühüm əxlaqi keyfiyyətlərdən biri də vətən sevgisidir. Vətən insanın doğulduğu, boya-başa çatdığı torpaq, əjdadlarının yaşadığı ərazi, milli-mənəvi tellərlə bağlandığı dəyərlər, harda olmasından, hansı ölkədə yaşamasından asılı olmayaraq həmişə doğma bildiyi torpaqdır. İnsan ilk qədəmlərin basdığı bu torpağın hərarəti onun bütün vücudunu elə sarıyır, ona elə bağlanır ki, ondan ayrı yaşamaq mümkün olmur. Unudulmaz şairimiz Məmməd Arazın təbirincə desək:

*Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*

Vətənə bağlılıq-milli-mənəvi dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, sənətə, milli birlik və bərabərliyə bağlılıqdır. Vətənə bağlılıq, onu sevmək, qorumaq və inkişaf etdirmək deməkdir.

Ölkə, vətən sevgisi uşaqlara kiçik yaşlarından aşılanmalıdır. Vətən sevgisi, vətən namusu, vətən qeyrəti həqiqi vətəndaşlara xas olan mühüm keyfiyyətlərdəndir. Bunları aşılamaq isə bilavasitə məktəbin üzərinə düşən əsas vəzifələrdəndir. Azərbaycanın böyük mütəfəkkiri Mirzə Fətəli Axundzadənin fikrincə əsl vətəndaş-insan xalqın tərbiyəsi, onun səadəti, vətəninin abadlaşması və ölkənin vəziyyətinin yaxşılaşması uğrunda çalışan kəsdir.

Doğma vətənimiz Odlar Yurdu Azərbaycandır. Biz Azərbaycan vətəndaşıyıq və bununla qürur duyuruq, onu əməli fəaliyyətimizdə əsas götürürük.

Vətəndaşlıq hər hansı bir şəxsin müəyyən dövlətə mənsub olduğunu göstərən əsas hüquqi kateqoriya və anlayışlardan biridir. Başqa cür desək, insanlar yaşadıqları ölkədə anadan olduqları andan bu dövlətin vətəndaşı olur və ömürləri boyu bu hüquqi borcu daşıyırlar. Vətəndaşlıq dedikdə həmin şəxsin dövlət tərəfindən konstitusiya-hüquq münasibətlərinin tam hüquqlu subyekti kimi tanınması nəzərdə tutulur. Dövlət nəinki öz ölkəsində, həmçinin xarici ölkələrdə olduqda belə öz vətəndaşlarını bu baxımdan təsbit edir. Lakin müxtəlif səbəblər üzündən (milli münaqişələr, iqtisadiyyatın beynəlmiləl olması və s.) əhali kütləsinin bir tərəfdən digər tərəfə miqrasiya etməsi, bağlanılan nigahlar (müxtəlif dövlətlərin vətəndaşları arasında) və s. vətəndaşlığın əldə edilməsi, bərpası və dəyişdirilməsi üçün problemlər yaradır. Belə hallarda yaşadıqları ölkənin qanunlarına uyğun şəkildə həmin vətəndaşın vətəndaşlıq hüquqları bərpa olunur.

Vətəndaş isə vətəndaşlıq hüququ və vəzifəsini daşıyan şəxsdir və dövlətlə vəTəndaş arasında dami hüquqi əlaqə mövcuddur. Azərbaycan vətəndaşı üçün vətəndaşlıq hüququ Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində təsbit olunubdur: “Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikası ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır”.

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsində isə Vətəndaşlıq hüququnun təminatı ilə bağlı göstərilir: “Azərbaycan vətəndaşı heç bir halda, Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz, heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz”.

Bu ali sənəddə göstərildiyi kimi dövlətin mühüm vəzifələrindən biri vətəndaşın Konstitusiyada nəzərdə tutulan Konstision hüquqlarını və vəzifələrini qorumaqdır. Eyni zamanda vətəndaşlar dövlətə münasibətdə bir sıra hüquqlara malikdirlər buna görə də onlardan bu hüquqların müdafiəsi və qorunması tələb olunur.

Vətəndaş olmaq yalnız öz hüquqlarından istifadə etmək deyil, həm də insanın öz vəzifəsinə şüurlu, fəal münasibəti, vətəndaşlıq borcu haqqında qayğı göstərməsi, cəmiyyət qarşısında məsuliyyət daşıması deməkdir.

Hər bir vətəndaş öz dövləti qarşısında daşıdığı vəzifəni və vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir. Vətəndaşlıq borcunun dərk edilməsi üçün insanlarda düzlük, doğruçuluq, səmimiyyət, mərdlik, cəsarət, əzmkarlıq, qayğıkeşlik, düzgün əqidə sahibi olmaq və bir sıra bu kimi əxlaqi keyfiyyətlər formalaşmalıdır. Məhz gənclərə də bu ruhda, tərbiyə aşılamaq, onları inkişaf etdirmək lazımdır.

Vətəndaşlıq borcu nədir? Bu anlayışla bağlı nələrə, hansı keyfiyyətlərə diqqət yetirmək lazımdır? Yeri gəlmişkən bu suallara aydınlıq gətirək:

1. Yaşadığı ölkənin qanunlarına tabe olmaq;

2. Ölkənin konstitusiya qanunlarında göstərilən konstitusion borcunu dərk etmək və onlara riayət etmək;

3. Ölkənin milli-mənəvi dəyərlərindən irəli gələn məsələləri yerinə yetirmək;

4. Vətəndaş qarşısında təsbit olunan bütün qayda-qanun və borclara əməl etmək;

5. Hərbi müxalifət daşıyan vətəndaşlar silahlı qüvvələrin daxilində hərbi borcunu yerinə yetirmək, ölkənin sərhədlərinin qorunması, torpaqlarının bölünməzliyinin müdafiəsinə hazır olmaq;

6. Ailə və mülkiyyət məsələlərindən irəli gələn vəzifələri yerinə yetirmək;

7. Öz vəzifə və hüquqlarını dərk etmək onlara düzgün əməl etmək;

8. Milli-dini zəmində cəmiyyətdə ayrı seçkiliyə yol verməmək;

9. Vətəni tanımaq və sevmək; Yaşadığı ölkənin maddi (yeraltı, yerüstü sərvətlərini) və mənəvi (görkəmli şəxsiyyətlərini tanımaq, onların ideya və fikirlərini öyrənmək, qoyub getdikləri irsi qorumaq) dəyərlərini bilmək və onları qorumaq;

10. Xalqının milli-mənəvi dəyərlərini, adət-ənənələrini bilmək və ona əməl edərək qoruyub saxlamaq;

11. Ölkənin təbiətinə və təbii sərvətlərinə qoruyucu münasibət bəsləmək, təbiətinin mühafizəsində, ekoloji tarazlığın qorunmasında fəal olmaq.

12. Xalqına düzgün xidmət etməklə cəmiyyət qarşısında borcunu vermək;

13. Əmək məsuliyyəti daşımaq;

14. Yaşadığı ölkənin tarixini bilmək və ölkənin mənafeyini qorumaq;

15. Düşmənlərin haqsızlığına qarşı susmamaq və əsl həqiqəti dünyaya çatdırmaq.

Vətəndaşlıq borcu şəxsiyyət yetişdirilməsi ilə sıx bağlı olduğundan o eyni zamanda pedoqoji mahiyyət daşıyır. Odur ki, təlim prosesində şagirdlərə onun mahiyyətini açıqlayarkən, müəllim mütləq hüquqi bilik və məlumatlardan istifadə etməlidir. Eyni zamanda vətənə layiqli vətəndaş yetişdirilməsi üçün hər bir fənnin tədrisi prosesində bu məsələyə xüsusi yer verməli və şagirdlərin vətəndaşlıq borclarını dərindən dərk etmələrinə nail olmalıdır.

Vətəndaşlıq borcunun şagirdlərə aşılanması milli ideologiyaya xidmət etməlidir. Şagirdlər vətəndaşlıq borcunun ağıl, hiss, davranış və digər cəhətləri özündə əks etdirdiyini şüurlu şəkildə başa düşməlidirlər. Onlar vətəndaşlıq borcunu ağlın əmri ilə yox, qəlbin səsi ilə duymalıdırlar.Vətəndaşlıq borcuyla bağlı möhkəm əqidəyə sahib olmaq mühüm amildir. Bu borcu düzgün dərk edən insanda vətəndaşlıq ləyaqəti, vətəndaşlıq dəyanəti, vətəndaşlıq vüqarı da güclü olur. Əsl vətəndaş dövlət və cəmiyyət qarşısında vətəndaşlıq borcunu bilməli və vətənə xidmətdə sadiq olmalıdır.

Unutmaq olmaz ki, bütün keyfiyyətlər kimi vətəndaşlıq borcu tərbiyəsinin təməli elə ailədə qoyulur. Belə ki, bu istiqamətdə ailədə verilən tərbiyə məktəbdə də məqsədli və sistemli surətdə davam etdirilir. Məktəblərdə vətəndaşlıq borcu tərbiyəsi müxtəlif siniflərdə şagirdlərin yaş səviyyəsinə uyğun aparılır. Aşağı siniflərdə müxtəlif sahənin əmək qəhrəmanlarının fədakarlığı, döyüş qəhrəmanlarının şücaəti, elm xadimlərinin nailiyyətləri ilə tanışlıqdan sonra şagirdlərdə əməyə məhəbbət oyanır, vətənsevərlik hissləri aşılanır, elmə, həyata maraq artır. Bütün bunlar şagirdlərdə həmin sahənin mütəxəssislərinə rəğbət hissi oyadır. Yuxarı siniflərə çatdıqda isə şagirdlər daha humanist, vətənpərvər, mərd, cəfakeş, vətənuğrunda döyüşkən ruhlu, düzgün əqidəli olmaqla bir sıra əxlaqi-

mənəvi keyfiyyətlərə yiyələnmiş olurlar. Artıq onlar yetkin gənc olaraq vətəndaşlıq borcunu hərtərəfli dərk edir və ona həm də siyasi, hüquqi cəhətdən yanaşa bilirlər.

Azərbaycan Respublikasının tanınmış pedaqoq alimi, professor Əjdər Ağayevin fikrincə "Vətəndaşlıq borcu insanın əxlaqi tərbiyəsini və şüurlu intizamını müəyyən edən mühüm mənəvi amildir". Bu fikirdən də aydıngörünür ki, insanda ailədə qazanılan əxlaqi tərbiyə, məktəbdə əldə edilən şüurlu intizam onun vətəndaşlıq borcunu ifadə edir. Hər bir şəxs hansı ölkədə, hansı məkanda olursa olsun o, yalnız öz vətəni, öz xalqı, öz milləti üçün çalışmalı olduğunu dərk etməlidir. Xüsusi olaraq sübuta ehtiyac yoxdur ki, məhz düzgün əqidəli, zəngin mənəvi aləmə və geniş dünyagörüşünə malik olan insanlar vətəndaşlıq borcunu şüurlu şəkildə dərk edirlər. Vətəndaşlıq borcunun əsas mahiyyətini dərk edənlər hər bir işə şüurla, düşüncə ilə yanaşır və onu fəal prosesə çevirə bilirlər. Bununla bağlı bir hadisəni xatırlayaq.

1995-ci il oktyabr ayının 28-də Bakı metropolitenində 28-i uşaq olmaqla 289 nəfər sərnişin aparan qatarda, Ulduz metrostansiyasında yanğın baş vermişdir. Bu yanğın ən dəhşətli hadisə kimi Ginesin rekordlar kitabına düşübdür. Qatar tüneldə alışdığı üçün xilasedicilərin iştirakının mümkünsüz olduğunu görən sərnişinlərdən biri 31 yaşlı gənc hərbiçi Çingiz Babayev özünü alovun içinə ataraq onlarla insanı xilas etmiş, özü isə həlak olmuşdur. O, vətəndaşlıq borcunu yerinə yetirdi. Deməli, hər bir insan özündə Çingiz Babayev kimi əxlaqi keyfiyyətləri cəmləyib cəsarətini toplayarsa, igidliklə vətəndaşlıq borcunu hər hansı bir hadisədə fəal prosesə çevirib onu həyata keçirməyə qadir olar. Vətəndaşlıq borcunun bu cür formalaşmasında insanın əqidəsi, cəsarəti, mərdliyi, yalnız özünü yox, ətrafındakıları da düşünmək qabiliyyəti xüsusi rol oynayır və onun düzgün əqidəyə malik olduğunu göstərir. Deməli, öncə şagirdlərdə düzgün əqidə formalaşdırmaq lazımdır. Çingiz Babayevin hərəkəti göstərir ki, o öz vətəndaşlıq borcunu sözlə yox, real həyatda öz hərəkəti ilə həyata keçirilmişdir. Bununla o əxlaq zənginliyini, mərdliyini, cəsarətini sübuta yetirərək öz həyatı bahasına insanları xilas etmişdir. Təbii ki, Vətən də vətəndaşlıq borcunu yerinə yetirən övladını unutmur. Ulduz metrostansiyasında onun şərəfinə abidə kompleksi ucaldılmışdır.

Yuxarı sinif şagirdləri artıq yeniyetməlik və yetkinlik dövrünü yaşayırlar. Bu spesifik bir dövr olduğundan vətəndaşlıq borcu tərbiyəsi onlarda əqidə və dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Bu dövrdə şagirdlərdə yaradıcı fəaliyyət formalaşmalıdır. Onlarda elm və texnikaya maraq ictimai həyatda fəal olmağa istiqamətləndirir. Bir sözlə, onları xalqın, rifahı, dövlətin inkişafı naminə yaradıcı əməyə hazırlanmalıdırlar. Belə bir zamanda şagirdlər daha fəal olurlar. Hər şeyə diqqət göstərir və vətəndaşlıq borcunun mahiyyəti aydın, düzgün, tam məsuliyyəti ilə başa düşürlər. Bütün bu deyilənlərlə yanaşı nəzərdən qaçırmaq olmaz ki, cəmiyyətdə mənfi hadisələrə də meyilli olan şagirdlərimiz, gənclərimiz var. Belə olduqda yenə onlara düzgün istiqamət vermək müəllimlərin öhdəsinə düşür. Buna görə də həmin şagirdlərin meyillərini vətəndaşlıq işinə yönəltməli, onlara bu istiqamətdə zəruri tapşırıqlar verilməlidir. Yəni yalnız nəzəri məlumatlarla kifayətlənməyib, onlara ictimai tapşırıqlar verməklə istiqaməti dəyişmək lazımdır. Nəzərə çarpan hərəkətlər, görülən işlər müzakirə olunmalı və dəyərləndirilməlidir. Sözsüz ki, belə müzakirələr zamanı nümunəvi şəxslər haqqında söhbətlər aparmaq, ölkənin inkişafı, ölkə vətəndaşının nailiyyətlərindən, qəhrəmanlardan söhbət açmaqla bu deyilənləri həyata keçirmək olar. Əgər məktəblilər vətəndaşlıq borcunun mahiyyətini, məzmununu düzgün dərk etsələr, onlar sənət seçimində də vətənə necə xidmət edəcəkləri haqqında düşünərlər. Onlar elə həkim olaq ki, vətəndaşlarımız müalicə üçün yad ölkələrə üz tutmasınlar qənaətinə gələrlər. Yaxud elə müəllim olarlar ki, vətən övladlarına xaricdə alacağı təhsil səviyyəsinə qədər bilik və bacarıq aşıllaya bilsinlər və s. Deməli, şagirdləri bu istiqamətdə yetişdirmək, bu cür keyfiyyətlərlə formalaşdırmaq yenə də müəllimlərin öhdəsinə düşür. Buna görə də şagirdlər vətənpərvərlik tərbiyəsinə ailə, vətən haqqında, məhəbbət duyğuları barədə məlumatlandırılmalıdır ki, onlarda vətəndaşlıq borcu, hissi düzgün formalaşsın. Hətta yuxarı sinif şagirdləri sağlam ruhlu ailə sahibi olmaq keyfiyyətini dərk edərək milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə sadiq olmaq, yüngül hərəkətlərdən, mənasız, bayağı məhəbbətdən uzaqlaşmaq və ülvi hissləri qoruyub saxlamaq kimi xüsusiyyətləri də vətəndaşlıq borcu hesab edərlər. Təbii ki, bütün bu deyilənlər həyata keçirmək üçün həm hüquqi, həm də əxlaqi-mənəvi mahiyyət kəsb edən vətəndaşlıq borcu tərbiyəsi ilə məşğul olan müəllimlər düzgün, əqi-

dəli dərin biliyə, geniş dünyagörüşə, hüquqi biliklərə malik ziyalılar şəxsi nümunələri, fəal vətəndaşlıq mövqeyi ilə ziyalılar arasında ön sıralarda layiqli yer tutmalıdırlar.

## 1.2. Pedaqoji prosesdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasının əsas məsələləri

Məlumdur ki, hərtərəfli inkişaf etmiş insanın əsl vətəndaş olması öz elini, obasını, yurdunu, torpağını, sevməsi, qədrini bilməsi, ölkə qayda-qanunlarına düzgün riayət etməsi, yüksək əxlaqi keyfiyyətləri özündə cəm etməsi ilə müəyyən edilir. İnsanın həyatda əsl vətəndaşlığa çatması üçün keçdiyi yol uzun və keşməkeşlidir. Ona bu yolu kor-koranə yox, ağılla dərk edərək keçməsinə məktəbdə aldığı təlim-tərbiyə prosesi kömək edir. Odur ki, ilk olaraq məktəbdə şagirdlərə vətəndaşlıq keyfiyyətləri aşılamaq lazımdır. Vətəndaşlıq nədir, vətəndaşlıq borcunu necə yerinə yetirmək olar? Bu suallara cavab kimi bir sıra nəzəri və təcrübi məsələlərin aparılmasına xüsusi diqqət yetirmək zərurəti yaranır. Unutmaq olmaz ki, vətəndaşlıq tərbiyəsinin formalaşmasında yaşadığın ölkənin qayqa-qanunlarına riayət etmək, onun milli-mənəvi dəyərlərini bilmək və qoruyub saxlamaq mühüm rol oynayır.

Əgər aşağı siniflərdən intizamlı, dərslərdə fəal olmaq, hər bir işi səylə görmək, vaxtın qədrini bilmək, onu dəyərləndirmək, hər işi vaxtında görmək, təmizkar olmaq, yalandan uzaq olmaq, öz nöqsanını görmək, özünü tərbiyə etməyə çalışmaq, düzgün davranış qaydalarına yiyələnmək kimi keyfiyyətlər aşılamaq lazımdır. Bunun üçün 1-ci sinifdən şagirdlərə doğma yurdumuz Azərbaycan haqqında, onun tarixi qəhrəmanları, yaradıcı insanlarının fəaliyyəti haqqında məlumat vermək, dövlət himni, bayrağı və gerbini öyrətmək əsas şərtlərdəndir. Himni oxutmaqla onlarda vətəndaşlıq hissi oyatmaq, qəhrəman oğullarını tanıtmaqla onlarda qürur hissi canlandırmaq, ölkəyə məxsus bayram təntənələri ilə ruh yüksəkliyi yaratmaq və digər bu kimi cəhətlərlə onlarda vətənpərvərlik keyfiyyətləri aşılanmış olur. Təbii ki, belə bir hazırlıqla onlar yuxarı siniflərə çatanda daha mükəmməl əxlaqi keyfiyyətlərə yiyələnəcəklər. Artıq yuxarı sinif şagirdlərində daha mükəmməl vətəndaşlıq keyfiyyətləri mərdlik, cəsurluq, mübarizlik, ədalətli, vicdanlı olmaq, düzgün əqidəli, humanist, ləyaqətli, vüqarlı və digər bu kimi keyfiyyətlər formalaşır.

Bunun üçün təhsilin ilk mərhələsindən şagirdlərə vətəni olduğu kimi tanıtmaq lazımdır. Onun coğrafi ərazisi, tarixi haqqında düzgün, əsaslı məlumat vermək, yeraltı, yerüstü sərvətlərini tanıtmaq, iqlim qovşaqları haqqında danışmaqla onlarda vətənə məhəbbət, sevgi hissi oyatmaq olar.

Müdrik adamlar yeniyetməliyi-gəncliyi ömrün qalası adlandırırlar. İnsan həmin qalanı fəth etməli və oradan qazandığı mənəvi dəyərləri ömrü üçün yadigar zənginliyi kimi qoruyub saxlamalıdır. Bu zənginliyi "gənclik qalası" ndan elə əxz etmək lazımdır ki, onunla ucala biləsən, xalqın-elin etimadını, hörmətini qazana biləsən. Bu hörməti, ehtiramı qazanmaq üçün insandan bir çox keyfiyyətlər tələb olunur: bilik, zəhmətkeşlik, obyektivlik, saflıq, işgüzarlıq, humanistlik və s.

Doğma yurdumuz Azərbaycan çox oddan-alovdan keçərək öz müstəqilliyini qazandı. Bu qazanc ona asan başa gəlmədi. Bu müstəqillik yolunda damarlarında "Vətən, namus, qeyrət" qanı coşan neçə-neçə soydaşımız şəhidlik zirvəsinə çatdı. Onlar bu yolda heç bir təmənna güdmədilər. Bununla öz vətənsevərliyini, milli-mənəviyyatlarının gücünü göstərdilər. Bax elə buna görə də, milli mentalitet, milli mənəviyyat günün aktual mövzusuna çevrilib. Bu gün hamı mənəvi saflıqdan, mentalitetdən danışır. Gəlin görək bu danışıqlar, bu sahədə aparılan işlər, görülən tədbirlər nədərəcədə özünü doğruldur?

Əfsuslar olsun ki, müasir gəncliyimiz indi tamam başqa əhval-ruhiyyədə yaşayırlar. Bu bəlkə də cəmiyyətimizdəki müəyyən dəyişikliklərlə bağlıdır. Ancaq insan hansı cəmiyyətdə yaşayırsa yaşasın milli mənliyini, qürurunu həmişə qoruyub saxlamalıdır. Gənclərimizi əcaib geyimdə, millətimizə xas olmayan hərəkətlər edən görəndə Qərbin mənfi ünsürlərindən mənəviyyatımıza nə qədər nüfuz etdiyinin şahidi oluruq.

Bu gün ali məktəblərimizdə çox az tələbəyə rast gəlmək mümkündür ki, onlara tələbə kimi baxmaq olar. Belə tələbələr öz bilikləri, mədəni hərəkətləri ilə seçilirlər, ana dilində sərbəst və sevərək danışırlar. Bəzən belə tələbələrə bəzi həmyaşıdları geridə qalmış adam kimi baxırlar.Belə gənclərin, tələbələrin fikrincə müasir gənc açıq-saçıq geyinə, yanında böyük olduğunun fərqinə varmadan siqaret çəkə və digər hərəkətlər edə bilər. Çox vaxt heç

müəllimləri də saya salmırlar. Doğma dilində yox, əcnəbi dillərdə, xüsusilə rus və ingilis dilində danışmağa üstünlük verirlər.

Heç şübhəsiz gəncləri görəndə həmişə fikirləşirsən ki, görəsən evdə bunların valideynləri nə düşünürlər, onlar hara baxırlar? Axı bu ədəbdən kənar cavanlar uçuruma yuvarlanırlar. Yüksək insani keyfiyyətlərdən biri olan ədəb bizim mədəniyyətimizə xas olan ən gözəl dəyərdir. “Kitabi-Dədə Qorqud” dastanında babalarımızın ən qədim dövrlərdə yaratdıqları ədəbli davranış qaydaları nəsildən-nəsilə ötürülərək, zaman-zaman icra olunmuş daha da genişlənərək müasir səviyyəyə çatmışdır. Dahilərimizin fikirlərində də biz ədəbin insan həyatında əsas rolunu görmüşük. Nəsrəddin Tusinin “Əxlaqi-Nasiri” əsərində deyilən bu fikir dediklərimizə şamil olar: “Elm dalınca getmək arzusundasansa əvvəlcə əxlaq dərsini öyrən, sonra isə hikmət nəzəriyyəsinə keç”. Bunlarla bərabər bizim bütün sənət növləri də ədəb üzərində qurulub. Musiqimiz, nəğmələrimiz, memarlıq sənətimiz, rəssamlıq əsərlərimiz bütün bunlar əbəb ölçüləri ilə yaradılmışdır. Klassik ədəbiyyatımız da zəngin irsimizi göstərən ədəbdən süzülən bir üslubla yazılmışdır. Klassik sənət əsərlərini yaradan ulularımız göründüyü kimi daxilən bu cür ədəbə malik olmuşlar. Sözsüz ki, batində ədəb olmasa o zahirdə zühr edə bilməz və yuxarıda qeyd etdiyimiz sənət nümunələri yaranmazdı. Etiraf etmək nə qədər çətin olsa da deməliyik ki, müasir gənclərimiz bu gözəl, ülvi irsdən, əxlaqi keyfiyyətdən, ədəbdən uzaqlaşıblar.

Müşahidələr göstərir ki, gənclərin bir çoxu daxili enerjisini sərf etməklə, iç dünyasının səsini çıxarmaqla, yəni rəqs etmək, mahnı oxumaq, şeir demək, musiqi alətində çalmaq və s. bu kimi hərəkətlərlə mənəvi aləmlərin biruzə verirlər. Əgər onun mənəvi aləmi milli ruhdadırsa təbii ki, meyilləri də o istiqamətə yönələcəkdir. Yəni milliliyə daha da üstünlük verəcəkdir. Bu o demək deyildir ki, insanlar yalnız məxsus oduğu dəyərlərlə kifayətlənməlidirlər. Onlar həmçinin multikultural dəyərlərə də sahib olmalıdırlar. Dünyanın ayrı-ayrı ölkələrindəki insanlar arasında ünsiyyət yaradan, əcnəbi dilləri də öyrənməli və bilməlidirlər. Ancaq mənsub olduqlarına daha da üstünlük verməlidirlər.

Övladlarımızın mənəvi tərbiyəsinin əsası evdə, ailədə qoyulmalı, məktəbdə, ali təhsil ocaqlarında isə inkişaf etdirilməli daha da möhkəmləndirilməlidir.

Bu gün biz hər yerdə, bütün sahələrdə milli-mənəvi ideologiyanı gücləndirməliyik. Hər bir valideyn dərk etməlidir ki, o övlad böyütməklə gələcək nəslin təməlini qoyur. Hər bir müəllim fikirləşməlidir ki, onun dərs dediyi şagird və ya tələbə onun əməyinin bəhrəsi, əkdiyi bağın meyvəsidir.

Təəssüflər olsun ki, bu gün bir çox valideynlərimiz, habelə müxtəlif təhsil ocaqlarında çalışan müəllimlərimiz ömür boyu bu şərəfli, məsuliyyətli işin dəyərini lazımınca dərk edə bilmirlər.

Bəli, bu gün övladlarımızın mənfi hərəkətlərinə göz yumub onları dırnaqarası müasir gənc kimi böyüdürüksə və sabah onların çətinə düşdüyünü görüb heç nə kömək edə bilməyib mənəvi əzab çəkəcəyiksə, gəlin elə uşaqlara kiçik yaşlarından zəngin mənəviyyatın əsasını qoyaq və sonra əzab çəkib peşman olmayaq. Ən yüksək əxlaqi keyfiyyətlərdən sayılan düzgün əqidə sahibi olmaq, vətən üçün yaşamaq, onu sevmək, qorumaq, vətəndaşlıq borcunu dərk etmək kimi hisslərdən uzaqlaşmaq olmaz. Bu gün hər bir gəncin əsas amalı vətənini azad, xalqını xoşbəxt görmək olmalıdır. Bunun üçün hər bir gənc çalışdığı sahədə xalqına düzgün xidmət etməli, harada yaşamasından, işləməsindən asılı olmayaraq onun qəlbi-ürəyi vətən üçün döyünməlidir. Sevimli xalq şairimiz Hüseyn Arif necə də gözəl və təsirli demişdir:

*Andım da vətəndir, eşqim də vətən,*
*Könlümün həvəsi başqa həvəsdi.*
*Heç kəsdən təşəkkür gözləmirəm mən,*
*Mənə öz xalqımın alqışı bəsdir.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 noyabr 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışında demişdir: “Tələbələrə də sözüm odur ki, bilikli olsunlar... Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax

belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir-bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin”.

Çox böyük məna tutumu ilə deyilən bu sözlər hər birimizin gündəlik həyat devizimiz olmalıdır.

Ölkə Prezidentinin bu bəyənatına əsaslanıb gənc nəsli vətənpərvərliyə, əbədi müstəqilliyə, elmə, təhsilə çağırıb bu istiqamətdə tərbiyələndirməliyik.

Hər bir müəllim tədris etdiyi fəndən asılı olmayaraq şagirdinə, tələbəsinə vətənpərvərlik, vətənkeşlik, milli qeyrət hisslərini aşılamalıdır.

Çox vaxt bəzi müəllimlər qeyd edirlər ki, bu tarixçilərin və ibtidai sinif müəllimlərinin vəzifəsidir. Bu fikirlə qətiyyətlə razılaşmaq olmaz.

Müəllimlər tədris etdiyi fəndən asılı olmayaraq təlim zamanı mövzuya uyğun olaraq  müəyyən üsullarla buna nail olmalıdırlar. Onlar əlavə olaraq şagirdlərlə tez-tez milli mənəviyyat və vətənpərvərlik mövzusunda diskussiyalar aparmalıdır. Bu da çox gözəl nəticə verər. Əvvəlcə qeyri müəyyənlik olsa da, nəticədə bütün gənclər belə bir fikrə gəlirlər ki, insanı ucaldan saf mənəviyyat və əsl vətənpərvərlik hissləridir.

Tədris prosesində şagirdlərə ölkəmizin bütün yeraltı və yerüstü sərvətləri, respublikamızın təbii xəzinəsi haqqında, istehsal sahələri barədə müvafiq məlumatlar verməli, onlara respublikada mövcud olan istehsal sahələrinə tənəzzöhlər (ekskursiyalar) təşkil olunmalıdır. Azərbaycan dövləti, Azərbaycan xalqının nələrə qadir olması haqqında zəruri biliyə, dünya görüşünə yiyələnərlər. Həmçinin tənəzzöhlər zamanı şagirdlər ölkəmizin ixrac etdiyi məhsullar haqqında da məlumatlı olurlar. Ölkəmizin ərazisinin 20 faizinin mənfur düşmənlərimiz tərəfindən işğal olunmuşdu. Lakin həmin yurd yerlərində hansı tarixi abidələrimiz və təbii sərvətlərimizi itirmişik, bu haqda məktəblilərdə geni məlumatlar varmı? Suallara verilən cavablar qanedici deyil. Bunun günahı kimdədir? Sözsüz ki, valideynlərdə, təhsil müəssisələrində, o cümlədən ümumtəhsil və ali, orta ixtisas məktəblərində, həmçinin digər təhsil ocaqlarında çalışan müəllimlərdə.

İndiki dövrdə yalnız işğal olunmuş rayonlarımızın adını onlara öyrətməklə müəyyən məlumat verməklə işimizi bitmiş hesab etməməliyik. Bu gün hər bir

Azərbaycan övladı bilməlidir ki, onun dövləti hansı təbii sərvətlərlə zəngindir.Onlar bu torpağa ayaq basanda elə hiss etməlidirlər ki, qiyməti hesaba gəlməyən bir xəzinəyə ayaq basırlar və onlar itirilən torpaqlarda nə qədər xəzinələr itirdikləri haqqında məlumatlı olmalıdırlar.

Onların Qarabağın böyük, tarixi şəxsiyyətləri - Mir Mövsüm Nəvvab, Pənahalı xan, İbrahim Xəlil xan Cavanşir, Qasım bəy Zakir, Mir Mehdi Xəzani, Xurşud Banu Natavan, Cabbar Qaryağdı oğlu, Əhməd bəy Ağaoğlu, Üzeyir bəy Hacıbəyli, Əbdülrəhim Bəy Haqverdiyev, Xan Şuşinski, Niyazi, Rəşid Behbudov, Xudu Məmmədov və digərləri haqqında zəruri məlumatları varmı? Onlar bilirlərmi muğam nədir, onun kökü hardan gəlib? və s.

İndiki dövrdə bu cavanları qınamağa haqqımız varmı? Xeyir, biz qaba su tökmədən onun dolmasını istəyirik. Bu isə mümkün deyil. Zəruri məlumatlar onlarda vətənə məhəbbəti, sevgini artırar və onlarda qürur hissi doğurar. Ancaq gənclər bütün deyilənləri bilərlərsə, təbii ki, onlarda vətənpərvərlik hissi oyanar və vətəndaşlıq borclarını şüurlu şəkildə dərk edərlər.

Unutmaq olmaz ki, gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyə edilməsi, əsl vətəndaş kimi yetişdirilməsi, hərbi xidmətə hazırlanması ailə və məktəblə bərabər bilavasitə gənclərin tərbiyəsi ilə məşğul olan müvafiq təşkilatların və qurumların da təxirəsalınmaz vəzifələridir.

Gənclərin əxlaq tərbiyəsinin məzmunu milli dəyərlərimiz əsasında müəyyən olunsa da, biz heç də həmişə qarşıya qoyulan məqsədə nail ola bilmirik. Bunun bir çox səbəbləri vardır. Onlardan biri də əxlaq tərbiyəsidir ki, onun əsas tərkib hissəsi olan vətənpərvərliyi lazımi səviyyədə şagirdlərimizin ruhuna hopdura bilməmişik.

Baxın, elə götürək gənclərin hərbi xidmətə çağrılması məsələsinə. Bir çox imkanlı adamlar uşaqlarının hərbi xidmətə getməsinə mane olurlar. Niyə? Çox vaxt uşaq özü hərbi xidmətə getməyə can atsa da valideyn müəyyən yollarla onun qarşısını alır. Bu səbəbdən də bugünkü gənclərimiz vətənin keşiyində durmaq, orduda xidmətə həvəs və maraq göstərməkdə çətinlik çəkirlər. Onlar işğal olunan torpaqlar haqqında məlumatlı deyillər, ya da məlumatlı olmaq istəmirlər. İşğal olunmuş ərazilərimiz və bu ərazilərin işğal olunma tarixi barədə bir qrup gənclərlə sorğu keçirdikdə dəhşətli cavab alırıq. Əsrin ən dəhşətli hadisəsi olan “Xocalı soyqırımı” gününü, 26 fevral“bayramdır”

deyən bir gəncimiz varsa bu bizim günahımızdır. Burda artıq heç bir kəsi, heç bir xarici düşməni qınamağa haqqımız yoxdur. Günah özümüzdədir. Bütün bu deyilənlərdən belə nəticəyə gəlirik ki, biz müstəqil Azərbaycanımızda digər sahələrdə olduğu kimi vətənpərvərlik tərbiyəsini də yeni istiqamətlər üzərində qurmalıyıq.

Xalqımızın qəhrəmanlıq səlnaməsini yaradanların- Koroğlunun, Xətainin, Qaçaq Nəbinin, Cavad xanın, Tomrisin, Həcərin, Həzi Aslanovun, Mehdi Hüseynzadənin, 20 yanvar və Qarabağ şəhidlərinin həyatına dərindən nəzər salıb onlardan bir metodoloji mənbə kimi istifadə edib, yeni nəslin hərbi vətənpərlik tərbiyəsini yüksəldib günün tələbləri səviyyəsinə qaldırmalıyıq. Torpaqlarımızın 20 faizi işğal altında olduğu bir dövrdə vətənimizdəki biganə mühiti ləğv etməliyik. Biz uşaqlara, hər bir gəncə dövlətçiliyimizin müqəddəsliyinə, dinimizə inam və ehtiram, ana Vətənə təəsübkeşlik hisslərini daima aşılamalıyıq. Belə bir türk deyimi var: "Öncə vətən, ikinci xalq, sonra mən". Bu kəlam bizim övladlarımızın həyat amalı, həyatda ən əsas məqsədi olmalıdır. Gösrədiyimiz bu kimi mühüm məsələlərə nail olmaq üçün yalnız məktəbdə verilən təlim-tərbiyə ilə kifayətlənmək olmaz. Məktəb həyatından sonra gənclər ictimai həyata atılır. Burda isə həyat daha mürəkkəb, daha da çətindir. Odur ki, içtimai yerlərdə də müəyyən tədbirlər həyata keçirilməlidir. Problemlə bağlı zəruri keyfiyyətlər gənclərin düşdüyü normal mühitdə formalaşa bilər. Bununla bağlı bir sıra mühüm məsələlərlə bağlı vəzifələri həyata keçirmək məqsədə uyğun olardı:

1. Gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün çox işlər görmək lazımdır. Belə ki, gənclərin şənlənməsi, asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif xarakterli mərkəzlər təşkil etmək və orada onların əylənmələri ilə yanaşı intelektual səviyyələrinin yüksəldilməsi üçün də müxtəlif mövzularda disputlar, diskusiyalar keçirmək, sənədlər, peşələr haqqında söhbətlər aparmaq lazımdır. Müxtəlif sənətlər, peşələr haqqında söhbətlər yeniyetmələrin peşə seçmə qabiliyyətini artırar, onlarda sənət və peşələrə düzgün münasibət yaradar. Belə tədbirlərə elm xadimlərini, vətən müharibəsi qəhrəmanlarını, tanınmış pedaqoqları, müxtəlif sahələrdə çalışan və uğur qazanan insanları dəvət etmək məqsədə müvafiq sayılmalıdır.

Belə mərkəzlərə yalnız məktəbliləri, səviyyəli gəncləri deyil, eləcə də boş-bekar gəzən tüfeyli həyat sürən gənclərin də tanınmış insanlarla ünsiyyətdə olmasına çalışmaq lazımdır. Məhz bu yolla onlar dərk etsinlər ki, biz də sayılırıq, bizimlə ünsiyyət qurmaq istəyirlər. Bu cür ünsiyyətin yaradılması həmin gənclərin mənəviyyatının saflaşmasında mühüm rol oynayan bir amil ola bilər.

2. Problemlə əlaqədar "Elm və gənclik" klubları da təşkil etmək faydalı olar. Belə klublarda elmi seminarlar, konfranslar, elm, sənət adamları ilə müxtəlif görüşlər keçirmək də az vaxt ərzində əhəmiyyətini göstərər. Eyni zamanda belə klubların vasitəsilə gənclərin istirahəti, şənlənməsi üçün, müxtəlif oyunlar, bölgələrimizə səyahətlərin təşkil edilməsi kimi tədbirlər də həyata keçirilməlidir.

3."Gənclərin ünsiyyət qrupu" adlı klubun təşkili də çox aktualdır. Bu kluba müxtəlif  xarici təşkilatlardan, səfirliklərdən qonaqlar dəvət ounur. Xarici tələbələrlə əlaqələr yaradılır. Onların təhsil sistemi və asudə vaxtlarının təşkili ilə bağlı məlumatlar verilir. Eyni zamanda burada istedadlı gənclərin müxtəlif dillər öyrənmələrinə, onların xaricdə təhsil almalarına, müxtəlif şirkətlərdə işlə təmin olmalarına şərait yaradılır. Müxtəlif sahə üzrə istedadı olan gənclər bir-biri ilə təmasda olur, bir-birindən bəhrələnirlər.

4. Mənəvi saflığımızın təməli olan islam dinini bir elm kimi təqdim edən mərkəz yaratmaq olar. Burada gənclər islam dininin mənəviyyatımızın paklaşmasında, vətənə məhəbbət hisslərinin möhkəmlənməsində, anaya, qadına ən ülvi məhəbbətin aşılanmasında mühüm rolunu dərk edərlər. Başqa dinlərə kor-koranə meyil etməzlər. Ümummilli liderimiz Heydər Əliyevin bu məsələ ilə bağlı çox gözəl bir kəlamı var. "Gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün və böyütmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir". Əlbətdə, belə bir mövqe gənclərimizi bir çox xətalardan, mənfi ünsürlərdən uzaq olmağa, mənəvi dəyərlərimizi olduğu kimi düzgün başa düşməyə zəmin yaradar.

5. Kütləvi informasiya vasitələrində də müəyyən dəyişikliklər edilməsi zəruridir. Belə ki, yersiz, bayağı reklamlar, tək-tək savadsız, istedadsız adamları,

layiq olmayan müğənniləri tez-tez təbliğ etməkdənsə tariximizi, mədəniyyətimizi, qəhrəmanlıq salnaməmizi təbliğ edən mütəxəssislərə, alimlərə istinad olunmalıdır.

Yaxşı olar ki, qəzetlərimiz öz səhifələrində, televiziya kanalları öz verlişlərində "Tariximiz, mədəniyyətimiz, mənəviyyatımız" adlı bölmə açsınlar. Məhz bu bölmədə gənclərimizə örnək olan məsələlərə toxunulsun, görkəmli şəxsiyyətlər, elm xadimləri haqqında məlumatlar verilsin.

6. Sovet dönəmində, təhsil sistemində "Gənc texniklər stansiyaları" fəaliyyət göstərirdi. Burada müxtəlif yaş dövrünü keçirən məktəblilər bir-birindən maraqlı texniki modellərin hazırlanması ilə məşğul olurdular. Bir vaxtlar bu stansiyaların üzvləri olan uşaqlar və ya gənclərin adları indi dünyanın məşhur alimləri, ixtiraçıları sırasında çəkilir. Bu istiqamətdə görülən işlərin yenidən bərpa edilməsi və fəaliyyətə başlaması gənclərimizin asudə vaxtlarının maraqlı və səmərəli keçməsinə şərait yaradar.

Güman edirik ki, bu deyilənlər müntəzəm, sistemlə həyata keçirilərsə gənclərin mənəviyyatının saflaşmasına vətənpərvərlik hissinin daha da qüvvətlənməsinə vətəndaşlıq borcunun dərk edilməsinə və onların dövrün başlıca tələbləri səviyyəsində sosiallaşmasına əhəmiyyətli təsir göstərər.

# II Fəsil. Təlim prosesində vətəndaşlıq tərbiyəsinin formalaşdırılması xüsusiyyətləri

## 2.1. Vətəni tanıtmaq şagrdlərdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasında mühüm amil kimi

Müdrik adamların, pedaqoq alimlərin gəldiyi qənaətə görə yer üzündə elə bir anlayış, məfhum yoxdur ki, vətən-vətəndaş sözü qədər əzəmətli, ruh coşduran olsun. Əgər insan öz vətəninin-yurdunun, torpağının qədrini bilirsə, ictimai münasibətlərə, ölkə qayda-qanunlarına diqqətlə yanaşırsa, işlədiyi sahədə xalqına, elinə, obasına düzgün xidmət edirsə, demək o, özündə yüksək əxlaqi keyfiyyətləri birləşdirmişdir. Hər bir insanın mənəvi keyfiyyətləri, əməli fəaliyyəti onun həqiqi vətəndaş kimi yetişməsindən çox asılıdır. Bu da məlumdur ki, hər kəs yaşadığı ölkənin vətəndaşı kimi yetişmək, formalaşmaq

üçün uzun bir yol keçir. Bunun üçün nəzəri cəhətdən hazırlıqlı olmaq, vətəndaş olduğunu dərk etmək, mahiyyətini düzgün başa düşmək, nəyi, nə üçün etdiyini bilərək şüurlu surətdə əməli fəaliyyət göstərmək lazımdır. Heç şübhəsiz, bu yolu düzgün addımlamaqda ailə, məktəb və ictimaiyyət əsas rol oynayır. Müəllimlər isə şagirdlərinə zəruri keyfiyyətləri aşılamaqla mayak kimi onların yolunu işıqlandırır. Əlbəttə, sadəcə bir izahat, məsləhət və ya etik söhbətlə, mühazirə və məruzə ilə bunlara nail olmaq mümkün deyil. Bu iş məktəbin ailə və ictimaiyyətlə uzun müddət əlbir fəaliyyətindən sonra öz bəhrəsini verir. Valideynin əməksevərlik, mehribanlıq, qayğıkeşlik və digər yüksək əxlaqi keyfiyyətləri özündə cəmləşdirən nümunəsi uşaqlarda həmin keyfiyyətlərin yaranmasına zəmin yaradır. Valideynlərin vətəndaşlıq nümunəsi daha qüvvətli təsir göstərir. Belə bir mövqe uşağın layiqli vətəndaş kimi yetişməsinə zəmin yaradır. Məktəbin də öhdəsinə bu kimi keyfiyyətlərin aşılanması ilə bağlı mühüm vəzifələr düşür.

Vətəndaşlıq tərbiyəsi üçün şagirdlərdə bir çox dəyərli keyfiyyətlər formalaşmasında əsas amillərdən biri vətəni tanıtmaqdır. Şagirdlərdə vətənpərvərlik hissini qüvvətləndirmək üçün ölkənin tarixi ilə yanaşı onun hər bir bölgəsinin daha ətraflı, əyani şəkildə öyrənilməsi əsas şərtlərdəndir. Çünki vətəni tanımadan onu qəlbən sevmək çox çətindir.

2014-cü il avqust ayından ölkəmizin Prezidenti İlham Əliyevin tapşırığı ilə prezident adminstrasiyası və icra hakimiyyətləri ilə birlikdə məktəblilər üçün “Ölkəmizi tanıyaq” lahiyəsinin icrasına başlanılmışdır. Az vaxt ərzində çox böyük rəğbətlə qarşılanan bu lahiyə maarifləndirici missiyasını daşıyır.

“Ölkəmizi tanıyaq” layihəsi ilə bağlı hər il payız və yaz aylarının tətil zamanlarında hər məktəbdən bir qrup şagirdlərlə məktəbin yerləşdiyi rayon icra hakimiyyətinin dəstəyi ilə Azərbaycanın müxtəlif bölgələrinə səyahət təşkil olunur. Səyahət zamanı şagirdlər bölgələrin maddi-mənəvi abidələri ilə tanış olur, flora və faunasını mükəmməl öyrənir, birgə əməkdaşlığın əsası qoyulur. Bu prosesdə ölkənin hansı bölgəsində kənd təsərrüfatı, istehsal sahələri üzrə hansı müəssisələrin fəaliyyət göstərməsi, onların ölkə iqtisadiyyatındakı mövqeyi məlum olur. Ayrı-ayrı rayonlardakı mədəniyyət evlərinə, diyar-

şünaslıq mərkəzlərinə ekskursiyalar təşkil olunur. Beləliklə, məktəb illərindən başlayaraq şagirdlərdə ölkəmizin iqtisadiyyatı, təbii sərvətləri, faydalı qazıntıları, görməli yerləri haqqında düzgün təsəvvür formalaşır.

Belə bir layihə ilə bağlı tədbirlərin dövlət tərəfindən həyata keçirilməsi imkan verir ki, hər bir məktəb-müəllim şagirdlərinə vətəni tanıda və sevdirə bilsin. Təqdir olunası cəhətlərdən biri də budur ki, belə səyahətlərdən sonra şagirdlərin olduqları bölgə ilə bağlı maraqlı müsabiqə keçirilir. Müsabiqələrdə qalib gələn şagirdlər xüsusi mükafata layiq görülürlər.

Müntəzəm, sistemlə həyata keçirilən belə tədbirlər vasitəsilə şagirdlər vətəni daha ətraflı şəkildə tanıyırlar. Bir daha əmin olurlar ki, odlar yurdu Azərbaycanımız çox zəngin olan yeraltı və yerüstrü sərvətlərə malikdir. Buna görə də şagirdlər ölkəmizin mühüm əhəmiyyət kəsb edən ağaclarla zəngin meşələrini, yaşıl çəmənlərini, min bir dərdin dərmanı olan bitkilərini, laləli-nərgizli çöllərini tanımalıdırlar. Belə bir məlum həqiqəti yaddan çıxarmaq olmaz. Əgər insan öz yaşadığı, böyüyüb, boya-başa çatdığı yurdun tarixini, onun yeraltı, yerüstü sərvətləri haqqında məlumatlı olmasa, bu sərvətləri qorumaq, artırmaq və gələcək nəsillərə saxlamaq qayğısına qalmasa o, əsl vətəndaş sayıla bilməz. Vətənə məhəbbət insanın daxilindən gələn ən güclü mənəvi, ülvi bir hissdir. Bu hissin şagirdlərdə oyanması, daha da qüvvətlənməsi üçün məktəbdə ata-babalarının keçdiyi yolu öyrənir, təbiət və cəmiyyət haqqında kifayət qədər məlumat əldə edirlər, zəruri bilik və bacarıqlara, bir sıra mənəvi keyfiyyətlərə yiyələnir vətəndaşlıq zəminində formalaşırlar, vətəndaşlıq dərsi alırlar.

Problemin belə bir cəhətini də unutmaq olmaz ki, şagirdlər orta məktəb illərindən doğma Azərbaycanımız haqqında geniş məlumatlı olsalar bu cür zənginliklərə malik olan vətənləri ilə qürur duyarlar. Bu da məlumdur ki, ölkəmizin öz təbiətilə fərqli olan gözəl şəhərləri, rayon və kəndlərini tanımaq da şagirdlərdə xoş duyğular oyadar. Bunlarla yanaşı ölkəmizdə fəaliyyət göstərən zavod və fabriklər, dünya bazarlarına çıxarılan məhsullarla şagirdlərin tanış edilməsi də əsas məsələlərdəndir. Dənizlər dənizi mavi Xəzərin qoynunda salınan şəhər-Neft daşları dünyada yeganədir. Bu da məktəblilərdə milli iftixar hissi oyadır. Müsəlman qadınlarına ilk seçim hüququ verən, ilk olaraq mexaniki yolla neft istehsal edən (Bibi-Heybətdə), sovet dövründə ilk elektrik

qatarını istifadəyə verən, müsəlman ölkəsində ilk opera (Leyli və Məcnun) səhnələşdirən ölkəmizin bir çox sahələrdə dünya üzrə ilklər sırasında olduğunu bildirmək şagirdlərdə qürur hissi oyadır. Təbii zənginliyinə görə Qafqaz regionunda özünəməxsus yeri olan ölkəmiz haqqında verilən hər bir gərəkli məlumat şagirdlərdə vətənə məhəbbəti artırır və vətəndaşlıq hissini qüvvətləndirir.

Dağlıq və düzənlik relyefinə malik olan, ən hündür zirvəsi Savalan dağı, ən çökək hissəsi isə Lənkəran düzənliyi olan ölkəmizin ərazisi yeraltı faydalı qazıntılarla zəngindir. Ən qiymətli neməti olan neft və qazla yanaşı dəmir, mis, qızıl, gümüş, civə qurğuşun, maqnezium, xrom, titan, kobalt, polimetallar, molibden, kvars, kükürd, alunit, pirit, daş duz və s. faydalı qazıntılar haqqında məlumat verməklə ölkə zənginliyini açıqlamış oluruq. Ən qiymətli nemət olan meşəlik sahəsi 1213,7 min hektardır. Həmin meşələrdə 435 növ ağac və kol bitir.

Dünyada məşhur olan Nobel mükafatı kapitalının Bakı nefti hesabına mövcudluğu, qırmızı planetin strukturuna oxşar olan və dünya üzrə birinci yerdə duran palçıq vulkanlarının məkanının Azərbaycanda olması ölkənin zənginliyinə sübutdur. Bütün bunları şagirdlərə öyrətməkdə əsas məqsəd vətən haqqında anlayışı dəqiqləşdirmək və bunun timsalında vətənpərvərlik hisslərini inkişaf etdirməkdir. Şagirdlər yaşadığı ölkənin nələrə malik olduğunu dəqiq bilməlidirlər. Təbii ki, bütün bunlar müxtəlif fənnlərin tədrisi zamanı, sinifdən-sinifə keçdikcə hissə-hissə öyrədilir, daha da təkmilləşir və şagirdlərin vətəndaş kimi yetişdirilməsində mühüm rol oynayır.

Mühüm strateji mövqeyi, zəngin təbii sərvəti olan Azərbaycan zaman-zaman qonşu dövlətlərin hücumlarına məruz qalmış, parçalanmış, zəbt olunmuşdur.

1722-ci ildə Dərbənd Rusiya tərəfindən zəbt olunmuş və Rusiyanın tərkibinə daxil edilmişdir. 1736-cı ildə isə yenə də Borçalı Rusiya tərəfindən zəbt olunaraq Gürcüstana verilmişdir. 1828-ci ildə Azərbaycan Rusiya və İran arasında iki yerə parçalandı, Şimali və Cənubi Azərbaycan. Cənubi Azərbaycan İranın tərkibinə verildi. 1918-ci ildə isə yenə də Rusiyanın əli ilə İrəvanla Göyçə mahalı Ermənistana verildi. Azərbaycana qarşı olan ərazi iddiaları bununlada bitmədi. 1921-ci ildə Zəngəzurla Dərələyəz mahalı ermənilər tərəfindən

zəbt olundu. Yenə də Rusiyanın əli ilə mənfur qonşularımız ermənilər 1992-1994-cü illərdə isə Dağlıq Qarabağı və onun ətrafındakı rayonları zəbt elədi.

Lakin sevindirici haldır ki, 2020-ci ilin 27 sentyabrından 10 noyabradək davam edən edən Vətən müharibəsində (2-ci Qarabağ müharibəsində) Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər ordumuz düşmən üzərində qələbə qazandı və torpaqlarımız işğaldan azad edildi. Təbii ki, tarix fənnin tədrisi prosesində müvafiq mövzular dərindən, daha dəqiq detallarla öyrədilir və şagirdlərdə vətəndaşlıq hissi gücləndirilir.

Hər hansı bir fənnin tədrisi prosesində vətəndaşlıq borcu ilə bağlı faktlar meydana çıxarsa mövzuya uyğun tərbiyə vasitəsi kimi ondan yerində istifadə olunması mühüm əhəmiyyət kəsb edər. Hər bir fənnin tədrisində müəllimlər tərbiyə məsələsinə eyni dərəcədə yanaşarlarsa müsbət nəticə əldə etmək olar. Təlim prosesində vətənpərvərlik tərbiyəsi məqsədyönlü və planlı şəkildə aparılmalıdır. Yüksək nəticə əldə etmək üçün şagirdlərin yaş xüsusiyyətlərinin, şüurluğunun, mənəvi keyfiyyətlərinin nəzərə alınması əsas şərtdir. Məktəb dərsliklərinə nəzər saldıqda bunların aşağı siniflərdən başlayaraq ardıcıllıqla aparılması nəzərə çarpır. Məsələn, 3-4-cü siniflərdə ədəbiyyat və Azərbaycan dili dərslərində zəngin tarixi keçmişimizdən bu günümüzə qədər şagirdlərə örnək olası xalq qəhrəmanları ilə bağlı mövzulara xüsusi yer verilmişdir. Bu mövzuları keçərkən müəllimə hər bir mətnin izahında şagirdləri müxtəlif suallarla düşündürmək, onların fikirlərini öyrənmək, insanların vətəndaşlıq borcunu yerinə yetirərkən göstərdikləri fədakarlığı necə dərk etdiklərini müəyyənləşdirmək və birlikdə bu cəsarətli addımları qiymətləndirmək üçün geniş imkan yaranır. Müsahibə zamanı mətində olan bəzi sözlərin mənasını, mahiyyətini açıqlamaq, o sözlərin şagirdlərə təsirini qüvvətləndirmək üçün şərait yaranır. Məsələn, vətən, el, oba yurd dedikdə hər kəsin doğulduğu, böyüdüyü, doğmalarının, xalqının, millətinin yaşadığı məkan olduğunu, mərdlik isə vətən üçün döyüşlərdə göstərilən igidlik anlayışı, yaxud qürur sözünün mənası dərk edilir. Xalqımızın tanınmış şəxsiyyətləri haqqında danışarkən insanın keçirdiyi fərəh, iftixar hissi qüvvətlənir. Belə mövzuların

verilməsi, müvafiq şərhlərlə izah olunması aşağı sinif şagirdlərindən başlayaraq vətənpərvərlik hissini daha da qüvvətləndirir. Onlarda söz ehtiyyatını və anlamını artırır.

Beşinci sinifin Azərbaycan dili dərsliyində 4-cü bölmə “Tarixi mədəni abidələr” adlanır. Bu bölmədə Azərbaycan tarixini əhatə edən qədim abidələr haqqında ətraflı məlumat verilmişdir. Atəşgah, Azərbaycan qalaları (Şuşa qalası, Çıraq qala, Pəri qalası), Dərbənd qalası, Kiş, Alban məbədi, içəri şəhər, Memar Əcəmi, İsmailiyyə teatrı, Gələrsən-görərsən qalası və Səadət sarayı haqqında geniş yazılmışdır. Cənubi və Şimali Azərbaycanı birləşdirən Xudafərin körpüsü haqqında da məlumat verilibdir. Bu da məlumdur ki, hər bir xalqın təfəkkürü onun tarixinin ölçüsüdür. Təbii ki, bu qədər zəngin abidələr haqqında məlumat toplayan kiçik yaşlı şagirdlər Azərbaycan tarixini və tarixi hadisələri haqqında keçilən mövzular əsasında öyrənir və öz ölkələrini daha dərindən tanıyır, qanuni iftixar hissiylə fəaliyyət göstərirlər.

Şagirdlər böyüdükcə onlarda anlayış, baxış və əqidə formalaşdığından yuxarı sinif şagirdlərinə daha geniş ətraflı məlumatlar verilir. Artıq şagirdlərin yaşı və dərk etmə səviyyəsi onlarda dostluq, səmimiyyət, qayğıkeşlik, ictimai tapşırıqlara şüurlu surətdə, vicdanla yanaşmaq vərdişləri kimi zəruri keyfiyyətlər qazanmağa imkan verir. Aşağı siniflərdə vətəndaşlıq borcunun yerinə yetirilməsi barədə geniş söhbət açılır. Lakin vətəndaşlıq və vətəndaşlıq borcu anlayışının siyasi, hüquqi baxımdan izahı artıq yuxarı siniflərdə ayrı-ayrı fənlərin tədrisi prosesində izah olunur. Beləliklə, sinifdən-sinifə keçdikdə şagirdlərdə vətəndaşlıq borcunun dərk edilməsi tədricən formalaşır.

Müəllimlərin borcu isə daim öyrənmək, öz üzərində işləmək, biliklərini artırmaq və dünya görüşünü genişləndirməklə şagirdlərə aydın, düzgün yol göstərməkdir. Təlimdə bu prinsiplərdən tərbiyə vasitəsi kimi istifadə olunması müəllimlərə şagirlərin hiss və duyğularına təsir edərək onlarda güclü xarakter yaratmağa, insani keyfiyyətlərini artırmağa imkan verir. Buna görə də hər bir fənn müəlliminin üzərinə vətəndaşlıq tərbiyəsi ilə bağlı daha ciddi vəzifələr düşür.

Tədris etdiyi fəndən asılı olmayaraq müəllimlər çalışmalıdırlar ki, vətənə məhəbbət, sevgi, sədaqət hər fənnin imkanları daxilində əyani şəkildə dəlillər, sübutlar əsasında müqəddəs borc, məqsəd kimi təlqin olunsun. Vətənpərvərlik

tərbiyəsinin müxtəlif prizmalardan aşılanması isə vətən naminə hər bir müəllimin səmərəli fəaliyyət nümunəsi kimi nəzərə çarpır.

Yuxarı siniflərdə müəllim kimyanın tədrisi zamanı Mendeleyev cədvəlindəki elementlər və onların birləşmələri haqqında məlumat verərkən bizim ölkəmizdə olanların üzərində dayanaraq, yeraltı-yerüstü zənginliklərimizi qabardmalıdır. Müvafiq faktlarla daha aydın şəkildə diqqətə çatdırılmalıdır. Məsələn, neft mövzusu keçilərkən Azərbaycanın neft-qaz yataqları haqqında məlumat vermək, Azərbaycanda neftin tərkibinin digər ölkələrin neftindən fərqini izah etmək məqsədəuyğundur. Benzinin oktan ədədi haqqında isə məlumat verilərkən ikinci dünya müharibəsi dövründə yüksək oktanlı benzin komponentini yaradan Azərbaycanın dünya şöhrətli alimi Yusif Məmmədəliyev olduğunu bildirməklə diqqət Azərbaycan aliminə yönəldilir. Şagirdlər vətən elminin inkişafında cəsurluq göstərən alimi tanıyır və onunla qürur duyurlar. Eyni zamanda bilməlidirlər ki, ikinci dünya müharibəsinin qalibi olan Sovet ordusunun hərbi texnikasının 90 faizinin neftlə təminatı məhz Azərbaycan Respublikası olmuşdur.

Dünyanın heç bir yerində olmayan və yalnız Azərbaycanda çıxarılan Naftalan neftindən, onun 70 növ xəstəliyin müalicəsi imkamları olmasından danışmaq, vətənimizin bu cür dəyərli sərvəti haqqında məlumat vermək zəruridir. Belə bir faktı da göstərmək olar ki, 1932-ci ildən stasionar şəklində Naftalan nefti ilə müalicə aparılır. 1918-ci ildə artıq 62 ölkədən burada 35 mindən çox xəstə müalicə olunubdur. Heç şübhəsiz, vətənin bu zəngin neməti ilə qürur duymağa dəyər.

Coğrafiyanın tədrisi prosesində abservatoriya haqqında, yaxud riyaziyyat dərslərində triqonometrik qanunlardan danışılarkən Azərbaycanın görkəmli, ensiklopedik alimi N.Tusi və onun elmi yaradıcılığı haqqında da məlumat vermək böyük əhəmiyyət kəsb edər. Belə ki, XVI əsrdən başlayaraq Avropa alimlərinin onun elmi yaradıcılığına maraq göstərmələrindən, elmi fikirlərinə istinad edilərək zəngin yeniliklər əldə etmələrindən söhbət açmaq yerinə düşər. Coğrafiya müəlliminin dünyanın on iki qurşağının doqquzunun bizim vətəndə mövcudluğunu diqqətə çatdırması da şagirdlərdə doğma vətənə məhəbbət hissini qüvvətləndirir.

Fizika müəlliminin tədris etdiyi fənlə bağlı ölkəmizdə gedən və uğurlar əldə olunan texnologiyalardan, hətta dünya xəritəsində kiçik nöqtə olan Azərbaycanın kosmosa peyklər buraxmasından söhbət açması da şagirdlərdə qürur, milli-iftixar hissini qüvvətləndirir.

Azərbaycanı dünyada tanıdan qüdrətli sənətkarların, yazıçı və şairlərin, olimpia və dünya çempionları olan idmançıların uğurlarından da söhbət açmağı hər bir müəllim bacarmalıdır.

Mədəniyyət tariximizdə elə hadisələr olmuşdur ki, bu gün dünya üzrə keçirilən tədbirlərdə Azərbaycan mədəniyyəti konkret nümunələrlə özünün milliliyini göstərməklə, həm də dünya miqyaslı olduğunu təsdiq edir. Bu kimi nümunələr vətənə məhəbbət, vətənlə qürurlanmaq, onunla sevinmək kimi hisslər oyadır. Məsələn, 24 iyul 2016-cı ildə Kanadada Niaqara şəlaləsi sahilində Avstriya bəstəkarı Volfqanq Amadey Motsartın 250 illik yubileyinə həsr olunmuş beynəlxalq musiqi festivalı Üzeyir bəy Hacıbəylinin bir nömrəli Çahargah fantaziyası ilə açılmışdır. Şagirdlər üçün qürur duyulası haldır ki, dünya üzrə bu qədər məşhur bəstəkarlar sırasında festivalın açılışı üçün məhz Üzeyir bəy Hacıbəylinin - Azərbaycanın əvəzsiz bəstəkarının 1931-ci ildə yazdığı "Birinci fantaziya" əsəri seçilmişdir.

Belə faktlar müəllimə imkan verir ki, böyük şəxsiyyətlərin vətənə xidmət amalını, vətəndaşlıq borcunu yerinə yetirmələrindən bir nümunə kimi istifadə edə bilsin. Bununla müəllimlər şagirdlərin hiss və duyğularına daha qüvvətli təsir edirlər. Özlərinin görkəmli kəşfləri, igidlikləri, yaradıcılıqları ilə xalqın ölməz oğul və qızları haqqında dəyərli məlumatların verilməsi şagirdlərdə milli iftixar hissini qüvvətləndirir.

İstinad etdiyimiz faktlar bir daha göstərir ki, ayrı-ayrı fənlərin tədrisi prosesində yalnız öyrətmək fəaliyyəti diqqəti cəlb etmir. Eyni zamanda çox zəruri, əhatəli tərbiyə işi aparılır.Təlimdən tərbiyə vasitəsi kimi istifadə edilir. Təlimin bu cür tərbiyəedici xarakteri müəllimə şagirdin hiss və duyğularına təsir etməyə, dünyagörüşünü genişləndirməyə, güclü xarakter yaratmağa, insani keyfiyyətlərini artırmağa imkan verir. Şagirdlərdə vətəndaşlıq borcu kimi yüksək hissin yaradılması və ya tərbiyəsi ilə əlaqədar olaraq fənlərin üzərinə nə kimi ciddi vəzifələr düşdüyü aydın olur. Əlbəttə, hər dərsdə, hər mövzunun öyrənilməsində

eyni bir tərbiyəvi cəhətdən bəhs etmək olmaz. Təbii ki, vətəndaşlıq borcu tərbiyəsinə o zaman yer verilir ki, keçilən mövzuda, mətndə bununla əlaqədar faktlar, imkanlar olsun. Digər tərəfdən tərbiyəvi iş o vaxt uğurlu olur ki, ayrı-ayrı fənlərin tədrisi prosesində tərbiyə və sənətlərə, vətəndaşlıq tərbiyəsinə müəllimlər tərəfindən eyni münasibət göstərilsin, eyni dərəcədə fikir verilsin. Təbii ki, bu halda görülən iş müsbət nəticəsin göstərəcəkdir. Əgər hər hansı fənn müəllimləri mövzunun öyrənilməsində tərbiyəvi cəhətə toxunacaq, digər müəllimlər isə buna əhəmiyyət verməyəcəklərsə, əlbəttə bu halda istənilən nəticəni əldə etmək olmaz.

Şəxsi nümunə timsalında şagirdlərdə vətəndaşlıq, vətənpərvərlik hisslərini aşılamaq daha məqsədəuyğundur. Şagirdlər təkcə öz valideynləri və müəllimləri timsalında deyil, eyni zamanda tanınmış şəxsiyyətlər, dünya şöhrətli alimlər, əmək və döyüş qəhrəmanları nümunələri ilə də vətənpərvərlik ruhunda tərbiyə olunurlar. Belə nümunələrdən şagirdlərə aydın olur ki, kim olursan ol - müəllim və ya həkim, yazıçı və ya rəssam, neftçi və ya çilingər, alim və ya sənətkar, mühəndis və ya aqronom fərq etməz. Əsas məsələ budur ki, yaxşı vətəndaş olsun. Yaxşı vətəndaş kimi yetişmiş insan yaxşı mütəxəssis kimidə öz sahəsinin qəhrəmanı ola bilər. Əsas odur ki, ürəkdə təpər, istək, təəssübkeşlik olsun. Məhz həmin anlarda hər kəs öz sahəsində vətənə xidmət etməklə vətəndaşlıq borcunu yerinə yetirir. Əsgərlər döyüş meydanında vuruşaraq torpaqların qorunmasında, fəhlələrin, mühəndislərin əməyi ölkənin iqtisadiyyatının güclənməsində, həkimlər vətən övladlarının sağlamlıqlarının qorunmasında alimlər, vətən elminin inkişafında fəal iştirak edir, vətənə məhəbbət və sevgilərini bidirirlər.

Təhsil prosesində müxtəlif fənlərin əlaqəli şəkildə tədrisi təfəkkürün inkişafına xidmət edir. Təfəkkürün inkişafında isə tərbiyənin də rolu mühümdür. Təhsil özündə tədris və tərbiyə komponentlərini birləşdirdiyindən müəllimin bu tərzdə şagirdlərlə işləməsi uğur gətirir. İslam təsəvvürlərinə görə də təlimlə tərbiyə arasında qırılmaz əlaqə mövcuddur. Biz də bu dinin övladları kimi təlim prosesində tərbiyəni də əsas götürməliyik. Əgər əsl şəxsiyyət yetişdirmək istəyiriksə onlarda bütün insani keyfiyyətləri, əsas olaraq vətənə sədaqətlə xidmət, vətənpərvərlik kimi xüsusiyyətləri inkişaf etdirməliyik. Biz şagirdləri gələcəyə hazırlayarkən böyük mütəfəkkir, filosof M.F.Axundzadənin dediyi kimi kamil

insan yetişdirməliyik: "Kamil insan: elmdən, bilikdən, dünya mədəniyyətindən xəbərdar olan, yüksək zövqlü, çalışqan, vətənpərvər bir şəxsiyyətə deyilir".

Vətən dedikdə biz yalnız torpaq, el-oba, yurd-yuva deyil, eyni zamanda kamil yetişmiş vətən övladlarını da hamılıqca nəzərdə tuturuq. Onun qorunması, inkişafı və gələcəyi üçün birgə çalışmalıyıq. Vətən bizə babalarımızdan qalan bir irsdir. Onun dünəninə, bu gününə, sabahına biz hamımız cavabdehik. Bu bizim bütövlüyümüzü, tamlığımızı göstərir.

Tariximizə nəzər saldıqda doğma yurdumuz Azərbaycanın igid oğul və qızlarının vətənpərvər olduğunu, işğalçılara qarşı mərdliklə mübarizə apardıqlarını görürük. Onlar doğma vətənimizi həmişə sevmiş, onun yolunda canlarını belə qurban verməkdən çəkinməmişlər. Odur ki, bu gün məktəb partası arxasında oturan gələcəyimiz olan gənclərimiz unutmamalıdırlar ki, onlar vətən uğrunda həlak olan-şəhidlər verən bir xalqın övladlarıdırlar. Bunları öyrənməklə şagirdlərdə vətənpərvərlik hissi qüvvətlənir, vətənə sevgi, ona bağlılıq artır. Eyni zamanda şagirdlərdə vətənpərvərlik tərbiyəsinin təbliği, həmçinin onların vətənpərvərlik ruhunda tərbiyə olunmaları üçün tariximizi bilmələri, uzun illərdən xalqımızın yaratdığı milli-mənəvi dəyərlərə yiyələnmələri və digər xalqlardan fərqli xüsusiyyətlərini öyrənmələri də əsas olub, problemdaxili məsələlərdən sayılar.

Vətənimiz olan Azərbaycanda baş verən dərin və köklü dəyişikliklərin konkret materiallar əsasında və anlaşıqlı şəkildə şagirdlərə çatdırılmalıdır. Demokratik Respublikamızın inkişafı haqqında məlumat verilərkən dəyişən dünyamızın dəyişməyən dəyəri-vətən eşqi, vətəndaşlıq borcu olduğunu bildirmək hər bir müəllimin borcudur. Xalqımızın bütün sahələrdə qazandığı uğurları, artan nüfuzunu qabartmaqla bunların məhz Ümummilli Liderimiz Heydər Əliyevin fəaliyyəti ilə bağlı olduğunu izah etmək isə bilavasitə bizim müəllim və vətəndaşlıq borcumuzdur.

Müsahibə apardığımız 18, 20, 46 saylı məktəblərdə bu işin lazımi səviyyədə aparıldığı aydınlaşır. Həmin məktəblərdə təlimin tərbiyəvi cəhəti kollektivdə bütün müəllimlər tərəfindən diqqət mərkəzində saxlanıldığı anlaşıldı. Belə ki, yuxarı sinif şagirdlərinin vətəndaşlıq borcu haqqında tam anlayışları vardır və onu dərindən dərk edirlər. Lakin bəzi məktəblərdə belə nəticələrin olmadığını da müşahidə etdik. Məlum oldu ki, bəzən müəllimlər şagirdlərə vətənpərvərlik

mövzusunda kifayət qədər biliklər aşılaya bilmirlər. Bunun da səbəbi fənn müəllimlərinin tədris prosesinə birtərəfli yanaşması, tədris olunan fənnin imkanları daxilində vətənə bağlılıq, vətəni sevmək, vətən qarşısında öz vətəndaşlıq borcunu dərk etməklə bağlı məlumatların çatdırılmamasıdır. Buna görə də şagirdlərinin vətəndaşlıq borcuna aid anlayışları olsa da lakin onları hərtərəfli dərk edə bilmirlər. O məktəbdə ki, bu vacib iş bütün fənn müəllimləri tərəfindən aparılır, orada hər bir şagird bu sahədə lazımi biliklərə malikdirlər. Öz vətəndaşlıq borclarını dərk edirlər. Buna görə də belə qənaətə gəlirik ki, vətən, vətənpərvərlik, vətəndaşlıq borcunun dərk edilməsi ilə bağlı mövzular tədris prosesində bütün fənn müəllimləri tərəfindən yerinə yetirilməlidir. Belə bir mövqe problem dairəsində vahid yanaşma prinsipi ilə daha uğurlu nəticələrə gəlməyə imkan yaradar.

## 2.2. Təlim prosesində və sinifdənxaric tədbirlərdə şagirdlərə vətəndaşlıq hissinin aşılanması

Vətənpərvərlik tərbiyəsi yalnız ayrı-ayrı fənlərin tədrisində, təlim prosesində deyil, həmçinin dərsdənkənar tədbirlərdə, uşaq və gənclər təşkilatlarının tədbirlərində, ən əsası isə ailədə həyata keçirilir. Təlim prosesində tərbiyə işi ilə bağlı elə bir plan tərtib olunmalıdır ki, orada təlimlə yanaşı, tərbiyəedici xüsusiyyətlər də nəzərə alınsın. Tərbiyəvi işin planlı şəkildə aparılması təlimi daha səmərəli, daha faydalı edir. Belə olduqda şagirdlərdə vətəndaşlıq borcu hissi tərbiyəsini qüvvətləndirmək, formalaşdırmaq imkanları genişlənir.

Məlumdur ki, hər bir məktəbdə belə tədbirlərin həyata keçirilməsində sinif rəhbərinin xüsusi rolu var. Sinif rəhbərinin tərbiyəvi iş planında dərs saatları ilə yanaşı dərsdənkənar tədbirlərə də uyğun vaxt ayrılır və görüləcək işin məzmunu öz əksini tapır. Unutmaq olmaz ki, bu tədbirlər əsl vətəndaş, şəxsiyyət yetişdirilməsinə xidmət etməlidir. Odur ki, aparılan tərbiyə işinin planında aşağıdakı məsələlərə də diqqət yetirilməsi zəruridir:

1. Ölkəmizin həyatında baş verən mühüm hadisələr və faktlar haqqında məlumatların verilməsi;
2. Məktəb qaydaları ilə bağlı söhbətlərin aparılması;
3. Şagirdlər arasında dostluq münasibətləri üzrə görülən işlər;
4. Ekskursiyaların təşkili;

5. Kollektivlə hər hansı bir ictimai işin təşkili və s.

Sinif rəhbərləri tərəfindən müxtəlif məzmunda aparılan işlərdə, həyata keçirilən tədbirlərdə şagirdlər yoldaşlarına, müəllimlərə, məktəb əşyalarına, kitablara münasibəti, rəftar qaydalarını öyrənirlər. Bunlara diqqət artırmaqla şagirdlərdə qədirbilmək, dəyər vermək, qiymətləndirməyi bacarmaq, dostluq kimi xüsusiyyətlər də formalaşır. Onlarda yoldaşlarına, müəllimlərinə, təhsil aldığı məktəbə məhəbbət hissi daha da artır. Bütün bunlar şagirdlərin mənəvi zənginliyində, vətəndaş kimi formalaşmasında mühüm rol oynayır.

Bir məsələni də unutmaq olmaz ki, vətəndaşlıq tərbiyəsi ardıcıl olaraq həm tədris, həm də müxtəlif xarakterli tədbirlərin aparılması prosesində həyata keçirilir. Vaxtaşırı təşkil edilən görüşlər, müzakirələr, müxtəlif fənlər üzrə təşkil olunan gecələr, dərnək məşğələləri və burada aparılan yaradıcılıq işləri, iclas və yığıncaqlar şagirdlərin tərbiyəsində mühüm rol oynayır. Belə tədbirlər kollektivlə birgə işləməyi bacarmaq, kollektiv, məktəb və cəmiyyət üçün faydalı olmaq, onun mənafeyini gözləmək kimi hisslər oyadır ki, bu da sonralar əsl vətəndaşlıq keyfiyyəti kimi üzə çıxır, təqdir olunur.

Xalq qəhrəmanları-əmək qəhrəmanları və digər istehsal sahələrində çalışan əməksevər insanlarla tanışlıq, onların vətəndaşlıq borcunu layiqincə yerinə yetirmələri şagirdlərdə gənc vətəndaş kimi fərəh hissi doğurur. Müxtəlif yaş dövrünü keçirən insanların əməksevərliyi, vətənə xidməti kimi keyfiyyətləri şagirdlərə də sirayət edir. Onlar dərk edirlər ki, layiqli vətəndaş olmaq üçün yalnız qəhrəman olmaq bir o qədər də vacib deyil. Sadə əməklə məşğul olduqda belə ən layiqli vətəndaş olmaq mümkündür. Geridə qalanlara, ehtiyacı olanlara kömək etmək, həqiqəti müdafiə etmək hər bir vətəndaşın borcudur. Ən çox vətəndaşlıq borcu sənə tapşırılmayan, ancaq görülməsi lazım olan işi gördükdə üzə çıxır. Məsələn, kimsəsiz bir yaşlı insana yardımcı olmaq, atılmış bir körpənin qayğıları ilə yaşamaq, imkanın varsa evi olmayana bir sığınacaq bağışlamaq və s. Bax bu əsl vətəndaşlıqdır. Təbii ki, şagirdlər bununla vətənə düzgün xidməti öyrənirlər.

Lakin unutmaq olmaz ki, şagirdlər fərdi xüsusiyyətlərinə, əqli davranış qaydalarına görə bir-birindən fərqlənirlər. Odur ki, müəllimlər bu fərqli cəhətləri nəzərə alaraq şagirdlərin ümumi əqli və əxlaqi inkişafını təmin etməlidirlər. Elə etmək lazımdır ki, hər şagird öz vətəndaşlıq borcunu necə yerinə

yetirməli olduğunu şüurlu surətdə dərk etsin. Nəzərə almaq lazımdır ki, yeniyetmə yaşı insanın əsəb sistemi fəaliyyətində, orqanizmin inkişafında, sürətli və əhəmiyyətli dəyişkənlik dövrüdür. Onlarda səbrsizlik, qaynarlıq, özünüsevərlik, yeni şəraitə düşdükdə utancaqlıq hissi özünü göstərir. Ona görə də hər hansı bir tədbir keçirdikdə yeniyetmələrlə çox ehtiyatlı olmaq və utancaqlıqdan, tələskənlikdən doğan bir işi bacarmamazlıq kimi qəbul etməmək və onlara qarşı çox diqqətli olmaq lazımdır.

Sinifdənxaric və məktəbdənkənar tədbirlər prosesində şagirdlərin ideya-siyasi, əmək və əxlaq tərbiyəsinə kompleks yanaşmağın həyata keçirilməsi əsas şərtlərdəndir. Müxtəlif fənlər üzrə elmi, ədəbi-bədii gecələrin, disputların aparılması, alimlərlə, yaradıcı insanlarla, xalq qəhrəmanları ilə görüşlərin keçirilməsi, muzeylərə baxışın təşkil edilməsi problem baxımından əhəmiyyətlidir. Sinifdənxaric tədbirlər müxtəlif formada və müxtəlif məzmunda həyata keçirilir. Buna görə də hər bir halda seçilən mövzuların vətənpərvərlik, vətəndaşlıq borcu ilə bağlı olmasına çalışmaq lazımdır.

Sinifdənxaric və məktəbdənkənar görülən işlərin qarşısında müəyyən məqsəd durur. Bu cür məqsədyönlü tədbirlər zamanı şagirdlər ətraf mühitlə fəal qarşılıqlı münasibətdə olur, şüurlu davranış nümunəsi göstərirlər. Onlarda özünü və öz fəaliyyətlərini dərk edərək vətənə məhəbbət, qəhrəmanlıq, mətanət, şərəf, müstəqillik kimi mənəvi dəyərlər formalaşır.

Sinifdənxaric tədbirlərin həyata keçirilməsi üçün lazım olan müvafiq iş formalarından istifadə edilməlidir. Həmin iş formalarının hər birinin şagirdlərin vətəndaşlıq tərbiyəsində mühüm rolu var. Belə ki, siniflərarası bilik yarışmaları keçirilməsi, disputlar və müzakirələr aparılması zamanı şagirdlər xeyli məlumatlar əldə edir və əlavə biliklərə yiyələnirlər. Elə etmək lazımdır ki, seçilən mövzular daha çox ölkənin alimlərini, onların ixtiralarını, yaradıcı insanlarını, müxtəlif sahələrdə çalışan tanınmış şəxsiyyətlərini əhatə etsin. Digər ölkələrin şəxsiyyətləri ilə müqayisəli şəkildə nəzərə çatdırılsın.

Məktəbin idarə, dövlət və özəl müəssisələrlə, ayrı-ayrı ictimaiyyət nümayəndələri ilə əlaqəsi nəticəsində ölkəmizin insanları, müxtəlif sahənin adlı-sanlı adamları və qəhrəmanları ilə keçirilən görüşlərdən şagirdlər onlar haqqında geniş məlumat əldə edirlər. Bununla onlar ata-babalarının keçdiyi yolu

öyrənə-öyrənə vətəndaşlıq dərsi alırlar. Müxtəlif sahələrin görkəmli şəxsiyyətləri ilə tanışlıq prosesində şagirdlərdə əməyə məhəbbət, vaxtın, günün qədrini bilmək kimi xüsusiyyətlər fomalaşır və onlar hər şeyə zəhmətsevərliklə nail olmağın mümkünlüyünü anlayırlar. Müharibə qəhrəmanlarından, igidlik, mərdlik, cəldlik və ailəyə, vətənə sevgini öyrənirlər.

Dərnək məşğələlərində referatların yazılması üçün vətənpərvərlik, vətəndaşlıq borcu, vətənin igid oğulları, vətən alimləri üzrə mövzuların seçilməsinə xüsusi diqqət yetirmək lazımdır. Məhz həmin mövzular əsasında şagirdlərin dünyəvi bilikləri zənginləşir, öz vətənləri ilə bağlı məlumatlar toplayır və onların əsasında referatlar yazırlar. Eyni zamanda ölkənin müxtəlif şəhər, rayon və kəndləri, yaxud yeraltı-yerüstü sərvətləri haqqında məlumat toplayır, referat hazırlayır, müzakirə edir və zəruri biliklərə yiyələnirlər. Bu da vətəni daha dərindən tanımağa və sevməyə, qorumağa şərait yaradır. Həmçinin şagirdlərdə axtarıcılıq, tədqiqatçılıq kimi keyfiyyətlər formalaşır. Şagirdlərə aydın olur ki, ətraf mühiti yaxından tanımadan mövcud olan təbiət məhsullarından faydalanmadan yaşamaq, inkişaf etmək mümkün deyil. Buna görə də onlar vətənin sərvətləri haqqında məlumatlı olmalı və bu sərvətlərdən bəhrələnərək istehsal məhsuluna çevirmək haqqında düşünməli, əməli fəaliyyətə istiqamətlənməlidirlər. Məhz bu yolla şagirdlər ölkə iqtisadiyyatının inkişafında fəal iştirakçı olmağa hazırlaşarlar. Yeraltı-yerüstü sərvətlərdən xammal kimi öz dövlətinə, öz xalqına xidmətdə istifadə edilməsini əsas məqsəd kimi qarşıya qoymaq haqqında fikirləşirlər. Bunun üçün müəllimlər şagirdlərlə birlikdə imkan daxilində yaşadıqları ərazidə yerləşən təbii sərvətlərlə tanış olmağa xüsusi diqqət yetirməlidirlər. İmkan daxilində həmin sərvətlər əldə edilən mədənlərə və ya istehsal sahələrinə tənəzzöhlər (ekskursiyalar) təşkil olunmalıdır.

Ayrı-ayrı fənlər üzrə aparılan gecələrin təşkili zamanı milli ruh, milli mənafe üstün tutulmalı və vətənpərvərlik tərbiyəsinə xüsusi yer verilməlidir. Belə tədbirlərin keçirilməsi prosesində xalqımızın maarif və mədəniyyəti haqqında məlumatların verilməsi, böyük şəxsiyyətlərin vətənə xidmət amalı, milli-mənəvi dəyərlərin qabardılması, insanların vətən qarşısındakı borcunun fədakarlıqla yerinə yetirilməsi, ölkənin xammal və istehsal məhsullarından istifadə olunması kimi dəyərli faktların nəzərə çatdırılması məqsədə uyğundur.

Belə gecələrin keçirilməsi zamanı mövzuya, məzmuna uyğun olaraq müxtəlif sahədə çalışan fədakar insanların qonaq kimi dəvət olunması müsbət nəticə verir. Şagirdlər dərin biliklərə yiyələnməyin əhəmiyyətini görür və hərtərəfli inkişaf etməyə meyilli olurlar, onlarda sosial keyfiyyətlər formalaşır və vətəndaşlıq ruhu yüksəlir.

Belə bir cəhəti də unutmaq olmaz ki, məktəbdənkənar tədbirlərdə şagirdlərə vətənsevərlik tərbiyəsi üçün də daha geniş imkanlar vardır.

Məktəbdənkənar tədbirlərin səmərəliliyinə nail olmaq üçün aşağıdakı cədvəldə görülən iş formalarına diqqət edək:

- Sənaye sahələrinə tənəzzöhlər (ekskursiyalar);
- Məktəblər arası bilik yarışmaları - disputlar və müzakirələr;
- Olimpiada yarışları;
- Muzeylərə baxış;
- Gəzintilərin təşkili
- İdman yarışları.

Muzeylərə tənəzzöhlərin təşkili zamanı şagirdlər Azərbaycan tarixini əyani təsviri lövhələr vasitəsilə mükəmməl öyrənirlər. Yaradıcı insanların, alimlərin həyatı, Azərbaycan xalqının qədim incəsənət nümunələri, əl işləri ilə də yaxından tanış olurlar. Onlarda vətənə sevgi, məhəbbət hissi artır, başqa xalqlarla öz xalqının keçmişini müqayisə etmək bacarığı yaranır. Vətənləri ilə qürur duyurlar. Müxtəlif məzmunda-kinofilmlərə, teatr tamaşalarına, muzeylərə baxmağa gedərkən şagirdlərdə kollektivlə birgə işləmək, qayğıkeşlik, sosiallaşma, estetik hisslər, sənətə dəyər vermək kimi müsbət keyfiyyətlər formalaşır.

Tarixi yerlərə, qədim abidələrə, Azərbaycanın müstəqilliyi uğrunda qurban verən şəhidlər xiyabanına tənəzzöhlərdə isə onlarda düşmənə nifrət və vətəndaşlıq hissi qüvvətlənir. Təəssübkeşlik, qayğıkeşlik, diqqətlilik kimi xüsusiyyətləri inkişaf edir, formalaşır.

İstehsal sahələrinə tənəzzöhlərin təşkil olunmasının da həm elmi, həm də tərbiyəvi əhəmiyyəti vardır. İstehsal sahələrinə tənəzzöh (ekskursiya) zamanı şagirdlər istehsal prosesinin əsas prinsipləri, zəruri məsələləri ilə tanış olurlar. Bununla da onlar həm respublikada istehsal sahələri haqqında mükəmməl məlumat əldə edir, həm də orada istehsal olunan məhsullarla yaxından

tanış olurlar. Şagirdlər gördükləri, eşitdikləri faktlar əsasında öz biliklərini zənginləşdirir, həyata baxışları dəyişir, əyani öyrəndiklərinin praktikada tətbiqini, iqtisadi cəhətdən sərfini anlayırlar. Yaxşı olar ki, belə tənəzzöhlərdən sonra şagirdlər fənn üzrə əldə etdikləri bilikləri və sənaye müəssisələrində gördüklərini ümumiləşdirərək müəyyən formada yazılar, referatlar hazırlayıb yoldaşları ilə disputlar, müzakirələr aparsınlar. Belə disputlar, müzakirələr şagirdlərdə faktları yazıya çevirmək, nitq qabiliyyətini inkişaf etdirmək, söz ehtiyyatını artırmaq kimi mənəvi keyfiyyətlər formalaşdırır.

Olimpiada və idman yarışlarının keçirilməsi də şagirdlərin elmi cəhətdən inkişafına, həmçinin sağlamlıqlarının möhkəmlənməsinə əhəmiyyətli təsir göstərir. Eyni zamanda dövlətin qayğısını görən, duyan şagirdlər əldə etdikləri nailiyyətlərlə qürur duyur və öz ölkələrinə xidmət etmək kimi mənəvi hisslərə malik olurlar.

Şagirdlərlə birgə təbiətin qoynunda tədbirlər keçirilməsi, hətta müvafiq məşğələlərin təşkili məqsədə uyğun sayılır. Bu prosesdə şagirdlər mənəvi cəhətdən də zənginləşirlər.

Azərbaycanda  multikultural dəyərlər də diqqəti cəlb edir. Bu gün dünyanın bir çox ölkələrindən iqtisadi və siyasi maraqlar, habelə təhsilin və digər sahələrin inkişafı çərçivəsində xarici ölkə vətəndaşları Azərbaycana axışır. Azərbaycan dünya iqtisadiyyatının inkişafında öz mövqeyi ilə yaxından iştirak edir. Vətənimizə gələn xarici ölkə vətəndaşlarının təhlükəsizliyi təmin edilir, onlara hüquq normaları çərçivəsində imkan və şərait yaradılır. Təsadüfi deyildir ki, ölkəmiz bir sıra beynəlxalq təşkilatların üzvüdür. Bir sıra beynəlxalq tədbirlər respublikamızda dövlət səviyyəsində qeyd olunur. Azərbaycan dövlətinin multikultural siyasəti də artıq dünya ölkələri tərəfindən tanınır və qiymətləndirilir. Ölkəmizdə hələ çox qədimdən məskunlaşmış tatlar, tatarlar, ermənilər, gürcülər, yəhudilər, malakanlar, ruslar, almanlar, kürdlər, ləzgilər, inqloylar və s. kimi xalqların adət-ənənələri qorunub saxlanılır. Onların öz dillərini inkişaf etdirmək üçün geniş imkanlar yaradılıb. Bu cəhətlə Azərbaycan multikultural siyasəti baxımından bir sıra inkişaf etmiş ölkələr üçün bariz nümunəyə çevrilib. Bu dəyərli məlumatlar da şagirdlərə ölkəmizi hər sahədə tanımaq imkanı yaradır.

## Nəticə

1. Aparılan təhlil və ümumiləşdirmələr göstərir ki, vətəndaşlıq tərbiyəsi müstəqil Azərbaycanımızda aparılan ümumtərbiyə işlərinin başlıca istiqaməti kimi çox böyük əhəmiyyət kəsb edir.

2. Vətəndaşlıq tərbiyəsinin daha uğurla həyata keçirilməsinin əsas zəmini problemə kompleks şəkildə yanaşılması və bu istiqamətdə işlərin müntəzəm, sistemlə həyata keçirilməsi ilə sıx bağlıdır.

3. Sinif dərs, habelə sinifdənxaric işlər, məktəbdənkənar tədbirlər prosesində həyatı-mövcud faktlarla şagirdlərin nəzərinə çatdırılmasıdır ki, erməni təcavüzünə məruz qalmış Vətən torpaqlarımız Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında bizim qəhrəman övladlarımızın sayəsində işğaldan azad olundu. Bu da vətəndaşlıq tərbiyəsinin nümunəsidir.

4. Aparılan müşahidələr, sorğular göstərir ki, vətəndaşlıq tərbiyəsi sahəsində görüləsi vacib olan işləri təkcə ümumi təhsil məktəbləri ilə məhdudlaşdırmaq problemə birtərəfli yanaşmaq təsiri bağışlayar. Buna görə də böyüməkdə olan nəslin vətəndaşlıq tərbiyəsi müxtəlif tipli tədris-tərbiyə müəssisələrinin əsas, başlıca vəzifəsi kimi dəyərləndirilməlidir.

5. Müşahidələr, müxtəlif yaş qruplarına malik olan məktəblilərlə aparılan sorğular göstərir ki, vətəndaşlıq tərbiyəsinin ahəngdarlığını təmin edən əsas şərtlərdən biri məktəbdənkənar tərbiyə müəssisələri və ümumi təhsil məktəblərinin əlbir fəaliyyət göstərməsi ilə bağlıdır.

6. Elmi-texniki tərəqqi əsrində yetişən nəslin vətəndaşlıq tərbiyəsinin uğurla həyata keçirilməsi müxtəlif tipli ailələrdə mövcud olan mənəvi iqlimdən, mənəvi mühitdən çox asılıdır. Buna görə də indiki dövrdə bu istiqamətdə aparılan işlərin məndəricəsinə xüsusi diqqət yetirilməli, məktəb, ailə və ictimaiyyətin əlbir fəaliyyəti nizama salınmalıdır.

7. Problemin son dərəcə vacibliyi nəzərə alınaraq mətbuat, radio və televiziyanın imkanlarından maksimum səmərə ilə istifadə olunması dövrün başlıca tələblərindən, vəzifələrindən biri kimi diqqət mərkəzində saxlanılmalıdır.

8. Gözəl təbiəti, flora və faunası ilə zəngin olan vətənimizi daha yaxından tanımaqla bağlı həyata keçirilən layihələr, görülən işlər müntəzəm, sistemlə həyata keçirilməli, tərbiyəvi təsir imkanları daha da genişləndirilməlidir.

## ŞAGİRDLƏRDƏ SAĞLAM HƏYAT TƏRZİNİN FORMALAŞDIRILMASI

### Giriş

Şagirdlərin sağlamlığının qorunması, möhkəmləndirilməsi və bərpa olunması yüksək sosial əhəmiyyət kəsb edir. Müasir məktəb şagirdləri gələcəkdə Azərbaycanın hərtərəfli inkişafını təmin edəcək şəxslərdir. Onların sağlamlığındakı geriliklər cəmiyyətin və dövlətin iqtisadi və sosial sferasında, həmçinin ölkəmizin bütövlüyünün qorunmasında böyük itkilərin yaranmasına səbəb ola bilər. Ölkəmizin ictimai-siyasi və iqtisadi həyatının inkişafı, həmçinin bütövlüyünün qorunması yeni nəslin milli-mənəvi, intellektual və fiziki sağlamlığı ilə bağlıdır.

Sağlam həyat tərzi hər bir şagirdin gələcək həyatına əhəmiyyətli dərəcədə təsir edə bilər. Zəif ekologiya, passiv həyat tərzi, qida məhsullarında olan kimyəvi qatqılar, hər növ məişət texnikası və mobil telefonların istifadəsi şagirdlərin sağlamlığına mənfi təsir göstərir. Bunun nəticəsində yalnız şagirdlər deyil, digər insanlar da müxtəlif xəstəliklərə düçar olurlar. Şagirdin sağlam həyat tərzi onun əhval-ruhiyyəsinin, zehni və fiziki sağlamlığının təməlini qoyur. Ona görə də bu işi məktəbdən formalaşdırmaq zəruridir. Çünki onların bu cür həyata sonradan alışdırılmasında müəyyən çətinliklər özünü büruzə verir.

Bu gün insanın sağlamlığı, sağlam həyat tərzi bütün dünyanın ən ümdə məsələlərindən biri kimi ön planda durur (karonavirusla mübarizə buna sübutdur). Belə bir dövrdə şagirdlər və gənclər içərisində sağlam həyat tərzi prioritetinin gücləndirilməsi daha çox əhəmiyyət daşıyır. Təlim prosesinin onlayn keçirilməsi ilə yanaşı, şagirdlərin fiziki, intellektual, mənəvi və psixi inkişafını tam təmin etmək bu problemə xüsusi yanaşmalar tələb edir. Milli dəyərlər və sağlam həyat tərzi vərdişləri arasında əlaqənin olması, onun qorunması və nəsildən-nəslə ötürülməsi bu prosesin elmi cəhətdən əsaslandırılmasını tələb edən  ən mühüm problemlərdən biridir.

Bununla əlaqədar olaraq sağlam həyat tərzi haqqında təsəvvürlərin aydınlaşdırılması və bu istiqamətdə şagirdlərin fəaliyyətə cəlb edilməsi müasir məktəbin başlıca vəzifəsidir.

Ulu Öndər Heydər Əliyev öz çıxışlarında bu məsələ üzərində tez-tez dayanır və deyirdi: "Hər bir millətin, hər bir ölkənin gələcəyi sağlam gənclərdir. Müstəqil Azərbaycanda təlim-tərbiyə alan hər bir gənc gələcəkdə Azərbaycanın mənafeyi üçün çalışmağı qarşısına məqsəd kimi qoymalıdır", "Məktəb illərini boş keçirməyin, öz fiziki sağlamlığınıza fikir verin. Onun üçün də gərək siz sağlam həyat tərzində yaşayasınız...." (Əliyev H.Ə.) Vətən müharibəsi dövründə ölkəmizin işgal olunmuş ərazilərindən azad olunması yolunda gənclərimizin fədakarcasına vuruşması bu fikirlərin nə qədər qiymətli olduğunu bir daha nümayiş etdirdi.

Ümumdünya Səhiyyə Təşkilatı aprel ayının 7-ni Ümumdünya Sağlamlıq Günü kimi qeyd edir. 1948-ci ildən təməli qoyulmuş bu gündə narahatlıq doğuran sahələr daim səhiyyə işçilərinin diqqət mərkəzində olur.

Bizim tədqiqat işində sağlam həyat tərzi haqqında təsəvvürlər şagirdlərin mövqeyinin formalaşmasının göstəricisidir. Bu mövqe gələcəkdə sağlam həyat və sağlamlığı möhkəmləndirmək üçün onların məqsədyönlü fəaliyyətini müəyyənləşdirir.

Elmi-pedaqoji ədəbiyyatda alim və tədqiqatçılar sağlam həyat tərzi problemlərinə dair dəyərli fikirlər söyləmişlər. Pedaqoqlar, tibb işçiləri, psixoloqlar, sosioloqlar və valeoloqlar gənclərin sağlam həyat tərzi məsələlərinə və onun təşkilinə aid elmi-pedaqoji və metodik ədəbiyyat nəşr etdirmişlər. Azərbaycanda bu mövzu hərtərəfli tədqiq olunmasa da, ümumi aspektdə böyüməkdə olan nəsillərin sağlamlığı, bu işdə bədən tərbiyəsinin rolu və sağlam həyat tərzinin formalaşdırılması problemlər Y.R.Talıbov, N.M.Kazımov, B.A.Əhmədov, H.M.Əhmədov, A.N.Abbasov Ə.X.Paşayev, F.A.Rüstəmov, F.A.Sadıqov, A.Ə.Əliyev, M.S.Qasımov, H.A.Həmidov, H.H.Qurbanov və digər alimlərin əsərlərində öz əksini tapmışdır.

Sağlam həyat tərzi heç də ayrıca bir fərdin şəxsi işi və mənəvi sərvəti, amalı deyil, bu, bütövlükdə cəmiyyətin sağlamlığı və ali məqsədlərindən biri kimi əhəmiyyət kəsb edir. Ona görə də sağlam həyat tərzinin tərbiyəsi fərdi səvviyədən yüksələrək cəmiyyət və dövlət səviyyələrində olan bütün sosial təbəqələrdə zəruri həyatı tələbat kimi meydana çıxır.

Problemin bəzi aspektləri elmi-nəzəri cəhətdən işlənilmiş, psixoloji, pedaqoji və valeoloji istiqamətdə bir sıra tədqiqatlar aparılmışdır.

Xarici ölkələrin təcrübəsi psixoloji-sosial təlim proqramlarının sosial əhəmiyyətini və nəticəyönümlü olmasını əyani surətdə nümayiş etdirir.

**Tədqiqatın məqsədi** şagirdlərdə sağlam həyat tərzinin tərbiyəsi və formalaşmasının fiziki, psixoloji və pedaqoji əsaslarının və sosial aspektlərinin təhlili, Respublikamızın ictimai fikrində və təhsil sistemində bu sahədə toplanmış baxışların və təcrübənin ümumiləşdirilməsi və sistemləşdirilməsi, şagirdlərin bu məsələlərə münasibətinin öyrənilməsi, nəzəri və praktik əhəmiyyət kəsb edən elmi müddəaların, tövsiyə və təkliflərin irəli sürülməsi olmuşdur.

## 1. Şagirdlərdə sağlam həyat tərzi formalaşdırılmasının mahiyyəti və məzmunu

Son zamanlar cəmiyyətimizdə sosial-mədəni inkişaf sürətlənmiş, yeni informasiya mənbələri və texnologiyaları yaranmış, zəruri siyasi-ideoloji və iqtisadi nailiyyətlər və münasibətlər meydana gəlmişdir. Bunlar cəmiyyətimizdə yeni milli-mənəvi dəyərlərin, normaların, qanunların yaranmasına səbəb olmuşdur. Bu kimi dəyərlər təlim-tərbiyə və təhsilin də inkişafında, mahiyyət və məzmununda əsaslı dəyişikliklər əmələ gətirmişdir. İlk növbədə məktəblərimizdə valideyn-şagird-müəllim qarşılıqlı münasibətləri və bu zəmində sosial-psixoloji mühit də dəyişməyə başlamışdır. Odur ki, sağlam həyat tərzi anlamı cəmiyyətimizdə gündəmə çıxan zəruri məsələlərdən biridir.

“Həyat tərzi” anlayışı insanların davranış mədəniyyəti, həyat fəaliyyəti və keçirdiyi həyat səviyyəsi ilə müəyyən olunur. Şagirdlərin düzgün həyat tərzi keçirməsində birinci növbədə ailənin, məktəbin və cəmiyyətin rolu böyükdür. Bu, həmçinin ölkənin sosial-iqtisadi şəraitindən də asılıdır. Eyni zamanda şagirdin həyat tərzi bir çox hallarda konkret fəaliyyət motivləri, psixikasının xüsusuyyətləri, sağlamlığının vəziyyəti, orqanizmin funksional imkanlarından birbaşa asılıdır. Sağlam həyat mövqeyi fərdi xarakter daşıyır. Şagirdin sağlam həyat tərzinin formalaşması üçün onun gündəlik həyatına yeni, sağlamlığı üçün xeyirli vərdişlərin, davranışların daxil edilməsi zəruridir. Sağlamlığa xələl gətirən adətləri aradan qaldırmaq, tədricən onlardan əl çəkmək və elə biliklər əldə etməyə nail olmaq olar ki, onların əsasında savadlı, təhlükəsiz və sağlamlığın xeyrinə olan həyat tərzinə keçid olsun.

Hər bir insanın sağlam həyat tərzi keçirməsi bütövlükdə cəmiyyətin sağlam həyat tərzi  deməkdir. Ölkənin iqtisadi, sosial və siyasi durumundan asılı olmayaraq həm sovet, həm də müstəqillik dövründə şagirdlərin sağlam həyat tərzi daim diqqət mərkəzində olmuş və bu gün də *koronovirus pandemiyasının* bütün dünyanı öz caynağına aldığı bir zamanda dövlətin nəzarəti altındadır. Çünki o, ölkənin gələcəyini, millətin genofondunu, cəmiyyətin elmi və iqtisadi potensialını müəyyənləşdirir.

Sağlamlıq qədim dövrlərdən müasir elm və texnikanın inkişaf etdiyi dövrədək insanları daim düşündürən aktual problem olmuşdur. Şagirdlərin sağlam həyat tərzi onun dünya ilə münasibətlərinin tam obrazı kimi dərk edilir. Bu gün bütün dünyanı qapalı həyat keçirməyə vadar edən *karonovirus pandemiyası* buna əyani sübutdur. Obraz hər bir şagirdin əqli, fiziki, psixi və sosial sahədə adekvat reaksiyasını müəyyənləşdirir.

Müasir insan yalnız sağlam olmaqla kifayətlənə  bilməsə də, onun həyatı üçün əhəmiyyət daşıyan məqsədlərinə çatması üçün əsas şərtdir. Ümumdünya Səhiyyə Təşkilatının 1986-cı ildə sağlamlığa verdiyi qiymətdə bu fikir çox ətraflı əks olunmuşdur:  "Sağlamlıq insanın son məqsədi  olmasa da, normal gündəlik fəaliyyəti, pozitiv həyat konsepsiysı, insanın sosial, psixi və fiziki imkanlarını  birləşdirən bir mənbədir" (ÜST).

ÜST-nın məlumatına görə insanın sağlamlığı 100% qəbul edilərsə, onun sağlamlığının vəziyyəti 10% səhiyyədən, 20%  irsi faktorlardan, 20% ekologiyadan və qalan 50%-i isə onun  özündən, keçirdiyi həyat tərzindən asılıdır. Deməli, insanın sağlamlığının qorunması və möhkəmləndirilməsi səhiyyədən, təbabətin inkişaf səviyyəsinin artırılmasından o qədər yox, nəinki öz şəxsi sağlamlığı üçün məsuliyyəti öz boynuna alaraq sağlam həyat tərzi keçirməsindən daha çox asılıdır.

Sağlam həyat tərzi insanın həyat fəaliyyətinin məişət, mədəniyyət və istehsalat tərəflərini düzgün təşkil etməklə, öz yaradıcılıq potensillarını həyata keçirməsidir. Sağlam həyat tərzi insanın xarici mühitə uyğunlaşması mexanizmlərini təyin edərək, orqanizmin bütün orqan və sistemlərinin ahəngdar və qarşılıqlı münasibəti nəticəsində meydana çıxan bir vəziyyətdir.

Müasir dövrdə ictimai həyatın gərginləşməsi, yoluxucu xəstəliklər, xüsusən də indiki dövrümüzdə *karonavirus pandemiyasının* bütün dünyada

müxtəlif sahələrə vurduğu zərbələr, texniki, ekoloji, psixi, siyasi və hərbi xarakterli risk faktorlarının artması insanların sağlamlıq vəziyyətində problemlər yaradır və sağlam həyat tərzini necə qurmaq problemini bir daha aktual edir. Yalnız sağlam insan yaşadığı cəmiyyətdə öz fiziki, psixi, sosial, iqtisadi və mənəvi potensialını realizə etməklə yüsək əmək qabiliyyətinə malik olur və uzun, aktiv, mənalı ömür sürür.

Sağlamlığın əsas istiqamətləri aşağıdakılardır:

**Fiziki sağlamlıq** insanın təbii əhval – ruhiyyəsi olub, orqanizmin bütün orqan və sistemlərinin normal fəaliyyəti nəticəsində meydana çıxan bir vəziyyətidir. Bu məqsədlə gün rejiminə riayət etmək vacib şərtlərdəndir.

Şagirdlərin gün rejiminə aşağıdakılar daxildir:

Bədənin möhkəmləndirilməsi.

Şəxsi gigiyena qaydalarına əməl ediməsi.

Düzgün qidalanma.

Fiziki aktivlik.

Müsbət emosiyalar.

**Psixi sağlamlıq** mərkəzi sinir sisteminin fəaliyyətindən asılı olub, düşünmənin keyfiyyəti, diqqət və yaddaşin inkişafı, emosional stabillik və iradi keyfiyyətlərin inkişafı ilə müəyyən edilir.

Fiziki və psixi cəhətdən sağlam olan insan cəmiyyətdə qəbul edilmiş əxlaq və mənəviyyat normalarınını qəbul etmirsə, mənəvi cəhətdən cılız və şikəst adam kimi qəbul edilir. Odur ki, mənəvi sağlamlıq insanın sağlamlığının ən yüksək səviyyəsi hesab olunur.

**İnsanın mənəvi** sağlamlığının əlamətləri onun daxili mədəniyyəti, ətrafındakı insanlara münasibəti, birgə yaşamaq qabiliyyəti, müxtəlif hadisələri düzgün, vicdanla qiymətləndirmək bacarığı, öz xalqınının və dünya mədəniyyət dəyərləri və mənəvi sərvətləri ilə tanışlığı, normal həyat tərzinə zidd olan adət və vərdişləri qəbul etməməsidir.

Yuxarıda deyilənlərdən məlum olur ki, sağlam həyat tərzi insana onun planlarını həyata keçirməyə və həyatdakı çətinliklərini aradan qaldırmğa komək edən bir vəziyyəti və sağlamlaşdırıcı tədbirlər kompleksidir.

Hələ orta əsrlərdə yaşamış böyük mütəfəkkir, həkim Əbu Əli İbn Sina özündən sonrakı nəsillərə tibb mövzusunda bir çox kitab miras qoymuşdur.

Onun “Tibb Qanunu” əsəri müqəddəs kitablardan sonra ikinci ən çox nəşr edilən dərslik olmuş və 600 il ərzində həkimlərə xidmət etmişdir. İbn Sinanın 1000 il əvvəl yazılmış sağlam həyat tərzinə dair tövsiyələri XXI əsrdə də aktualdır. Həkim Əbu Əli İbn Sinanın sağlamlıq haqqında söylədiyi bəzi fikirlər bütün dövrlər üçün əhəmiyyətlidir. Bunlar aşağıdakılardır:

1. Fiziki aktivlik haqqında:

Boşluq və süstlük nəinki cəhalətə səbəb olur, eyni zamanda xəstəlik törədir.

Hərəkətli və qoçaq insan düz qaməti ilə fəxr edir, oturaq insan isə bir çox qüsurlara düçar olur.

Hərəkət bəzi dərmanları əvəz edə bilər, amma dünyanın heç bir dərmanı hərəkəti əvəz edə bilməz.

Ümidsiz xəstə yoxdur, ümidsiz həkimlər var.

Nizamlı şəkildə idmanla məşğul olan bir insanın hər hansı xəstəliyin aradan qaldırılmasına yönəlmiş müalicəyə ehtiyacı yoxdur.

Məşqi atanlar adətən tez halsızlaşır, çünki hərəkətdən imtina nəticəsində orqanların gücü zəifləyir.

İdmanla məşğul olsanız, eyni zamanda normal rejimin digər reseptlərinə əməl etsəniz, dərmanlardan istifadə etməyə ehtiyac qalmayacaq.

2. Sağlam qidalanma haqqında:

Əgər mədəni ağır yeməklərlə yükləmisinizsə, səhəri gün ac qalmalısınız. Ən pisi müxtəlif qidaları birləşdirmək və çox gec yeməkdir.

Çox su içmək, çox yeməkdən daha yaxşıdır.

Çox ləzzətli yeməyin gətirdiyi zərər odur ki, onu çox yeyirsən.

Yüngül yemək sağlamlığı daha çox qoruyur, ancaq daha az güc və qüvvət verir, ağır qida - əksinə. Yeməyin miqdarı elə olmalıdır ki, mədəni yükləməsin, qarın şişməsin, qələfələr kənara sıçramasın. Yeməkdən sonra ürəkbulanma, yuxusuzluq, süstlük olmamalıdır.

3. Sağlam yuxu haqqında:

İnsanların yuxu rejiminə diqqət yetirməsi vacibdir. Vaxtında yuxuya getmək lazımdır, amma həddən artıq yuxu ziyan gətirir. Eyni zamanda beyni və bütün orqanları yuxusuzluqdan qorumaq lazımdır. Yuxu bütün təbii gücü qüvvətləndirir. Həddindən artıq yuxu isə bunun əksini edir. Bu zehni gücün

tükənməsinə, beynin kütləşməsinə və xəstəliklərin inkişafına səbəb olur. Yuxu ilə gümrahlıq arasında uzun müddət gərnəşmək ən pisidir.

4. Sağlam mənzil haqqında:

Yaşayış yeri seçən hər kəs yaşadığı coğrafiyanı yaxşı bilməlidir. Bu yerin küləkli olub-olmadığı, rütubətli və ya çuxurda yerləşdiyini bilməlisiniz. Evin pəncərə və qapıları şərq və şimala baxmalıdır, həmçinin günəş şüaları hər yerə çatmalıdır.

Bildiyimiz kimi insanın sağlamlığına bioloji və sosial amillər təsir edir. Onlardan ən əsası da hərəkət və işdir. Müşahidələr, həmçinin statistika göstərir ki, bütün uzun ömür yaşayan insanlar həmişə zəhmətkeş və əməksevər olmuşlar.

Məlumdur ki, insanların  sağlamlığı müxtəlif amillərdən - irsi, sosial, iqtisadi, ekoloji və səhiyyənin vəziyyətindən asılıdır. XXI  əsrdə insanlar yüksək nailiyyətlər əldə etsələr də, səhiyyə sistemi texniki avadanlıqlarla, təkmilləşmiş diaqnostika və müalicə üsulları ilə təmin edilsə də, əhali arasında xəstəlik və olüm hallarının artması insanları narahat etməyə bilməz. Əhali arasında, hətta uşaqlar arasında diabet, piylənmə, talassemiya, ürək və qan - damar, hərəkət – dayaq, endokrin və allergik mənşəli xəstəliklərinin artması  alim və mütəxəsisləri narahat edir. Xüsusən də bu gün karonovirus pandemiyasının tüğyan etdiyi bir dövrdə bütün bəşəriyyətin diqqəti insanların sağlamlıq vəziyyətindədir. Bu fakt əhalinin sağlamlığının qorunması üçün daha effektli bir üsulun axtarılmasına əsas verir.

Beləliklə, araşdırmalardan aydın olur ki, ictimaiyyətimizin, onun elmi, mədəni və mənəvi potensialını daşıyan elitar nəslimizin yetişməkdə olan gənc nəsildə sağlam həyat tərzinin formalaşdırılması yolunda mütəşəkkil və mütəmadi  olaraq iş görməsi, sağlam həyat tərzinin biososial, psixoloji və pedaqoji əsaslarının öyrənilməsi, müvafiq tərbiyə üsullarının işlənib hazırlanması sahəsində nəzəri və əməli əhəmiyyət kəsb edən yeni tədqiqatların aparılmasına diqqətinin artırılması zəruridir. Milli ideologiyamızda, kulturoloji və maarifçilik ənənələrimizdə, pedaqoji nəzəriyyəmizdə və praktikamızda, ailə və məktəb həyatında bu problemlə əlaqədar olan işlərin öz həllini tapması dövrümüzün ən ümdə vəzifəsidir. Bütün bunları nəzərə alaraq hesab edirik ki, şagirdlərin həyat tərzinin diqqətlə öyrənilməsi cəmiyyətimizin bu günü və

gələcəyi üçün çox aktual problemdir. Məktəb dövründə şagirdlərin sağlam həyat tərzini formalaşdıran mühüm amillərin, təsirlərin, vasitələrin və yolların araşdırılması məsələsi qarşımızda duran əsas məsələdir.

Problemin proqram və dərsliklərdə qoyuluşu. Ə.Məmmədova və A.Z.Bağmanlı 5-ci sinif müəllimləri üçün tərtib etdikləri "Həyat bilğisi" metodik vəsaitində şagirdlərin həyati əhəmiyyət kəsb edən bilik, bacarıq və vərdişlər qazanması üçün onları ən zəruri praktik işlərin aparılmasına istiqamətləndirir, milli və bəşəri dəyərlərə yiyələnmələrinə, cəmiyyət, təbiət, dinimiz və mənəviyyatımız haqqında biliklərin verilməsi ilə bərabər, sağlam həyat tərzinə dair bir sıra dəyərli məlumatların da verilməsini nəzərdə tutur. Vəsaitdə "Sağlam həyat tərzi", "Sağlamlığımız təhlükədədir", "Yol nişanları nə üçündür?" və "Yol hərəkəti qaydalarına riayət edək" mövzularında aparılacaq dərslərin planlaşdırılması, forma və üsulları göstərilmişdir.

Eyni müəlliflərin 5-ci sinif şagirdləri üçün yazdıqları "Həyat bilgisi" dərsliyində cəmiyyət, təbiət, dinimiz və mənəviyyatımız haqqında məlumatların verilməsi ilə bərabər, "Ətraf mühit və sağlamlıq" bölməsində sağlam həyat tərzi keçirmək üçün gün rejiminin, idmanın əhəmiyyətindən, mənəvi gözəlliyin müqəddəsliyindən, insanların rastlaşdığı fövqəladə hadisələrdən və yol hərəkəti qaydalrından bəhs edilir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05.07.2002–ci il tarixli 730 saylı əmri ilə təsdiq edilmiş "Ümumtəhsil məktəblərinin VI – XI sinifləri üçün Biologiya Proqramı"nda IX sinif şagirdləri üçün "İnsan və onun sağlamlığı" mövzusunda bölmə ayrılmışdır. Burada insan orqanizminin quruluşu və funksiyası haqqında biliklərin verilməsi, laboratoriya işlərinin, ümumiləşdirici dərslərin keçirilməsi və IX sinif şagirdlərinin bilik və bacarıqlarına verilən tələblər müəyyənləşdirilmişdir. Bölməyə həftədə 2 saat olmaqla 68 saat ayrılmışdır. Lakin proqramda şagirdlərin sağlam həyat tərzi yaşaması məsələləri nəzərdə tutulmamışdır.

S.Ş.Tağıyeva, Z.Y.Yunusov, S.Y. Abdullayeva və A.S.Kazımova "Biologiya üzrə ümumtəhsil məktəblərinin VI–XI sinifləri üçün çoxvariantlı proqram materiallarının tematik planlaşdırılması" adlı tədris planı bütün bölmələr üzrə mövzular və saatlar müəyyənləşdirilmiş, IX sinifdə "İnsan və onun sağlamlığı" bölməsində insan orqanizmində baş verən fiziololi proseslər üzrə mövzular

verilmiş və həftədə minimum 2, maksimum 6 saat olmaqla illik 192 saat ayrılmışdır. Qeyd edək ki, ümumiləşdirici dərs kimi sağlamlığın qorunması və möhkəmləndirilməsinin əsaslarına 5 saat verilmişdir. Sözsüz ki, bu vaxt ərzində yeniyetmələrin sağlam həyat fəaliyyətinin bütün aspektlərini əhatə etmək reallığa uyğun deyil.

Ə.N.Fərəcov, R.A. Səlimov, R.İ. Quliyevin 9-cu sinif üçün "Biologiya. İnsan" dərsliyində sonuncu fəsil "İnsan və mühit" adlanır. Burada əməyin fizioloji əsasları və növləri, qeyri–adi şəraitdə insanın fəaliyyəti, sağlamlığı və onu qorumağın vasitələri məsələləri izah olunur.

Adlarını çəkdiyimiz metodik ədəbiyyatın təhlili göstərir ki, şagirdlər üçün bu məlumatların daha ətraflı və sistemli şəkildə verilməsi məqsədəuygundur. Lakin sağlam həyat tərzinin bütün istiqamətlərinə aid biliklərin epizodik verilməsi kifayət deyil. Yuxarı sinif şagirdlərinin həm yaş dövrü, həm qarşılaşdığı problemlər, həm də bəzi "maraqları" daha çox narahatlıq doğurduğu üçün onların sağlam həyat tərzinə cəlb edilməsi bu işin dərindən araşdırılmasını və məktəb təcrübəsinin öyrənilməsini, onların özlərinin meyil və maraqlarının nəzərə alınmasını, valideynlərin maarifləndirilməsini tələb edir.

Mövcud metodik ədəbiyyatın təhlili göstərir ki, sağlam həyat tərzinə dair müəyyən qədər kitab, dərs vəsaiti, məqalələr vardır. Lakin bu gün vəziyyət daha gərgindir. Dediyimiz çətinliklərlə yanaşı, *koronovirus pandemiyası* dövründə özünü və ətrafdakıları qorumaq, sağlam həyat tərzi haqqında danışmaq daha da çətinləşmişdir. Şagirdləri sağlam həyat fəaliyyətinə cəlb etmək üçün sistemli işin aparılmasına ehtiyac vardır. Bunu aşağıdakı kimi həyata keçirmək məqsədəuyğun hesab edilə bilər:

– düzgün gün rejiminin müəyyənləşdirilməsi;

– rasional qidalanma;

– fiziki tərbiyə və idmanın təbliği;

– asudə vaxtın səmərəli keçməsi (ailədə, məktəbdə, cəmiyyətdə davranış qaydaları və ünsiyyət haqqında söhbətlərin təşkili, özünüinkişafla bağlı materialların, kitabların seçilməsi, məişət, mədəniyyət, iqtisadiyyat və siyasi sahələrdə biliklərin verilməsi, kompüter və televiziya aludəçiliyindən uzaq olmaq);

– məktəb rəhbərliyinin və müəllimlərin ailə ilə sıx əlaqəsi;

– onlayn dərslərə nəzarət və nəticələrin qiymətəndirirlməsi;

– zərərli vərdişlərdən uzaq olmaq;
– sağlam həyat tərzinin formalaşdırılmasında islam dəyərlərindən istifadə;
– mənəvi zənginliklə fiziki sağlamlığın vəhdətinə nail olmaq;
– hər zamanVətənin müdafiəsinə hazır olmaq.

## 2. Şagirdlərin saglam həyat tərzinin formalaşmasına təsir edən sosial amillər

Müasir dövdə yetişməkdə olan nəslin təlim və tərbiyə edilməsi məsələsinə xüsusi diqqət və qayğı tələb olunması fikri tez-tez önəmli bir sosial sifariş, tezis, hətta siyasi şüur forması kimi səsləndirilir. Bununla qayğılarının, təlim-tərbiyə bazasının, fiziki və psixi sağlamlığının, əmək və istirahət məşğuliyyətinin təmin olunması sahəsində, ailə, məktəb və ictimaiyyət xeyli iş görsə də, onların bir sıra şəxsi və ümumi problemləri hər bir cəmiyyətdə olduğu kimi, Azərbaycanda da qalmaqdadır. Bu, tamamilə təbiidir, insanların günü-güzəranı, həyat tərzi, qayğıları, cəmiyyətin özü daim dəyişilir, yeniləşir, bəzən də həlli çətin olan ağır problemlərlə qarşılaşır. Otuz il işğal altında qalmış torpaqlarımız və Vətən müharibəsi zamanı erməni vandalları ilə üzləşdiyimiz insanlıqdankənar hadisələr şagirdlərimizdə vətənpərvərlik ruhunu yüksəltmək, sağlamlığının qorunması istiqamətində daim yorulmaz işlər görməyi zəruri edir. Odur ki, bütün bu proseslər cəmiyyət üzvlərinin, o cümlədən şagirdlərimizin həyatından yan keçə bilməz. Məktəb dövründə şagirdlərin rastlaşdığı həyat, keçirdiyi hisslər böyüklərə nisbətən daha gec anlaşılır, problemli və çətin təsəvvür edilir. Bu müharibədə neçə-neçə azyaşlı uşaqlar düşmən silahlarından məhv oldular, dinc əhalinin evləri raketlərlə xarabalıqlara çevrildi, şəhidlər verdik, neçə-neçə yaralılarımız var. Sözsüz ki, bütün bunlar şagirdlərin də həyatında dərin iz qoyur. Həyat təcrübəsi az olan, davranışları həyat sınaqlarından az keçmiş şagirdlər bəzən nə edəcəyini anlamır və bunun üçün də onların psixologi və sosial köməyə ehtiyacı olur. Digər tərəfdən dünyanı caynağına almış pandemiya ünsiyyəti məhdudlaşdırır, şagirdlərin ictimai yerlərdə olmasını qadağan edir. Məlumdur ki, məktəb yaşlı uşaqlar istədikləri kimi hərəkət etməyi, öz problemlərini müstəqil həll etməyi sevirlər.

Araşdırmalar göstərir ki, məktəb yaşlı uşaqların orqanizmi üçün təbii və sosial mühitlərə düzgün uyğunlaşmanın da çox böyük həyati və sosial əhəmiyyəti vardır. İnsanların adaptasiya qabiliyyətləri müxtəlifdir, yaş və cinsi fərqlər,

sosial vəziyyət, fiziki və psixi sağlamlıq, fərdi baxış və mənəvi meyarlar mühitə uyğunlaşma proseslərinə ciddi təsir göstərir. Bu proseslər orqanizmdə həyati vacib fizioloji funksiyaların gedişini, orqanizmin məqsədyönlü faydalı davranma qabiliyyətini tənzimləyir. Sosial mühitə normal uyğunlaşma davranış hərəkətlərində yaranan neqativ halları, tərəddüd və ya ruhdan düşmə ehtimallarını minimallaşdıran və ya kənarlaşdıran başlıca fizioloji və psixofizioloji mexanizmlərdən biri kimi çox əhəmiyyətlidir.
İnsanda mühitə uyğunlaşmanın bəlkə də ən zəruri və mürəkkəb anları məktəb dövründə başlanır. Uşaq orqanizmi bu dövrə yaxınlaşdıqca bir çox bioloji və sosial çətinliklərlə qarşılaşır. O, müstəqil fərd kimi özünü göstərməyə cəhd edir.

O.Həsənli “Dəyişən dünyada psixi sağlamlıq aktual məsələdir” adlı məqaləsində sosial sağlamlıq haqqında yazır: “Bütün dünyada şəxsiyyətin sosial sağlamlığı daha çox onun gerçəkliyi adekvat qavraması, ətraf aləmə marağı, fiziki və ictimai mühitə uyğunlaşması, istehlak mədəniyyəti, təmənnasızlığı, davranışda demokratizmi və s. ilə ifadə olunur”.

Böyüməkdə olan uşaqlar yaşlılara nisbətən cəmiyyət, millət, dövlət və onun institutları kimi reallıqlarla az əlaqəli olmasına baxmayaraq, onlarla maraqlanırlar. Hər bir uşaq müəyyən yaş dövründən sonra şüuraltı hərəkətlər və özünün daxili inamı ilə dravanış seçimi edir. O, eyni zamanda əhatə olunduğu həyatdan, cəmiyyətdən təcrid olunmuş halda, özünə qapanaraq qala bilməz. Biz bunu 2020-ci ilin 14 iyul tarixində gənclərin kütləvi aksiyasında müşahidə etdik. General Polad Həşimovun erməni faşistləri tərəfindən qətlindən qəzəblənən gənclər kütləvi şəkildə torpaqların işğaldan azad olunmasına hazır olduqlarını bütün dünyaya nümayiş etdirdilər.

Məlumdur ki, hər bir insanda erkən yaşlardan etibarən onun yaşadığı və mənsub olduğu ictimai sistemdə ictimai mühitdən, ailə və məktəb tərbiyəsindən, savaddan asılı olaraq davranış qaydaları, adət-ənənələr, mənəvi dəyərlər və əxlaq tərbiyəsi haqqında təsəvvürlər və həyati məqsədlər formalaşır. Lakin bəzən eyni ailədə və eyni şəraitdə yaşayan insanlar sosial mühitdə müxtəlif cür hərəkətlərə, əməl və davranışlara yol verirlər. Bu, şagirdləri əhatə edən sosial mühitin nə dərəcədə təsirli olduğunu bir daha göstərir. Müasir dövrdə internet resurslarının təsiri, valideynlərin karyera qurması ilə məşgul olaraq övladlarına

kifayət qədər diqqət göstərməməsi, xarici ölkə ənənələrinin təsiri bəzi hallarda xoşagəlməz hadisələrə səbəb olur.

Araşdırdığımız fizioloji, psixoloji, sosioloji və pedaqoji ədəbiyyatda belə bir obyektiv reallığı xüsusi olaraq diqqətə çəkirlər ki, hər kəs bu dünyaya bir qayda olaraq təbiətən fərqli biogenetik, antropometrik və biopsixi təməllərlə gəlir. Böyüməkdə olan insanda təkrarsız təbii (bioloji, fizioloji, anatomik) fərdi göstəricilər, etnik və nəsillik əlamətləri, hissiyyat, refleksiya, davranış və adaptasiya imkanları onun həyat tərzi və yaşama imkanlarının bu təməllər üzərində qurulduğunu göstərir. Onu da xüsusi olaraq qeyd etmək yerinə düşər ki, yetişməkdə olan hər kəs təbiətindən asılı olaraq öz qavrayış, təxəyyül, təfəkkür və yaddaş qabiliyyətlərinə görə də fərqli şəkildə böyüyüb inkişaf edir.

Məktəb dövründə şagirdlər həm də estetik zövqlərə, dərsə, oyunlara, internetə, müxtəlif sahədə yaradıcılığa, idman növlərinə, fiziki hazırlığa, musiqiyə, bədii ədəbiyyata, incəsənətin digər növlərinə maraq göstərir və özünəməxsus tərzdə həssaslıqla yanaşırlar. Bu dövrdə onlarda vətənpərvərlik, dostluq və sevgi hissləri, mənlik və müstəqil düşüncə tərzi daha dərindən müşahidə olunur.

Şagirdlərin hərəkətləri, bir-biri ilə münasibətləri, dünya görüşləri, idealları, onları əhatə edən təbii və ictimai mühit, onlara bu və ya digər formada təsir və təqdim edilən mövcud həyat reallıqlarından irəli gəlir. Onların həyat tərzi tarixi şəraitin (Vətən müharibəsi şəraitində), xalq və millətin adət-ənənələrinin, valideynlərin, məktəbin, küçənin, mövcud ictimai-iqtisadi vəziyyətin və bütövlükdə qlobal bəşəri problemlərin təsir və tələbləri səviyyəsində qurulur. Yaşlılar arasında olduğu kimi, şagirdlər arasında da davranışlarına, ağıllarına, istedadına, sağlamlıqlarına, təbii və mənəvi zövqlərinə, vərdiş və inamlarına, fiziki qabiliyyətlərinə görə fərqli cəhətlər vardır.

Şagirdlərin həyat tərzinin normal formalaşdırılmasına görə ailədən başlayaraq məktəbəqədər təhsil müəssisəsinə və məktəbə qədər, məktəbdən cəmiyyətə və onun idarə olunmasına qədər bütün səviyyələrdə tərbiyə işində nümunə misalları daha xeyirli olur.

Valideynlər öz övladlarına adətən öz həyat təcrübəsi, ailə ənənələri, daxili aləmi, mənəviyyatı, savadı, ictimai mövqeyi, dövrün zövq və tələblərinə olan münasibətlərinə görə təsir edir, öyüd-nəsihət verir, yol göstərir, onların hər bir addımına, hansı niyyət və əməllərə, məqsədlərə xidmət etdiklərinə açıq-aşkar

öz münasibətlərini bildirirlər. Deməli, şagirdlərin həyat tərzi, xüsusən də sağlam həyat tərzinin elementləri ailədən, burada qurulan həyat tərzindən başlanır. Burada valideynlərin böyük rolu vardır. Eyni zamanda şagirdlərin sağlam və ya qeyri-sağlam həyat tərzi onun öz fərdi, şəxsi keyfiyyətləri, həyat mövqeyi, istək və arzuları ilə də sıx bağlıdır, necə dəyərlər, hər kəsin sağlam həyat tərzi bir növ onun öz əlindədir.

Talıbova T.A. "Deviant davranışlı yeniyetmə şəxsiyyətinin pedaqoji xarakteristikası" məqaləsində yeniyetmələrin davranışında deviantlıq əlamətlərini müşahidə edərək yazır ki, bu davranış spesifik sosial hadisədir. ...Qanunun pozulma halları və deviant davranış yeniyetməlik dövründə tez-tez rast gəlinən hallardır. Bəzən onlar qısamüddətli xarakter daşıyır, bəzən isə cinayət karyerasının başlanğıcı olur və ya deviant davranış xronik xarakter alır. Bunları bir-birindən necə fərqləndirmək olar? Yeniyetmənin davranışını və sosial mənşəyini analiz edərək, həmçinin onun şəxsiyyətini öyrənərək bunu həll etmək mümkündür. Bir qrup yeniyetmənin xüsusiyyətlərini müqayisə edərkən, onlarda deviant davranışa meyil edən aşağıdakı dəyişiliklər aşkar edildi:

1. Ayrı –ayrı parametrlərə görə şəxsiyyətin inkişafı:

-keçmiş, indiki və gələcək zamana qarşı münasibət;

-indiki zamanın danılması (hər şey indikindən fərqli olacaq);

2. Valideynlərlə bağlı olan faktorlar:

-valideynlərin öz neqativ uşaqlıq təcrübələri;

-valideynin alkoqoldan istifadə etməsi;

-valideynlərdə ruhi xəstəliklər;

-uşağa münasibətdə fiziki və emosional təcavüz və s.

3. Uşaqların sağlamlığındakı amillər:

-uşaqların inkişafında gerilik;

-psixoloji xəstəliklər, uşağın əlilliyi;

-uşağın davranışının pozulması;

4. Situasiyalı amillər:

-faciəli hadisələr (yanğınlar, yaxın adamı itirmə);

-maddi çətinlik şəraitində yaşayış;

-millətlərarası münaqişələr və s.

Elmə məlumdur ki, insanda heç bir irsi qüvvə və ya müvafiq şərait olmasa, o özünü həyatda göstərə bilməz. Müvafiq mühit, ilk növbədə xarici mühit hər bir kəs üçün bir çox həyat üstünlüklər təşkil edir. Xarici mühitdən tam təcrid olunmuş, özünə qapanmış adamın yaşayışını təsəvvür etmək çətindir.

Beləliklə, məktəbin qarşısında duran vəzifə yalnız sağlam mühit üçün şərait yaratmaq deyil, eyni zamanda milli və dünyəvi ənənələrlə yeniləşmiş pedaqoji prosesin keyfiyyətini yüksəltməklə yanaşı, çətinliklərin aradan qaldırılmaq, dözümlü olmaq, özünü və ətrafındakıları qorumaq, sağlamlığına dəyərli münasibət formalaşdırmaqdan ibarətdir.

## 3. Şagirdlərdə asosial hərəkətlərə meyilliyin aradan qaldırılması yolları

Asosial (İngilis dilindən asocial - cəmiyyətə qarşı yönəlmiş) davranış cəmiyyətdə qəbul edilmiş norma və qaydaların pozulmasıdır. Ad həmişə mənanı düzgün əks etdirmir. Məsələn, içmək və siqaret çəkmək yetkinlərdə kifayət qədər yayılmış bir davranışdır. Bu cür vərdişləri olan uşaqların davranışı antisosial olaraq təsnif edilir. Lakin bu cür şagirdin yaş xüsusiyyətlərinə uyğun olmayan bir davranışı asosial adlandırmaq daha doğru olar. Asosial və antisosial davranış arasında fərqlər var. Antisosial davranışı olan bir insan cəmiyyətin normaları ilə aktiv qarşıdurmaya girir. Asosial insanlar isə normaları açıq şəkildə pozmurlar, heç kimə ziyan vurmurlar, amma özlərini qəsdən cəmiyyətin normal həyatından kənarlaşdırırlar, parazitlər, evsizlər, alkoqol düşgünləri, narkomanlar olurlar.

Məktəblilər arasında asosial davranışlı şagirdlər sosial mühitin mənfi təsirinin, təhsil aldığı müəssisədəki çatışmazlıqların, eləcə də mənəviyyatsızlığın və ailənin aşağı mədəni səviyyəsinin təbii nəticəsidir.

Uşaqların davranışında antisosial davranışlar bunlardır: kobudluq, tənbəllik, böyüklərə hörmətsizlik, oğurluq, xuliqanlıq, avaralıq, siqaret çəkmək, alkoqol və narkotikdən istifadə. ...Asosial davranış özünü geniş şəkildə göstərir - davranış qaydalarının yüngül, kiçik pozuntularından tutmuş, dərin mənəvi baxımsızlığın səbəb olduğu qanunsuz hərəkətlərə qədər.

Asosial olmaq uşağın özü üçün də çətindi. Bu, onun hamı kimi olmaq, sevilmək, arzuolunan, şəfqətli olmaq üçün yerinə yetirilməmiş ehtiyacıdır. Bu

uşaqların evdə və sinifdə rədd edilməsi onları digər insanlardan daha da uzaqlaşdırır. Ənənəvi olaraq, əsas meyar kimi uşağı "çətin" kimi təsnif etmək, əksər hallarda, müəllimlərin zəifliyidir. Bu, təhsilə başladığı andan məktəb kollektivində özünü təcrid olunmuş hiss edən uşaq üçün çətin vəziyyətin nəticəsidir. Buradakı əsas amil, uşağın özünün daxili təcrübəsi, müəllimə, ətrafdakı sinif yoldaşlarına, özünə olan şəxsi münasibətidir. Beləliklə, müəllim üçün hər şeydən əvvəl şagirdin daxili aləmi, emosional vəziyyəti aydın olmalıdır. Onların təcrübələri - çox vaxt pedaqoji fəaliyyət sahəsindən kənarda qalır. Beləliklə, uşağın rəsmi çətin, əslində isə naməlum kateqoriyasına yazılması onun həyatı boyu uğursuzluğuna səbəb olur.

Uşaqların asosial və antisosial davranışını aradan qaldırarkən aşağıdakıların tətbiq edilməsi məqsədəuyğundur:

1. Şəxsiyyətyönümlü təhsilin prinsiplərini, strategiyalarını və taktikalarını tətbiq edilməsi. Məlumdur ki, bir şagirdə uğurla tətbiq olunan metodlar digərinə gözlənilən effekti verə bilməz. Buna görə ümumi təhsil fəaliyyətləri fərdi bir yanaşma ilə tamamlanmamalıdır. Fərdi yanaşma, yalnız mövcud vəziyyətlə deyil, həm də təhsil tədbirlərinin seçilməsini və həyata keçirilməsini tələb edir.

2. Bütün sinfi təhsilə cəlb etmək. Bir komanda vasitəsi ilə və bir komanda üçün təhsil tamamilə bərpa olunmalıdır. Fərdi yanaşma komandada və komandanın köməyi ilə həyata keçirilir və bu mənada ümumi təhsil prosesini ahəngdar şəkildə tamamlayır.

3. Hərəkətlərin motivasiyaedici səbəblərini bilmək və nəzərə almaq. Davranış motivlərindəki fərqlər, şagirdin müəyyən bir səhv davranışı ilə əlaqəli həyata keçirilməli olan cəza üsullarının fərqlərini də müəyyənləşdirir. Məsələn, məktəbli dostunu vurur. Bu hərəkətin səbəbini tapmadan düzgün reaksiya vermək mümkün deyil. Əlbəttə ki, belə bir hərəkət qınama tələb edir. Ancaq, məsələn, şagirdin bir söz üçün sinif yoldaşını vurmasına, sinif yoldaşının təhqirinə reaksiya verməsinə və ya nəhayət, bir qız sinif yoldaşını qorumağa çalışması ilə bağlı olaraq müxtəlif yollar axtarılmalıdır.

4. Müəllimin asosial şagirdlərlə işininin sinir sisteminin növündən asılı olaraq qurması. Tələbkarlıq, təmkinlilik, sakitlik, lakin qətiyyətlilik tələb olunur. Zəif sinir sisteminin nümayəndəsinin - qorxaq, utancaq, özünə inamsız

bir şagirdin dəstəyə, xüsusi nəzakətə, xeyirxahlığa ehtiyacı vardır. Bu məktəblilərlə işləyərkən güclü və sərt təsir tədbirlərinə, sərt cəzalara, qəzəbli qiymətləndirmələrə müraciət etmək olmaz.

Bu cür uşaqlarla aparılan işlər onların şəxsiyyətindəki bu qədər ciddi dəyişikliklərin səbəblərinin nə ilə əlaqədar olduğunu anlamaq üçün fərdi psixoloji xüsusiyyətlərini hərtərəfli öyrənməklə başlanmalıdır. Müəllim bu səbəbləri öyrənmirsə, o zaman bununla mübarizə apara bilməyəcək. Tədqiqatlar göstərir ki, bir uşaqda mənfi davranışların inkişafının ümumi səbəbi onun tərbiyəsində əvvəlki mərhələlərdə buraxılmış səhvlərdir. İlk kəskin reaksiyalar, çətin təcrübələr itmiş olsa da, uşağın özünü daha yaxşı aparırmış kimi görünməsini, sanki sakitləşməsini onun nəzərinə çatdırmalıdır. Mənfi davranışının bir zamanlar tərbiyədəki səhvlərin səbəb olduğu kəskin təcrübələrin nəticəsi olduğunu anlatmalıdır.

Antisosial davranışın isə əsas səbəbi ailədəki bədbəxtliklərdir: məişət və sosial çətinlik, səliqəsizlik; valideyn-övlad münasibətləri, bəzən ailənin tamamilə dağılması ilə nəticələnən münasibətlər və s. Belə ailələrdə uşaqlar valideynlərinin pis bir nümunəsini görürlər, ailə nəzarəti olmadan inkişaf edir, özbaşınalıq edir və asanlıqla pis təsir altına düşürlər. Bir sözlə, müəllim və psixoloqların dediyi kimi, "çətin" uşaqlar ən çox "çətin" valideynlərin övladlarıdır.

Tədqiqatlar göstərir ki, antisosial davranışı olan məktəblilər dərsə gecikmələrə və müəllimlərlə qarşıdurmalara əsaslanaraq məktəbə qarşı davamlı bir mənfi münasibət nümayiş etdirirlər. Oxumaqla maraqlanmırlar, bilik ehtiyacları inkişaf etmir. Sinifdə bu cür şagirdlər özlərini tənha hiss edirlər, evdə və məktəbdə yad insanlardırlar. Yalnız ictimai münasibətləri, ehtiyacları və maraqları olan bir şəraitdə onlar özlərini rahat hiss edirlər.

Asosial uşaqlarla əlaqədar olaraq, artıq davranış tərbiyəsindən deyil, yenidən tərbiyədən danışmağa ehtiyac vardır.

Müəllim mümkün qədər valideynlərə təsir göstərməyə, onları ailə daxilində münasibətlərini bərpa etməyə təşviq etməyə, övladına daha çox diqqət göstərməyə çalışmalıdır. Həm də çətin bir şagirdin ətraf mühitinə təsir göstərməli, şəraitini sağlamlaşdırmağa çalışmalı, ictimai faydalı işlərə cəlb etməli və bu nəticə verməzsə, pis təsirlərdən qorumalıdır. Pedaqoji baxımsızlığı onunla birlikdə hərəkət edən sağlam bir uşaq kollektivinə güvənərək aradan qaldırmağa

çalışmaq daha yaxşı nəticə verir. Çətin bir uşağın həyatının və fəaliyyətinin düzgün təşkili onun fəal təhsil almasına faydalı təsir göstərməlidir.

Şagrdlərin özünüinkişaf prosesində öz çatışmazlıqları ilə müstəqil mübarizə aparmağa səy göstərməyincə müəllimlərin bütün səyləri səmərəli nəticə verməyəcəkdir. Çətin bir uşaq  müəllim üşün passiv “obyekt” olmamalıdır. Əlbəttə ki, asan müvəffəqiyyətə arxalanmaq olmaz - bunun üçün vaxt, əzm, çox hazırlıq işi, müəllimlərin fədakar əməyi lazımdır.

Pedaqoji baxımdan bu cür şagirdlərlə işləməkdə  hər şeydən əvvəl, böyüklərlə uşaqlar arasında səmimi, xeyirxah münasibətin olması əsas şərtlərdən biridir. İkincisi isə müəllimin hər bir şagirdin müsbət keyfiyyətlərini müəyyənləşdirə bilməsi və onu yenidən tərbiyə etmə işində müvafiq yollardan istifadə etməsidir. Bu keyfiyyətləri nəzərə almadan, nikbinlik olmadan müəllim yenidəntərbiyə işində uğur qazana bilməz. Üçüncüsü, müəllim çətin uşaqların mənəvi gücünə inam nümayiş etdirməlidir.

Beləliklə, çətin şagirdləri mənfi bir obraz kimi kollektivdə tanıtmaq düzgün deyil. Çətin şagird xüsusi bir münasibətə, inama, diqqətə ehtiyacı olan bir insandır və ona qarşı yüksək tələbkarlıqla yanaşmaq və hər zaman nöqsanlarını üzünə vurmaq yolverilməzdir. Çətin davranışın aradan qaldırılması uşağın həyatının bütün sahələrini müxtəlif yollarla təsir etməyin bir çox yollarını əhatə edir və sözsüz ki, onda sağlam həyat tərzini də formalaşdırır.

## 4. Şagirdlərdə saglam həyat tərzinin formalaşmasında idmanın və incəsənət nümunələrinin rolu

Müasir dünyada fiziki mədəniyyətin insanın və cəmiyyətin təbiətinin sağlamlaşdırılmasında bir amil kimi rolunun xeyli artdığı danılmazdır. Bu gün məktəblilərin sağlamlığı dövlət siyasətinin prioritet istiqamətidir. Bu məsələ bu gün aktualdır və hər şeydən üstündür. Məktəbə əlavə funksiyalar həvalə edilmişdir: təhsil və tərbiyə ilə yanaşı, şagirdlərin sağlamlıq vəziyyətinə diqqət yetirmək.

Ümumiyyətlə, sağlam həyat tərzi, xüsusilə bədən tərbiyəsi və idman, güclü bir dövlətin və sağlam bir cəmiyyətin inkişafına töhfə verən bir sosial fenomen, birləşdirici güc və milli birlik anlamına şərait yaradır. Bədən tərbiyəsi və idmanın inkişafına qayğı dövlətin sosial siyasətinin ən vacib tərkib hissəsidir ki, insanların

qabiliyyətlərini müəyyənləşdirmək, maraq və ehtiyaclarını ödəmək, insan amilini aktivləşdirmək üçün geniş bir sahə açan humanist idealların, dəyərlərin və normaların həyata keçirilməsini təmin edir. Şagirdlərin həm bədən tərbiyəsi dərslərində, həm də idman tədbirlərində iştirakı zamanı kollektiv fəaliyyət şərtləri və onlara hazırlıq kollektivizm kimi vacib bir əxlaqi keyfiyyətin formalaşmasına və inkişafına kömək edir. Bədən tərbiyəsindəki müvəffəqiyyət yalnız sistematik məşqlər, bu fəaliyyət növlərinin ictimai faydalı hədəfləri və vəzifələri ilə əlaqəli bədən tərbiyəsi və idmana qarşı sabit bir aktiv müsbət münasibət ilə öz üzərində davamlı işləməklə əldə edilə bilər. Buna motivlər, hədəflər və maraqların yüksək səviyyədə formalaşması ilə nail olunur. Motiv, bir insanın idman, təhsil və əmək fəaliyyətini təşviq edən, bunun üçün yerinə yetirilməsidir və məqsəd onun üçün çalışdığıdır. Fiziki məşqlərdə və idmandakı motivlərin və maraqların məzmunu çox müxtəlifdir. Əvvəlcə başa çatmış əzələ işindən məmnuniyyət, məşq və ya müsabiqə zamanı digər şagirdlərlə ünsiyyət qurmaqdan zövq almaq, çətinliklərin öhdəsindən gəlmək üçün gücünü sınamaq istəyi və s. Bu müddətdə bədən tərbiyəsi prosesində bir çox dəyərli psixoloji şəxsiyyət xüsusiyyətləri tədricən formalaşır və möhkəmlənir. İnsan iradəsinin inkişafına xüsusi təsir göstərir. Bu, hər hansı bir fiziki məşqin həmişə çətinliklərin aradan qaldırılması ilə əlaqədardır: bir tullanmada hündürlüyü ələ keçirmək, bir məsafəyə qaçmaq və zaman standartını yerinə yetirmək və s. Belə bir vəziyyət iradi səylər qabiliyyətinin inkişafına kömək edir. Könüllü hərəkətlərdə qarşıya çıxan çətinliklər müxtəlif ola bilər. Məsələn, böyük fiziki stres və yorğunluğun aradan qaldırılması çətinliyi, gözlənilməz bir vəziyyətin çətinliyi və s. Onları aşmaq iradənin iradi keyfiyyətlər adlanan fərqli keyfiyyət xüsusiyyətlərini tələb edir. Bəzi hallarda, üçüncü təşəbbüsdə və ya qətiyyətdə cəsarət, bəzilərində əzm göstərmək lazımdır. Şagirdlərin məqsədlilik kimi iradəli bir keyfiyyəti özündə uğurla inkişaf etdirmək üçün hər dəfə, hər hansı bir işə başlayaraq, hansı vəzifənin həll olunacağını aydın şəkildə başa düşməsi və bunun necə ediləcəyini aydın şəkildə təsəvvür etməsi zəruridir. Hərəkətlərin məqsədyönlülüyü şagirdlərin davranış və hərəkətlərini təşkil edir, onları mənalı edir. Təşəbbüs işin fəal, müstəqil icrasında və qarşıda duran vəzifənin həllinə, yeni nailiyyətlərə can atmaqda, yaradıcılıq işinə məsuliyyətli münasibətdə ifadə olunur. İnsanın iradi keyfiyyəti kimi intizam yalnız tələb olunan hərəkətləri yerinə yetirməkdən deyil, həm də

Konkret bir şəxsiyyət kimi hər bir müəllimdə ünsiyyətin təşkili priyom və metodları nisbətən sabit şəkildə toplanır. Kommunikativ məsələni həll etməyə yönəldilmiş bu cür davamlı keyfiyyətlər fərdi ünsiyyət üslubu adlanır.

Sosial psixologiyada idarəetmə baxımından beş cür rəhbərlik üslubu qeyd oluduğu məlumdur: avtokratik, avtoritar, demokratik, laqeyd (etinasız, liberal) və qeri-sabit (ardıcıl olmayan) rəhbərlik üslubu. Uyğunluq əsasında pedaqoji ünsiyyətin də eyni üslublarını qeyd etmək mümkündür.

Avtokratik və avtoritar rəhbərlik üslubuna malik olan müəllimlər pedaqoji ünsiyyətin təşkilində demək olar ki, eyni mövqe tuturlar. Bu zaman şagirdlərə yalnız obyekt kimi yanaşırlır, ünsiyyətin bərabər hüquqlu tərəf müqabili kimi qəbul edilmir. Belə müəllimlər həmişə hökmüran olmağa çalışırlar. Onlarla ünsiyyət zamanı şagirdlər təşəbbüskarlığı itirirlər. Bu cür ünsiyyət üslubuna malik olan müəllimlər ünsiyyət zamanı şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almır, hamı ilə eyni ünsiyyət saxlamağa can atırlar. Onlar şagirdlərin fərdi xüsusiyyətlərini göstərsələr də, tamamilə qeyri-real model qurur, həmin fərqi olduqca şişirdir, real hesab edirlər. Şagird başqalarına nisbətən bir qədər fəal

olduqda, müəllimin gözündə o iğtişaşçı kimi, bir qədər passiv olduqda isə - tənbəl, avara kimi görünür, neqativ ustanovka, başqa sözlə şagirdə qarşı qeyrişüuru münasibət xarakterik haldır. Bu cür müəllimlər ünsiyyətdə seçici, qiymətləndirmədə isə subyektiv olurlar.

Müəllimlərin rəhbərlik üslubunun əlamətlərini ayırd etmək üçün aşağıdakı əlamətləri səciyyəvi hesaab edilir:

1. Müəllimi xoşlamayan şagirdlərə açıq-aşkar mənfi reaksiya göstərmək.
2. Şagirdləri qeydsiz-şərtsiz tapşırıqları yerinə yetirməyə məcbur etmək.
3. Şagirdlərin davranışını təhlil edəndə neqativ motivləri şişirtmək.
4. Şagirdlərin hər hansı bir nöqsanını xüsusi vurğu ilə qeyd etmək.

Avtokratik rəhbərlik üslubu üçün xas olan başlıca xüsusiyyətlər avtoritar rəhbərlik üslubu üçün də səciyyəvidir. Lakin avtokratik müəllimdən fərqli olaraq avtoritar müəllim şagirdlərlə nisbətən həlim rəftar edir, nəticə etibarilə qərarı özü qəbul etsə də, şagirdlərin rəyini öyrənir, hər hansı bir məsələni onlarla birlikdə müzakirə edir.

Psixoloji tədqiqatlar göstərir ki, bu tipli rəhbərlik üslubları şagirdlərdə idrak motivasiyasına, tədris materialının mənimsənilməsinin sürətinə və aktiv kommunikativ mövqeyin formalaşmasına son dərəcə mənfi təsir göstərir.

### 1.3.2. Müəllim – şagird münasibətlərində liberal (etinasız) yanaşma

Laqeyd, etinasız və yaxud liberal rəhbərlik üslubuna malik olan müəllimlərin şagirdlərlə ünsiyyəti də kortəbii xarakter daşıyır. Ünsiyyətin xarakteri şagirdlərdən asılı olduğundan gedişat onlar tərəfindən diktə olunur, belə ki, müəllim şagirdlərin işinə qarışmamağa çalışır, özünün qətiyyətsizliyi ilə fərqlənir, əsasən neytrallığa can atır. Müəllimin məqsədi dağınıq xarakter daşıdığından qarşıdakı konkret məqsədi həyata keçirməyə can atmır, nəticədə isə şagirdlər müəllimlə ünsiyyət zamanı öz tələbatlarını lazımi şəkildə ödəyə biləcəklərinə şübhə ilə yanaşırlar. Liberal müəllim öz vəzifələrini formal surətdə yerinə yetirir, lakin sinif kollektivinin həyatı ilə maraqlanmır, sinifdə özünü laqeyd qonaq kimi aparır. Demokratik müəllim isəsinifdə şagirdlərin "böyük yoldaşıdır" və onun bütün xüsusiyyətlərini bu iki anlamda – "böyük" və "yoldaş" anlamında asanlıqla açmaq

mümkündür. O, yoldaş kimi özünə də, şagirdlərə də "uşaqların gözüylə" baxır. Onlarla məhz yoldaş kimi dialoqa girir, mübahisə etməyi xoşlayır, düşünür ki, oxumaq və öyrənmək üçün onlar, valideynləri mənə "yalvarmalı", xahiş etməlidirlər. Öz etinasızlıqlarına haqq qazandırırlar ki, şagirdə "lazım olan" fənn üçün o xüsusi hazırlaşır, valideyn əlavə haqq ödəyirsə, mənim əməyim qiymətləndirilmədiyi təqdirdə bunun qeydinə də özüm qalmalıyam.

Böyük yoldaş kimi isə şagirdlərin daxili aləminə xüsusi diqqət yetirən etinasız müəllim onların rəyini öyrənir, ideyalarından bəhrələnir, müstəqilliyini və tənqidi ağlını hər vasitə ilə rəğbətləndirir, hörmət hissini tələbkarlıqla üzvi surətdə uzlaşdırır. Şagirdlər də onun müəllim kimi hüquq və vəzifələrilə hesablaşırlar, ona nəinki hörmət edirlər, həm də "sevirlər"

### 1.3.3. Müəllim – şagird münasibətlərində qeyri - müəyyən yanaşma

Qeyri-müəyyən, ardıcıl və sabit olmayan rəhbərlik üslubuna malik olan müəllimlərin ünsiyyət üslubunu, necə, hansı üslubla hərəkət edəcəyini müəyyənləşdirməkdə çətinlik çəkdiklərindən şagirdlərin ünsiyyətə girmə cəhdiminimuma enir.

Bəzən şagirdlər, müəllimin əhval ruhiyyəsinə uyğun olaraq öz təlim ehtiyaclarını, maraqlarını, sual və "qaranlıqlarını" vaxtında və yerində müəllim ilə bölüşməkdən ehtiyat edirlər. Həssas şagird, xüsusilə də kiçikyaşlı məktəbli psixologiyası müəllimin reaksiyasını öyrənməkdənsə, danlaq eşitməkdənsə susmağı üstün tutur:

- "...iclasda qiymətlərinizin müzakirəsi getdi, direktordan eşitdiklərim mənə bir həftə bəsdir, bəhanələriniz mənə maraqlı deyil!"
- "Mənim üçün fərqi yoxdur, bu, sizi və valideyninizi narahat etməli idi, məni deyil!" və s.

Bəzən də müəllim həssas qrupdan olan şagirdinə cari problemi ilə əlaqədar yüksək anlayışla yanaşır, problemə çevik münasibət bildirir, yoldaşlarını da eyni həssaslığa təşviq edir. Bu, şagirdin təlim ehtiyacları yaxud digər sosial qayğıları ilə bağlı ola bilir. Şagirdlər növbəti dəfə bənzər situasiyalarda müşahidə etdikləri fərqli münasibətləri müqayisə edərək, müəllimlə ünsiyyətə daha ehtiyatlı meyl edirlər, daha həssas şagirdlər isə buna cəhd belə göstərmirlər.

Rəhbərlik üslubunun hər biri müəllimlə şagirdlər arasındakı qarşılıqlı münasibətlərə özünəməxsus şəkildə təsir göstərdiyi üçün şagird kollektivinin düzgün idarə olunması da bu cür qarşılıqlı münasibətlərin səmərəliliyindən asılı olaraq dəyişir.

### 1.3.4. Müəllim–şagird münasibətlərində demokratik yanaşma

Demokratik üsluba əsasən şagird subyekt kimi qavranılır və qərar qəbul edərkən müəllim kollektiv və kollektivin liderinin təklifini nəzərə alır. Məktəblilərin müstəqilliyinəhörmət hissilə şagirdlərə daima xahiş, məsləhətlə yanaşır, müsbət emosional əlaqəyə üstünlük verir. Belə ünsiyyət üslubuna malik olan müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini və şəxsi təcrübələrini, fəallıq və tələbatlarını nəzərə almağa çalışırlar. Neqativ ustanovka olmadan və ya onu təzahür etdirmədən qiymətləndirmədə obyektiv, təmas yaratmaqda isə təşəbbüskardırlar. Bu halda müəllimlərlə şagirdlər arasında olduqca səmərəli təmas yaranır, şagirdlər bu cür müəllimlərlə ünsiyyətə daima can atır, onlardan hər cür köməkliyi qəbul edir və gözləyirlər.

Müəllimlə şagirdlərin qarşılıqlı ünsiyyətindəki səmərəlilik, kollektivin idarə olunması, onun üzvlərinin tərbiyə işinin təşkilindəki səmərəlilik ilə düz mütənasibdir. Müəllimlər şagirdlərlə qarşılıqlı ünsiyyətin səmərəliliyinə görə fərqlənirlər, seçilirlər:

– şagirdlərlə fasiləsiz, mütəmadi ünsiyyətdə olan müəllimlər yalnız dərsdə, məktəbdə, təlimlə bağlı məsələləri həll edərkən şagirdlərlə ünsiyyətdə olmaqla kifayətlənmirlər, ünsiyyət şagird həyatının bütün sahələrini əhatə edir. Ünsiyyətdə öz səmərəliliyi, müəllimin şagirdlərə inamı ilə fərqlənən müəllim demokratik rəhbərlik üslubuna malik olurlar.

– şagirdlərə hörmətlə yanaşan və şagirdlərdə onlara qarşı dərin inam və etimad bəsləyən müəllimlər digər qrup müəllimlər və şagirdlərlə qarşılıqlı ünsiyyəti əsasən təlim prosesində qurur, təlimdən kənar vaxtlarda isə müxtəlif səbəblərdən bü cür ünsiyyət müntəzəm xarakter daşımasa da bu və ya digər şagird çətinliyə düşdükdə inamla müəllimə müraciət edir. Burada demokratik rəhbərlik üslubu üstünlük təşkil etsə də bəzən avtoritar rəhbərlik üslubuna xas elementlər özünü biruzə verir.

– şagirdlərlə qarşılıqlı ünsiyyətin xarakterinə əsasən onlarla yaxın ünsiyyət saxlamağa cəhd göstərsə də, buna nail ola bilməyən müəllimlər qrupu da vardır ki, ünsiyyətin baş tutmamasının səbəbini vaxtın çatışmazlığı səbəbindən öz cəhdlərini həyata keçirə bilmədikləri kimi qiymətləndirirlər. Səbəb isə ünsiyyətə cəhd göstərmələrinə baxmayaraq, şagirdlərin onlara etibar etmədiklərindən qarşılıqlı ünsiyyət baş tutmur. Belə ki, müəllimlər ya həddindən artıq mentor mövqeyi tutur, ya onlara verilən sirri saxlaya bilmir, ya da şagirdlərin hörmətini qazana bilmədiklərindən şagird kollektivini idarəetmələri çətinləşir. Bu qrupa daxil olan müəllimlər arasında müəyyən miqdarda həm avtoritar, həm də demokratik və qeyri-müəyyən rəhbərlik üslubuna malik olan müəllimlər vardır.

– məhdud işgüzar ünsiyyətlə kifayətlənən müəllimlər şagirdlərlə ünsiyyətə can atmadıqları kimi, dərs dedikləri şagirdlər də onlarla yaxın ünsiyyətə, sirlərini bölüşməyə, onlarla məsləhətləşməyə meyl göstərmirlər. Bu qrupa, əsasən avtokratik və etinasız(liberal) rəhbərlik üslubuna malik müəllimlər daxildir.

Demokrat idarəetmə üslubu olan müəllimlərin dərslərində şagirdlərin sinifdə fəallığını humanist psixologiyanın paradiqmaları axarında təhlil etdikdə, beş cəhət xüsusilə diqqət çəkir:

– şagirdlər müəllimlərlə və öz aralarında daha çox danışırlar, müzakirələrdə ana xətt dərslə bağlı olur, müəllimə suallar verir, aydın səslənməyən məsələləri açıqlayır, qarşılıqlı fikir mübadiləsi edirlər,

– müəllim hər hansı bir məsələni izah edəndə diqqət kəsilir, onun gözlərinə baxır, dərsə diqqətlə qulaq asırlar,

– daha çox düşünürlər, məsələlərin mahiyyətini aydınlaşdırmağa çalışırlar, mənalı yadda saxlama vasitələrindən istifadə edirlər,

– sinifdə şagirdlər əsasən öz fikirlərini, qənaətlərini açıq deməyi və prinsipial mövqe tutmağı öyrənirlər.

Müəllimlərin rəhbərlik üslublarını araşdırarkən bir məsələni xüsusi qeyd etmək lazımdır ki, avtokratik və avtoritar rəhbərlik üslubları eyni nəzəri-metodoloji paradiqmalar əsasında əmələ gəlmişdir. İctimai fikir şagirdi təlim prosesinin məhz obyekti kimi qəbul etdiyi müddətcə, məktəbdə də avtokratik və avtoritar müəllimlə hesablaşırdılar. Müasir məktəbin inkişafı isə həm rəhbərlik üslublarının daha da təkmilləşdirilməsi ilə əlamətdardır, müasirməktəbə avtokratik,

avtoritar, qeyri-müəyyən rəhbərlik üslüblu, liberalmüəllim deyil, məhz demokratik müəllimlər lazımdır.

## II Fəsil. Sinif rəhbərinin fəaliyyətində tərbiyə işinin əsas istiqamətləri

### 2.1. Sinif rəhbərinin müəllimlərlə apardığı işin məzmunu. Fənn müəllimlərinin tərbiyəvi fəaliyyətinin təmin edilməsi

Sinif rəhbəri pedaqoji fəaliyyətin vacib tərkib hissəsi olan öz qurucu və çoxşaxəli lider fəaliyyəti ilə rəhbərlik etdiyi sinifdə təhsil, təlim, tərbiyə işinin qurulmasına, dizaynına, kollektivin və şagird şəxsiyyətinin formalaşmasına xidmət edir. Fəaliyyəti boyunca təlim prosesinin təşkili, təşkilati-koordinasiya, kommunikativ və təhlil-proqnozlaşdırma kimi vəzifə öhdəlikləri ilə sinfə aid sənədləri tərtib edir, gündəliklərin və şagirdlərin şəxsi işlərinin vəziyyətinə nəzarət edir. Sinif rəhbərinin əsas fəaliyyət sahələri aşağıdakılardır:

– ayrı-ayrı şagirdləri və sinif kollektivini davamlı öyrənmək;

– şagird kollektivini təşkil etmək, vəzifə bölgüsü aparmaq;

– müəllimlərin tərbiyəvi fəaliyyətini tənzim etmək;

– sinifdənxaric tərbiyə işlərini təşkil etmək;

– şagirdlərin biliklərə dərindən yiyələnməsinə nəzarət etmək;

– şagirdlərin əxlaq tərbiyəsi ilə bağlı təcrübə qazanmasına və davranışlarına nəzarət etmək;

– şagirdlərdə davranış mədəniyyətinin tərbiyə edilməsi;

– valideynlərlə iş aparmaq.

Sinif rəhbəri sinif jurnalını tədris ilinin əvvəlində rəhbərlikdən qəbul edərək onu tələb olunan qaydada səliqə ilə yazıb hazırlayır və onun müəllimlər tərəfindən həmişə səliqəli yazılmasına və aparılmasına nəzarət edir. Sinfin bütün şagirdlərinin gündəliklərinin olması və jurnalın normal aparılmasını nəzarətdə saxlayır, hər gün keçirilən fənnlər üzrə hər dərsdə şagirdlərə verilmiş qiymətlərin daxil edilməsini, hər həftə gündəliklərin valideynlərə göstərilib imza etdirilməsini isə müəllimlərdən tələb edir. Vaxtaşırı şagird gündəliklərini yoxlayaraq, qiymətlərin orada düzgün yazılmasına nəzarət edir, hər rübün sonunda şagirdlərin rüblük qiymətlərini gündəliyin axırındakı xüsusi qrafaya daxil edir.

Sinif rəhbəri şagirdlərin şəxsi işlərinə nəzarətedir, dərs ilinin sonunda hər şagirdə onun təlim-tərbiyə fəaliyyəti, qaydalara riayət etməsi, məsuliyyətləri, intizam, mədəni davranışları və xasiyyəti haqqında xüsusi xarakteristika tərtib edir.

Yarımilliklərin və ilin sonunda müəllimlərin razılığı ilə şagirdlərin qiymətlərini-təlim müvəffəqiyyətləri müəyyənləşdirib qiymət cədvəllərinə, sinif jurnalına köçürülür və məktəbin rəhbərliyinə rəsmi məlumat verilir. Sinif rəhbəri öz sinfində aparacağı təlim-tərbiyə işlərinə dair iş planları yazıb hazırlayır, sinif şagirdləri ilə il ərzində həyata keçirilmiş bütün təlim-tərbiyə işləri barədə dərs ilinin sonunda ətraflı hesabat yazır və məktəb rəhbərliyinə təqdim edir, rəsmi hesabat verir.

Sinif rəhbəri sinfin tərbiyə vəzifələrini müəyyən edir və onları həyata keçirir. Şagirdlərin fərdi xüsusiyyətlərindən asılı olaraq bu vəzifələrin həyata keçirilməsinin vasitə və metodları da müxtəlif ola bilər. Bu zaman bəzi şagirdləri tərifləmək, digərlərinə əmr vermək, başqalarını isə davranış qaydalarını pozduqlarına görə tənbeh etmək lazım gəlir. Şagirdləri düzgün tərbiyə etmək üçün onları dərindən və hərtərəfli bilmək, öyrənmək, fərdi yanaşmağı bacarmaq lazımdır.

Sinif rəhbəri şagirdləri öyrənərkən aşağıdakı tələblərə əməl etməlidir:

1. Öyrənmə tərbiyə və təlimin keyfiyyətini yüksəltməyə xidmət etməlidir;
2. Öyrənmə planlı və sistematik aparılmalıdır;
3. Öyrənmənin təbiiliyi, həyatiliyi və obyektivliyi təmin edilməlidir;
4. Şagirdlər fəaliyyətdə öyrənilməli və tərbiyə edilməlidir;
5. Öyrənmə zamanı fərqli metod və tərzlərdən istifadə edilməlidir;
6. Şagird bütövlükdə və tam öyrənilməlidir.

Öyrənmə prosesində bu tələblərin hər biri haqqında şagirdlərə ətraflı izahat verilməli, şagirdin ümumi və sosial inkişafı, onun mənəvi siması, səciyyəvi xüsusiyyətləri, intizamlılığı, təlim əməyi, davranış mədəniyyəti və digər keyfiyyətləri aydınlaşdırılmalıdır.

Məktəblinin həyat və məişət şəraiti ilə tanış olmaq, onun kiminlə dostluq etdiyini, asudə vaxtını necə keçirdiyini, nə ilə məşğul olduğunu aydınlaşdırmaq lazımdır. Şagirdlərin diqqəti, hafizəsi, təfəkkürü və digər psixi proseslərinin xüsusiyyətləri də öyrənilməlidir. Sinif rəhbərinin şagirdləri pedaqoji cəhətdən öyrənməsi üçün təqribi planı olmalıdır:

– şagirdlər haqqında ümumi məlumat: soyadı, adı, anadan olduğu il, tarix, şagirdin ev ünvanı, şagirdin valideynləri harada və hansı vəzifədə işləməsi, ailədə

qarşılıqlı əlaqələr, ailə tərkibi, ailənin mədəni səviyyəsi, maddi vəziyyəti, məktəblinin rejimi və asudə vaxtı, ev işlərində iştirakı, dostları, məktəblinin həyatında ən vacib hadisələr, səhhəti (məktəb həkiminin məlumatı üzrə);

– şagirdin ümumi inkişafı: təlim əməyinə münasibəti, şagirdin mənimsəmə səviyyəsi, fiziki əməyə münasibət, intizamlılıq səviyyəsi, şagirdin maraq və meylləri;

– şagirdin ictimai-siyasi və ictimai işi: sinfin ictimai həyatında iştirakı, ictimai işin yerinə yetirilməsi xarakteri, sinif kollektivində yeri;

– şagird şəxsiyyətinin əsas əlamətləri: ictimai şüuru, dünyagörüşü, ideyalarının konkret şəraitdə-təlimdə, ictimai işdə və əməkdə həyata keçirmək qabiliyyəti: mənəvi keyfiyyətləri, vətənə məhəbbət hissi, ölkəmizdəki hadisələrə marağı, öz əməyi ilə məktəbə, cəmiyyətə kömək göstərməyi, xarakterik iradi əlamətləri, məqsədyönlülük, fəallıq, qətiyyətlilik, cəsarətlilik, müstəqillik, təşəbbüskarlıq, mütəşəkkillik, səbrlilik, intizamlılıq, məktəblinin fərdi, psixiloji xüsusiyyətləri;

– şagirdi öyrənmə prosesində sinif rəhbərinin nəzərdə tutduğu pedaqoji tələblər: hansı xüsusiyyətləri necə inkişaf etdirmək və təkmilləşdirmək, məktəblinin hərəkətindəki nöqsanları aradan qaldırmaq üçün nə etmək lazımdır.

Sinif rəhbəri ayrı-ayrı şagirdləri deyil, bütün sinif kollektivini öyrənir və bütün şagird kollektivini öyrənməyi nəzərdə tutan aydın proqrama da malik olmalıdır. Şagird kollektivini öyrənmək proqramı isə aşağıdakı məsələləri əhatə etməlidir:

– ***sinfin tərkibi, yaş tərkibi***: dərketmə səviyyəsi və şagirdlərin inkişafı, iş qabiliyyəti, mənimsəmə dərəcəsi və sinfin ictimai siması;

– ***sinfin həmrəyliyi:*** işgüzarlıq səviyyəsi, sinifdə marağa görə qruplaşmaların olub-olmaması, şagirdlər bir-birlərinə yanaşma tərzi, sinfin işlərinə şagirdin münasibəti, məktəbdə və məktəbdənkənar vaxtlarını bir yerdə keçirməyi, bir yerdə öyrənməyi və bir yerdə oxumaq arzuları, oğlan və qızların dostluğu, kollektiv üzvlərinin bir-birini müdafiə edib-etməmələri və s.;

– ***sinfin mütəşəkkilliyi***: şagirdlərin kollektiv işləri yerinə yetirmək üçün hazır olması, təhkim olduğu şəxslərin göstərişlərinə əməl etmələri və s.;

– ***sinifdə ictimai rəy:*** şagirdlərin yoldaşlarının işinə necə münasibət bəsləməsi, onu bəyənməsi və ya pisləməsi, narazılıq və narazılıqlarını necə ifadə etməsi, danışıqları və işləri arasındakı uyğunsuzluğun olub-olmaması, sinifdə tənqid və özünütənqidin olması və s.;

– ***kollektivdə yoldaşlıq əlaqələrinin xarakteri***: məktəbliləri nə birləşdirir (yaşayış yerlərinin ümumiliyi: partada bir yerdə oturmaq, maraqlar, ümumi iş), şagirdlər harada dostluq edirlər (məktəbdə və ya məktəbdən kənarda), onlar yoldaşlarına necə kömək göstərirlər, dostlarına qarşı tələbkardırlarmı, fiziki qüsuru olan şagirdlərə hansı münasibəti göstərirlər və s.

Sinif rəhbərinin öyrənmə proqramına "Sinfin fəalları ilə iş", "Sinif kollektivinin ümumməktəb kollektivi ilə əlaqəsi", "Sinif kollektivinin möhkəmləndirilməsi tədbirləri" və s. bölmələri daxil edilir. Sinif rəhbəri şagirdlərini mövcud metodlardan istifadə etməklə öyrənə bilər:

– şəxsi işlərlə tanışlıq: şagirdin sağlamlığı, təhsil səviyyəsi, tərbiyəlilik səviyyəsi;

– keçən ilki sinif jurnalı ilə tanışlıq;

– sabiq sinif rəhbəri və sinfin müəllimlərilə söhbət;

– direktor və onun müavinlərinin məlumatı;

– şagirdlərlə şəxsi görüşlər (tədris ilinin əvvəlində və sonunda);

– valideynlərlə söhbət;

– pedaqoji müşahidə;

– şagirdlərlə müsahibələr;

– pedaqoji eksperimentlər;

– şagirdlərin fəaliyyət məhsullarının öyrənilməsi;

– müəllimlərlə söhbət;

– anketlər;

– inşa yazılar;

– ev şəraitinin öyrənilməsi;

– dolayı xarakteristikaların ümumiləşdirilməsi (şagirdlər haqqında başqa şəxslərdən aldığı məlumatları özündə olan materiallarla müqayisə edilir);

– şagirdlərin qarşılıqlı əlaqələrinin, dostluq münasibətlərini sosiometrik metodlarla öyrənilməsi.

***Sinif müəllimi və sinif rəhbəri***

Sinif rəhbəri məktəb pedaqoji kollektivində özünəməxsus xüsusi mövqeyə və nüfuza malik, hansısa fənni tədris edən, həm öyrədən, həm də tərbiyə edən ixtisaslı müəllimdir. Məktəbdə vəzifəsi gənc nəslə öz ixtisası üzrə biliklər vermək, müvafiq bacarıq və vərdişlər aşılamaq, onların dünyagörüşünü genişləndirmək; eyni

zamanda şagirdlərin tərbiyəsi qayğısına qalmaq, onların ən yaxşı, nəcib keyfiyyətlərini inkişaf etdirmək, həm də xarakterlərindəki, davranış və rəftarlarındakı, böyüklərə və həmyaşıdlarına münasibətlərindəki qüsurları aradan qaldırmaqdır.

***Cədvəl 2.1.1.*** *Sinif müəllimi və sinif rəhbərinin fəaliyyəti, iş xüsusiyyətləri*

| Sinif müəllimi | Sinif rəhbəri |
|---|---|
| yalnız öz sinfində dərs deyir | rəhbərlik etdiyi sinifdən əlavə, digər siniflərdə də öz fənnini tədris edə bilir. |
| öz sinfindəki bütün fənləri tədris edir | yalnız bir fənnin müəllimidir |
| sinifdə tədris etdiyi bütün fənlərin mənimsənilməsinə cavabdehdir | etdiyi fənnin tədrisinə məsuliyyət daşıdığı kimi, həm də digər fənlərin tədrisinə cavabdehdir. |
| təlim-tərbiyə işində, dərsdənkənar tədbirlərin hazırlanmasında və həyata keçirilməsində, əsasən, öz qüvvəsinə güvənir | dərsdənkənar tədbirlərin hazırlanmasında, icrasında sinifdə dərs deyən müəllimlərin, valideynlərin imkanlarından istifadə edə bilir |
| hər gün minimum dörd saat şagirdlərlə işləyir | başlıca olaraq təhkim olunduğu sinifdə öz fənni üzrə dərs zamanı şagirdlərlə təmasda olur, əlavə tədbirlər keçirir, lazım olanda dərsdən sonra da şagirdlərlə tərbiyəvi tədbirlər keçirir |
| şagirdlərlə əlaqədar yaranan problemi yerindəcə, təxirə salmadan həll etmək imkanına malikdir | sinif rəhbərində isə bəzən vaxt məhdudiyyəti olur və problemin həlli üçün uzun müddət tələb olunur |

"Azərbaycan Respublikası ümumtəhsil məktəbinin nümunəvi əsasnaməsi" ndə ümumtəhsil məktəbinin əsas vəzifəsi belə müəyyənləşdirilmişdir: "Fərdin təbii imkanlarını inkişaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, meyl, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq onun şəxsiyyətini formalaşdırmaq, həyatda və cəmiyyətdə səmərəli fəaliyyətə hazırlaşmasına müstəqil, yaradıcı, düşünən, ümumi mədəniyyətə malik milli mənəviyyatlı şəxsiyyətin yetişdirilməsinə xidmət etmək, şüurlu olaraq peşə seçməyə hazırlamaq, Azərbaycanın inkişafı naminə fədakarcasına çalışan vətəndaş tərbiyə etməkdən ibarətdir". Həmin mühüm vəzifələrin həyata keçirilməsində sinif rəhbəri bir müəllim və eyni zamanda müvafiq sinfin rəhbəri kimi böyük rol oynayır.

Sinif rəhbəri öz fəaliyyətinə sinif kollektivini təşkil etməklə başlamalıdır. "Ümumtəhsil məktəbinin nümunəvi Əsasnaməsi"ndə qeyd olunur: "Sinif rəhbəri şagird kollektivini təşkil etməli, məktəbli şəxsiyyətinin formalaşdırılması üçün məqsədyönlü iş aparmalıdır".Sinif rəhbərinin bu işi kortəbii şəkildə aparması mümkün deyil, kollektivi yaratmağı bacarmalı, təşkil etməlidir.

## 2.2. Ayrı-ayrı şagirdləri və sinif kollektivini öyrənməklə şagird kollektivinin təşkili. Fəallarla iş

Sinif rəhbərinin işi fənn müəllimlərinin, habelə pedaqoji kollektivin digər üzvlərinin işindən səciyyəvi xüsusiyyətlərinə, özünəməxsusluğuna görə fərqlənir:

– sinif rəhbəri həm rəhbər-tərbiyəçi, həm də müəllim kimi özünü şagirdlərdə təkrar etdirir, mənəvi keyfiyyətlərini öz yetirmələrinin mənəviyyatında davam etdirir;

– sinif rəhbəri şagirdlərin ictimai həyatda layiqli mövqe tutmalarına, vətənə, millətə faydalı bir qüvvəyə çevrilmələrinə kömək edir;

– öz fəaliyyətində müvəffəqiyyət qazanmaq üçün şagirdlərin hamısının yaş və fərdi xüsusiyyətlərini nəzərə almalı, tərbiyəvi təsirləri vahid məqsədə yönəltməli, müxtəlif vasitə, yol və üsulların optimal variantlarını tapmalıdır;

– tərbiyəvi işdə hazır reseptlərlə işləmək mümkün deyil, oxşar hadisələrin özlərinə də eyni cür yanaşmaq eyni nəticə vermir. İşin hər addımında sinif rəhbərindən zəngin erudisiya, böyük yaradıcılıq və pedaqoji səriştə tələb olunur;

– fəaliyyətin özünəməxsusluğunun bir cəhəti də bu fəaliyyətin son dərəcə məsuliyyətliliyidir. Uşaqların tərbiyəsində səhvə, məsuliyyətsizliyə yol verilirsə, ümumi gələcək üçün ciddi təhlükədir.

Şagirdlərin hərtərəfli, məqsədyönlü öyrənilməsi sinif rəhbərlərindən zəngin pedaqoji məharət və ustalıq tələb edir. Buna görə də işgüzar sinif rəhbərləri gündəlik yazır və orada təlim-tərbiyə prosesində rastlaşdıqları fərqli pedaqoji situasiyaları, faktları müqayisə, analiz-sintezəsasında və ümumiləşdirmələr apararaq zəruri pedaqoji nəticələr çıxarırlar.

Sinif rəhbəri şagird şəxsiyyətini şəxsiyyətin hissə-hissə deyil, tam şəkildə formalaşdığı səbəbilə paralel, bütövlükdə öyrənməlidir.

Sinifdə tərbiyənin keyfiyyətini yüksəltməkdə sinif rəhbərinin şagird kollektivindəki fəaliyyətinin bir sıra xüsusiyyətləri vardır:

– sinifdəki şagirdlər arasında ictimai vəzifə bölgüsü aparmaq (sinifdəki şagird təşkilatlarının iştirakı ilə), tapşırıqların müvəffəqiyyətlə icra etmələri üçün onlara məsləhət vermək;

– sinfin şagird təşkilatlarının işinə pedaqoji cəhətdən istiqamət vermək, təşkilatların fəaliyyətlərini əlaqələndirmək;

– möhkəm sinif kollektivinin yaranmasına nail olmaq və bu işdə fəalların, şagird təşkilatlarının gücündən səmərəli surətdə istifadə etmək;

– sinif rəhbəri tərbiyəvi tədbirləri həyata keçirərkən belə bir pedaqoji qanunu - tədbirlərin çoxluğunu deyil, həmin tədbirlərin şagirdə göstərdiyi təsir gücünü əsas götürməlidir;

– sinif rəhbəri şagirdlərin sosial həyatının, fəaliyyətinin düzgün təşkilinə nail olmaqla, məqsədə doğru gedən yolu bir o qədər qısaltmış olur.

– sinif rəhbərinin fəaliyyəti axtaran və düşünən pedaqoqa təşəbbüskarlığını və öz fəaliyyətini maksimum üzə çıxarmaq üçün geniş meydan verir; şagirdlərə aid olan elə bir məsələ yoxdur ki, onun həllində sinif rəhbərinin iştirakı olmadan keçinmək mümkün olsun;

– sinif rəhbəri şagirdlərlə, valideynlərlə, sinifdə işləyən müəllimlərlə vahid məktəb sisteminin ayrı-ayrı vasitələrinin işini idarə edir və tənzimləyir.

Sinif rəhbərinin işində, ayrı-ayrı şagirdləri və sinif kollektivini öyrənməklə şagird kollektivinin təşkili prosesində pedaqoji diaqnostikanın əhəmiyyəti böyükdür. Məktəbdə şagirdləri və sinfi bir vəhdət halında öyrənmək üçün diaqnostik metodlardan istifadə olunmalıdır:

***Müşahidə*** sinif rəhbərinə şagirdlər haqqında daha çox informasiya toplamağa imkan verən metoddur. Müşahidə şagirdin xarici əlamətlərinə, davranış və rəftar tərzinə, mühakimə qabiliyyətinə və nitq mədəniyyətinə görə təzahür edən xüsusiyyətlərini üzə çıxarmaqdan ibarət olan tədqiqat üsuludur. Müşahidə metodu məhsuldar metoddur, hadisələri nəinki təsvir etməyə, eləcə də izah etməyə imkan verir. Müşahidə mütəşəkkil və ardıcıl surətdə təşkil edilməlidir. Müşahidə və onun nəticələrinin təhlil edilməsi obyektivlik tələb edir.

Müşahidə üçün plan tutulur, nəyi və necə müşahidə etmək məsələləri planda əks etdirilir. Fakt və hadisələri, şagird davranışının müsbət və mənfi tərəfləri müşahidə edilərək nəticələr çıxarılır. Şagirdlərin rəftar və hərəkətlərini, keçirdikləri emosional halları ətraflı öyrəndikdən sonra onun psixi vəziyyəti haqqında nəticə çıxardılır.

“Çətin” tərbiyə olunan uşaqlarla aparılan tərbiyə işində də pedaqoji müşahidə üstünlük təşkil edir. Bunun bir neçə səbəbi vardır:

1. Pedaqoji müşahidə uşağın həyat fəaliyyətində təbii şəraiti nəzərə alır;

2. Peqaqoji müşahidə diaqnostikanın gizli formasıdır, bu zaman uşaq bir obyekt kimi pedaqoji yoxlamaya məruz qaldığını hiss etmir;

3. Pedaqoji müşahidə uşağın həyata münasibətlərinin bütün sahələrini birbaşa əhatə etməyə şərait yaradır;

4. Müşahidələr bu və ya digər münasibətin üzə çıxması üçün müxtəlif situasiyalar təklif edir;

5. Pedaqoji müşahidə dəyişən münasibətlərin dinamikasını laboratoriya metodlarından fərqli olaraq əks etdirir.

Münasibətlərin yaranması formaları o zaman real münasibət göstəriciləri hesab olunar ki, onlar pedaqoji müşahidəyə aid olsun:

– nitq göstəriciləri: “nə dedi?”, “bunu necə ifadə etdi?”;

– mimika göstəriciləri: “necə görünürdü?”, “necə baxdı?”

– praktik göstəricilər: “bu zaman özünü necə hiss etdi?” ;

– reaksiya vermə, davranış göstəriciləri: “bunu necə etdi?”

– xarici görünüşü: “xarici görünüşü necədir?” və s.

Müşahidə zamanı sinif rəhbəri öz təəssüratlarını dəqiqləşdirərkən uşaqlara belə yardımçı suallar verir:

– “Siz istərdinizmi..?”,

– “Siz necə fikirləşirsiniz..?”

Dəqiqləşdirici suallar diaqnostikaya ehtiyacı aradan qaldırır, yəni uşaqlar açıq şəkildə öz meylləri və dəyərləndirdikləri barədə məlumat verirlər.

Müşahidədə hadisələr, faktların təsvirləri, şagirdlərin davranış xüsusiyyətləri öz əksini tapmalıdır. Sinif rəhbəri öz müşahidələrini sinifdənxaric və məktəbdənkənar işlər zamanı apararaq (sinfin təmizliyi və ya məktəb tədbiri zamanı) ayrı-ayrı kartoçkalara qeyd edə bilər. Müşahidə sinif rəhbərinə şagirdi təbii şəraitdə görmək imkanı yaradır.

***Anket*** və digər sorğu metodları şagirdlərin şəxsi keyfiyyətləri, dəyərləri, qarşılıqlı münasibətləri, fəaliyyət sahələri haqqında müxtəlif məlumatlar verir. Anket sorğusunun tərtib edilməsi sinif rəhbərindən həm şagird fəaliyyətinin keyfiyyətinin siyahısını, həm də onun haqqında lazım olan digər məlumatların müəyyənləşdirilməsini tələb edir.

Anketləşdirmə asan əldə edilən məlumatların tez toplanmasına şərait yaradır. Anketdən istifadə zamanı sorğunun çatışmazlığı da mümkündür, cavablar həmişə ətraflı, dəqiq və səmimi olmaya bilər.

Anket sorğuları şagirdlərin nəyi və necə mütaliə etməsi, asudə vaxtdan necə istifadə etmələri, məsuliyyət və münasibət anlayışlarını necə qəbul etmələri, şəxsiyyətlərarası münasibətləri necə başa düşmələri, vətənə xidməti nədə gördüklərini və s. müəyyənləşdirmək məqsədilə təşkil edilir.

Sinif rəhbəri üçün şagirdlərin istəklərini, idraki maraqlarını, təlim ehtiyyaclarını vaxtında öyrənmək, onları işində tətbiq edə bilməsi baxımından vacibdir.

Şagirdləri öyrənmək üçün sorğuya nisbətən daha asan üsul müsahibədir. O, standartlaşdırılmış və sərbəst ola bilər. ***Müsahibə*** şagirdin özü, müəllimləri, yoldaşları, valideynləri ilə aparılır və məqsəd şagird haqqında digərlərinin fikirlərini öyrənməkdir.

Müsahibə zamanı verilən suallara alınan cavabları qeydə almaq lazım deyil. Sərbəst söhbət daha dəqiq, geniş məlumatların alınması məqsədilə sualların şəklini dəyişməyə şərait yaradır.

Açıq suallar verilməlidir ki, sərbəst, geniş cavablar almaq mümkün olsun.

***Söhbət*** də müşahidə kimi şagirdi tanımaq üçün daha təbii üsuldur. Sinif rəhbəri əvvəlcə şagirdi nə üçün öyrənmək istədiyini müəyyən etməlidir. Söhbəti səmimi aparmaqla şagird və kollektiv haqqında düzgün və dəqiq məlumat əldə etmək mümkündür.

Şagirdlərin fərdi xüsusiyyətlərinin öyrənilməsi üçün sənədlərin (kitabxana, tibb kartoçkası) və yaradıcılıq işlərinin (inşalar, şəkillər) təhlilindən istifadə oluna bilər. Şagirdlərin yaradıcılıq məhsullarının (imla, ifadə, inşa, texniki yaradıcılıq və əl işləri) öyrənilməsi şagird haqqında müəyyən fikir söyləməyə imkan verir.

Şagirdlərə sərbəst mövzularda inşalar yazdırmağa yalnız ədəbiyyat müəllimləri deyil, digər (tarix, coğrafiya, xairici dil) müəllimləri də üstünlük verir:

– “Milli dəyərlərimiz sərvətimizdir”,
– “Torpaq uğrunda ölən varsa, vətəndir”,
– “”İtiqovan” - Böyük Vətən müharibəsindən qiymətli xatirə”,
– “Şair, sorma vətən nədən yaxşıdır”,
– “Keçdi xəyalımdan öz gözəl yurdum”,
– “Dastana döndü” və s.

Bu kimi mövzularda yazılmış inşaları təhlil edərkən mümkün qədər şagirdlərin adi günlərdə özlərini necə aparmalarına da diqqət yetirmək lazımdır.

Yaxşı inşa yazmaq, tank modeli düzəltmək, müxtəlif mövzularda rəsm əsərləri çəkmək hələ şagirdin daxili dünyasının öyrənilməsi demək deyildir. Vətəni qorumaqdan danışmaq hələ vətənpərvər olmaq demək deyildir, şagirdlərin sözləri ilə əməli işlərinin vəhdətinə diqqət yetirilməlidir.

Məktəbdə diaqnostika işləri planlı və sistemli şəkildə,məktəb psixoloqu ilə birlikdəaparılmalıdır. Sinfin həm ümumi pedaqoji diaqnostikasını, həm də şagirdlərin iştirakının şəxsi aspektlərə yönəldilmiş diaqnostikanı təşkil edə bilər.

Şagirdləri öyrənərək tərbiyə etmək, tərbiyə edərək öyrənməklə pedaqoji tərbiyə sistemi bir o qədər ardıcıl və konkret, tərbiyə fəaliyyətinin nəticələri o qədər məhsuldar olacaqdır.

Şagirdlərin məqsədyönlü, müntəzəm və hərtərəfli öyrənilməsi fərdi yanaşmanın zəruri şərtidir. Hər bir şagirdin özünəməxsus fərdi-psixoloji xüsusiyyətləri vardır. Temperament və xarakterin mənəvi və iradi qabiliyyətlərin, formalaşmış şəxsi təcrübənin öyrənilməsi hər bir uşağın özünəməxsus fərdi xüsusiyyətləridir.

Şagird və kollektivlər haqqında məlumat toplamaq, tərbiyə prosesini optimallaşdırarkən işin nəticələrini müntəzəm şəkildə qeydə almaq, yeri gəldikcə tərbiyə prosesinə düzəlişlər etmək xüsusi əhəmiyyətə malikdir. Sinif rəhbəri yalnız öz işini planlaşdırmaqla kifayətlənmir, həm də onun nəticələrini qeydə alıb, təhlillər aparır, müqayisə edib nəticələr çıxarır, müsbət yaxud çatışmayan cəhətləri aşkar edib konkret tədbirlər görür.

## 2.3. Sinif rəhbəri, müəllimlər və şagirdlər, direktor və onun müavinləri, valideynlərlə işin əlaqələndirilməsi

Sinif rəhbərinin qarşısında qoyulan dövlət vəzifələrinin ləyaqətlə həyata keçirilməsi üçün eyni zamanda ona müəyyən səlahiyyətli hüquqlar verilmişdir. Sinif rəhbəri valideynləri məktəbə dəvət edərək sinif valideyn iclası keçirir və orada şagirdlərin təlim-tərbiyə işlərinin daha səmərəli təşkili üçün zəruri olan məsələləri birlikdə müzakirə və həll edir. Ailə tərbiyəsinin mühüm, aktual mövzuları, ailədə uşaqların təlim-tərbiyəsi işlərinin təşkilinin daha səmərəli və fəal formaları, vasitə və üsulları, şərtləri və s. barədə valideynlərlə vaxtında sistematik olaraq elmi-metodiki söhbətlər edir, məruzə və

mühazirələr söyləyir, onları müntəzəm qayda ilə elmi-pedaqoji-psixoloji biliklərlə məlumatlandırır.

Sinif rəhbəri şagirdlərlə apardığı praktik işlərdə müvəffəqiyyətli ola bilməsi üçünhər bir şagirdi dərindən və hərtərəfli öyrənməsə, sinfə müvəffəqiyyətlə rəhbərlik edə bilməz. Sinif şagirdlərini öyrənməyin əsas metodlarına aiddir:

– kollektivin praktik fəaliyyəti prosesində şagirdlərin davranışını, əhvalını müşahidə etmək;

– şagirdləri gəzinti, birgə işdən sonra, istirahət, turizm yürüşləri şəraitində öyrənmək;

– şagirdlərin müəyyən mövzular üzrə xüsusən də sərbəst mövzulara aid yazdıqları inşalarından istifadə etməklə onları öyrənmək;

– şagirdləri disputlar, etik söhbətlər, iclas və konfranslar, kitab müzakirəsi, kinofilmlər, teatr tamaşaları və s. üzrə ən müxtəlif iş növlərinə cəlb etməklə öyrənmək;

– şagirdləri müxtəlif məsələlərə aid aparılan xüsusi söhbətlərlə: şagirdlərin əməyi, öz valideynlərinə, məktəbə, yoldaşlarına münasibətini aydınlaşdırmaqla, şagirdin bu və ya başqa hadisəni necə qiymətləndirdiyini, onun baxışlarında nəyə səy göstərdiyini aşkar etməklə öyrənmək.

Şagirdlərin dərslərini müvəffəqiyyətlə, əla və yaxşı oxuması üçün onların bütün dərslərə müntəzəm, paralel olaraq davam etməsi vacibdir.Tədris proqramlarının tələbi ilə hər bir fənn üzrə mövzular və elmi biliklər dərslərdə şagirdlərə sistematiklik və ardıcıllıq prinsipi əsasında öyrədilir və mənimsədilir. Bir qism şagird dərsdə iştirak etmədikdə, dərslərdə keçirilən mövzuları və bilikləri müəllimin izahatı əsasında dinləmədiyi üçün, sonra özü oxusa da, yenə tam aydın başa düşmür. Bu zaman şagirdin biliyində müəyyən kəsir yaranır, bu kəsir isə gündən-günə artır, nəticədə şagirdin təlimdə vəziyyəti çətinləşər.

Belə vəziyyətin yaranmaması üçün sinif rəhbəri şagirdlərin dərslərə müntəzəm davam etməsinə xüsusi fikir verir, sinfindəki şagirdlərin üzrsüz dərs ötürmələrinə qarşı ciddi səylə mübarizə aparır. İlk növbədə, o, hər gün şagirdlərin dərslərə davamiyyətini xüsusi olaraq izləyir və yoxlayır.

Sinif rəhbəri həftənin müəyyən günlərində sinif jurnalını nəzərdən keçirərək, müntəzəm qayda ilə dərslərə gedib şagirdlərdən kimin gəlib gəlmədiyini, dərslərdə sistematik iştirak etmədiyini müəyyən edir, həm də onun tapşırığı ilə sinif nümayəndəsi müəyyən vaxtlarda kimin hansı gün, hansı saat dərsdə olmaması və yaxud dərsdən qaçması barədə ona dəqiq məlumat verir.

Sinif rəhbəri dərsə gəlməyən, xüsusən də iki gündən artıq müddətdə dərslərdə iştirak etməyən şagirdlərin ailəsinə bu barədə məlumat verir, valideynləri xəbərdar edir, məktəbə çağrılır. Valideynlərə və üzrsüz dərsə gəlməyən həmin şagirdlərə müəyyən təsir göstərir. Sinif rəhbəri dərslərə müntəzən gəlməyən, tez-tez dərs buraxanlara hər bir şagirdin təlim vəzifələrini, dərslərə müntəzəm gəlməyin əhəmiyyətini izah edir və beləliklə də onlarda təlimə maraq və məsuliyyət hissini artırmağa çalışır.

Təlim müvəffəqiyyəti uğrunda mübarizədə dərslərindən geri qalan, zəif oxuyan şagirdlərə qayğı və kömək göstərmək, onlarla bütün dərs ili ərzində müntəzəm olaraq əlavə işləmək sinif rəhbərinin mühüm vəzifəsidir. Təlimdə geriqalmanı vaxtında görmək, onun əsas səbəbini müəyyən etmək, onun qarşısını almaq çox mühüm şərtdir və vacibdir.

Sinif rəhbəri sinif jurnalı və şagird gündəliklərində olan qiymətləri nəzərdən keçirib yoxlayarkən kimlərin hansı fənlərdən irəlilədiyini və kimlərin də gerilədiyini müəyyən edir və bu zəmin əsasında hansı şagirdlərlə hansı fənn müəlliminin köməyi ilə işləmək lazım gəldiyini müəyyənləşdirir.

Təlimdə geri qalan ayrı-ayrı şagirdlər haqqında ayrı-ayrı fənn müəllimləri ilə xüsusi müsahibə aparıb, hər bir şagirdin hansı fəndən zəif oxumasının səbəbini öyrənir və birlikdə həmin şagirdlərə müəyyən əməli qayğı və köməklik göstərmək üçün bəzi faydalı tədbirlər görürlər. Bundan sonra fənn müəllimi dərsdə şagirdə diqqəti və qayğını artırır, onu dərsə fokuslanmağa təşviq edir, əlavə məşğələlər təşkil etməklə onu dərsdə fəallaşdırmağa çalışır.

Sinif rəhbəri və fənn müəlliminin birgə rəyi ilə şagirdlərə dərslərini öyrənməkdə sinfin bəzi qabaqcıl, əlaçı şagirdlərinin yoldaşlıq köməyi təşkil edilir. Evdə əlverişli təlim şəraiti, dərslərini vaxtlı-vaxtında öyrənməsi üçün valideynlərinin nəzarəti, qayğısı və əməli köməyi təmin edilir. Tənbəl şagirdlərlə xüsusi, fərdi

tərbiyəvi söhbətlər aparılır və onların təhsilin əhəmiyyətini yaxşı dərk etməsinə, təlimə marağının və səyinin artırılmasına ciddi, hərtərəfli təsir göstərilir.

Şagirdlərin dərslərini əla və yaxşı oxuması, yüksək müvəffəqiyyət qazanması üçün onların ev tapşırıqlarını müntəzəm həll etmələri vacibdir. Sinif rəhbəri öz sinfində şagirdlərin evə verilən təlim tapşırıqlarının norma üzrə verilməsinə xüsusi nəzarət etməlidir. Bəzən müəllimlər tədris etdiyi öz fənnini yaxşı öyrətmək məqsədi ilə bir-birindən xəbərsiz şəkildə evə təlim tapşırıqlarını həddən çox verir və nəticədə şagirdlər ev tapşırıqları ilə yüklənirlər. Həftənin müəyyən günlərində təlim tapşırıqları çoxlu miqdarda və ağır olduğu üçün şagirdlər yüklənir, əla və yaxşı oxuyanlar belə bu tapşırıqlar üzərində gün ərzində uzun müddət gərgin işləməli olur, bir sözlə, özlərini fiziki cəhətdən üzürlər.

Orta və zəif oxuyanlar çətin dərslərin öyrənilməsinə, dərs tapşırıqlarını yerinə yetirmək işinə ya gücləri çatmadığından onları yarımçıq, səthi icra edir, bəzilərini öyrənib, həll edib yerinə yetirir, bəzilərini isə heç yerinə yetirmir, hazırlamırlar.

Sinif rəhbəri şagirdlərə ev tapşırıqlarının normadan artıq verilməsinin qarşısını almaq məqsədilə öz sinfində dərs deyən ayrı-ayrı fənn müəllimləri ilə il ərzində həmişə sıx əlaqə saxlamalı və onların hamısından dövlət sənədlərində nəzərdə tutulan norma üzrə şagirdlərə ev tapşırıqlarının verilməsini xatırlatmalıdır.

Sinif rəhbəri bu sahədə şagirdlərə qayğı göstərir, dərs mövzuları və materialları, ev tapşırıqları üzərində səmərəli işləmək yollarına dair onlarla müəyyən vaxtlarda xüsusi görüşlər keçirir, faydalı məsləhətlər verir. Şagirdlərdə təlimə məsuliyyət hissinin yaradılması və tərbiyə edilməsində şagird gündəliklərinin müəyyən əhəmiyyəti vardır. Gündəliyin olması şagirdi məsuliyyətli olmağa təhrik edir və sinif rəhbəri sinifdə bütün şagirdlərin gündəliyinin olmasının, onun səliqəli aparılmasının qayğısına qalır, onun əhəmiyyətini şagirdə aydın başa salır.

Zəruri hallarda şagirdin təlim fəaiyyəti, müvəffəqiyyəti. vəziyyəti, dərsə davamiyyəti və s. barədə gündəlik vasitəsilə valideynlərə müəyyən informasiya ötürür, valideynlərin –qəyyumların nəzərinə konkret məlumatlar, dəqiq qeydləri çatdırır. Ayr-ayrı fənn müəllimlərinin hər biri şagirdlərdən layihə, test nəticələrini təhvil aldıqda, dərs soruşduqda qiymətini mütləq jurnala və gündəliyə

yazmalıdır ki, sinif rəhbərinin və valideynlərin şagirdlərin təlim müvəffəqiyyətinə nəzarət etməsi, izləməsi asan, şagirdlərdə təlimə məsuliyyət yüksək olsun.

Şagirdlərin dərsə hazırlaşması və təlim tapşırıqlarını müvəffəqiyyətlə icra etmələri üçün onların gün ərzində müəyyən rejim üzrə işləməsinin, evdə normal şəraitinin, xüsusi iş guşəsinin olmasının əhəmiyyəti böyükdür. Məktəbli üçün ailədə müəyyən bir otaqda xüsusi iş guşəsinin yaradılması və orada məktəblinin fiziki xüsusiyyətlərinə uyğun iş masası, stulunun qoyulması, kompyuter, dərs kitabları, tədris ləvazimatları ilə təmin edilməsi şagirdin dərslərini,digər təlim tapşırıqlarını sakit bir guşədə rahat öyrənməsinə, normal şəraitdə müvəffəqiyyətlə icra etməsinə əlverişli imkan yaradır.

Şagirdlər zehni və fiziki əmək məşğələlərini düzgün növbələşdirdiyi üçün bu məşğələlərin birindən digərinə keçəndə fəal istirahət edir. Bundan sonra şagirdlərin növbəti dərslərini asan və tez mənimsəməsinə, evə verilən təlim tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmələrinə müsbət təsir göstərir.

Sinif rəhbəri təlim uğrunda mübarizə apararkən şagirdin gün ərzində dəqiq rejim ilə işləməsinə və onun üçün evdə iş guşəsi təşkil olunması məsələsinə xüsusi diqqət yetirir və normal təşkilinə nail olmağa çalışır. Gündəlik rejimin, iş guşəsinin zərurəti və əhəmiyyətini tədris ilinin əvvəlindən başlayaraq sinif iclaslarında şagirdlərə, valideyn yığıncaqlarında isə valideynlərə izah edir, həm də vaxtaşırı bu mövzularda söhbətlər aparır, aydın dərk etmələrinə səy göstərir, vaxtaşırı şagird və valideynlərə məsləhətlər verir, tövsiyələr edir.

Sinif rəhbəri sinifdəki şagirdlərin təlim müvəffəqiyyətlərini, ayrı-ayrı fənlərə necə münasibət göstərdiyini və fəallığını öyrənmək üçün müntəzəm qayda ilə müxtəlif vaxtlarda dərslərə, laborator və praktik məşğələlərdə şagirdləri müşahidə edir, vəziyyəti öyrənir və müəyyən məlumatlar toplayır. Şagirdlərə yenidən təsir göstərərək onları təlim uğrunda mübarizəyə təşviq edir.Sinif rəhbəri şagirdlərinin mərkəzləşdirilmiş imtahanlara daha səmərəli hazırlaşmasına düzgün təlimat və istiqamət vermək, onların müvəffəqiyyətlə imtahanlar verməsinə nail olmağa çalışır.

Sinif rəhbərinin fəaliyyətində valideynlərlə aparılan pedaqoji iş, işin məzmunumühüm yer tutur. Onun işinin ana xəttini valideynlər, yaxud qəyyumlar arasında pedaqoji bilikləri müntəzəm təbliğ etmək və ailə tərbiyəsi məsələləri, ailədə uşaqları düzgün tərbiyə etmək üsulları ilə onları silahlandırmaq təşkil edir.

Valideynlər müxtəlif peşələrin sahibləri olduqlarından xüsusi pedaqoji təhsil almadığından ailədə uşağı pedaqoji baxımdan düzgün tərbiyə etmək üsulları barədə müntəzəm elmi məlumatların və nəzəri-pedaqoji biliklərin verilməsi zəruridir.

Məktəbin işini yaxşılaşdırmaq məqsədi ilə valideynlər arasında pedaqoji biliklərin təbliğinin gücləndirilməsi, bu istiqamətdə müəyyən faydalı tədbirlərin görülməsi qarşıya qoyulmuş əməli vəzifədir. Sinif rəhbəri sinfinin valideynlərini məktəbə dəvət edib, sinif valideyn yığıncağı keçirir, şagirdlərin təlim-tərbiyəsi işləri sahəsində valideynlərin vəzifələrini, onların məktəblə, müəllimlərlə müntəzəm əlaqə saxlamasının, vaxtaşırı məktəbə gəlib öz uşaqlarının təlim müvəffəqiyyəti, dərslərə davamiyyəti, tərbiyə işləri ilə yerində tanış olmasının əhəmiyyətini onlara izah edir, bu istiqamətdə valideynlərə müəyyən tapşırıqlar, məsləhətlər və tələblər verir.

Sinif rəhbəri hər dəfə valideynlərlə fərdi görüşdə təlim-tərbiyə işinin vəziyyəti haqqında, dərslərə davamiyyət, ayrı-ayrı fənlər üzrə təlim müvəffəqiyyəti və məsuliyyəti, şagirdlərin qaydalara necə əməl etməsi, intizamı, əxlaqı və mədəni davranışı, sağlamlığı, müəllim və sinif yoldaşları ilə münasibəti və s. barədə real, konkret məlumat verir, bu istiqamətlərdə onların uşaqlara qayğısını, tələbkarlığını və nəzarətini təşkil edir, təlim-tərbiyə vəzifələri sahəsində məktəblə ailə arasında vahid tələblərin, fəaliyyət xəttinin gözlənilməsinə və həyata keçirilməsinə müvəffəq olur.

Sinif rəhbəri fərdi pedaqoji müsahibə zamanı valideynləri müasir pedaqoji biliklərlə aydın təlimatlandırıb istiqamətləndirməli, ailədə uşaqları düzgün tərbiyə etmək yollarını, şərt və qaydalarını onlara öyrətməyə nail olmalıdır. Valideynlərlə aparılan belə fərdi söhbətlərlə bərabər, sinif rəhbəri vaxtaşırı şagirdlərin valideynlərini məktəbə dəvət edib, "sinif valideyn yığıncağı" təşkil edir. Burada şagirdlərin təlim-tərbiyəsinin səmərəli təşkilinin bəzi konkret məsələlərinə dair sinif rəhbəri "Şagirdlərin təlim-tərbiyəsi sahəsində valideynlərin vəzifələri", "Uşaqların fiziki tərbiyəsi və sağlamlığı sahəsində valideyn qayğısı" və s. mövzuda qısa müddətli məruzələr edir, mühazirələr söyləyir.

Sinif rəhbəri valideynlərə müəyyən sistem ilə müntəzəm pedaqoji təhsil verməklə, onların ailədə uşaqların təlim-tərbiyəsi işlərini məktəbin vəzifələri və tələbləri istiqamətində daha düzgün və səmərəli qurmaq, təşkil etmək və həyata

keçirmək ideyaları, üsulları və vasitələri haqqında pedaqoji biliklərlə məlumatlandırır, təlimatlandırır və istiqamətləndirir.

Pedaqoji bilikləri öyrənməklə, aydın və şüurlu mənimsəmək nəticəsində valideynlər ailə tərbiyəsi sahəsində öz vəzifələrini, rolunu və məsuliyyətini daha düzgün dərk edir, ailədə övladının təlim-tərbiyəsi işlərini, mütaliəsini, dərslərə hazırlaşması işini, gündəlik rejimini, əxlaqi və mədəni davranışını və s. kimi məsələləri dövlət müəssisəsi olan məktəbin vəzifələri və tələbləri əsasında təşkil edir və müvəffəqiyyətlə həyata keçirməyə səy edirlər.

Məktəb ailədə uşaqları müvəffəqiyyətlə tərbiyə etmək işində həmişə valideynlərə qayğı, kömək və rəhbərlik göstərməli, onların ailə tərbiyəsinə dair zəruri elmi-pedaqoji biliklərlə silahlanmasını təmin etməlidir. Ailə tərbiyəsi sahəsində valideynlər arasında müvəffəqiyyətli pedaqoji maarifləndirmə təbliğatını başlıca olaraq sinif rəhbəri "sinif valideyn yığıncaqları" vasitəsilə həyata keçirir.

Ailə tərbiyəsi mövzularında aparılan pedaqoji söhbətlər, məruzə və mühazirələr ayrı-ayrı sinif şagirdlərinin yaş səviyyəsinə uyğun şəkildə təşkil edilir. Sinif valideyn yığıncaqları müasir pedaqoji ədəbiyyatın düzgün tövsiyə etdiyi kimi, yarımilliklərin əvvəlində olmaqla, hər bir sinif valideynləri ilə ayda bir dəfə müntəzəm təşkil etməlidir. Sinif rəhbəri müəyyən dəqiq plan üzrə ailə tərbiyəsinin ayrı-ayrı konkret məsələlərinə dair zəruri və çox vacib mövzularda maraqlı, müxtəlif tanış ailələrin həyatından, təcrübəsindən alınmış faktlar, hadisələrə dair məzmunlu söhbətlər mühazirələrin əsas xəttini təşkil edir.

Valideynlərin tərbiyə prosesinin mahiyyəti, məqsəd və vəzifələri, tərbiyə işlərinin xüsusiyyətləri, səmərəli təşkli yolları, vasitə və üsulları, habelə ailədə övlad tərbiyəsində valideynlərin vəzifələri, məsuliyyəti, valideyn nüfuzunun əhəmiyyəti və onun təsiri, ev tapşırıqları üzərində valideyn nəzarəti və s. kimi məsələlər barədə elmi-pedaqoji təhsili, pedaqoji-psixoloji bilikləri mənimsəməsinə söhbət-mühazirələr çox kömək edir.

Valideynlər üçün nəzərdə tutulan belə söhbətlərə sinif rəhbəri ciddi yanaşaraq yaxşı hazırlaşır və ailədə şagirdlərin tərbiyəsinə aid mövcud pedaqoji ədəbiyyatı müntəzəm oxuyub öyrənmək yolu ilə bu sahədə tərbiyə nəzəriyyəsini əhatəli mənimsəyir, valideynlər qarşısında istənilən mövzularda 30-35 dəqiqəlik vaxt ərzində müvəffəqiyyətlə çıxış edərək lazımi pedaqoji bilikləri onlara aydın çatdırmağı və öyrətməyi çalışır. Sinif rəhbərləri şagirdlərin təlim-

tərbiyəsi işlərinin səmərəli təşkili və həyata keçirilməsi məsələləri barədə il ərzində vaxtaşırı tək-tək valideynlərlə, ata-analarla, qəyyumlarla zəruri pedaqoji müsahibələr, fərdi söhbətlər aparırlar.

Məktəb valideynlərin iştirakı olmadan yeni nəslin tərbiyəsi sahəsində qarşıya çıxan bütün problemləri həll etməkçətin olar. Şagirdlərin təlim müvəffəqiyyəti ilə valideynlərin pedaqoji bilikləri arasında birbaşa əlaqə vardır.

Ailə tərbiyəsində nöqsanlara yol verilməsinin səbəblərindən biri valideynlərin pedaqoji biliyinin az olmasıdır. Valideynlərin pedaqoji biliyinin artırılması üçün məktəblərdə valideynlərlə müxtəlif pedaqoji yönümdə işlər aparılır. Aparılan bu işlər kollektiv və fərdi xarakter daşıyır.

*Kollektiv əlaqə formalarına* - sinif valideyn yığıncaqları, valideynlər üçün məsləhət saatları, valideynlər üçün “açıq qapı” günləri, valideyn konfransları, valideynlərin ayrı-ayrı siniflər ilə tematik məsləhətlərin və praktik məşğələlərin təşkili, müntəzəm şəkildə keçirilən pedaqoji söhbətlərdaxildir.

*Fərdi əlaqə formalarına*- sinif rəhbərinin bu və ya digər şagirdin ailəsinə getməsi, valideynlərin məktəbə dəvət olunması və s. daxildir

*Qrup halında əlaqə formalarına* - tez-tez intizamı pozan, pedaqoji təsirlərdən nəticə çıxarmayan iki və daha artıq məktəblinin valideynlərin sinfə çağırılması, pedaqoji və psixoloji maariflənməyə ehtiyacı olan bir sinfin valideynləri üçün pedaqoji lektoriyalardaxildir.

Müəllim adları qeyd olunan formaların hər biri haqqında şagirdlərə məlumat verməlidir. Valideynlərlə aparılan pedaqoji, nəzəri və metodiki işlərin əksəriyyəti kollektiv xarakter daşıdığından bu məsələlərə toxunulması vacibdir.

Mühazirə və söhbətin məzmununu dərk etmək imkanı bütün dinləyicilərdə eyni olmur. Oxunan mühazirələr, aparılan söhbətlər, müzakirələr, disputlar heç də həmişə pedaqoji cəhətdən məqsədəuyğun nəticə vermir. Zəruri pedaqoji nəticəni əldə etmək üçün valideynlərlə fərdi surətdə işləmək lazımdır. Valideynlərin pedaqoji savadının artırılması, isə diferensial yanaşma daha səmərəli nəticə əldə edilməsinə şərait yaradır. Pedaqoji biliyin təbliğində diferensial yanaşma dedikdə, hər hansı bir meyar əsasında müəyyənləşdirilmiş valideyn qrupları ilə məqsədəuyğun və planlı şəkildə aparılan nəzəri-metodiki işlər nəzərdə tutulur.

Bu zaman müəllim müxtəlif situasiyalarda hər bir qrup üçün daha səmərəli olan vasitə və yollardan istifadə edir. Valideynlərlə aparılan işin məqsədindən asılı olaraq diferensiasiyanın meyarı müxtəlif ola bilər: “Valideynin məktəbə münasibəti”, “Ailənin strukturu”, “Valideynin pedaqoji hazırlıq səviyyəsi” və s. Pedaqoji savad səviyyəsinə görə, valideynləri əsasən, üç qrupa ayırmaq məqsədəuyğundur:

1. Valideynlər yüksək pedaqoji savadları, uşaqların tərbiyəsinə göstərdikləri marağa görə digərlərindən fərqlənirlər. Belə valideynlər daim yeni ədəbiyyatı izləyir və öz pedaqoji təhsillərini müntəzəm olaraq artırırlar.

2. Valideynlər uşaqların tərbiyəsi işinə böyük maraq göstərirlər. Lakin, onlar kifayət qədər pedaqoji hazırlığa malik olmadıqlarından övladlarının tərbiyəsində müntəzəm müvəffəqiyyət qazana bilmirlər. Övladları ilə aralarında qısa müddətli münaqişələr yarandıqda sinif rəhbərinə müraciət edir, onunla məsləhətləşirlər. Onlar məktəbin müxtəlif tədbirlərində də fəal iştirak edir, uşaqlarının yaxşı oxuması üçün əllərindən gələni əsirgəmirlər.

3. Valideynlər pedaqoji savadlarının aşağı olduğu üçün övladlarının tərbiyəsinə maraq göstərmirlər. Belə ailələrdə tez-tez uşaqlarla valideynlər arasında münaqişələr baş verir.

Birinci qrupa daxil olan valideynlərlə iş zamanı, ilk növbədə, onların pedaqoji ustalığına və təcrübəsinə arxalanmaq və onlara metodik xarakter daşıyan tapşırıqlar vermək lazımdır. Belə valideynləri ən yeni pedaqoji ədəbiyyatla tanış etmək, onların pedaqoji məharətlərini artırmaq qayğısına qalmaq lazımdır.

Məktəb ikinci qrup valideynlərin nəzəri biliyini artırmağa çalışmalıdır. Bu məqsədlə onlarla “uşağın asudə vaxtının təşkili”, “Mədəni davranış qaydaları” və s. məsələləri əhatə edən söhbətlər aparmaq faydalıdır. İllüstrativ nümunə əsasında misallar gətirmək və izahedici konkret situasiyada nə üçün belə etmək lazım olduğunu izah etmək, tematik yığıncaqlardaxarakterik tapşırıqlar vermək lazımdır. Tapşırıqların həlli, valideynlərin nəzəri biliklərini artırmaqla yanaşı qazandıqları bilikləri əməli olaraq tətbiq etmək bacarığını formalaşdırır.

Üçüncü qrupa daxil olan valideynlərlə əsasən fərdi söhbət etmək, valideynlərin səhvlərini izah etmək lazımdır. Müntəzəm olaraq aparılan fərdi söhbətlər bir müddət sonra bu valideynlərlə qrup şəklində məşğul olmaq imkanı yaradacaq, bu zaman alternativ xarakterli tapşırıqlar təklif edilə bilər. Belə tip

tapşırıqlar valideynlərin hər hansı bir situasiyaya münasibətini və səhvini öyrənməyə imkanı verir, ardınca səhvlər müzakirə edilir, müəllimlər tədricən bu valideynlərlə izahedici xarakter daşıyan tapşırıqlar verməklə onlara sərbəst fikir yürütmək imkanı yaradır.

Sinif rəhbərinin ailələrlə işinin əsas məqsədi şagirdlərin tərbiyəsində vahid tələbkarlığı müəyyənləşdirməkdir. Sinif rəhbərinin apardığı tərbiyə işinin səmərəliliyi məktəb və ailənin qarşısında dayanan, tərbiyə vəzifələrinə cavab verən müxtəlif forma və metodların, habelə işin məzmununun hansı səviyyədə uzlaşmasından çox asılıdır.

## 2.4. Sinifdənxaric tərbiyə işlərinin təşkili

Sağlam kollektivin yaradılmasında, onun mütəşəkkil fəaliyyətində, şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsində, sinif kollektivinin qarşısında duran problemləri araşdırmaqda, tərbiyəvi vəzifələri operativ həll etməkdə və kollektivi hər hansı bir işə səfərbər etməkdə sinif saatı ən yaxşı vasitədir. Məktəblərdə sinif rəhbərləri tərəfindən tərbiyə işinin əsas forması hesab edilən, bütün təlim-tərbiyə prosesini və onun təhlilini əhatə edən "sinif saatı" geniş tətbiq olunur.

Dərsdənkənar tərbiyə işiolan sinif saatı bir qayda olaraqhəftənin sonunda dərsdən sonra, frontal keçirilir və uşaqların müvəffəqiyyət problemlərini həll etməklə məhdudlaşır, tərbiyə məsələlərini yüksək (məzmunlu) səviyyədə həll etməyə imkan vermir. Sinif rəhbərinin əvvəlcədən dərs cədvəlinə daxil edilməklə həftədə bir dəfə müəyyən olunmuş gündə keçirilən sinif saatında vəzifəsi şagirdlərdə məqsədyönlü, işgüzar ünsiyyəti təmin etmək, sinifdə sağlam əxlaqi mühit yaratmaqdır.

Buradakı səmərəlilik onun say çoxluğunda deyil, pedaqoji cəhətdən düzgün qurulması, keçirilmə metodikası şagirdlərin şüur və davranışına təsir etməklə, kollektivin fəallığı və təşəbbüskarlığı ilə ölçülür. Təcrübələr göstərir ki, sinif saatının mütləq hər həftə keçirilməsi heç də vacib deyil, digər tərbiyəvi iş formaları ilə növbələşdirərək ayda bir-iki dəfə keçirmək kifayət edir. Şagirdlərin özlərinin onun qurtarmasını hiss etdikləri və "tələb etdikləri" zaman yekunlaşdırılmalı, uşaqlar yorulanadək davam etdirilməməlidir. V-VI siniflərdə sinif saatı 40-45

dəqiqə, yuxarı siniflərdə isə, əgər mövzu aktual və maraqlıdırsa, bir saata qədər artırıla bilər. Sinif saatlarından nəsihət, öyüd vermək üçün istifadə edilməsi arzuolunmazdır. Uşaqlar hiss etməlidirlər ki, onları tərbiyə işi aparmaq üçün deyil, sadəcə olaraq, səmimi söhbət, bir-biri ilə ünsiyyət yaratmaq üçün yığmışlar.

Sinif saatlarını keçirərkən sinif rəhbəri mövzunun seçilməsi, keçirilmə yeri və vaxtı, "sinif saatı"nın planının tərtibi və keçirilməsinə hazırlıq, əksər məktəblilərin hazırlıq prosesinə cəlb olunması, şagirdlər arasında tapşırıqların bölünməsi, şagirdlərin tərbiyə səviyyəsini, sinfin xüsusiyyətlərini, onların yaş xüsusiyyətlərini nəzərə almaq imkanı və s. məsələləri həll etməlidir.

Sinif saatı şagirdlərin təhsilinin və tərbiyəsinin qarşısında duran vəzifələri əhatə etməlidir. Şagirdlərin mənəvi problemlərini öyrənmək, onların dünyagörüşünü formalaşdırmaq, Azərbaycanın müstəqilliyi və suverenliyi, dövlətçiliyi haqqında bilik və təsəvvürlərini genişləndirmək, bu yolda canlarını qurban verənləri və hazırda Azərbaycanı qurub yaradanları, inkişaf etdirənləri, onların gərgin əməyini, fəaliyyətini anlatmaq, vətənimizin dostları və düşmənlərini tanıtmaq, dövlətimizin əsas rəmzlərini, Əsas Qanunu öyrətmək, hər bir məktəblinin mənəvi aləmini zənginləşdirmək sinif saatının məzmununda özünə möhkəm yer tutmalıdır. Göstərilən məzmun konkret mövzularda öz əksini tapmalı və sinif rəhbərinin iş planına daxil edilməlidir.

Sinif saatı mövzuya və şagirdlərin yaş xüsusiyyətlərinə uyğun, sinfin hazırlıq səviyyəsinə müvafiq olaraq müxtəlif formalarda – söhbət, müzakirə, görüş, disput, viktorina, şifahi jurnal kimi də təşkil edilə bilər. Sinif saatı sinfin ali orqanı kimi sinfin mühüm işlərinin əsas təşkili formasıdır və onun keçirilməsinə verilən əsas tələb bütün şagirdlərin bu tədbirlərdə fəal iştirakıdır. Onlar bir-birinə oxşamamalı və təkrar olunmamalıdır, rəngarəngliyi ilə seçilməlidir.

Şagirdlər və sinif rəhbəri seçilmiş mövzuya əvvəlcədən hazırlaşırlar. Bundan sonra qoyulmuş məsələnin müzakirəsi başlanır. Məktəblilər qısa məlumatlarla çıxış edir, məsələyə aid mühakimə yürüdür və suallara cavab verirlər.

Sinif saatının bu cür təşkili şagirdə hiss olunan dərəcədə pedaqoji təsir göstərir, onun kim olduğunu dərk etməyə, tərbiyənin şüurlu və fəal subyektinə çevrilməsinə kömək edir. Sinif saatı mövzudan asılı olaraq məktəbdənkənar da keçirilə bilər (məs., əgər sinif saatı təbiətin qorunmasına həsr olunubsa, əlbəttə, bu mövzu təbiətin qoynunda – bulaq başında, yaxud nəbatət bağında keçirilə

bilər. Yaxud yol hərəkəti qaydalarına həsr olunmuş sinif saatı yaxşı olar ki, DYP-nin tədris mərkəzində və ya xüsusi tərtib edilmiş sinif otağında təşkil edilsin.)

Məktəb təcrübəsindən sinif saatının, əsasən, üç - maarifləndirici, istiqamətverici və təşkiledici funksiyasının olduğu məlumdur.

– ***maarifləndirici funksiya*** onunla izah edilir ki, sinif saatında şagirdlərin bilik və dünyagörüşləri genişləndirilir, məlumatlılıq səviyyəsi artır və fənlərin yaxşı öyrənməsinə əsas yaranır. Belə sinif saatının mövzusu ölkəmizin iqtisadi, siyasi həyatına, elm və texnika yeniliklərinə, tarix, ədəbiyyat, mədəniyyət və soykökümüzlə bağlı mövzulara həsr edilə bilər.

Bu istiqamətdə sinif saatının mövzuları müxtəlif ola bilər. Məsələn; "Azərbaycanın təbii sərvətləri", "Xalqımızın böyük oğulları", "Əsrin müqaviləsi", "İpək yolu","Bizim Konstitusiyamız", "Dövlət rəmzlərimiz", "Xalqımızın tarixi abidələri", habelə maraqlı həyat hadisələrindən, elm və texnika yeniliklərindən, öyrənilmiş və öyrənilməmiş sirlərindən sinif saatlarında danışmaq olar.

– ***istiqamətverici funksiyalı*** sinif saatında şagirdlər praktik olaraq, fəaliyyətə, əməli işə, ictimai-faydalı əməyə istiqamətlənirlər. Bu zaman şagirdlər real olaraq praktik fəaliyyətə qoşulurlar.

– ***təşkiledici funksiyalı*** sinif saatı isə sinif kollektivinin təşkilinə, kollektivdə ictimai rəyin yaradılmasına, ictimai münasibətlərin təkmilləşməsinə, kollektivin hər hansı işə səfərbər edilməsinə həsr olunur. Bir sıra təcrübəli sinif rəhbərləri hər bir tədris ilinin əvvəlində təşkilati sinif saatı keçirirlər. Bu saatda sinfin fəallarının-şagirdlərin ictimai tapşırıqları, vəzifələri bir daha konkretləşdirilir. Sonra şagirdlər sinfin iş planı ilə tanış olurlar, planın iş bölgüsü icraçılar, təşkilatçılar və s. tərəfindən müəyyənləşdirilir.

Təşkilat funksiyalı sinif saatlarında sinfin təlim-tərbiyə işlərinin vəziyyəti, şagirdlərin davranışı, təhsilə, yoldaşlarına münasibəti və s. məsələlər müzakirə edilə bilər. Belə müzakirələr şagirdlərin mənəvi, əxlaqi keyfiyyətlərinin inkişafına, onların mütəşəkkil fəaliyyətinə, kollektivin möhkəmlənməsinə, fəaliyyətinin təkmilləşməsinə kömək edir.

Sinif saatında ekspromt söhbətlər də aparılmaqla əvvəlcədən nəzərdə tutulmamış, hazırlıq görülməmiş, qəflətən ortaya çıxan məsələ haqqında söhbət edilir. Bu çox zaman ayrı-ayrı şagirdlərin müəyyən hərəkət və davranışı, habelə şagird qaydalarının pozulması halları, hüquq və vəzifələri müzakirə edilir,

operativ qərarlar çıxarılır. Bəzən sinfin həyatında baş verən gözlənilməz hadisə, münaqişə, mürəkkəb situasiyalar müzakirə və təhlil edilir.

Belə hallarda təcrübəli sinif rəhbərləri təkcə günahkarları müəyyənləşdirməklə kifayətlənmir, həm də hadisəni müzakirə etməklə bu və ya digər əxlaqi-etik problemin mahiyyətini hər bir şagirdə anlaşıqlı şəkildə izahatını verir. Şübhəsiz, belə sinif saatı şagirdlərin əxlaqi şüur və davranışının, mənəviyyatının formalaşmasına müsbət təsir göstərir, onların ədalətli, prinsipial hərəkət etmələrinə, öz yoldaşlarına qarşı diqqətli olmağa, hərəkətlərinə düzgün qiymət verməlɘrinə kömək edir.

Sinif saatları öz təşkil xüsusiyyətlərinə görə də 3 növə bölünür:

1. Sinif rəhbəri şəxsən özü təşkil edir və bu zaman sinif rəhbərləri müəyyən aktual mövzu ilə şagirdlər qarşısında çıxış edir. Mövzular rəngarəng və müxtəlif ola bilər. Məsələn; "Asudə vaxtı necə keçirməli?", "Gün rejimini necə qurmalı?", "Müstəqil çalışmağın sirləri" və s. Əlbəttə, sinif rəhbərləri belə mövzulara hazırlaşmalı və yeri gələrsə, ayrı-ayrı mütəxəssisləri, pedaqoq-alimləri cəlb edə bilərlər.

2. Sinfin şagirdləri təşkil edir. Sinif rəhbəri şagirdlərlə birlikdə sinif saatının mövzusunu müəyyənləşdirir, şagirdlərin kitabxanadan, dövri mətbuatdan istifadə etmələri üçün istiqamətlər göstərir, bədii ədəbiyyatdan, həyatdan nümunələr göstərmək üçün tapşırıqlar verir. Şagirdlər sinif saatına müstəqil hazırlaşarkən fəallıq və təşəbbüskarlıq göstərir, maraqlı təkliflər, yaradıcı fikirlər irəli sürürlər. Belə sinif saatları daha çox yaradıcı xarakterli olur, sinif onu bayram təntənəsi kimi səbirsizliklə gözləyir. Bu növ sinif saatlarının keçirilməsinə "Qarabağ Azərbaycandır!", "Torpaqdan pay olmaz", "İtiqovan – Böyük Vətən müharibəsindən qiymətli xatirə", "Vətən onlarla fəxr edir", "Doğma diyarım" və s. mövzular misal ola bilər.

3. Dəvət edilmiş şəxslər aparıcılığı ilə müxtəlif peşə sahibləri, maraqlı həyatı olan şəxslərin, müharibə iştirakçılarının, veteranların iştirakı ilə keçirilir. Şagirdlərin belə şəxslərlə görüşü onların təlim və tərbiyəsinə qüvvətli təsir göstərir, bilik və dünyagörüşünü xeyli genişləndirir. Tədbirə hazırlaşarkən sinif rəhbəri görüş iştirakçısı ilə əvvəlcədən görüşüb söhbət edir, tədbirin istiqaməti, məqsəd və vəzifələri, sinfin xüsusiyyətləri və s. məsələlər haqqında onlara məlumat verir. Bununla bərabər, sinif rəhbəri də şagirdləri görüşə hazırlaşdırır. Kimin

gəlməsi haqqında, onun şəxsi keyfiyyətləri, ictimai vəzifəsi haqqında məlumat verir. Sinfin fəallarına görüşün təşkili üçün lazımi tapşırıqlar da verir. Onlar sinfi tərtib edir, hədiyyələr alır, çıxışa hazırlaşır, özfəaliyyət kollektivinin konsertini hazırlayırlar. Vacib olan odur ki, şagirdlər hörmətli qonağı lazımınca qarşılasın, salamlasın, qayğıkeşlik nümayiş etdirsin və diqqət göstərsin, çıxışını alqışlasın, hörmətlə yola salsın.

Dərs kimi sinif saatına da hazırlaşmaq zəruridir, hər sinif saatına həm keçirilmə ərəfəsində, həm də bütün pedaqoji fəaliyyət boyu hazırlaşmaq lazımdır. Bunun üçün sinif rəhbərinin kifayət qədər biliyi, təşkilatçılıq, didaktik, konstruktiv, kommunukativ qabiliyyəti olmalıdır.

### 2.5. Valideynlərlə və ictimai təşkilatlarla birgə işin qurulması

Sinif rəhbərinin tərbiyəvi iş planırəhbərlik etdiyi siniflə bağlı olub həm tərbiyənin məqsəd və vəzifələrini nəzərə almalı, həm də məktəbin ümumi iş planı ilə hesablaşmalıdır.

Sinif rəhbəri tədbirlər planı hazırlayarkən sinfin bilik və tərbiyəlilik səviyyəsini, onların maraq və tələbatlarını, psixoloji keyfiyyətlərini nəzərə alır. Sinfin tərbiyə işlərinə aid plan illik və yarımillik tərtib edilir, sinif rəhbəri öz işini daha konkret qurması üçün "Aylıq təqvim plan" da tutması arzuolunandır

Təlim-tərbiyə işini planlaşdırarkən sinif rəhbəri yeddi tələbi əsas götürməlidir:

1) məqsədəuyğunluq; 2) optimallıq; 3) planın reallığı; 4) konkretlik (icra vaxtı və məsul şəxs dəqiq göstərilməli); 5) yaşauyğunluq; 6) yerli şəraitin nəzərə alınması; 7) perspektivlik və işdə rejimin təmin edilməsi.

Sinif rəhbəri öz işini planlaşdırarkən "Məktəblilərin tərbiyə edilməsinin nümunəvi məzmunu"nu əsas götürməlidir. Sinfin iş planı müəyyən ardıcıllıqla qurulmalıdır. Adətən, iş planının əvvəlində sinfin ümumi səciyyəsi verilir. Buna çox zaman sinfin pasportu da deyilir. Sonra sinif fəallarının xarakteristikası verilir və sinfin qarşısında duran tərbiyəvi tədbirlər qeyd edilir.

"Şagird kollektivi ilə aparılan işlər" bölməsində bir tədris ili ərzində şagirdlərlə aparılacaq tərbiyə işlərinin əsas məzmunu planlaşdırılır. Bura daxildir: Şagirdlərlə aparılan intellektual tərbiyə işləri; Əxlaq tərbiyəsi üzrə aparılan işlər; Şagirdlərin mənəvi tərbiyə məsələləri; Əməksevərlik tərbiyəsi; Estetiik tərbiyə;

Fiziki tərbiyə və sağlamlıq işləri; Uşaq birliyi və Gənclər təşkilatı ilə aparılan işlər; "Valideynlərlə aparılan işlər"

Tədbirlərin təşkili zamanı sinif rəhbəri tərbiyəyə kompleks yanaşma prinsipinin tələblərini əsas götürməli və hər bir tədbirin məzmununu müəyyənləşdirərkən bu prinsipin tələblərindən çıxış etməlidir.

Planlaşdırma işlərində və ümumiyyətlə tərbiyə işlərinin təşkilində şagirdlərin fərdi xüsusiyyətlərini, onların həyat şəraitini öyrənmək tərbiyə işində çox mühüm amildir. Bu, birinci növbədə, sinif rəhbərinin vəzifəsinə daxildir. Sinif rəhbərinin işinin müvəffəqiyyəti və səmərəliliyi hər bir şagirdin daxili aləmini, psixologiyasını dərindən bilməkdən də asılıdır. Məktəblilərin fərdi xüsusiyyətlərini yaxşı bilmədən onları düzgün tərbiyə etmək mümkün deyildir.

Sinfin tərbiyə işinin səmərəli təşkili və həyata keçirilməsi üçün onun məqsədyönlü, real, məzmunlu və aydın planlaşdırılması zəruridir və vacibdir. Sinif şagirdləri ilə aparılacaq işlərin düzgün planlaşdırılması tərbiyə prosesinin səmərəsinin və keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Sinif rəhbərinin tərtib etdiyi tərbiyəvi iş planı iki başlıca məqsəd güdməli, iki mühüm tələbə cavab verməlidir:

1) Sinif rəhbərinin iş planı məktəbin qarşısında qoyulan təlim-tərbiyə prosesinin xüsusiyyətlərinə;

2) Habelə sinfin xüsusi inkişaf səviyyəsinə, real imkan və tələblərinə uyğun şəkildə konkret və aydın olmalıdır.

Sinif rəhbəri tərbiyəvi iş planını müasir məktəbin məqsəd və vəzifələrini, öz sinfinin ümumi inkişaf səviyyəsini və vəziyyətini, ayrı-ayrı şagirdlərin fərdi xüsusiyyətlərini, ailə vəziyyətini, maddi imkanını, fiziki və mənəvi tələbatını və s. nəzərə alaraq tərtib etməli və hazırlamalıdır. Sinif rəhbərinin iş planı mürəkkəb, çoxcəhətli və maraqlı səciyyə daşıyan sənəddir. Bu sinif rəhbərinin ən məsuliyyətli işinin mahiyyətini aşkara çıxarır.

Hətta iki qoşa siniflərdə bir planla müvəffəqiyyətlə işləmək mümkün deyildir və olmaz. Sinif rəhbərinin iş planı, adətən, rüblük, yaxud yarım illik hazırlanır. Sinif rəhbərinin iş planında, ilk növbədə, sinif haqqında ümumi informasiya faktları ("Sinfin pasportu") verilir.

Sinif rəhbəri planının "Sinif pasportu" adlı giriş hissəsində sinifdəki şagirdlərin ümumi sayı, o cümlədən oğlan və qızların, əlaçıların miqdarı, hətta

uşaqların soyadı və adları da göstərilməlidir. Bu məlumatla bərabər, həmin hissədə sinif rəhbərləri sinif nümayəndəsinin, sinif divar qəzetinin redaksiya heyəti üzvlərinin, Uşaqlar birliyi təşkilatının, sinif valideyn komitəsi üzvlərinin soyadı və adlarını qeyd edirlər. Planda sinfin səviyyəsini və fəaliyyətini ümumi şəkildə səciyyələndirən qısa xarakteristika verilir. Planın giriş hissəsində isə tədris ilinin yarım ili, yaxud il ərzində sinfin qarşısındakı vəzifələr müəyyənləşdirilir və aydın göstərilir. Bölmələr adı altında həyata keçirilməsi nəzərdə tutulan tərbiyəvi işlər və tədbirlər planda konkret və aydın şəkildə yazılır və onun icra olunması tarixi də qeyd olunur. Uşaqlar birliyi və Gənclər təşkilatlarının iştirakı ilə birgə aparılacaq işlər, görüləcək tədbirlər göstərilir, bu tədbirlərin həyata keçirilməsi üçün məsul şəxslərin, cavabdeh rəhbər şagirdlərin, sinif şagird təşkilatlarının soyadları və adları da qeyd olunur.

Sinfin tərbiyəvi tədbirlərində rəhbər-pedaqoji heyətin, sinif valideyn komitəsinin üzvlərinin, ayrı-ayrı valideynlərin və s. də iştirakı zəruri olur və onlar sinfin sinifdənkənar müəyyən tədbirlərində iştirak etməli olurlar. Sinif kollektivi və ya onun fəal üzvləri, ayrı-ayrı rəhbər təşkilatçı şagirdləri məktəb üzrə təşkil edilib keçirilən müəyyən tədbirlərdə (fənn gecələrində, idman yarışlarında və s.) bəzən bir yerdə fəal iştirak edir, belə işlərə cəlb edilirlər. Bütün bu tədbirlər sinif rəhbərinin tərbiyə işlərinə illik iş planında öz əksini tapmalı və aydın qeyd olunmalıdır.

İş planı belə layihə şəklində hazır olduqda, onunla əvvəlcə sinif fəallarının, sonra isə sinfin bütün şagirdlərinin tanış edilməsi zəruridir. Bu tanışlığı "sinif saatı"nda həyata keçirmək mümkündür. Bu zaman şagirdlərə planda həyata keçirilməsi nəzərdə tutulan ayrı-ayrı konkret maddələr və məsələlər ilə bilavasitə yaxından tanış olur və real vəziyyətdən çıxış edərək öz mənəvi maraq, arzu və təklifləri ilə sinfin qarşısına qoyulan perspektiv vəzifələrin, tədbirlərin daha da zənginləşməsində fəal iştirak edirlər.

Sinfin iş planında şagird kollektivinin rəy, arzu və istəklərinin nəzərə alınması planda göstərilən həmin işləri şagirdlərin həvəslə və ləyaqətlə həyata keçirməsinə maraq və imkan yaradır, habelə onların təşəbbüskarlığını, məsuliyyətini, fəallığını artırır. Şagirdlərin arzu etdikləri və özlərinin əqli, fiziki, əxlaqi, əmək, estetik tələbatı üçün zəruri və faydalı bildikləri tədbirlərin daha yüksək səviyyədə təşkili və keçirilməsində böyük həvəslə və fəal iştirak edir və onları

ləyaqətlə həyata keçirməyə nail olurlar. İş planının layihəsi müzakirə olunarkən sinif rəhbərinin rəhbər rolu, aparıcı mövqeyi mühafizə olunur və yalnız şagirdlərin fəallaşdırıcı təklifləri nəzərə alınır və plana daxil edilir sinif rəhbəri müzakirə vaxtı məktəbin məqsəd və vəzifələri baxımından şagirdlərin rəy və çıxışlarına mütləq münasibət göstərir, onlara düzgün təlimat və istiqamət verir.

İş planı tam hazır olduqda və rəhbərlik tərəfindən təsdiq edildikdə, sinif rəhbəri onun əsasında işə başlayır. Belə ki, o, vaxtaşırı sinfin iş planını nəzərdən keçirib oradakı maddələrə, məsələlərə diqqətlə baxıb, nəzərdə tutulan tədbirləri bir-bir sinfin şagirdləri və aidiyyəti olan şəxslərlə birlikdə konkret vaxtda təşkil edir və həyata keçirir.

Görülmüş işləri, həyata keçirilmiş tədbirləri isə icra edilmiş iş kimi, həmçinin icra edilməmiş tədbirləri, onların yerinə yetirilməməsinin obyektiv səbəblərini konkret şəkildə planın "Qeyd" qrafasında qeyd edib yazır.

## Nəticə

Tədqiqat materiallarının ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlmək və ümumtəhsil məktəblərində tərbiyə işinin məzmununun yaxşılaşdırılması, müəllimin (sinif rəhbərlərinin) fəaliyyətində tərbiyə işinin daha səmərəli təşkil edilməsi üzrə müvafiq təkliflər vermək imkanı verir:

1. Ümumtəhsil məktəblərində tərbiyə işinin məzmununun milli mənəvi və bəşəri dəyərlər əsasında formalaşması mühüm əhəmiyyət kəsb edir.

2. Müəllimin şagirdləri, xarakterini, onların kollektivə olan münasibətini, müəyyən fəaliyyət növlərində iştirakını, şəxsiyyətlərarası münasibətlərini öyrənməsi və kollektivdə mövqeyinin formalaşmasına təsir imkanlar genişdir.

3. Müəllim - şagird münasibətlərinin pedaqoji-psixoloji tələblər əsasında qurulmasında ilk növbədə müəllimin üzərinə böyük məsuliyyət düşür. Münasibətlər sisteminin demokratik yanaşmalara əsaslanması vacibdir.

4. Sinif rəhbərinin müəllimlərlə apardığı işin məzmunu, fənn müəllimlərinin tərbiyəvi fəaliyyəti müasir innovasiyalar əsasında müəyyən edilməlidir.

5. Sinifdənxaric tərbiyə işlərinin valideynlərlə və ictimai təşkilatlarla birgə əlaqələndirilməsi vacibdir.

6. Tərbiyə işində onun metod və formalarının doğru seçilməsi vacib şərtlərdəndir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov A. Pedaqogika (orta ixtisas məktəbləri üçün dərs vəsaiti). Bakı: Mətərcim, 2010, 344 səh,

2. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Ali məktəblərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2015. 324 s.

3. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013. 202 s.

4. Abbasov A.N. Avestada tərbiyə məsələləri // Elmi əsərləri, ARTPİ, Bakı: 2008. № 2, s. 50-53.

5. Abbasov A.N. İslam dinində əxlaqi təlimin mahiyyəti // Elmi əsərlər, ARTPİ, Bakı: 2008. № 4, s. 64-70.

6. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013, 360 s.

7. Abbasov Ə. Şəxsiyyətyönümlü kurikulumlar əsasında yaradılan dərsliklərin xüsusiyyətləri // Kurikulum, Bakı: 2008, № 4, s.8 -12

8. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Pedaqoji ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: Penessans, 2000, s. 103-115

9. Abbasov M., Abbasov V., Abışov N., Əliyev V., Əliyev A., Məhərrəmov A., Əliyeva R., Hacıyeva S. Kimya (8-ci sinif). Bakı: "Aspoliqraf" MMC, 2015.

10. Abiyev A.Q. Xalqın mənəvi və fiziki inkişafının qayğıkeşi. Bakı: Adiloğlu, 2005, səh.10 (132)

11. Ağayev Ə.A. Həşimov Ə.Ş. Azərbaycan SSRİ-nin pedaqoji fikir antologiyası. Moskva: Pedaqogika, 1989. 340 s.

12. Ağayev Ə.Ə., Talıbov Y.R., İsayev İ.N. Pedaqogika: Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı: Adiloğlu, 2006. 280 s.

13. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşdırılması problemləri. Bakı: Adiloğlu, 2005. 188 s.

14. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006. 136 s.

15. Ağayev Ə.Ə. Məktəblərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı, 1975

16. Ağayev Ə.Ə. “Yeni təlim və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri”, //Elmi əsərlər, ARTPİ. Bakı, 2006, №1, s.43
17. Ağayev Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar // Azərbaycan məktəbi. Bakı, 2013. № 6, s. 25-32
18. Ağayev Ə.Ə. Təhsilin modernləşdirilməsi: tarixilik, varislik, müasirlik. “Müasir mərhələdə pedaqoji elmin inkişaf perspektivləri” toplusu. Bakı, 2004, 8 s.
19. Ağayev Ə., Talıbov Y., Eminov E. İsayev İ. Pedaqogika. Bakı, 2006
20. Axundov S. Şagirdləri rəğbətləndirmə və cəzalandırmada fərdi yanaşma // Azərbaycan məktəbi, Bakı, 1965, № 10, s. 19-25
21. Axundov S. İnandırma üsulunda mühüm vasitə // Azərbaycan məktəbi, Bakı, 1968, №4, s. 29-33
22. Alışova N., M.F.Axundzadə irsinin kitabxanalarda təbliği: metodik tövsiyə. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2012. 73s.
23. Arif H. Ayrı düşəli. Bakı: Gənclik, 1993. 280 s.
24. Aslanov A. İncəsənət və tərbiyə, Bakı: Gənclik, 1967.
25. Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009, 2011-2015-ci illəri əhatə edən proqram). Bakı: NPB, 30 avqust 2005, 6 aprel 2011. 92 s.
26. Azərbaycan Milli Ensiklopediyası. Bakı: AME, 2007. 881 s.
27. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun. 2002. 100 s.
28. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı: Qanun, 2011. 57 s.
29. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan müəllimi. Bakı, 2013, 25 oktyabr.
30. Azərbaycan Respublikasının Milli Təhsil Konsepsiyası. Bakı, 2012.
31. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016.
32. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: Qanun, 2006. 445 s.
33. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. Bakı: Elm, 1996. səh. 187-226
34. Azərbaycan Pespublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) //30 oktyabr 2006-cı ildə qəbul edilmişdir // Azərbaycan məktəbi, Bakı, 2007. №2, s. 5.

35. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Fənn kurikulumları (I – IY siniflər). Bakı, 2008, s.105

36. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan müəllim-lərinin XIV qurultayının iştirakçılarına təbrik məktubu / Azərbaycan müəllimi. Bakı, 2013, 20 dekabr, № 49, s.1

37. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası // Təhsil xəbərləri, Bakı, 2012. № 6, s.8

38. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı: Lider, 2005. 472 s.

39. Azərbaycan tarixinin xronologiyası. URL: www.ens.az › azerbaycan-tari... (istinad tarixi: 25.03.2020)

40. Azərbaycanın təbii sərvətləri. URL: az.wikipedia.org/wiki/ Azərbaycanın_təbii.. (istinad tarixi: 19.04.2020)

41. Azərbaycan müəllimlərinin qurultayları. I-XII. (Tərtibçi M.C. Mərdanov) Bakı: Çaşoğlu, 2007. 783 s.

42. Azərbaycan-alman elmi pedaqoji ədəbi və mədəni əlaqələri tarixinə bir nəzər. Bakı: Nurlan, 2016. 120 s.

43. Azərbaycan Təhsili XXI əsrin astanasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə çap olunmuşdur. Bakı, 1998.

44. Az söylə, saz söylə (Sərgin şifahi və yazılı sənət abidələrində tərbiyəvi fikirlər) Tərtib edənlər: Akif Abbasov, Səadət Həsənova. Bakı: Maarif, 1992.

45. Babayev A. Konstitusiyamız və məktəblilərin mənəvi tərbiyəsi / Azərbaycan müəllimi. Bakı, 1997, 18 sentyabr.

46. Babayev Y. Əxlaqi-didaktik əsərlərimiz milli sərvətimizdir // Azərbaycan məktəbi. Bakı, 2014, № 3.

47. Babayev R. “Yeniyetmələrin milli – mənəvi ruhda tərbiyə olunmasında fiziki tərbiyə fənninin imkanları//Xəbərlər. Bakı, 2007, № 2-3, s.174

48. Balayev M.A. İslam və onun ictimai-siyasi həyatda rolu. Bakı: Azərnəşr, 1991. 155 s.

49. Balasaqunlu Y.Kudatqu-bilik. Bakı, 1994. 13 s.

50. Bakıxanov A. Nəsihətnamə. Bakı: Azərnəşr, 1982. 45 s.

51.Bakı metrosunda baş vermiş dəhçətli qəza / Sonxeber.az. Bakı, 2015. 28 oktyabr

52. Bammat H. Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı: Maarif, 1994. 62 s.

53. Bəhmən Mirzə Qacar Şükürnameyi-Şahənşahi. Bakı: Şuşa, 1999. 64 s.

54. Cəbrayılov İ.H. Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar. Bakı: Mütərcim, 2019, 276 səh.

55. Cəfərov M. Estetik zövq haqqında. Bakı: Azərnəşr, 1955.

56. Cəlilova X. "İslam müqəddəslərinin həyatında və fikirlərində fiziki tərbiyə motivləri"//Elmi əsərlər. Təhsil Problemləri İnstitutu, 2010, № 2, s.184

57. Cəfərov, H. Obyektiv və subyektiv amillərin sağlam həyat tərzinə təsiri // Azərbaycan məktəbi, Bakı, 2008, № 4, s.59-66

58. Cəfərov H. Ümumi və pedaqoji valeoloqiyanın bəzi aspektləri//Psixologiya. Bakı, 2015. № 3 – 4, səh. 99-115

59. Əhmədov H. Azərbaycan Respublikası Konstitusiyasında təhsil və tərbiyə məsələləri. Bakı: Elm, 1998, s. 34-37

60. Əhmədova M., Əliyev M., Qasımlı M. və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında) Bakı: Adiloğlu, 2006, səh.22-53.

61. Əkbərov T.Təbiət, insan, gözəllik. Bakı: Azərnəşr, 1966.

62. Ələkbərov F.U. Şərq təbabəti və mlli xörəklərimiz. Bakı: Elm, 1994, 212 səh.

63. Əliyev İ. Bakı Dövlət Universitetinin 100 illik yubileyi. URL: *president.az* › articles (istinad tarixi: 28.04.2020)

64. Əliyev İ. Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti. Bakı: Azərnəşr, 1995

65. Əliyev P.B. Ailə tərbiyəsinin pedaqoji prinsipləri. URL: Aztehsil.com aztehsil.com (16.07.2020).

66. Əliyev P.B., Əhmədov H.H. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı: Təhsil, Beynəlxalq Universiteti nəşriyyat və poliqrafiya mərkəzi. ABU, 2004, 220 səh.

67. Əliyev H. Dünya Azərbaycanlılarının I Qurultayı ( 09.11.2001) / Azərbaycan müəllimi qəzeti, Bakı, 2001. 10-22 avqust,

68. Əliyev R.İ. Tərbiyə psixologiya. Bakı: Nurlan, 2006.

69. Əsədov A. Sağlam həyat və bədən tərbiyəsinin gigiyenik aspektləri. Bədən tərbiyəsi sağlam həyat tərzinin əsasıdır. (Elmi – praktik konfransda məruzələrin tezisləri), 7 iyun, səh. 80 -81.

70. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: Elmlər Akademiyası, 1960, s.125-136

71. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: Yazıçı, 1981, s.15-18

72. Göyüşov Z. "Fəzilət və qəbahət", Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1972.

73. Hacıyev İ. "Yadda qalan günlərim", Bakı: Gənclik, 1983

74. Həmzəyev M.Ə. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991, səh.291.

75. Həsənov X.N. "Təbiət və hikmət", Bakı: Elm, 1981.

76. Həsənli O. Dəyişən dünyada psixi sağlamlıq aktual məsələdir. //Azərbaycan məktəbi. Bakı: 2011, №3, -s.61

77. Həşimov Ə.Ş., Sadıqov F.V. Azərbaycan xalq pedaqogikası. Bakı: Qızıl Şərq, 1993, 275 s.

78. Hüseynzadə R., Qəhrəmanova K. Tərbiyə. Dərslik. Bakı, 2015.

79. İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 cilddə. I cild. – Bakı: Mütərcim, 2012, 706 s.

80. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Azərbaycan dili (4-cü sinif), Bakı, Aspoliqraf MMC, 2019, 223 səh.

81. İsmayılov R., Cəfərova D., Xudiyeva G., Qasımova X. Azərbaycan dili (5-ci sinif), Bakı: Altun kitab, 2016, 200 səh.

82. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı: ADPU, 2012.

83. İsmixanov M.A. Dərsdə şagirdlərin idrak fəaliyyətinin və yaradıcı müstəqilliyinin artırılması yolları // Azərbaycan məktəbi. Bakı, 1983, №7, s.21-27

84. İsmixanov M.A. Dərsdə şagirdlərin idrak fəaliyyətinin və yaradıcı müstəqilliyinin artırılması yolları // Azərbaycan məktəbi. Bakı, 1983, №7, s.21-27

85. Kazımov N.M. Məktəb pedaqogikası. Dərslik. Bakı: Çaşıoğlu, 2002

86. Kazımov N.M. Mərhələli tərbiyə nəzəriyyəsi. Bakı: Əlfərul, 2007.

87. Qabusnamə. Bakı, 1989. 20 s.

88. Qaralov Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika) II cild. Bakı: Pedaqogika, 2003. 304 səh.

89. Qaralov Z.İ. Tərbiyə, I cild. Bakı: Pedaqogika, 2003.

90. Qaralov Z.İ. Tərbiyə, II cild, Bakı: Pedaqogika, 2003.

91. Qaralov Z.İ. Tərbiyə, III cild, Bakı: Pedaqogika, 2003.
92. Qarabağlı S. Üzeyir Hacıbəylinin Publisistikasında musiqi məsələləri. Bakı, 2018. səh.64
93. Qaralov Z. Elm, saf əxlaq dünyasına açılan qapı (I cild). Bakı, 2009
94. Qasımov M.S.,Vəkilov V.N., Musayev R.H., Rəsulov R.Y. Sağlam həyat tərzi uğrunda. Bakı: Qismət, 2012.
95. Qasımova L., Mahmudova R. Pedaqogika, Bakı: Çaşıoğlu, 2012, səh. 453 (538)
96. Qısa estetika lüğəti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1970.
97. Marağalı Əvhədi "Cami – cəm", Bakı: Lider nəşriyyatı, 2004, s. 88-90
98. Mehrabov A., Abbasov Ə., Zeynalov Z, Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.
99. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012.
100. Məmmədov Z. Bədən tərbiyəsi və idmanın aktual xüsusiyyətləri. Bakı: Təhsil, 2009, s.207
101. Məmmədova N.Ə., Bağmanlı A.Z. Həyat bilgisi (müəllimlər üçün vəsait), Bakı: Şərq – Qərb, 2012, 73 səh.
102. Məmmədova N.Ə., Bağmanlı A.Z. Həyat bilgisi, dərslik, Bakı: Şərq - Qərb, 2012, səh.77
103. Məmməd Araz. Şerlər. URL: memmedaraz.az - Məmməd Araz (istinad tarixi: 08.03.2020)
104. Muradxanov M. Məktəblilərin ailədə tərbiyəsi. Bakı: Maarif, 1972, s. 120-130
105. Muradxanov M., Həşimov Ə. Vəlixanlı İ, Əfəndiyev T., Kərimov A., Axundov B. Məmmədov M. Pedaqogika. Bakı: Tədris pedaqoji ədəbiyyatı, 1964, s. 7-12
106. Muradova Z.B., Mikayılova K.V. Azərbaycan miltilulturalizmi monumental incəsənət kontekstində. Bakı: Orxan Nəşriyyat və Poliqrafiya Müəssisəsi, 2018, 152 səh.
107. NəcəfovA. İncəsənət və səhhət. Bakı: Azərnəşr, 1989.

108. Nəsirov E. Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasəti: varislik, novatorluq / Xalq qəzeti. Bakı, 2016. 14 may. s.3.

109. Nəsirov N. "Riyaziyyatın tədrisi prosesində şagirdlərin estetik tərbiyəsinin imkanları və səmərəli yolları" mövzusunda dissertasiya. (Pedaqoji elmlər namizədi, alimlim almaq üçün) Bakı, 1998.

110. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Rəhim Sultanovun ön sözü. Bakı: Lider. 2005. səh. 14

111. "Ölkəmizi tanıyaq" layihəsi şagirdlərin bölgələrimiz haqqında. URL: azertag.az (istinad tarixi: 12.04.2020)

112. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Nurlan, 2007

113. Rəhimov M. Uşaqların orqanizminin hərtərəfli, harmonuk inkişafında və stresin sabitləşməsində fiziki tərbiyə və idmandan istifadənin yol və vasitələri. Beynəlxalq olimpiya elmi konfransının materialları. Bakı: Araz, 2012, s.364 (468)

114. Rəhmanov R. Kompüter və televizordan sağlamlığımızı necə qoruyaq. //Xəbərlər Bakı, 2013. s. 207-211

115. Rüstəmov F. Məhəmməd Peyğəmbər (S) tərbiyə haqqında //Pedaqoji tədqiqatlar, Bakı: ADPU. 2001, № 3.

116. Sadıqov F.B. Pedaqogika (dərs vəsaiti). Bakı:Adiloğlu, 2009, 600 səh.

117. Salahov T. Dünyagörüşün və estetik baxışların formalaşmasında təsviri incəsənətin rolu. "Sovet mədəniyyəti və əmək adamının mənəvi aləmi". Məqalələr məcmuəsi, Bakı: Azərnəşr, 1982.

118. Sosializasiya. URL: az.wikipedia.org/wiki/Sosializasiya (istinad mənbəyi: 18.10.2020)

119. Sultansuymov A.S., Səidov İ.J., Abdalıyev S.P. "Fiziki tərbiyənin səmərəli vasitə və metodlarının istifadəsinin köməyi ilə uşaqların harmonik inkişafı", Beynəlxalq olimpiya elmi konfransının materialları. Bakı: Araz, 2012, s.413 (468)

120. Şirzadova M.H. Erkən yaşlı uşaqların tərbiyəsi. Bakı: Adiloğlu, 2013, s. 22

121. Tağıyeva S.Ş., Yunusov Z.Y., Abdullayeva S.Y., Kazımova A.S. "Biologiya üzrə ümumtəhsil məktəblərinin VI – XI sinifləri üçün çoxvariantlı proqram materiallarının tematik planlaşdırılması", Bakı, 2012, 38 s.

122. Talıbov Y., Ağayev Ə., Eminov A., İsayev İ. Pedaqogika. Bakı: Adiloğlu. 2003, s.32 (140)

123. Talıbov Y.P., Sadıqov F.P. və Quliyev S.M. "Gənclərin mənəvi tərbiyə problemləri. Bakı: Ünsiyyət, 1998, səh. 120–121, (152)

124. Talıbova X.A. Deviant davranışlı yeniyetmə şəxsiyyətinin pedaqoji xarakteristikası // Elmi əsərlər, Bakı, 2012, № 2, səh.115-118.

125. Təhsil və insan inkişafı. Fəsil 5.BMT-nin İnkişaf proqramı (United Nations Development Programme) URL: [https://www.undp.org/content /dam/ azerbaijan/ docs/publications/sustainabledevelopment/Hdtextbook / 5.pdf](instinad tarixi 07.02.2020)

126. Tərbiyə Haqqında Aforizmlər,Tərbiyəyə Aid Aforizmlər. URL: engozelsozler.blogspot.com/2020/05/terbiye..

127. Türkün qızıl kitabı, 2-ci kitab. Bakı: 1993. 25 s.

128. Uşinski K.D. Məktəbdə təlim-tərbiyə işləri haqqında. Bakı: Azərnəşr, 1941

129. Uşinski K.D. Seçilmiş pedaqoji əsərlər. Bakı: Azərnəşr, 1953, s. 111-305

130.Ümumtəhsil məktəblərinin VI – XI sinifləri üçün Biologiya Proqramı. Bakı, 2002, 41s.

**Xarici ədəbiyyat**

131. Billion learners are still affected by school or university closures, as educational institutions start reopening around the world, says UNESCO. [https://en.unesco.org/news/13-billion-learners-are-still-affected-school-university-closures-educational-institutions] (istinad tarixi 30.04.2020)

132. Chibueze, O. (2014). Factors affecting the effective studying of economics in secondary schools in Izzi Local Government Area of Ebonyi State. National Teachers Institute Ebonyi State University Study Centre, Abakaliki.

133. Gustave le bonla Civilistion des Arabe.-Paris.-1965.-63 s.

134. Magic-1-2-3. Effective discipline for children 2-12. Ph.D. Thomas W. Phelan. 1995.

135. Obbins, L. (1935). An essay on the nature and significance of economic science. MacMillan and Co. London, United Kingdom.

136. Rogers R.C., Counseling and Psychotherapy: New Concepts in Practice. (Under the editorship of Leonard Carmichael) Boston, Massachusetts, 1942.450 pg.

137. Rogers R.C., On Becoming a Person / Western Behavorial Sciences Institute La Jolla, California,1961. 420 pg.

138. Rogers R.C., The Necessary and Sufficient Conditions of Terapeutic Personality Change C. Rogers // J. of Consulting Psychology. 1957. Vol. 21(2).

139. Smirnova N. V. (2016). Economics across the curriculum: integration of economic concepts into various disciplines. Perspectives on Economic Education Research, AmericanInstitute for Economic Research, , 10(1), 21-40.

140. What Makes a Good Learning Environment. URL: [https:// racco ongang. com/blog/what-makes-good-learning-environment/](instinad tarixi 11.02.2020)

141. Азимов Л.Б. Уроки экономики в школе: активные формы преподавания. М.: Аспект-пресс, 2005, 75 стр.

142. Аменд А.Ф. Пути совершенствования экономического воспитания учащихся в общеобразовательной школе. Челябинск, 2005, 229 стр.

143. Андреев В.И. Педагогика высшей школы. Инновационное-прогностический курс: учебное пособие. Казань: Центр инновационных технологий, 2013, 500 с.

144. Алекперов Ф.У. Охрана здоровья в средневековом Азербайджане (X – XVIII). Баку, «Иршад»,1999, с.3.

145. Амосов Н.М. Что такое здоровье? Система Амосова. https: //zdorrove.ru/amosov-n-m-chto-takoe-zdorove-sistema-amosova.html

146. Батышев, С.Я. Трудовая подготовка школьников: Вопр. теории и методики С.Я. Батышев. М.: Педагогика, 1981.192с.

147. Бодалев А.А. Психология личности. М.: Академия, 2001, 118 стр.

148. Буре Р.С. Организация труда детей и методика руководства // Нравственно- трудовое воспитание детей в детском саду. М.: Просвещение, 1987.

149. Воспитание школьников в труде / [А.А.Шибанов, Ю.Ф.Тамбовкин, И.П.Дуля и др.]; Под ред. А.А. Шибанова; Науч.-исслед. ин-т труд. обучения и проф.ориентации Акад. пед. наук СССР. М.: Педагогика; 1976. 104 с.

150. Година Г.Н. Воспитание положительного отношения к труду // Воспитание нравственных чувств у старших дошкольников / Под ред. А.М.Виноградовой. М.: Просвещение, 1987.

151. Гудеева Е.А. Работа по формированию здорового образа жизни учащихся и здоровьесберегающие технологии на уроках искусства в средней школе. //Инновационная наука. 2017 №7, с. 74

152. Дьячкова А. В., Дьячкова М. А. Преподавание экономики в школе: комплементарность традиционных и инновационных технологий // European Social Science Journal. 2016. № 4. С. 275–279.

153. Жунисбекова Ж.А. Сущность понятий «Экономическое воспитание» И «Экономическая воспитанность» // Международный журнал экспериментального образования. 2016. № 6-2. С. 206-210.

154. Ишматова А.Р. Формирование экономической грамотности у старшеклассников в условиях общеобразовательного учреждения. Челябинск, 2001, 172 стр.

155. Казачева Н.Х. Факторы, ухудшающие состояние здоровья школьников (Сбор. Мат.Росс. научно-прак. конф. «Физическая культура, спорт, здоровье и долголетие», Ростов на-Дону, 2011, стр.141-144.

156. Косенко С.С. Современное экономическое образование школьников. Челябинск: Образование, 2006, № 3, стр. 31-41.

157. Кураков Л.П. Экономическое образование и воспитание школьников. М.: Просвещение, 2007, 140 стр.

158. Любимов Л.Л. Концепция структуры, содержания и организации экономического образования в полной средней школе // Экономика в школе, 2002, № 3, стр. 14-28.

159. Макаренко А.С.; Педагогика, 1983. С. 128.

160. Максакова В.И. Экономическая культура личности // Базовая культура личности: теоретические и методические проблемы. М., 2005, стр. 99-104.

161. Матюша И.К. Связь трудового и экономического воспитания // Педагогика, 2010, № 9, стр. 32-36.

162. Мясищев В.Н. Экономика образования как наука и учебный предмет // Педагогика, 2003, № 4 стр. 59-64.

163. Петрушин В. И. Музыкальная психотерапия: Теория и практика / В. И. Петрушин. М.: Композитор, 1999. 227с.

164. Подуровский В.М., Суслова Н.В. Психологическая коррекция музыкально-педагогический деятельности / В.М. Подуровский, Н.В.Суслова. - М: Владос, 2001г.

165. Повстник В.А. Экономические интересы и механизм их реализации: Учеб. Пособ. М.: Педагогика, 2008. 279 стр.

166. Прутченков А.С. Домашняя экономическая школа // Народное образование. 2009, № 5, стр. 301-305.

167. Самедов К.А. Наркомания среди учащихся общеобразовательных школ как актуальная социально – педагогическая проблема. // Elmi əsərlər, 2011, № 2,стр.163 – 165

168. Струков Э.В. Социалистический образ жизни. Москва, 1980, стр. 8 – 9.

169. Травин Е.Н. Уроки экономики в школе: пособие для учителей экономики и обществознания. Ярославль, 2003, 160 стр.

170. Хотунцев, Ю.Л. Технологическое образование школьников в Великобритании, Франции, США, Австралии, Швеции, Нидерландах [Текст] / Ю. Л. Хотунцев, А. Ж. Насипов // Мир образования – образование в мире. 2008. № 5. с. 124–131.

171. Хрипкова А.Г. Возрастная физиология. Москва, «Просвещение», 1978, стр.115 (287 стр)

172. Шушаржан С.В. Музыкотерапия и резервы человеческого организма / С. В. Шушаржан. М., 1998. 153с.

*Kitab "CN POLİGRAFİYA" Məhdud Məsuliyyətli Cəmiyyətində səhifələnmiş və çap olunmuşdur.*

________________________________________

Çapaimzalanıb: 01.12.2022
Format: 70x100 1/16. Həcmi: 15,13 ç.v. Tiraj: 965.
Sifariş *№ 37*.

AZ 1006, BAKI, Nərimanov rayonu, K.Rəhimov küçəsi 865,
bina 22c, mənzil 3
Tel./faks: (012)4652471
*e-mail: cn_poliqraf@mail.ru*